**Fazil Osmanov**

# Ağsu ərazisində arxeoloji tədqiqatlar

e-mail ünvanı:
f.osmanova@box.az

“Adiloğlu”
Bakı-2006
Az
O 73

Müəllif, elmə qayğısına və uzun müddətli tədqiqatların nəticəsi kimi ərsəyə gələn bu kitabın nəşr olunmasına göstərdiyi maliyyə köməkliyinə görə, Millət vəkili, ziyalı və xeyirxah insan Ərəstun Cavadova öz minnətdarlığını bildirir.

Rəyçilər: tarix elmlər doktoru **Əli Rəcəbli**
tarix elmlər namizədi **Qafar Cəbiyev**

Redaktoru: Azərbaycan Tarixi Muzeyinin elmi işçisi **Fariz Xəlilli**

O 73 **Fazil Osmanov**. Ağsu ərazisində arxeoloji tədqiqatlar Bakı, “Adiloğlu” nəşriyyatı – 2006, 164 səh.

O 4319109072 qrifli nəşr
121-2006

©Fazil Osmanov

Bu kitabın Müəllimlərim,
görkəmli arxeoloq Saleh
Qazıyev və akademik
İqrar Əliyeva
ithaf edirəm.

***

Fazil Lətif oğlu Osmanov 1936-cı il mayın 10-da Ağsu rayonunun Sanqalan kəndində anadan olmuşdur. 1949-1953-cü illərdə Mirzə Ələkbər Sabir adına Şamaxı Pedoqoji Texnikumunda orta ixtisas təhsili almış, 1954-1959-cu illərdə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsində oxumuşdur.

1968-ci ilin may ayında "Qafqaz Albaniyasının maddi mədəniyyəti (e.ə. IV – b.e.ə III əsrləri)" övzusunda namizədlik dissertasiyası müdafiə edərək tarix elmləri namizədi alimlik dərəcəsi adına layiq görülmüşdür.

1959-cu ildən Azərbaycan Respublikası Elmlər Akademiyası Tarix İnstitutunda baş laborant, kiçik elmi işçi, baş elmi işçi, 1996-cı ildən isə Arxeologiya və Etnoqrafiya İnstitutunda aparıcı elmi işçi vəzifəsində çalışır.

Fazil Osmanov 1959-1960-cı illərdən başlayaraq bir sıra arxeoloji və etnoqrafiq ekspedisiyalarda – Qəbələ, Xaçbulaq, Şamaxı, Naxçıvan, Qazax, Bakı, Kəlbəcər, Cəbrayıl və s. iştirak etmiş, Ağsu-İsmayıllı, Ağcabədi arxeoloji ekspedisiyalarına rəhbərlik etmişdir. Fazil Osmanov ilk dəfə olaraq Ağsu rayonunda Nüydi, Qaraçıbulaq, Uzunboylar, Qırlartəpə antik dövr yaşayış məskəni və nekropollarını, İsmayıllı rayonunda Talıstan, Kürdüvan, Mollaisaqlı, Hacıhətəmli, Qalagah, Şəkili, Ağcabədi rayonunda Qaraköbər, Qalatəpə, Bərdə rayonunda Şortəpə şəhərgah və nekropollarını üzə çıxarmış, tədqiq etmişdir.

Fazil Osmanov çox dəyərli bir alimin, müəllimin – Saleh Qazıyevin məktəbində yetişmişdir. Qəbələdə aparılan arxeoloji qazıntılarda fəal və könüldən iştirakı, müəlliminin məsləhətləri ona sonrakı qazıntılarında həmişə dayaq durmuşdur. Elə ilk elmi məqaləsi də Qəbələ qazıntılarının nəticələrindən bəhs edən, 1962-ci ildə Azərbaycanda Elmlər Akademiyasının Məruzələrində nəşr olunmuş "Qəbələdə bağçılığın inkişafına dair" adlanır. Məqalə uğurla olmuş, Fazil Osmanovun sonrakı illərdə çoxsaylı məqalələrinin yazılmasına stimul vermişdir.

Elə həmin il nəşr etdirdiyi ikinci elmi məqaləsində isə Azərbaycan tarix elminə hələ bəlli olmayan, arxeoloq beli, hətta ayağı dəyməyən Ağsu ərazisinin maddi-mədəniyyət abidələri haqqında ilkin məlumat vermiş və bu ərazinin təhqiq olunmasının zəruriliyini göstərmişdir.

Keçən əsrin ortalarına qədər Azərbaycan tarixşünaslığında zəif öyrənilmiş sahələrdən biri antik dövr olmuşdur. Mingəçevir abidəsinin öyrənilməsi ilə bu sahədə yeni mərhələ başlasa da, bu dövrün Azərbaycanın digər bölgələrində, o cümlədən Şirvan tarixi bölgəsində necə xatakterizə olunması bir vəzifə kimi Azərbaycan tarix elminin qarşısında durmuşdur.

Şirvan tarixi bölgəsi Azərbaycan tarixinin bütün mərhələlərinin şahidi olduğundan burada uzunmüddətli tədqiqatların aparılması, maddi-mədəniyyət abidələrinin aşkara çıxarılması həm antik dövrün, həm də antik dövrdən əvvəlki və sonrakı dövrlərin tədqiq edilməsi baxımından böyük əhəmiyyət kəsb etmişdir. Şamaxıda aparılan arxeoloji qazıntıları nəzərə almasaq, Şirvan tarixi bölgəsində bu əhəmiyyətli işin geniş elmi səviyyədə görülməsi Fazil Osmanovun adı ilə bağlıdır.

Fazil Osmanov elmi fəaliyyətinin ilk illərində Qəbələdə topladığı arxeoloji qazıntı aparmaq təcrübəsini Ağsu və İsmayıllı rayonları ərazisində tətbiq etməyə başlamış, uzun axtarışlar və gərgin əməyi sayəsind\ bu bölgəyə arxeoloji ekspedisiyalar təşkil edilməsinə nail omuşdur. 1963-cü ildə nəşr etdirdiyi məqaləsində İsmayıllı rayonu ərazisindəki Mollaisaqlı antik dövr abidəsi, Cavanşir qalası kimi möhtəşəm abidələr haqqında dəyərli məlumat verməklə geniş tədqiqatlara yol açılmasına çalışmışlar.

Antik dövrdə tarixi Şirvan bölgəsində yaşayan albanların dini ideologiyası məsləsi Fazil Osmanovun əsərlərində öz həllini birmənalı şəkildə tapmış, onların bütə tapan bütpərəstlər olduğu dönə-dönə vurğulanmışdır. O, bu tezisi Mollaisaqlı, Qaraçıbulaq, Qırlartəpə və digər abidələrdən tapdığı gil bütlər əsasında, dəlillərlə sübuta yetirmişdir.

Fazil Osmanovun tədqiqatlarında daha çox diqqət yetirdiyi problemlərin biri müxtəlif tipli alban qəbir abidələrinin tədqiqi məsələsidir. Onun sadə torpaq, küp və təknə qəbirləri haqqında yazdığı elmi əsərlər hər zaman arxeoloqların, tarixçilərin müraciət etdiyi dəyərli tədqiqatlardır. Qəbirlərin mənşəyi haqqında söylədiyi elmi dəlillərlə əsaslandırılmış mülahizələr, gəldiyi nəticələr nəinki Azərbaycan, həmçinin xarici ölkə mütəxəssislərinin də diqqətini cəlb etmişdir. Bu məsələyə dair görkəmli Azərbaycan tarixçisi İqrar Əliyevlə birlikdə dəfələrlə elmi məqalələrlə çıxış etmişdir.

Fazil Osmanov Şirvan tarixi bölgəsinin antik dövrü tarixinin öyrənilməsi sahəsində məktəb yaratmış, uzun müddətli tədqiqatları nəticəsində azərbaycan antik dövr tarixinə maraqlı yeniliklər gətirmişdir. Azərbaycanda ilk və tək nümunə olan antik dövr dəbilqəsi məhz Fazil Osmanovun Nüydi qazıntılarında 2 saylı torpaq qəbirdən aşkar olunmuşdur. Onun həmin dəbilqə haqqında yazdığı məqalə isə öz elmi tutarlılığı ilə ədəbiyyatımızda seçilir.

Nüydidə 11 saylı torpaq qəbirdən aşkar edilmiş gümüş pul dəfinəsi isə Qafqaz Albaniyasında sikkə kəsilməsinin və albanların pulu "tanıdığının" ən bariz göstəricisidir. Məhz Fazil Osmanov ilk dəfə olaraq qəbirdən albanların ellin pullarını təqlid yolu kəsdirdikləri sikkələri dəfinə halında əldə etmişdir. Nüydi abidəsinin ardınca Fazilkl Osmanovu Ağsu rayonundakı möhtəşəm Uzunboylar və Qırlartəpə abidələrinin tədqiqinə başlamışdır. E.ə. V-IV əsrlərə adi zəngin qəbirlərin aşkar olunduğu Uzunboylar abidəsi antik dövrə keçid mərhələsini xarakterizə etmək üçün ən yaxşı materiallar vermişdir. Qırlartəpə yaşayış yerindən isə eneolitdən başlayaraq orta əsrlərə qədər geniş dövrə aid maddi-mədəniyyət

nümunələri aşkar olunmuşdur. Fazil Osmanov uzun müddət bu abidədə arxeoloji qazıntılar aparmış və fasilələrlə hələ də aparmaqdadır. Bu abidədən çox maraqlı nəticələr əldə edən Fazil Osmanov antik və ilk orta əsrlər dövrlərinə aid olan, İpək yolu karvanlarının dayandığı və ticarət etdiyi qala-şəhərlərin qəbristanlığını da tədqiq edir.

Fazil Osmanov nəinki Şirvan bölgəsini, həmçinin Muğan, Naxçıvan, Qarabağ bölgələrini tədqiq etmiş, qazıntıların nəticələrini elmi məqalələrində yetərincə işıqlandırmışdır.

Fazil Osmanov çox gözəl foto çəkmək qabiliyyətinə malik olmuşdur. Onun çəkdiyi fotolar öz bənzərsizliyi ilə seçilir. Onun Sanqalan kəndindəki uzun ömürlü ağac, Azıx mağarasının kənardan görünüşü kimi maraqlı şəkillərlə yanaşı, qazıntı prosesi və tapılmış materiallar da çox zaman şəxsən özü çəkmişdir (tablo 13).

Fazil Osmanov ən maraqlı arxeoloji materiallarını Azərbaycanın Tarixi Muzeyinə təhvil vermişdir. Onun Nüydi, Mollaisaqlı, Hacıhətəmli, Kürdüvan və digər abidələrdən aşkar etdiyi maddi-mədəniyyət nümunələri Azərbaycan Tarixi Muzeyi Arxeologoya fondunda mühafizə edilir. Tunc dəbilqə, gil bütlər və gümüş sikkələr, Muzey ekspozisiyasında nümayiş etdirilir.

Fazil Osmanov qırx yeddi illik elmi fəaliyyəti nəticəsində Azərbaycanın antik dövr tarixi və mədəniyyəti üzrə tədqiqat sahəsi və məktəbi yaratmışdır. Gənclərin öhdəsinə bu məktəbdən daha çox götürmək, öyrənmək düşür.

Fazil Osmanov elmi tədqiqatla yanaşı, 1993-cü ildən ADPU-nun Şamaxı filialında müəllim, 1998-ci ildən ADPU-nun Şamaxı filialında tarix-filologiya fakultəsinin "Ümumi tarix və ictimai elmlər" kafedrasının ümdiri işləmişdir. Şamaxı filialı ləğv edildikdən sonra Azərbaycan Dövlət Pedoqoji Universitetində magistrlərin hazırlanmasında böyük əmək sərf etmişdir. Hal-hazırda Şamaxı Müəllimlər İnstitutunda tədris fəaliyyətini davam etdirir.

Fazil Osmanov haqqında nə qədər yazılsa azdır, alim kimi, müəllim kimi, insan kimi. O, əvəzolunmazdır. Ayağını qoyuduğu, belini vurduğu, şotkasını sürtdüyü yerdən hansısa sensasiyalı tapıntının aşkar olunacağı mütləqdir.

Allah-Təala ona uzun ömür, cansağlığı, xalqımızın, bu torpağın tarixinin öyrənilməsində güc, qüvvə versin! Amin!

**Fariz Xəlilli**

## Ağsu Ərazisində Arxeoloji Tədqiqatlar

### 1965-ci il

Qafqaz Albaniyasının maddi-mədəniyyətinin öyrənilməsində Ağsuçayla Göyçay çayları arasında olan arxeoloji abidələrin böyük elmi əhəmiyyəti vardır (tablo 1-13). Girdimançayla Göyçay çayları arasında bu vaxta qədər cüzi də olsa, arxeoloji tədqiqat işləri aparılmışdır. Ağsu rayonu və xüsusən onun sahələrində isə heç bir arxeoloji tədqiqat işi aparılmamışdır. 1961-ci ildə müəllif məzuniyyətdə olduğu zaman Ağsu rayonunun Nüydi kəndində müəllim işləyən Sədaqət Abdullayev "Nüydi düzü" adlı yerdə üzüm bağı salınarkən qədim qalıqların tapılması haqqında məlumat vermişdir. Həmin məlumatla əlaqədar olaraq ərazi yoxlanılmış və xüsusi məqalə həsr edilmişdir[1].

1965-ci il iyulun 27-də sentyabrın 8-nə qədər arxeoloji kəşfiyyat səfəri zamanı əsasən Ağsu rayonunun Nüydi[2] kəndi və onun ətraflarında elmi axtarış və qazıntı işləri aparılmışdır. Nüydi kəndinin qərb ətraflarında 14 hektara qədər sahəsi olan "Nüydi düzü" abidəsinin kəşfiyyat qazıntısına başlamışdır. Bu sahə üzüm bağına çevrildiyi üçün şumlanma zamanı bəzi abidələr dağıdılmışdır. Belə ki, sahənin üzəri çoxlu gil qab sınıqları, habelə qayıqvari dən daşlarının qırıqları ilə doludur.

Yerüstü maddi-mədəniyyət qalıqlarına əsasən və abidənin mərkəzi hissəsində olmaq şərtilə 6x6 metr ölçüsündə yoxlama qazıntı sahəsi seçilmişdir. Qazıntı sahəsinin üst qatı üzüm bağı salınarkən qarışdırıldığından onun mədəni təbəqəsini müəyyənləşdirmək bir qədər çətinləşmişdir. Burada saxsı qab qırıqları: qulplar, oturacaq hissə, gil camın sınıqları, əmək aləti qırıqları əldə edilmişdir. 0,4-0,5 metr dərinliklə ağzı dairəvi bəsti formalı və təkqulplu dopu, habelə noxçavari əyintisi olan bir ədəd yağdan, yaxud şamdan tapılmışdır. Qazıntı davam etdirildikcə bütöv gil qablar görünməyə başlamışdır. Qazıntı sahəsinin şimal kənarında 0,75 metr dərinlikdə nizamsız səpələnmiş gil qab qırıqları altında dağılmış torpaq qəbiri əlamətləri müəyyənləşdirilmişdir. Plantaj şumu nəticəsində nisbətən dayazda olan qəbirlərin pozulduğu aydındır. Odur ki, 1 saylı torpaq qəbir adlandırdığımız bu abidəni dəqiq müəyyənləşdirmək olmadı. Onun yalnız sümüklərinə görə başının şərqə doğru qoyulması aydınlaşdı. Onun baş tərəfində

---

[1] Osmanov F. L. Ağsu rayonunda təsadüfi arxeoloji tapıntılar // Azərbaycan SSR EA Məruzələr, 1962, № 9, səh, 75-78.

[2] Nüydi kəndinin etimologiyası farsca "nodi" sözünün dəyişilmiş formasıdır. Bu da "yeni kənd" mənası daşıyır, yerlilərin söylədiyinə görə Nüydi kəndinin burada məskunlaşması çox qədim tarixə malik deyildir. Nüydi kəndi və onun qərb kənarında yerləşmiş "Nüydi düzü" qədim yaşayış yeri Baş Qafqaz dağlarının cənub-şərq ətəklərində Şirvanın dağətəyi hissəsində yerləşmişdir. Müasir əhalisi türk dilli azərbaycanlılardır. Məşğuliyyəti əsasən əkinçilik, maldarlıq, arıçılıq və bağçılıqdır.

bir-birinin yanında səliqə ilə düzülmüş gil qablardan bir neçəsinin qaldığı görünmüşdür. Bu qablar əl ilə hazırlanmış və qırmızı rəngdə bişirilmişdir. Onların içərisində ağzı dördgül formada tay qulplu, şargövdəli (gövdəsinin çevrəsi boyu kiçik yumru məməciklər bir-birindən bərabər məsafədə düzülmüş) dopu, hündür oturacaqlı, yandan lentvari qulplu olan, şargövdəli və ağzı süzgəcli düzəldilmiş gil suddan, qayıqvari ağzı olan gil badya və tayqulplu gil cam tapılmışdır. Buradan gil qablar tapılan səviyyədən bir qədər dayazda bir dəmir nizə ucluğuda tapılmışdır. Görünür həmir dəmir nizə ucluğu da 1 saylı qəbirin avadanlığından olmuş, şumlanma zamanı qəbir dağılarkən həmin nizə ucluğu da əvvəlki yerində qalmamışdır.

Başlanmış sahənin cənub kənarına yaxın 1-1,25 metr dərinlikdə **2 saylı torpaq qəbir** aşkar edilmişdir. 2 saylı torpaq qəbirin 1 saylı torpaq qəbirə nisbətən dərində yerləşməsi onun təsərrüfat işlərilə əlaqədar yerin şumlanması nəticəsində o qədər də dağıtmamışdırsa da üzərinə düşən ağırlıqdan qabların əksəriyyəti qırılmışdır.

Xam torpağı çox az kəsmiş bu torpaq qəbirdə skelet bükülü vəziyyətdə, başı şərqə olmaqla şərq-qərb istiqamətində sol böyrü üstdə basdırılmışdır. Onun üzərinə və döşünə doğru çoxlu gil qablar düzülmüşdür. Ayaq tərəfində isə iki ədəd iri küp qoyulmuş və onlar həddən artıq xırdalanmışdır. Skeletin sol qolunda iki ədəd lentvari bilərzik, sağ əlinin orta barmağında mis üzük vardır, əlləri çənəsinə doğru qoyulmuşdur.

2 saylı torpaq qəbirdə dəfn edilmiş mərhumun başı yanında tunc hərbi baş geyimi – dəbilqə aşkar edilmişdir (tablo 14,15). Üzəri cəng atmış tunc dəbilqə sifəti yanlardan örtmək üçün iki enli qulaqcıqdan ibarət (çənəyə çatana qədər) metal təbəqədən düzəldilmiş, onun kənarları isə xüsusi işlənərək möhkəmləndirilmişdir. O, arxa tərəfdən kəlləyə qədər bütöv deyil, açıq şəkildə qalmışdır ki, bu da yəqin ki, başa geyinən zaman asanlıq yaratmaq üçünmüş. Onu geydikdən sonra başın arxa hissəsində kənarları bir-birinin yaxınlığına gətirilmiş və ucda bir-birinə başlamaq üçün deşiklər açılmışdır. Dəbilqənin orta hissəsində boruşəkilli hissə dik qaldırılmış və ucu nisbətən enli, qıraqları isə azca kənara əyilmiş şəkildə təsvir edilmişdir. Onun bu hissəsinin kənarları da əlavə metal lövhə ilə köbə şəklində həm möhkəmləndirilmiş və həm də bir qədər gözəllik verilmişdir. Dəbilqə üzərində heç bir təsvir və ya rəsm yoxdur. Onun boru şəklində dik qaldırılmış hissəsinə çox güman ki, quş lələyi və s. taxılmışdır.

Tunc dəbilqənin Azərbaycan ərazisində aşkar edilmiş bu dövr abidələrindən tapılması qədim müəlliflərinin Qafqaz Albaniyası əhalisinin hərbi texnikasının tarixinə dair verdikləri məlumatları bir daha yoxlayıb tutuşdurmaq və bu barədə yeni fikir söyləmək üçün geniş imkan yaratmışdır.

Qədim yunan coğrafiyaşünası Strabon Qafqaz xalqlarının bir sıra tarixi məsələlərinə toxunaraq məlumat verir ki, albanlar xarici basqınlara qarşı hərbi döyüş qabiliyyətli piyada və atlı dəstələrinə malik olmuşlar. O, özünün

“Coğrafiya” əsərində yazır ki, albanlar Roma sərkərdəsi Pompeyə qarşı 60 min piyada və 22 min atlı dəstəsi ilə çıxış etmişdir.[3] Daha sonra yazır ki, onlar ox-yayla silahlanır, habelə vəhşi heyvan dərisindən dəbilqə də geyinirdilər.

Albanların romalılara qarşı döyüşündə eyni miqdarda döyüşçünün olması haqqında başqa bir qədim müəllif Plutarx da yazır: “Lakin o atlı dəstəsinin miqdarını 12 min göstərir.[4] Hər iki müəllifin qeyd etdiyi miqdarın eyni gəlməsi, lakin Strabonun yazdığı 22 min əvəzinə Plutarxın 12 min yazmasından aydın olur ki, onlardan hansısa səhv etmiş, yaxud axırıncı düzəliş aparılmışdır. O da ola bilər ki, nəşr zamanı 22 min əvəzinə 12 min, yaxud əksinə yazılmışdır.

Albanların metal baş zirehindən istifadə etmələri haqqında heç bir müəllifdə məlumatlara rast gəlinmir.

Qafqaz Albaniyası ərazisində çoxlu miqdarda və müxtəlif formada metal silahlar və bəzək şeyləri tapılmışdır ki, bunların da əksəriyyəti yerli istehsaldır. Müxtəlif qılınc, nizə və s. hücum silahlarının bilavasitə Qafqaz ərazisində istehsal edilməsi hələ çox qədimdən bəllidir. Lakin bunula belə heç olmasa döyüş zamanı dövrün sərkərdələrinin döyüşdə müdafiə məqsədilə onlar üçün metal zireh hazırlanmasını güman etmək olar. Torpaq qəbirində bilavasitə kompleks material ilə birlikdə tapılmış tunc dəbilqənin alban sərkərdələrinə (tablo 16) məxsus olması ehtimal edilir.[5] Zelik Yampolski bu məsələ ilə əlaqədar olaraq həmin dəbilqənin Roma sərkərdəsinə aid olduğu ehtimalını irəli sürür. Onun dəqiq müəyyənləşdirilməsi ilə şübhəsiz gələcək tədqiqatlar nəticəsində mümkündür.

Ümumiyyətlə, metal hərbi geyimin tapılması Qafqaz Albaniyasının bir sıra siyasi məsələlərin araşdırılması işində yardımçı mənbə rolu oynayacaqdır.

2 saylı torpaq qəbiri 1 saylı torpaq qəbirindən bir qədər dərində yerləşdirilməsinə görə yerin şumlanması zamanı çox toxunulmadığından kompleks material yaxşı qalmışdır. Onların içərisində gil qablar daha çoxdur. Demək olar ki, materialın əksəriyyəti saxsı məlumatıdır.

Qazıntının cənub-şərq küncündə 0,75-0,8 metr dərinlikdə dağıdılmış halda daha bir torpaq qəbir aşkar edilmişdir. Aşkar olunma sırasına görə **3 saylı torpaq qəbir** adlandırılan həmin qəbirdə sümüklərin çox hissəsinin dağınıq olmasına baxmayaraq, onun istiqamətini, habelə vəziyyətini təyin etmək mümkün oldu. Sol böyrü üstə yerləşdirilmiş ölünün başı şərqə doğru zəif bükülü şəkildə qoyulmuşdur. Onun yanına qoyulmuş avadanlığı qırılmışdır. Yalnız bir neçə qara və qırmızı rəngdə qoşa və lək qulplu, ağzı dördkünc formada gil qablar, ölünün ayaqlarının yanından isə bir şüşə muncuq və metal halqa (muncuq) tapılmışdır (3 saylı qəbirin ətraflı tədqiq edilməsi mümkün olmadı).

---

[3] Страбон. География. Кн. XI, гл. IV. (Перевод Г.А.Стратановского), М.: Наука, 1964, с. 476.
[4] Плутарх. Помпей. Гл. 35. Сравнительные жизнсописания. (Перевод Г.А.Стратановского), т. II, 1968, с. 359.
[5] Османов. Ф.Л. В чем воевали наши предки. Газета «Вышка», № 279 (10682), 26 ноября, 1965 г.

Qazıntı sahəsinin şərq kənarında 1 metr dərinlikdə **4 saylı torpaq qəbir** aşkar edilmişdir. Həmin dərinlikdə xam torpağın üstü daha doğrusu basdırılmış şəxsin qarşısında od yandırıldığı torpaq üzərində yanğın izinin qalmasından məlum olmuşdur. Bu 4 saylı torpaq qəbirdə maddi-mədəniyyət qalıqları tam kompleks şəkildə əldə edilmişdir. Hərçənd plantaj şumu zamanı materialların sınması halı olmuşsa da, onlar öz əvvəlki yerlərindən tərpədilməmişdir.

4 saylı torpaq qəbiri xam torpaqda qazılmışdır. Bu qəbir 1,3 metr dərinlikdə yerləşir. Qəbirdə ölü şərq-qərb istiqamətində olmaqla başı şərqə doğru sağ böyrü üstdə bükülü şəkildə qoyulmuşdur. Buradakı maraqlı cəhətlərdən biri ondan ibarətdir ki, insan skeleti ilə üz-üzə bir qoyun skeleti də aşkar edilmişdir. Axirət dünyaya inancla əlaqədar olaraq qurban verilmiş qoyun da ölü ilə qəbirdə, onun önündə dəfn edilmişdir. Bundan başqa mərhumu çoxlu müxtəlif gil qablar, dəmir nizələr və habelə mis bəzək şeyləri müşaiyət etmişdir. 30-a yaxın gil qab içərisində əl ilə hazırlanmış iri küplərdən kiçik tayqulp dopu, süddan formalı gil qablar kimi müxtəlif saxsı məlumatı əsasən başı yanında düzülərək, üç ədəd qab isə iri küp, ağzı bir növ lülək formada olan novçalı qab və iki qulplu matra ayaqları istiqamətində qoyulmuşdur. Ölünün başı yanında qoyulmuş gil qabların içərisində heyvan (əsasən xırda buynuzlu heyvan sümükləri) var idi. Bundan başqa həmin qabların arasında həm iri buynuzlu, həm də xırda buynuzlu heyvanların ayaq sümükləri aşkar edilmişdir.

Skeletin qarşısında (baş hissədə) bir dəmir oraq, mis halqa və qoyunun boğazına doğru tuşlanmış nizə ucluğu qoyulmuşdur. Sol əlinin orta barmaqlarında bir mis üzük də var idi. Bütün bu vəziyyətlərə görə belə bir təsəvvür əmələ gəlir ki, həmin qəbirdə basdırılmış adam (bunu eyni zamanda həmin ərazinin ümumi əhalisi şəxsində də götürmək lazımdır) maldarlıqla, əkinçiliklə və hərbi işlərlə də məşğul olmuşdur.

I yoxlama qazıntı sahəsi adlandırdığımız yerdə dörd ədəd torpaq qəbiri aşkar edilib öyrənildikdən sonra "Nüydi düzü"nün bilavasitə yaşayış üçün xarakterik yerinin, tikililərinin aşkar edilməsi ilə əlaqədar burada qazıntı dayandırıldı və bir qədər şərqə doğru, təqribən 70 m-lik bir məsafədə II qazıntı nöqtəsi qeyd edilmişdir. Bura məhz ona görə seçilmişdir ki, yerin üstündə çoxlu dən daşları, daş qablar, bünövrə daşları (yonulmamış), iri küp sınıqları, yanıq izləri və habelə suvaq parçaları müşahidə olunmuşdur. Burada da əvvəlki qazıntı sahəsində olduğu kimi 6x6 m-lik bir qazıntı sahəsi götürüldü. Bu sahənin yaşayış yeri üçün seçilməsində Xınıslı arxeoloji ekspedisiyasının rəisi Cabbar Xəlilovun da göstərişi olmuşdur.[6]

[6] Eyni zamanda Şamaxıda arxeoloji qazıntı işləri aparılan zaman Cabbar Xəlilov, İlyas Babayev, Abdulla Orucov, Adil Vahidov və s. yoldaşlar abidələrlə tanış olmaq üçün qazıntıda bir gün olmuşlar. Bundan başqa Rəhim Vahidov da bu abidələrlə yerində tanış olmuşdur.

Ümumiyyətlə, "Nüydi düzü" yaşayış yerində mədəni təbəqə demək olar ki, lap yer səthindən başlayır. Bu, ilk baxışda bir qədər qəribə görünsə də bizim qədim insan fəaliyyəti olan torpaq qatına lap yer səthinin üstündə götürmək üçün müəyyən əsaslarımız vardır. "Nüydi düzü" yaşayış yeri dağətəyində (bura dağlıq da demək olar) yerləşməsinə baxmayaraq yüksək yerdə olub, külək sovruğu və yağış sularının asanlıqla aşılaya biləcəyi bir yerdədir. Ehtimal ki, burada yer səthi üzərində təbii təbəqələşmə çox zəif getmişdir. Yerlilərin söylədiyinə əsasən qış zamanı qar yağdıqda külək onu dərhal sovurub ətraf dərələrə doldurur.

II qazıntı sahəsində (üstdən) 0,3 metr dərinliyə qədər qara torpaq, onun altında 0,1 metr qalınlıqda yanğından qızarmış qırmızı torpaq, sonra 20-35 sm içərisində kömür qırıntıları olan qara torpaq davam edir. Bundan sonra başlayan sarı torpaq qatının bəzi yerlərində kömür qarışıqlı torpaq qatı müşahidə olunmuşdur ki, bu da quyu, yaxud küp basdırılmış yerlərdir.

Qazıntının şərq kənarında 0,6-0,7 dərinlikdə çox da iri olmayan çay daşlarından hörülmüş binanın bünövrə hissəsi aşkar edilmişdir. Şimal-cənub istiqamətində 5 metr uzunluqda aşkar edilmiş hörgünün eni 60 sm-dir. Bu daş hörgünün cənuba doğru uzanan 4 metrlik məsafədən şərqə doğru həmin divara perpendikulyar olmaqla digər bir daş divarın hörgüsü də aşkar edilmişdir. Həmin daş hörgü 1 m-ə qədər davam edərək ondan sonra pozulmuşdur. Bu divar qalınlığına görə onun dördkünc binaya məxsus olduğunu göstərir. Arakəsmə divar hörgüsü isə çoxotaqlı mənzillərin də varlığı haqqında təsəvvür yaradır. Bünövrədə işlədilmiş daşlar təqribən eyni ölçüdə olub yonulmadan istifadə edilmişdir. Onlardan bəzisinin kəllələrindən qopardılma, çapılma izləri də müşahidə edilmişdir.

Daş hörgü aşkar edilən yerdə saxsı məmulatı və başqa maddi-mədəniyyət qalıqları çox seyrək olub, yalnız izləri üstünlük təşkil edir. Bununla belə qeyd edilməlidir ki, həmin sahədə qazılmamış müxtəlif cinsli daşlardan düzəldilmiş dən daşları daş qablar, saxsı qırıqları müşahidə olunmuşdur. Divarın qərb kənarından çoxlu miqdarda çubuq hörgüyə suvanmış suvaq parçaları əldə edilmişdir. Buradan belə bir fikir yaranır ki, həmin mənzilin bünövrəsi və çox güman ki, üst divarları da çay daşlarından hörülmüş, bəzən divarları çubuq hörgü və suvaqla hamarlandırılmış arakəsmələrdən ibarət olmuşdur. Divarın qərb kənarında aşkar edilmiş iri təsərrüfat küpünün içərisindən yoğun palıd ağacı kömürünün tapılması və ərazinin bilavasitə meşələr arasında yerləşməsi onun damı və başqa hissələrinin tikilməsində ağac materialından geniş surətdə istifadə edildiyinə şübhə doğurmur.

Təsəvvür etdiyimiz divarların qərb tərəfinin şimal küncündə nazik lövhə şəklində daşlar odun təsirindən yanıb qaralmışdır. Burada başqa yanıq izləri, gil qatı da çoxdur. Əvvəldə qeyd etdiyimiz kimi mədəni təbəqənin dayazda olması və üzüm bağı üçün dərin şum sürüldüyündən nəinki ocaq yerləri, eləcə də başqa qırıqlar və ilkin formasını itirmişdir. Odur ki, burada kiçik qazıntı vasitəsilə

yaşayış tikililəri haqqında ətraflı danışmaq, onu hərtərəfli müəyyənləşdirmək çətindir.

Əlamətlərinə görə ocaq kimi qeyd etdiyimiz bu yanıq izi olan yerin cənub-qərb tərəfində (1 metr aralı) iri təsərrüfat küpünün ağzı görünmüşdür. 0,6 metr dərinlikdə aşkar edilmiş küp çox iri olub, çox hissəsi xam torpağın içərisində basdırılmışdır. Onun ətraflarına qum tökülərək bərkidilmişdir. Təsərrüfat küpü təmizlənərkən onun şaquli istiqamətdə basdırıldığı aydın olmuşdur. Küp qırmızı rəngdə olub, ağzının qıraqları nisbətən enli düzəldilmiş və kənara doğru əyilmiş şəkildədir. Onun ağzının diametri 0,6 metr, gövdəsinin çevrəsi 3 metr hündürlüyü 1,5 metr, dibdən isə diametri 75 sm-dir. Küpün oturacaq hissəsi olmamışdır. Bu küp də yerin üstündə olan (ağırlıqlar) təzyiq nəticəsində sınmışdır. Odur ki, təmizlənib qurtararkən parçalanıb tökülmüşdür. Küpün içərisi palıd kömürü, çoxlu yanmış suvaq parçaları, qaratikan kolunun yanıqları, qoz qabığı və s. qarışığı olan çürüntülü torpaqla dolmuşdur. Buradan tapılmış suvaq parçalarının bir qismi yanğından qaralmış və qızarmış vəziyyətdə bir qismi isə yaşılımtıl qalmışdır. Suvaq parçalarının tərkibində saman vardır. Bundan əlavə xırda heyvan sümükləri, xüsusən buynuz qırıqları da müşahidə edilmişdir. İri təsərrüfat küpünün qərb kənarında xam torpağın içərisinə doğru insan fəaliyyətinin izini bildirən torpaq dairə davam etmişdir. Bu hissə 1,4 metr davam edərək həmin çalanın içərisində bir ədəd qırmızı rəngli şar gövdəli, düz oturacağa malik olan gil qab və başqa birisinin sınıq hissəsi tapılmışdır. Dairəvi ağzı olan bu qabın çiynində ilgəkformalı şaquli qaldırılmış qulpu olmuşdur. Onun ağzı qapaq qoyulmaq üçün göz formalı düzəldilmişdir. Bu, qabların dulus çarxında hazırlandığını göstərir və qəbirlərdən tapılan eləcə də yaşayış yerində təsadüf olunan digər qab və qab qırıqları ilə nə hazırlanma texnikasına, nə də formasına görə uyğun gəlir. Bunlar dövrcə də bir qədər sonralara aiddir (təqribən III-IV əsrlər).

Qeyd etmək lazımdır ki, “Nüydü düzü” yaşayış yeri üzərində həddən çox maddi-mədəniyyət qalıqları vardır. Bunların içərisində dən daşları xüsusi yer tutur. Dən daşları əsas qayıqvari şəkildə olub, iki cins daşdan hazırlanmışdır. Bunlardan biri ağ məsaməli nisbətən boş, digəri isə qara, çopur və bərk daşdan hazırlanmışdır. Yerlilərin verdiyi məlumata görə bu cür əmək alətləri həddən artıq əldə edilmiş və ondan müasir evlərin tikintisində də (başqa tapılmış tikinti daşları ilə birlikdə) istifadə etmişlər. Lakin bu cins daşların yaxın ərazidə mədəninin varlığı hələlik bizə məlum deyildir. Qonşu Nuran kəndində isə hal-hazırda yumşaq daş mədəni var ki, ondan yaxın kəndlərin, o cümlədən Nüydinin də evlərinin tikilişində istifadə olunur.

Dən daşlarından əlavə yumru sürtgəclər də tapılmışdır. Nüydi kəndi və onun ətraf ərazisində kəşfiyyat işləri aparılarkən “Nüydi düzü” yaşayış yeri və qəbiristanlığı ilə eyni dövrə aid və sonrakı dövrləri xarakterizə edən maddi-mədəniyyət nümunələri əldə edilmişdir. Bunların içərisində, xüsusən aşkar edilmiş qəbiristanlığın materialları ilə daha yaxınlıq təşkil edən “Xanqırılan” adlı yaşayış

yeridir. Bu yaşayış yeri "Nüydi düzü"ndə 1 km şimalda düzən bir sahədə yerləşmişdir. Həmin sahənin də "Nüydi düzü" kimi ətrafları axırım olub şərq və şimal kənarlarında qaynama bulaqlar vardır. Bu hissələr eyni zamanda qalın meşəliklərdə əhatə olunmuşdur.

15 hektardan artıq olan "Xanqırılan" yerinin şimal hissəsində meşənin kənarında yerlilərin dediyi kimi "kərpiclik" vardır. 10x10 metr sahəsini əhatə edən yer yoxlanarkən onun kərpic deyil, gil qab bişirilməsi ilə əlaqədar olan kürəxana qalığının izini bildirən əlamətlər müşahidə edilmişdir. Burada islehsal ocağının fəaliyyəti nəticəsində bişmiş kərpicə oxşar qalıqlar əmələ gəlmişdir. Lakin müddətin və vəsaitin azlığından burada, eləcə də başqa yer abidələrdən qazıntı aparmaq imkanımız olmadı.

"Xanqırılan" yaşayış yerindən 0,3 km. şimalda "Qozlu bulaq" adlı sahədə də qədim maddi-mədəniyyət qalıqlarına, xüsusən küp qəbirləri mədəniyyətinə aid materiallara təsadüf edilmişdir. Bu sahədə 1939-40-cı illərdə yol düzəldilərkən gil matra və başqa qabların tapılması haqqında Nüydi kənd sakini Surxay Poladov məlumat vermişdir. Həmin illərdə burada yol düzəldilərkən tapılmış gil matranı bu vaxta qədər mühafizə edib saxlamış və müəllifə təqdim etmişdir.

"Nüydi düzü" yaşayış yerinin cənubunda (təqribən 1 km-ə yaxın bir məsafədə) yerləşən "Qızıllar" adlı sahədə orta əsrlərə aid şirli gil qablar, altına möhür basılmış və müxtəlif rəngdə şirlənmiş gil qab oturacaqları əldə edilmişdir.

Bütün bunlardan sonra Nüydi kəndi ətraflarında qədim zamanlardan (hələlik bizə məlum olan abidələrə görə e.ə. III-II əsrlərdən) başlayaraq bu günə qədər yaşayışın kəsilmədiyini söyləmək olar. Bundan başqa Nüydi kəndində 2-3 km qərbdən "Şamdalan" adlı yerdə də ilk orta əsrə aid maddi-mədəniyyət qalıqları müşahidə olunmuşdur. Bu ərazi ilə Şamaxı arasında Ağsuçayın sağ sahilində yüksək yayla üzərində yerləşmiş Qırlar kəndinin şimalında hündür bir təpənin üzərində və dibində də eranın əvvəllərinə aid yaşayış izləri qeydə alınmışdır.

Qəbələ-İsmayıllı-Nüydi-Şamaxı istiqamətində gedən yolun üstündə yerləşmiş bu abidə Nüydi kəndindən 15 km şərqdədir. "Təpədalı" adlanan bu yaşayış yeri əlverişli coğrafi mövqeyə malik olub, 10-12 hektar sahəyə malikdir. Onun ətrafları meşəlik və əkinçilik üçün ən yaxşı münbit torpaqlara malikdir. Onun ətraflarında qaynama bulaqlar çoxdur. Bunlardan tapılmış gil qab qırıqları Yaloylutəpə mədəniyyəti materiallarına və Nüydi torpaq qəbirlərindən əldə edilən gil qablarla tam uyğunluq təşkil edir. "Təpədalı"nda arxeoloji qazıntı işi aparılsa daha yeni məlumat əldə ediləcəkdir. Bununla belə "Təpədalı" yaşayış yerində həmin təpənin üstündə isə orta əsr qəsrini xatırladan abidənin daşla hasarlandığı görünür. Yerlilər ona "Xan qalası" deyirlər və onu Mustafa xanın adı ilə bağlayırlar. Ola bilsin ki, Mustafa xanın vaxtında da buradan istifadə edilmişdir. "Təpədalı" yaşayış yerinin şimal kənarında "Kəndyeri" deyilən böyük bir sahə vardır ki, bura da orta əsr saxsı məmulatı ilə zəngindir. Onun qərb tərəfindən 1 km aralı təmiz suyu olan bulaq vardır ki, ona "Xan bulağı" deyilir. "Kəndyeri"nə

bitişik olan “Pəldahar” adlı sahədə qədim buğda növü özbaşına olaraq indi də yetişir. Bu buğdaya yerlilər “Peyğəmbər buğdası” da deyirlər. Bu buğda çox güman ki, qədim buğda cinslərinin bu günə kimi qalmış nəslindəndir.

Ağsu rayonunun Nüydi kəndində aparılmış kiçik arxeoloji qazıntılara əsasən burada hələlik e.ə. I minilliyin son rübündən başlayaraq eramızın I minilliyinin ilk əsrlərinə aid zəngin maddi-mədəniyyət qalıqlarının varlığı aşkar edilmişdir. Bunlar içərisində torpaq qəbirləri və onunla əlaqədar olan yaşayış yerləri qismən öyrənilmişdir.

Yaşayış yerlərini bildirən çay daşlarından hörülmüş ev bünövrəsi, suvaq qalıqları, habelə iri təsərrüfat küpləri aşkara çıxarılmışdır. Bundan başqa “Nüydi düzü”ndən tapılmış çoxlu miqdarda dən daşları da maraqlıdır. Belə ki, əldə edilmiş təsərrüfat əhəmiyyətli maddi-mədəniyyət qalıqlarına əsasən yaşayış yerinin qədim sakinlərinin əsas məşğuliyyətlərindən biri, həm də daha üstün yer tutan sahəsi əkinçilik və maldarlıq olmuşdur. Torpaq qəbirlərindən əldə edilmiş dəmir nizə ucluqları və tunc dəbilqə albanların döyüş texnikası haqqında təsəvvürlərimizin genişlənməsinə şərait yaratmışdır. Burada gələcəkdə arxeoloji qazıntılar davam etdirilərsə, Qafqaz Albaniyasına, qədim əhalisinin tarixinə dair daha yeni və zəngin məlumat əldə etmək olar.

**1972-ci il**

Ağsu rayonunun dağlıq hissəsində yerləşən Nüydi kəndi və onun ətrafları antik dövr və orta əsr abidələrilə zəngindir. 1965-ci ildə burada ilkin arxeoloji qazıntı zamanı bir sıra yeni tapıntılar diqqəti cəlb etmişdir. Məhz buna görə də bir neçə illik fasilədən sonra 1972-ci ildə həmin abidədə tədqiqat aparılması zəruri hesab edilmişdir.

Şirvan ekspedisiyasının Nüydi arxeoloji dəstəsindən ibarət olan elmi heyət eyni adlı kəndin qərb kənarında yerləşən Nüydi arxeoloji dəstəsindən ibarət olan elmi heyət Ayni adlı qərb kənarında yerləşən Nüydi düzənində və ətraf ərazidə iki ay tədqiqat işləri aparılmışdır. Üzüm bağına çevrilmiş bu abidədə hazırda arxeoloji qazıntı işləri aparmaq olduqca çətinləşmişdir. Artıq üzüm tənəkləri böyümüş, geniş bir sahəni örtmüşdür. İndi lazımi sahədə qazıntı aparmaq üçün nə qədər bar verən meyvə ağaclarını tələf etmək kimi çətin vəziyyət yaranmışdır. Ona görə də meyvəsiz yerdə yoxlama qazıntısına başlamağı qərara aldıq. İlk dəfə qazıntı başlanmış qəbiristan sahəsində 30 metr şimal-şərqə doğru 4x4 metr ölçüsündə kiçik qazıntı açdıq. Lakin bu, yoxlama ümidimizi doğrultmadı. Məqsədimiz yaşayış yeri ilə əlaqədar maddi-mədəniyyəti öyrənmək idi. Başlanmış sahənin üst, qara torpaq qatı əvvəldən bəlli olduğu kimi qarışdırılmışdır. Onun içərisində maddi-mədəniyyət qalıqlarına az-az təsadüf olunur. 30 sm yer səthindən alt ağımtıl qatın başladığı müşahidə edilmişdir. Bu qatda da 0,8 metr qədər tək-tək saxsı qab qırıqları, bəzi qəhvəyi rəngdə dəvəgözü (obsidian) qəlpələri görünürdü. Lakin 1 metr dərinlikdən heç bir maddi-mədəniyyət izi görünmədi. Ümumiyyətlə, burada heç bir tikinti və ya forması bəlli olan qab-qacağın hissələrinə rast gəlinmədi. İlk

yoxlama zamanı az saxsı qırıqlarından başqa qırıqlara da təsadüf edilmədiyindən və xam torpağa çıxdığından 1965-ci il I qazıntı sahəsinin şərq kənarından genişləndirməyə başladıq. Bura hələlik 5x5 metrlik bir sahənin açılması mümkün oldu. Əvvəlcə köhnə qazıntının və yeni sahənin ot-əncəri təmizləndi və 1965-ci ildə qazılıb götürülməsi lazım bilinməyən maddi-mədəniyyət qalıqlarının qazıntının şərq kənarında basdırıldığı yer bir daha yoxlandı və orada olduğu aydınlaşdırıldı. Burada bəzən lap üst qatda da hətta bütöv gil qab-qacağa təsadüf edilir, ona görə ki, vaxtilə dərin şumlanma zamanı dayazda olan qəbirlər dağıdılmış və qarışdırılmışdır. Götürülmüş kiçik sahə dörd kvadrata bölünərək qazılmağa başlandı. Yerin səthi bir qədər axırımlı və şumlanma ilə əlaqədar qeyri-bərabərdir. Üst lay götürülərkən bəzi qəbir avadanlığının daha dayazda yerləşdiyi müşahidə olunmuşdur. Belə ki, 0,3-0,4 metr dərinlikdə kiçik matraya oxşar qab, tunc üzük III kvadratdan və iki iri tunc bilərzik isə IV kvadratla I kvadratın arasında aşkar edilmişdir. Bilərziklər aşkar edilən yerdə insan-qıç sümüklərinin qırıqları da görünmüşdür.

**1 saylı küp qəbiri.** Davam etdirilən qazıntı sahəsində, I kvadratdan 0,8 metr dərinlikdə orta həcmli gil qab parçaları üstündə olan bir uşaq qəbiri aşkar edilmişdir. Bu küp qəbiri kimi qeyd edilmişdir. Körpə uşağa aid olan bu küp qəbiri çox da iri olmayan enli ağızlı küpün ağız tərəfinə yaxın sınıq parçalarından ibarətdir. Bu qab ağzının kənarında dik ilgəkvari qulp da vardır. Qab bir cərgə də onun ardınca qoyularaq bir növ uzunsov döşəmə düzəldilmişdir. Onun hansı istiqamətə olmasını sümüklərindən təyin etmək mümkün deyildir. Yalnız döşəmənin və avadanlıq - qabların düzülüşünə, bəzi sümüklərə görə başın şimal-şərqə, ayaqların isə cənub-qərbə doğru olduğu müəyyən edilmişdir. Qablar isə şərq tərəfdə, küpün uzun istiqamətində düzülmüşdür. Buna görə də onun üzü şərqə doğru qoyulduğunu söyləmək olar. Çünki əksərən qablar skeletin baş tərəfində, eyni zamanda üz tərəfində aşkar edilir. Qəbirdən 10 ədəd gil qab aşkar edilmişdir ki, onların da çoxu sınıqdır. Bunlar qalın saxsı olan kobud hazırlanmış küp (onun gövdəsinin enli hissəsində iki yerdə ilgəkvari qulpu vardır), qırmızı rəngli təkayaq vaza, lüləkli dolça (kiçik) qara rəngli təkayaq vaz, qırmızı, nisbətən iri cam təkqulp çölmək (onun içərisində xırdabuynuzlu heyvanın bud və qıç sümükləri qoyulmuşdur) və s. ibarətdir. Qabların əksəriyyəti çox ovxalandığından götürülməsi lazım bilinmədi. Küpün içərisində skeletin kəlləsi qoyulmuş hissədən boğazından 3 ədəd göy rəngdə şüşə və bir yastı serdolik muncuqlar tapılmışdır. Burada çox kiçik azı və ön dişləri də qalmışdır. Muncuqların yaxınlığında kiçik dəmir əşya da vardır ki, o həddən artıq korroziyaya uğramışdır.

**5 saylı torpaq qəbir.** Qazıntıda aşkar edilmiş küp qəbirindən şimal tərəfdə daha bir qəbir abidəsinin qabları görünmüşdür. II kvadratda I metr dərinlikdə aşkar edilən bu abidə 5 saylı torpaq qəbiri kimi qeydə alındı (bu 1965-ci ildəki 4 saylı torpaq qəbirinin davamı kimi verilir). Onun yanına, daha doğrusu başı ətrafına və ayaqlarına tərəf çoxlu gil qablar qoyulmuşdur. Qablar əsasən iki və təkqulplu

süddan tipli habelə Nüydi abidəsi üçün səciyyəvi sayılan gil camlardan ibarətdir. Onların əksəriyyəti üstdən düşən təzyiq nəticəsində qırılmışdır. Skelet sol böyrü üstdə başı şərqə, üzü cənuba olmaqla sıx bükülmüş formada idi. Onun altında dağılmış sol qolu çənəsinə doğru, sağ qolu da görünür. Dəfn zamanı üzünə doğru qatlanmış və sonradan açılaraq dirsək onurğa üstündə qalmış, əl isə diz istiqamətində qabağa doğru uzadılmış vəziyyətdə dizdən 10 sm aralı dayanmışdır. Sağ əlin orta barmağında nazik tunc üzük vardır. Ayaq barmağının birində isə (barmağın dibində) qırmızı rəngdə boya yaxşı qalmışdır.

Qəbir qazıldıqdan sonra döşəmənin üstünə bir qədər torpaq töküb sonra tökmə torpaq üstündə ölünü sıx büküb dəfn etmişlər, o qədər sıxmışlar ki, ayaqlar çanaq sümüyünə dayanmışdır. Skeletin başından çanaq sümüyünə qədər uzunluğu 90 sm, bud sümüyünün (dizə qədər) uzunluğu 50 sm-dir. Bu hesabla skeletin boyu təqribən 1,9 metrdir. Skeletin boğazı yanında üç ədəd göy rəngdə şüşə muncuq qoyulmuşdur. Skeletin başının yanında torpaqda od yandırılması izi qalmışdır.

Qəbirin avadanlığının çoxu qırılmış, 20-yə qədəri götürülmüşdür. Qabların çoxunun içərisində heyvan sümükləri vardır. Qabların altında kül qatı müşahidə olunur ki, həmin qəbirin altında aşkar edilən 11 saylı torpaq qəbiri ilə əlaqədar mərasimin qalığı olduğu sonradan aydınlaşdırılmışdır.

**6 saylı torpaq qəbir.** Kvadratda, 1 metr dərinlikdə daha başqa bir torpaq qəbiri nisbətən iri insan skeletinin ayaq və çanaq sümükləri aşkar edilmişdir. Skeletin başı yerləşən sahə qazıntının kənarına doğru uzandığı üçün genişləndirmə işi aparıldı. Burada qəbirin kəsiyindən onun yer səthində 40 sm altda başlandığı aydın bilinirdi. Qəbir çuxuru qara və sarı torpaqla doldurulmuşdur. Skeletin ayaq sümükləri yanında və altında saman qarışıqlı suvaq, yaxud palçıq qatı görünürdü. Ola bilsin ki, ölünün altına vaxtı ilə saman qarışdırılmış suvaq və ya çiy kərpic döşənmişdir. Skeletin ayaq tərəfində iri küp basdırılmışdır. Küpün üst və içərisində yanıq qaraltı izi vardır. Onun ayağı altında basdırılmış iri təsərrüfat küpü ətrafından başlayaraq üzü istiqamətinə və başı yanına düzülmüş qablardan kənara, şimal-şərq istiqamətinə yanıq zolaq davam edir. Yanıq izi olan zolağın 5 sm olub, yer səthindən 75 sm dərinlikdə aşkar edilmişdir. Onun qalınlığı bəzi yerlərdə 52 sm-ə çatır.

Bu torpaq qəbirin istiqaməti şimal-şərq və cənub-qərbə doğrudur. Baş şimal-şərqə doğru olmaqla skeletin sağ böyürü üstdə aşkar edilmişdir. Skeletin yaşlı adama aid olduğunu onun dişlərinin qaralmasından bilmək mümkündür. Skeletin dirsəyi dizləri yanında, əlləri isə üzünə doğru qatlanmış vəziyyətdə idi. Dizlərdən sıx bükülmüş skeletin həm ayağı, həm də başı yanında bir iri küp qoyulmuşdur. Bundan əlavə matra, cam formalı qablar onun başı yanında qoyulmuşdur. 1,2 metr dərinlikdə aşkar edilən bu qəbir abidəsinin avadanlığı, "qab-qacağı" üzərində iri buynuzlu heyvan başı, çənəsi, buynuz hissəsinin çürüntüsü qalmışdır. Qabların içərisində isə iri və xırda heyvan sümükləri qalmışdır. Bu qəbirdə maraqlı cəhət odur ki, kəllənin üstündə alət və silah

qoyulmuşdur. Belə ki, alnın üstündə tiyəsi boğaza doğru olmaqla dəmir oraq, burun və gözünə doğru dik dəmir nizə ucluğu batırılmış vəziyyətdə idi. Onun əlləri yanında "üzü qarşısında" yenə bir dəmir əşya vardır.

**2 saylı küp qəbir.** Qazıntı sahəsinin şimal-qərbə doğru artırılan hissəsindən VI kvadratda 0,7 metr dərinlikdə daha bir qəbir abidəsi görünmüşdür. Bu Nüydi qədim qəbiristanlığında ikinci küp qırıqları üzərində aşkar edilən dəfn adəti nümunəsidir. Uşağa aid olan bu küp qəbirindəki sümüklər həddən artıq çürümüşdür. Onun üzünün hansı istiqamətə olduğunu təyin etmək mümkün olmadı. Lakin başının şimal-şərq istiqamətinə olduğu aydınlaşdırılmışdır. Yer üstündə olan təzyiq küp sınıqlarının da o tərəf-bu tərəfə əyilməsinə səbəb olmuşdur. İçərisindəki sümüklər isə qarışıq vəziyyətdədir.

Baş tərəfdə çoxlu gil qablar qoyulmuşdur. Ayaq tərəfdə isə iri küp basdırılmışdır. Həmin iri küpün içərisindən qırmızı rəngli gil vazanın disk şəkilində oturacağı da tapılmışdır. Bundan əlavə gil camlar və başqa qablar da aşkar edilmişdir ki, onların da içərisində heyvan sümükləri, bıçağa oxşar əşyalar da tapılmışdır. Ancaq o çox korroziyaya uğrayıb dağılmışdır. Qol sümüyündə tunc bilərzik, əli yerində tunc üzük, şüşə və muncuqlar tapılmışdır.

**7 saylı torpaq qəbir.** Qazıntının VI kvadratında 0,75 metr dərinlikdə daha bir dağılmış torpaq qəbir aşkar edilmişdir. Bu qəbir abidəsi VI kvadratdan daha doğrusu II, VI və XXI kvadratla, habelə 1965-ci il qazıntısı arasında yerləşmişdir. Burada kəllə sümüyündən parçalar vardır. Qalan sümüklər dağıldığından yeri məlum deyildir. Ancaq bir neçə qablarla yanaşı qoyun və at (?) sümükləri hissələrinin (çənə, kəllə, dırnaq, qıç və s.) vardır. Ümumiyyətlə, bu qəbirin istiqamətini və vəziyyətini müəyyənləşdirmək olmadı. İçərisində iki qulplu iri gil camlar və fincanlar çoxdur. Bunlardan başqa nisbətən iri gil camlar, uzunsov gövdəli çiynində ikiqulplu dik yapışdırılmış qabın hissələri tapılmışdır. Onun oturacağı düz olub, altdan 7 ədəd düyməciyi vardır. Düyməciklər yastılandırılmışdılar. Daha bir pis bişirilmiş qara rəngli, çiynindən dik qaldırılmış əymə formalı qulpu olan qab da vardır. Bunlar həddən artıq qırıldığı üçün yalnız yerindəcə qeyd edilib saxlanılmışdır. Belə götürülməyən qablar ondan artıqdır. Sınmış qabların təkrarının qazıntıdan çox tapıldığından yalnız 5 ədəd gil qabın götürülməsi məsləhət bilindi. Bunlar quş fiquru formasında su qabı, dolça, qalqa və qapaqdan ibarətdir.

**8 saylı torpaq qəbir.** VIII kvadratda növbəti torpaq qəbir 0,75-0,8 metr yer səthindən dərinlikdə aşkar edilmişdir. Bu Nüydi qəbiristanlığında uşağa aid olan ilk torpaq qəbiridir. Qəbir düzbucaqlı formasındadır (1,1x0,5) onun ətrafı qalınlığı 10 sm olan yanğından qızarmış torpaq qatı ilə sərhədlənir. Görünür, ölünün üstünə azca torpaq töküldükdən sonra od yandırılmışdır. Həmin yaranmış suvağa oxşar "sərhəd" kəllə ilə qəbirlərin arasındadır. Gildən olan qablar baş istiqamətində düzülmüşdür. Onlar əsasən dolça, cam, bitişik qoşa cam və s.dən ibarətdir. Qabların üzərində də yanğın izi qalmışdır. Bu gil qabların içərisi və arasında

heyvan sümükləri vardır. Bu qəbirdə olan uşağa aid olan skeletin başı cənuba (15° cənub-qərbə), üzü şərqə doğru istiqamətləndirilmişdir. Skelet düzbucaqlı şəklində düzəldilmiş yerdə sol böyrü üstündə, sıx bükülmüş şəkildə idi.

Ətraf sümüklər çox çürümüşdür. Qol-qıç sümüklərinin demək olar ki, yeri qalmamışdır. Əlləri çənəsinə doğru qoyulmuşdur. Bu qəbir abidəsinin zəngin qab avadanlığı vardır. Bunların çoxu qırıldığından götürülmədi. Lakin onların nədən ibarət olduğunu bildirmək üçün adları qeyd edilmişdir. Bunlardan qırmızı rəngdə düz oturacaqlı fincanlar çoxluq təşkil edir ki, bəziləri götürülmüşdür. Bundan əlavə bir ədəd ağzı novçalı yandan təkqulplu olan kiçik dolça qırmızı çölmək, daha bir kiçik küpə, bir ədəd ağzı eninə açılmış və novçavari əyməsi üstündə gil köbəri olan iri dolça, həmin dolçanın ağzında içi qırılmış suddan və s. aşkar edilmişdir. Skeletin boğazında bir ədəd şüşə muncuq tapılmışdır. Ümumiyyətlə, bu qəbirin baş tərəfində 14 ədəd gil qab qoyulmuşdur.

**Dağılmış 9 saylı torpaq qəbir.** Bu qəbir abidəsinin avadanlığı və bəzi sümükləri VII kvadratın şimal-şərq bucağında 0,5-0,6 metr dərinlikdə aşkar edilmişdir. Dayazda olmuş bu qəbir abidəsi traktorun dağıntısına daha çox məruz qalmış və ilkin formasını tamamilə itirmişdir. Odur ki, buradan yalnız bir neçə salamat qalmış gil qab götürülmüşdür. Qeyd etdiyimiz torpaq qəbiri haqqındakı məlumatımız bununla da məhdudlaşır. Əldə edilən qablar kiçik lüləkli çaynikvari qablar və dopulardan ibarətdir.

**10 saylı torpaq qəbir.** VI kvadratda 1,2 metr dərinlikdə aşkar edilmiş bu qəbir abidəsi dördkünc formada qazılmışdır. Qəbir çuxurunun dərinliyi 0,5 metrdir. Qəbirdə ölünün qarşısında və başı istiqamətində bir qədər torpaq töküldükdən sonra od yandırılmışdır. Onun başı şimal-şərqə olmaqla sıx bükülmüş və sağ böyrü üstündə qoyulmuşdur. Qollar dirsəkdən qatlanaraq əlləri üstünə doğru qoyulmuşdur. Hətta əlindəki üzük və qolundakı tunc bilərziyin yaşıl pası dişlərə keçirilmişdir. Kəllənin üstü yatıqdır, o dala uzadılmış formadadır. Görünür, uzunsov formalı bu kəllə deformasiya edilib. Kəllənin üstündə, təpənin yanlarından hər iki tərəfdən basılıb yastılandırılmışdır, peysərüstü arxaya doğru çıxıntılı şəkildədir. Ümumiyyətlə, kəllə uzunsov vəziyyətdədir (kəllə antropoloji cəhətdən öyrənilməsi məqsədi ilə götürülüb antropoloq Rəbiyyə Qasımovaya verilmişdir). Skeletin dizdən topuğa qədər uzunluğu 48 sm, çanat hissədən kəllənin qurtaracağına qədər 88 sm, qolun uzunluğu dirsəkdən barmaqlara qədər 48 sm-dir. Kəllənin uzunluğu 23 sm, hövsələ çanağının uzunluğu 35 sm, eni 20 sm-dir. Skeletin alnı qarşısında bir şiş dəmir parçası, ondan bir az aralı üç ədəd tunc halqadan ibarət üzüyəoxşar muncuq, sonra dəstəyi iki yerdən qövsvari şəkildə olan dəmir çapacaq qoyulmuşdur. Ölünün üzü qarşısında dörd dəmir nizə dik yerə sancılmışdır. Kəllədən 40 sm aralı dörd ədəd gil qab qoyulmuşdur. Onlardan ikisinin ağzı üçgül, birininki dördkünc novçalı dolça, birisi isə qara rəngli camdan ibarət idi. Burada daha iki qırmızı rəngli qablar tam ovuntu halında qalmışdır.

**11 saylı torpaq qəbir.** Nüydi qazıntılarından aşkar edilmiş bu qəbir abidəsi öz tapıntıları ilə o birilərindən fərqlənir. Zəngin avadanlığı malik olan bu torpaq qəbiri bir də ona görə qiymətlidir ki, gil qablardan birinin içərisindən gümüş pul dəfinəsi tapılmışdır. Qazıntı sahəsinin II kvadratının şimal-qərb küncündə V kvadratla VI kvadrat arasında 1,7 metr dərinlikdə aşkar edilmişdir. Qəbir çuxuru dördkünc şəkildə olub, eni 1,5 metr, uzunluğu 2,5 metrdir. Burada başı şimal-şərqə doğru olmaqla sıx bükülmüş skelet aşkar edilmişdir. O qəbir çuxurunun şimal divarı dibinə doğru basılıb sol böyrü üstündə yerləşdirilmişdir. Onun qıçları dibdən və dizdən sıx qatlanaraq bükülmüş, daban az qala çanaq hissəyə yapışdırılmışdır. Sağ qol qarın üzərində idi, onda bir bilərzik, barmağında isə bir dəmir üzük var idi. Skeletin üzü tərəfdə dəmir alət və tunc bilərzik, boğazında pasta əqiq, şüşə muncuqlar vardı.

Skeletin ayaqları istiqamətində iri, ikiqulplu təsərrüfat küpü, topuğu üstündə qara rəngli kiçik dolça, qıçların arasında gil cam parçası, dizləri önündə bir ədəd böyük və tavayaoxşar gil qab qoyulmuşdur. Ümumiyyətlə, qəbiri qoyulan avadanlığın əksəriyyəti kəllə və üz tərəfə düzülmüşdür. Qabların içərisində və arasında heyvan sümüyü dəmir çapacaq, üç ədəd nizə ucu və s. tapılmışdır. Dəmir çapacaq həddən artıq korroziya olunduğundan ovuntu halına düşmüşdür.

Ölünün ayaqları, daha doğrusu dabanları üstünə qoyulmuş qara rəngli, ağzı novçalı, yandan en kəsiyi dairəvi qulplu olan, oturacağı düz dolçanın içərisində 36 ədəd Makedoniyalı İsgəndərin və ümumiyyətlə, Selevki gümüş sikkələrinin Albaniyada kəsilib bənzədilmiş nümunəvi olan dəfinə tapılmışdır. Bu, Nüydi abidəsindən ilk dəfinə və ilk pul tapıntısıdır.[7]

Kəllənin alın hissəsində çutqa (tuncdan) olmuşdur. Nazik lövhə şəklində olan bu bəzək əşyası həddən artıq cəng atıb, ovxalanmışdır. Qəbirin içərisindəki gil qablar 36-ya qədərdir. Onların içərisində və arasında çoxlu heyvan sümükləri vardır. Sümüklər iri və xırda buynuzlu heyvana, habelə quşa aid olub, kürək, bud, qabırğa və s. dən ibarətdir. Kəllə yanından bir cüt dəmir midbaraoxşar əşya (ola bilsin ki, gəmdir) da tapılmışdır. Bu tapıntılar haqqında ayrıca bəhs olunacağını nəzərə alaraq burada onların geniş təsviri verilmir.

**12 saylı torpaq qəbir.** Bu qəbir abidəsi V kvadratın şimal-şərq küncündə 1 metr dərinlikdə aşkar edilmişdir. Görünür qəbirlər həddən artıq sıxıldığından da bəzi abidələr vaxtı ilə müəyyən dağıntıya məruz qalmışdır. Çünki, bu qəbir abidəsinin həm materialı, həm də skeletin sümükləri dağılmışdır. Qabların əksəriyyətinin olmaması da buna müəyyən əsas verir. Qalmış sümüklərə görə skeletin ayaqları azca cənuba meyilliliklə şərqə, onurğa sümükləri və dizləri bir qədər şimala meyilliliklə qərbə doğrudur. Beləliklə, onun sıx bükülü şəkildə sol böyrü üstündə, başının şimal-qərbə doğru dəfn edildiyini təsəvvür etmək olmur.

[7] Bu barədə radio və qəzet ilə qısa məlumat verilmişdir. Bax: Osmanov F.L.Nüydi nekropolunun dəfinəsi. “Bakı” axşam qəzeti, 1 noyabr, 1972-ci il.

Skeletin ayaqları yanında çiynində dik yapışdırılmış üçtipli qulplu olan nisbətən iri küp qoyulmuşdur. Onun boğazı enli, gövdəsi girdədir. Çəhrayı rəngdə olan bu küp gilinin tərkibində qum qarışığı vardır. Qəbirin baş tərəfində qabların qırıqları vardır ki, bunlar da cam formalı qablardandır. Burada yalnız bir bütöv və bir də sınıq gil fincan qab götürüldü. Qəbirdən bir ədəd dəhrəyəoxşar dəmir alət də tapılmışdır.

**13 saylı torpaq qəbir.** VII kvadrata, 1,1 metr dərinlikdə aşkar edilən bu torpaq qəbiri də uşağa aid olub, çox da kiçik deyildir. Skelet sağ böyrü üstdə, sıx bükülmüş şəkildə üzü $15^0$ qərbə olmaqla şimala doğru idi. Onun sağ qolunda dəmir bilərzik və yanında mis üzük, boynunda isə parçadan muncuqlar var idi. Skeletin ayaq tərəfində nisbətən iri bir küp (küpün ağzında da bir ədəd qab), baş tərəfində isə 16 gil qab qoyulmuşdur. Cəmi 18 gil qabdan ibarət olan avadanlığın çoxu qırılmışdır. Ölünün üzü qarşısında iki dəmir nizə yerə dik sancılmış vəziyyətdə aşkar edilmişdir. Baş tərəfdə qoyulmuş nisbətən iri küplərdən biri yumru gövdəli olub, ağzı kənara doğru əyilmişdir. Onun ağzının diametri 19 sm, hündürlüyü isə 28 sm-dir. Qabın çiyinlərində iki ilgəkvari qulpu vardır. Sərnicə oxşar bu qabın içərisində qövsvari dəmir bıçaq da tapılmışdır. Ümumiyyətlə, baş tərəfdə qoyulmuş qabların içərisindən və yanından iri və xırda buynuzlu heyvan sümükləri aşkar edilmişdir.

VII kvadrata, eləcə də şimal və şərqə doğru kvadratların kənarlarından qəbir abidələrinin davam etdiyi qazıntının gedişi zamanı aydın olmuşdur ki, qəbirlər o qədər sıx yerləşdirilib ki, onlardan biri aşkar ediləndə digərlərinin materialı yaxud sümükləri görünür. Çox hallarda az qala qəbirlərin materialları bir-birinə qarışır. Odur ki, vaxtın qurtarması, eləcə də vəsaitin tükənməsi qazıntı sahəsində bir çox qəbirlərin sərhədlərinin görünməsinə baxmayaraq onları aşkar edib, öyrənməyi təxirə salmağı məcbur etdi. Beləliklə, bir neçə qəbir abidəsinin görünən hissələri konservasiya edilib, növbəti qazıntılara saxlandı. Bir də ki, bunların qazıntının kənarına doğru davam edən sahələri sıx üzümlüklərdən ibarətdir. Onların qazılması işini bu hal da çətinləşdirmişdir.

Ümumiyyətlə, bu mövsümdə Nüydi nekropolunda 11 qəbir abidəsi aşkar edilib, səkkizi yaşlı adama aid torpaq qəbirlərdir. Onların təsviri verilərkən əsasən götürülməyən avadanlıqdan qısa şəkildə danışılmışdır, həm də onların sadəcə adları sadalanmışdır. Materiallar haqqında ayrıca qruplar halında bir qədər müfəssəl bəhs olunacaqdır. Qəbirlərin avadanlığında bir-birindən kəskin surətdə ayrılan elə böyük fərqlər nəzərə çarpmır. Məhz buna görə də təkrarlara yol verilməsin deyə materialları ayrıca verməyi lazım bildik. Nəzərə çarpan fərqlər yeri gəldikcə izah olunacaq və hansı qatda qəbirə aidiyyatı da göstəriləcəkdir.

Saxsı məmulatı. Nüydi abidəsində qəbirlərə çoxlu avadanlıq qoymuşlar. Bunların da içərisində saxsı qablar başlıca yer tutur. Elə qəbir abidəsi var ki, onda 40-dan çox təkcə gil qaba rast gəlmək olur. Saxsı qablardan sonra isə dəmir alət və silahlar çoxluq təşkil edir, bəzək şeyləri nisbətən azdır.

Saxsı qabların miqdarca çoxluğuna müqabil olaraq onların tipləri də çoxdur. Bunların da içərisində 15-ə qədər forma müşahidə olunmuşdur. Saxsı məmulatı haqqında təsəvvür yaratmaq üçün onları formasına görə qısa şəkildə təsvir edirik (tablo 19-23; 26).

Dolçalar. Gil qabların içərisində dolçalar üstünlük təşkil edir. Bunlar da tam eyni formalı olmayıb, ağzı novçalı üçgül, dördgül, dairəvi şəkildədir. Bu tip qablar müxtəlif təbəqələrdən məlumdur. Onların alt təbəqə üçün xarakterikləri hazırlama texnologiyasına və bir qədər zəifliyinə görə fərqlənir. Üst qata aid dolçalar isə eyni formanı saxlasa da tədricən kobudlaşma nəzərə çarpır.

Gil fincan və yaxud qulplu camlar. Sarımtıl, yaxud qırmızı rəngdə hazırlanmış bu gil qablar da qədim Nüydi sakinlərinin məişətində geniş yayılmışdır. Bu tip qablara qəbirlərdə çox təsadüf olunur. Onlar enli ağızlı, boğazı azca boğmalı, gövdəsi enli, oturacağı isə nisbətən dar və düz formada hazırlanmışdır. Bu gil fincanların bir yaxud iki qulplu olur. Belə gil fincanların bir ədəd qoşa hazırlanmış nümunəsinə də təsadüf edilmişdir.

Çölməklər. Nüydi yaşayış yerinin xarakterik gil qablarından biri də çölməklərdir. Bunlar nisbətən iri həcmli olub, qırmızı rəngdə bişirilmişdir. Bunların ağzı enli, çiynilə ağzının arası (boğazı) yığcam, gövdəsi şişkin, oturacağı isə nisbətən dar və düzdür. Çölməklərin iki qulpu vardır. Qulpların en kəsiyi dairəvi, lentvari və hörmə olub, ağzının kənarı ilə çiyninə birləşdirilmişdir. Çölməklərin bəzisinin qulpu yalnız çiyin hissəyə köndələn yapışdırılaraq dik əymə şəklində düzəldilmişdir.

Qabın çiynində, qulpların arasında iki yerdə hərəsində üçdən-beşə qədər barmaqla basılmış batıqdan və çıxıntılardan ibarət bəzək vardır. Bu qablar bir növ sərnicə də oxşayır. Ola bilsin ki, bunları məhz həmin funksiyanı da ifa etmişdir.

**Zoomorf qablar.** Zoomorf qablar əsasən quş formasında hazırlanmışdır. Bu tip qablar da Nüydi abidəsində çox tapılır. Quş fiqurlu bu qabların yalnız gövdəsi cücə və yaxud toyuğa oxşadılmışdır. Belə ki, onların boğazı dik qaldırılmış formada olub, ağzı dairəvidir. Belə qövsvari olub, ortadan uzununa bəzən çıxıntı şəklində uzanır. Belin ortasında ilgəkvari qulp vardır. Oturacaq isə dar və düzdür. Quyruq hissə bir şiş və ya iki çıxıntılı şəkildə bir qədər dik hazırlanmışdır. Onların gilinin tərkibində ağ qum dənələri vardır. Qab sarımtıl rəngdədir. Bu qabların ağzı kiçik dairəvi gil qapaqlarla örtülmüşdür.

**Matralar.** Nüydi qədim qəbirsitanlığında materiallara da təsadüf olunmuşdur. Bunlar demək olar ki, eyni formalı olub müxtəlif ölçüdədirlər. Onlar boz və qırmızı rəngdə hazırlanmışdır. Materialların üstü günbəz formalı, oturacağı kiçik və düzdür. Dar boğazları bir qədər yuxarıya dikəlmiş formada hazırlanmışdır. Ağızları dairəvidir. Çiyin hissəsində iki ilgəkvari qulpu var. Onlar tısbağanın öndə görünüşünü xatırladır.

**Orta həcmli küplər.** Bu tip qablar qəbirlərə əsasən bir və ya iki ədəd olmaqla ölünün başı və yaxud ayaqları yanında müşahidə edilir. Ona görə də belə

qabların sayı azdır. Onlar da sarımtıl rəngdə hazırlanaraq ikiqulplu, üçqulplu və təkqulplu olurlar. İki və ya üçqulplu küplərin boğazı çox enli olmayıb, gövdələri nisbətən şişkin, oturacağı isə dar və düzdür. Bunların üzərində batıqlardan ibarət bəsit bəzəklər də olur. Küplərdən biri böyüklüyünə görə o birindən fərqlənir. Bu sarımtıl rəngdə olub, ağzı geniş və dairəvidir. Küpün uzunsov gövdəsi vardır. Onun ağzının kənarı ilə çiyni arasında ikitipli ilgəkvari qulp yapışdırılmışdır. Şaquli istiqamətdə yapışdırılmış qulpun aşağı qurtaracağı çıxıntılıdır. Bu küpün üzərində heç bir bəzək yoxdur. Onun ağzında qabaoxşar qalın qapağı olmuşdur. Qapağın kənarından əyməşəkilli dik qaldırılmış qulpu da vardır.

**Vazalar.** Gil vazalar əsasən qırmızı rəngdə və müəyyən qədər də qara rəngdədir. Onların əksəriyyəti təkayaqlıdır. Yalnız bir ədəd üçayaqlı vaza əldə edilmişdir. Vazalar əsasən 6 və 11 saylı qəbirdən tapılmışdır. Həmin qəbirlərin isə alt birinci təbəqəyə məxsusdur. Qırmızı rəngdə olan vazaların ağzı kənara doğru açılmış şəkildə, boğazı içəriyə doğru sıxılmışdır. Onun gövdəsi xaricə doğru iki çıxıntılıdır. Vazanın iki qulpu vardır. Qulpların birinin en kəsiyi dairəvi olub, ağzının kənarından uzadımış qulaqcığın altına yapışdırılmışdır. Digər qulp lentşəkilli olub, ağzının kənarı ilə çiyninə yapışdırılmışdır. Vazanın iki qulpu vardır. Qulplardan birinin en kəsiyi dairəvi olub, çiyinə, ağzının kənarından uzadılmış qulaqcığın altına yapışdırılmışdır. Digər qulp lentşəkilli olub, ağzının kənarı ilə çiyninə yapışdırılmışdır. Vazanın oturacağı qısa olub, altından içəriyə doğru batıqdır.

Başqa bu cür qırmızı rəngli gil vazanın fərqi gövdəsinin çıxıntısız və qulplarının ikisi də lentvari olmasıdır. Hər iki vazanın üzəri sığallanıb hamarlanmışdır. Ümumiyyətlə, 2 saylı torpaq qəbirin əksər qabları üzəri şivə həm də bu zaman yağlı maddə ilə sürtülmüşdür. Digər bir gil vazanın qulpu bir yerdəndir, onun da üstündə iki düyməcik vardır. Qırmızı rəngli vazalardan ikisi kiçik ölçülü olub, bir qədər başqa formada hazırlanmışdır. Bunlardan birinin ağzının kənarları azca içəriyə doğru olub, maili şəkildə diliklənmiş və büzməli formaya salınmışdır. Onun kənarlarında iki yerdən qarşı-qarşıya çıxıntı vardı ki, onların üstü barmaqla basılaraq yastılandırılmışdır. Qabın qısa oturacağı olub, altı düzdür. O biri kiçik gil vaza da eyni formada olub, ağzının kənarlarından dik ilgək şəkilli qulpu ilə fərqlənir. Qara rəngli vazalardan biri üçayaqdır (həddən artıq ovxalanır), qalanları təkayaqlıdır. Təkayaqlı vazalar ağzı dairəvi və enli olub kənara açılmış formadadır. Onlar boğaz hissədə sıxılır və dirsəkvari şəkildə kənara çıxır. Gövdənin bu hissəsindən qab dayaq – qıç üzərinə qədər tədricən daralır. Bunun lentvari qulpu qabın ağzının kənarı ilə çiyninə yapışdırılmışdır. Qısa dayanacağa malik olan vazanın oturacağı dairəvari və altdan içəriyə doğru batıqdır. Bu qabların üzərində çoxlu qum qatışığı vardır.

**Lüləyinlər.** Nüydi antik dövr yaşayış yeri qəbiristanında bu tip qablara da təsadüf olunmuşdur. Onlar əsasən kiçik ölçüdə olub, uzunsov və girdə gövdəlidirlər. Qabların ağzı dairəvi və bir qədər kənara açılmış formadadır, yandan

olan lentvari qulpları ağızlarının kənarı ilə çiyinlərinə yapışdırılmışdır (s.q. № 437, 458). Belə qablardan biri müasir kiçik çayniki xatırladır (s.q. № 513). Bu qabların boğazı və qulpu batıq xətlərlə deşmələrlə haşiyələnmişdir. Onların üzərində yumru düyməciklərdən ibarət bəzəyi də vardır.

**Tavalar.** Qazıntı zamanı tava tipli gil qablar da aşkar edilmişdir. Bu tip qablar da yenə 6 və 2 saylı qəbirlərdə müşahidə edilmişdir. Oval formada hazırlanmış gil tavalar qırmızı rəngdədir. Olardan biri nisbətən kobud düzəldilmişdir. Onun qulpu ağzının kənarı ilə oturacağına yaxın hissəsinə yapışdırılmışdır, oturacağı düzdür.

İkinci saxsı qab nisbətən iri olub, iki qulpa malikdir. Uzunsov şəkilli tavanın kəllələrindən birində ilgəkformalı qulp əks tərəfində isə uca haçalı bir çıxıntı düzəldilmişdir. Haça hissə bir qədər yuxarıya əyilmişdir. Yaxşı bişirilmiş bu gil tavanın gilinin tərkibi təmizdir. Özü isə qalın və möhkəm hazırlanmışdır (s.q. № 538).

**Dəmir alətlər.** Nüydi qazıntılarında dəmir şeylərə də çox təsadüf edilir. Bunlar əsasən əmək alətləri və silahlardan ibarətdir. Əmək alətləri arasında çapacaqlara, bıçaqlara, biz və oraqlara təsadüf edilir. Onlar uzun müddət torpaqda öz keyfiyyətini itirsə də formasını saxlaya bilmişdir (tablo 34).

**Çapacaqlar.** Bu iki qazıntılardan üç ədəd çapacaq əldə edilmişdir. Onlardan biri həddən artıq ovxalanmış, ikisi isə salamat qalmışdır. Ümumiyyətlə, dəmir məmulatını aşkar edilən anda yapışqanla möhkəmlətdikdən sonra demək olar ki, ilk formasını götürə bilmişik. Çapacaqlardan biri 6 saylı torpaq qəbirində aşkar edilmişdir. Onun tiyəsinin arxa hissəsi qövsvari, kəsər hissəsi ortadan qabarıqdır. Uca doğru nazikləşir. Dəstək, sulğunc hissəsi də yastı və qövsvaridir. Onun dəstəyinə rahat yapışmaq üçün taxta rəbt edilmişdir. Bunu, dəstəyin üstündə ağac çürüntüsünün qalığı və bir-birindən 1 sm aralı mıxların varlığı sübut edir. Bu cür mıxbənd dəstəyin üstündə 5 yerdə qalıb, ikisi də dəstəyin ucuna yaxın hissəsindədir. Dəstəyin uzunluğu 2 sm, eni 2-sm-dir. Tiyənin uzunluğu isə 15, eni isə 3,5 sm-dir. Digər dəmir çapacaq formasına görə yuxarıda təsvirini verdiyimiz alətdən bir bir qədər fərqlidir. Bunun dəstəyi dirsəkli olub, bir növ müasir qiyməkeşləri xatırladır. 10 saylı torpaq qəbirində tapılmış dəmir alətin tiyəsi uca doğru şiş, üstü yastı və düzdür. Kəsər hissəsi dəstəyə doğru dirsəkvari dönür və yenidən bir də qövsvari dönərək dəstək əmələ gətirmişdir (s.q. № 519). Bu alətdən də dəstək hissəsinə hər iki tərəfdən ağac üzük rəbt edilmişdir. Hər iki üzündə həm ağac çürüntüsü, həm də dəmir mıxbəndlər qalmışdır. Alətin uzunluğu 22 sm, tiyəsinin uzunluğu 2 sm, eni 3 sm-dir. Bu alətlərlə müəyyən məhsulların kəsilib doğranmasında istifadə olunduğunu güman etmək olar. Lakin ekspedisiyanın üzvü etnoqraf Arif Mustafayevin Şirvan ərazisində sənətkarlıqla əlaqədar müşahidələri zamanı bu cür alətlərdən gönçülüklə əlaqədar istifadə edildiyinin şühidi olduğunu söyləyir. Ola bilsin ki, bunlar sənətkarlıqla da əlaqədar imiş.

**Bizlər.** Tapıntılar içərisində əmək alətlərinin bir qulpunu dəmir biz təşkil edir. Onların sulğuncu nisbətən uzun olub, en kəsiyi dairəvari, ucu şişdir. Bunların üzərindəki ağac izinə görə güman etmək olar ki, sulğunc qızdırılıb ağac sopa vurulubdur. Onlardan birinin üzərində dəmirdən sağanaq da qalmışdır (s.q. № 590).

**Oraqlar.** Dəmir oraqlara Nüydi qazıntılarında tez-tez təsadüf edilir. Bu ilki qazıntılar zamanı oraqvari iki dəmir alət tapılmışdır. Onların kiçik olmasına görə qəti şəkildə oraq adlandırmaq çətindirsə, son zamanlara qədər mövcud olan oraqlar içərisində kiçik ölçülülər də mövcud olmuşdur. Oraqlar çox paslanmışdır. Ona görə də onların müəyyən hissəsi ovxalanmışdır. Onlar qövsşəkilli olub, kiçik dəstəyə malikdir. Bunlardan birinin sulğucunda sağanaq da qalmışdır.

**Bıçaqlar.** İki tip bıçağa təsadüf olunmuşdur. Onlardan birinin hər iki tərəfi iti və ucu şişdir. Dəstəyində və tiyəsində ağa çürüntüsünün izi vardır. Görünür, onun taxtadan qını da olmuşdur. Dəstəylə tiyə hissəsinin birləşən yerində çıxıntı vardır. Bu bir növ kiçik xəncəri xatırladır (s.q. № 444). Digər bıçaqların tiyə hissəsi qövsvaridir. Onların burun hissəsi sınmışdır (s.q. № 587-569). Sulğuncu yastı və uca doğru şişdir.

**Nizələr.** Qazıntılar zamanı qədim silah növlərindən ən çox nizə əldə edilmişdir. Bunlar əsasən eyni formalı olub, yalnız ölçülərinə görə bir-birindən fərqlənir. Nizələr qəbirlərdə əsasən ölünün üzü, önündə dik sancılmış vəziyyətdə, yaxud kəllə üzərindəki torpağa batırılmış və ya köndələn qoyulmuş vəziyyətdə müşahidə edilmişdir. Nüydi qəbiristanlığında əksər qəbirlərdə nizə ucları əldə edilmişdir. Nizə uclarından 4 ədəd 10 saylı torpaq qəbirindəki skeletin üzü önüdə dik batırılmışdır. Onlar uzun olub, yarpaqşəkilli tiyəsi vardır. Tiyənin hər iki yanı iti olub, uca doğru daralır və şişləşir. Tiyənin ucundan başlayaraq boğazına doğru mərkəzi səthi ilə hər iki tərəfdən çıxıntı uzanır. Bu azca, qabarıq kimi bilinir. Bu çıxıntı saplağadək keçərək boruşəkilli hissəyə qədər davam edir. Boruşəkilli sap keçirilən hissəsi bir tərəfdən ucdan enli və getdikcə daralan açıqlığa malikdir. Bu da nizələrin saplanmasını asanlaşdırmaq, möhkəmliyini təmin etmək üçündür. Nizələrin uzunluğu 22,5 sm olub, ondan 9,5 sm tiyə, 4 sm boğaz, 9 sm boru hissəsidir. Nizə ucluqlarının boğazı incədir (s.q. № 518). Digər nizə ucluqları da ölçülərinin müxtəlifliyi nəzərə alınmazsa demək olar ki, eyni formadadır (s.q. № 497, 586, tablo 32).

11 saylı torpaq qəbirində aşkar edilmiş nizə ucluqları saxsı qabların arasında qoyulmuşdur. Bu nizə ucluqları kiçik və miniatür hazırlanmışdır. Onlardan biri daha zərif istehsal olunmuşdur. Onun ucu şiş, orta hissəsi başqa nizələrə nisbətən enli, boğazı incədir. Kiçik boruşəkilli saplağı vardır (s.q. № 558). İki ədəd qalan nizə ucluqlarından birinin tiyəsi həddən çox korroziya olunmuş və formasını qismən itirmiş, o biri isə yaxşı qalmışdır. Nizə ucluqlarının saplağında ağac çürüntüsü qalınlığına görə onlara ağac sap keçirildiyini bildirir. 6 saylı torpaq qəbirində nizə ucluğu ilə yanaşı bir ədəd mizrab (süngü) də tapılmışdır. Onun tiyə

hissəsi isə xəncər tiyəsi formasında olub, saplağının borusu nisbətən böyükdür (s.q. № 500).

**Tunc və dəmir bilərziklər.** Əsasən tuncdandır, yalnız bir ədəd dəmir bilərziyə təsadüf edilmişdir. Belə ki, içəri tərəfi yastı, üstü balıq beli şəkildədir (s.q. № 443, 470, 522, 566, tablo 31). Bunların ucları bir-birindən aralı və bir qədər xaricə qatlanmış formada hazırlanmışdır. Bilərziklərin ucları döyülüb yastılanmışları da vardır. Bilərziklərin içərisində bir ədəd en kəsiyi dairəvi formasına təsadüf edilmişdir, onun ucları bir-birinə kip yapışdırılmışdır. (s.q. № 563, tablo 31).

**Tunc üzüklər.** Müxtəlif forma böyüklükdə hazırlanmış üzüklərin bəzisinin ucları qalın və baş-başa çatılmış formada, bəzisi aralı, bəzisinin ucu bir-birinin üstünə çatmışdır (s.q. № 438, 461, 472, 501, 567).

Bunlardan bilərziklər kimi içəri tərəfi yastı, üstü qabarıq, en kəsiyi dairəvari və düzbucaqlı şəkildə olanları vardır. Üzüklərin biri dəmirdən olub, enli qaşı vardır. Ona kiçik tunc muncuq da keçirilmişdir (s.q. № 567).

Daha bir ədəd barmaqcıl (üzük) də diqqəti cəlb edir. Bir neçə cərgədən ibarət sıra ilə qatlanmış bu tunc bəzək əşyası bütöv çubuqcuğun dolanmasından əmələ gətirilmişdir.

**Muncuqlar.** Nüydi qazıntılarında hələlik müəyyən qədər muncuq nümunələri əldə edilmişdir. Onların içərisində şüşə, əqiq, metal (tunc), pasta və s. rast gəlmək olar. Muncuqlar rombvari, çəlləkvari, ulduz şəkilli, uzunsov, dairəvi formadadır (s.q. № 436, 462, 471, 515, 523, 555, 557).

Bu muncuqların əksəriyyəti zəngin avadanlığı olan 11 saylı torpaq qəbirdən tapılmışdır (40-a qədər). Bundan başqa burada çox nazik tunc lövhədən hazırlanmış dairəvi formalı bəzək əşyası da tapılmışdır. Onlardan biri hamar səthə malik olub, bir tərəfi qabarıq, əks tərəfi çökəkdir. Onun iki kiçik deşiyi vardır ki, bu da paltar üstünə tikmək üçündür, digər bəzək isə yenə nazik tunc lövhədən olub, bir tərəfi qabartma dilikli formada hazırlanmışdır. Onun kənarları dalğalı dairə şəklindədir, çökək üzündə kiçik ilməsi vardır (s.q. № 556).

Bundan başqa üzərində cızma naxışı olan uzunsov tunc bəzək əşyasının qırıqları da əldə edilmişdir. Tapıntılar içərisində midbaraoxşar iki dəmir halqa da tapılmışdır. Onlar bir-birinin yaxınlığında idi. Ola bilsin ki, at gəmidir, uzun illərdən biri torpaqda qalaraq çürüyüb aralanmışdır (s.q. 562). Lakin buradan heç bir başqa at ləvazimatı tapılmamışdır. Tapıntılar içərisində dən daşı parçası, heyvan buynuzu, gil qapaqlar da vardır.

**Gümüş sikkələr.** 11 saylı torpaq qəbirdə skeletin topuqları üzərində kiçik qonur rəngli, ağzı novçalı (ağzı və qulpu qırılmış) şəkildə gil qabın içərisində 36 ədəd tapılmışdır. Onlar yaxşı qalmış, üzərindəki təsvirlər aydındır. Heç bir yazısı yoxdur. Pulların bəzisinin üzərində azca sarı mis cənginə də rast gəlmək olar. Onlar qeyri-bərabər dairədə zərb olunmuşdur. Pulların bir üzündə insan başının profilindən sxematik görünüşü, əks üzündə isə kresloda oturmuş və əlində

söykənəcək dayaq, o biri əlində isə quş və ya heyvan tutmuş fiqur təsvir olunmuşdir. Nüydü kəndi yaxınlığındakı qədim abidədə aparılmış arxeoloji qazıntılar bu vaxta qədər çox cüzi olmasına baxmayaraq onlardan əldə edilən maddi-mədəniyyət zənginliyi burada antik dövrün izdihamlı bir yaşayış məskəninin varlığını göstərir. Lakin bu kiçik qazıntılar onun yaşayış yerini tam və dəqiqliyi ilə aşkara çıxara bilməmişdir. Burada ardıcıl qazıntılar zamanı ətraf ərazidə də diqqətli təqiqat aparılmasına və bu zəngin nekropolun münasib yaşayış mənzilləri və tikililərinin tapılıb öyrənilməsinə səy göstəriləcək.

**Uzunboylar abidəsi.** Ekispedisiya müddətində ətraf ərazinin tətbiqi ilə də müəyyən dərəcədə məşğul olunmuş və bəzi yeni abidələr aşkara çıxarılmışdır. Ümumiyyətlə, Şirvan ərazisində, o cümlədən Ağsu rayonunda antik və orta əsr abidələri olduqca çoxdur. Rayonun dağlıq hissələrində, xüsusən alçaq boz dağlardan və yaylalardan ibarət münbit torpaqlara malik olan sahələrdə bu dövr abidələrinə daha çox rast gəlmək olar. Nüydi qədim yaşayış yeri yaxınlıqlarında Nuran, Xasıdərə, Sanqalan, Qırlar kəndləri ətrafında eyni tip abidələr vardır. Xasıdərə və Sanqalan kəndləri arasında Uzunboylar deyilən sahə yerləşir. Bura əkin üçün şumlandığından antik dövr üçün səciyyəvi maddi-mədəniyyət qalıqlarının üzə çıxdığı müşahidə edilmişdir. Sahə axtarılmış, şumun üzərində insan sümükləri, saxsı qab parçaları, kül-kömür izləri diqqəti cəlb etmişdir. Buradan toplanan keramika məmulatı onların eramızdan əvvəlki minilliyin son rübünə xas materialdan ibarət olduğu sübut edir. Həmin qalıqlar tapılan yer sahənin ən hündür nöqtəsidir. Bura həm cənuba tərəf geniş çölləri və həm də şimala tərəf dağları seyr və müşahidə etmək üçün bir növ amfiteatrı xatırladır. Bu cür tapıntılar Uzunboylar sahəsinin lap yaxınlığında, şərqə doğru “Daşçıxan” deyilən yerdən də məlumdur. Şübhəsiz, bunlar bir abidəyə məxsusdur. Lakin yerüstü axtarışlarla onun sahəsini və yaşayış yerini dəqiqləşdirmək mümkün olmadı.

Uzunboylar abidəsində toplanan tapıntıların Nüydi abidəsi materialları ilə müəyyən uyğunluğu varsa da, onun ilk dövrləri üçün daha çox yaxınlığa malikdir. Belə ki, tapılan kiçik dolçanın gilinin tərkibi təmiz olub, üzəri anqoblanmışdır. Onun ağzı dairəvi, gövdəsi yumru, oturacağı düzdür, lentvari qulpu, kənarı ilə çiyninə yapışdırılmışdır. Onun hündürlüyü 8 sm, ağzının diametri 5 sm, oturacaq diametri 4 sm-dir. Bundan başqa gil qab ağzının kənarı, qapaq qırığı və s. tapılmışdır ki, onların bəzisi boz rəngdə anqoblanmışdır, bəzisi də qırmızı rəngə çəkilmişdir. Qırmızı rəng qab əvvəlki minilliyin ikinci yarısına, xüsusən son dövrlərə aid qiymətli məlumat verə bilər.

**Təpədalı (Qırlar) yaşayış yeri.** Uzunboylar abidəsindən 6-7 km şərqə doğru Qırlar kəndinin şimal-şərqində **Təpədalı** adlı antik dövr və orta əsrlərə aid möhtəşəm abidənin qalıqları vardır. O hələ 1960-cı illərdə müəllif tərəfindən qeydə alınmış və abidələrin mühafizə təşkilatlarına verilmişdir. Təpədalı qədim yaşayış yerinin Azərbaycan SSR Mədəniyyət Nazirliyinin Abidələri Mühafizə siyahısına daxil olmasına baxmayaraq 1971-ci ildən həmin sahə üzüm bağı üçün

şumlanmışdı, nəticədə çoxlu dağıntı olmuşdur. Bundan əlavə abidənin yerləşdiyi sahənin üzümlüyə çevrilməsi onun mütamadi olaraq dağılacağına səbəb olacaq və gələcək arxeloji qazıntı işləri aparılması işini çətinləşdirəcəkdir. Burada yenidən axtarışlar nəticəsində nəhəng təpənin üstündə bişmiş kərpic, saxsı qab qırıqları, ocaq yerinin varlığı təpənin döşündə isə nisbətən düzən hissədə 10-12 hektara qədər sahədə antik dövrü xarakterizə edən saxsı qab qırıqları, uzunsov, bir növ qabırğavari dən daşları qalıqlarının səpələndiyi müşahidə olunmuşdur. Yerüstü tapıntılarla abidənin ilk dövrünü hələlik e. ə. I minilliyin son rübünə aid etmək olar. Təpənin özünə gəlincə, onun üstü orta əsrlərə aiddir. Lakin bu barədə yalnız arxeoloji qazıntı apardıqdan sonra qəti fikir söyləmək olar. Bu abidə də Uzunboylar, Nüydi yaşayış yerləri ilə eyni yüksəklikdə və eyni mövqedə yerləşir. Onlar Şamaxı və Qəbələ arasında düz xətt üzrə gedən aranla dağ arasındakı hündür yaylaların üstündə yerləşir. Çox güman ki, Qəbələ və Şamaxı arasındakı qədim yollar məhz bu yaşayış yerləri boyu olmuşdur.

**1973-cü il**

Arxeoloji dəstə 1973-cü il iyunun 21-dən avqustun 19-na kimi Ağsu rayonu Nüydi kəndinin qərb kənarında, eramızdan əvvəlki minilliyin son rübü və eramızın ilk əsrləri çərçivəsinə aid yaşayış yerinin nekropolunda iş davam etdirmişdir.[8] Əvvəllərdə başlanmış qazıntı, xüsusən keçən ildən yarımçıq qalmış abidələr dərinə qazılmış və ətrafa doğru genişləndirilərək işlənmişdir. Qeyd etmək lazımdır ki, abidə yerləşən bütün sahə bilavasitə baş verən üzüm bağı içərisində yerləşdiyindən çöl tədqiqat işlərində bir sıra maneələrin qarşıya çıxmasına səbəb olmuşdur. Buna baxmayaraq rayon və kənd yerli təşkilatların köməyilə lazımi tədbirlər görülmüşdür.

Qazıntı sahəsində abidələr dörd tərəfə kütləvi şəkildə davam edir. İmkanı nəzərə alaraq (bağın seyrəkliyini və abidələrin çoxluq meylini) sahənin şərqə və şimala doğru genişləndirdik. Bununla əlaqədar olaraq bir neçə üzüm tənəyi də çıxarıldı. Artırılan sahədə, üst qarışıq qara torpaq layında, 0,3 metr dərinlikdən saxsı qab və qırıqlarına, tunc üzük və muncuğa rast gəlinirdi ki, bu da burada qəbir abidəsinin olmasını, habelə onun şum zamanı dağıdılmasını bildirirdi.

Qazıntıdan çıxan torpağı istənilər səmtə atmaq mümkün deyildi. Onun ki, torpaq xərəylə yalnız qazıntının cənub-qərb kənarına, 1965-ci ildəki qazıntı yerinin çalasına daşınmışdır. Atılmış torpağı uzağa kürümək üçün texnikadan istifadə etmək imkanı olmadığından bütün işlər əl ilə görülmüşdür.

[8] Ekspedisiya bu tərkibdə işləmişdir: dəstə rəhbəri Fazill Osmanov (21.VI-19.VIII.73), tarix elmləri namizədi Fərhad İbrahimov (21.VI-19.VIII.73), aspirant Əli Haqverdiyev (21.VI-19.VIII.73), Tarix elmləri namizədi Faiq Hüseynov (21.VI-20.VII.73), sürücü B.B.Mehdiyev.

Dünyanın cəhətləri üzrə götürülmüş qazıntı sahəsi bir daha yoxlandı, köhnə və artırılmış yeni kvadratlar müəyyənləşdirilib mıxçalarla bölmələrə ayrıldı. Keçən il yeddi kvadratdan ibarət olan qazıntı indi şimal, şərq-qərb istiqamətlərinə artırılaraq iyirmi birə çatdırıldı. Hər bir kvadratın ölçüsü 2,5x2,5 mertdir. Bu, bəzi müstəsnalığı nəzərə almasaq keçən il də belə olmuşdur. 1973-cü ildəki qazıntı keçən ilki qazıntı sahəsini də əhatə etdiyindən, yəni 1972-ci ildə qazıntı işi hələ sona çatmadığından və yeni abidələrin açılması ilə əlaqədar genişlənən habelə böyük ölçüdə qeyd edilmiş V-VII kvadratlar bu il yenidən ümumi qaydaya uyğunlaşdırıldı. Keçən il yalnız V kvadratın bəzi hissəsində xam torpağa çatmışdır. Qazıntının planı 1 metr: 4 sm miqyası ilə millimetrlik kağız üzərinə müəllif tərəfindən köçürülmüşdür.

Qazıntı işləri ilə yanaşı, iş vaxtından əvvəl və sonra Nüydi düzü yaşayış yeri dönə-dönə gəzilib yoxlanılır, hər dəfə müxtəlif maddi-mədəniyyət qalıqları qeydə alınırdı. Başlanmış və hal-hazırda davam etdirilən qazıntı yeri əsasən abidənin qəbiristan hissəsidir. Burada əsasən şimala və ətraflara doğru təqribən 50 m-lik məsafədə dən və tikinti daşları, saxsı qırıqları müşahidə olunur; xüsusən işlək üzü çökək, əks tərəfə qabarıq olan uzunsov dən daşlarına daha çox təsadüf olunur. Şimala doğru, qeyd edilən məsafədə yaşayış binalarının olması haqqında ehtimal doğuran dən və tikinti daşları töküntüsü yerində qazıntı aparmaq fikrinə gəldikcə də yuxarıda göstərdiyimiz çətinliklər yenə də qarşıda dururdu. Çünki sovxoz təşkilatları yalnız başladığımız sahədə bəzi üzüm tənəklərinin çıxarılmasına icazə vermişdir.

Təkcə Nüydi düzündə deyil, Nüydi kəndindən şimal şərqə doğru, 1 km-lik məsafədə yeni üzüm bağı salınması ilə əlaqədar abidələr üzə çıxarılmışdır. Qarağac dibi, Baş yer və Qozlu bulaq adlanan bu sahələr bir-birinə bitişik olub, eyni abidəyə aiddir. Buradan antik dövr üçün səciyyəvi olan saxsı qab qırıqları və tikinti daşlarının qalıqları müşahidə olunur. Bu abidədən 0,5 km cənuba doğru Xanqıran deyilən sahənin şimal kənarında kürəxananın qalıqlarını xatırladan çoxlu yanıb kərpicləşmiş töküntülər vardır. Burada yəqin ki, müəyyən bir istehsal ocağı olmuşdur.

Qazıntı sahəsinin şimal kənarında iş davam etdiriləcək XI və XII kvadratların arasında bir dağılmış qəbir abidəsinin izi müəyyən edilmişdir. Burada saxsı qab qırıqları insan sümüklərinə qarışmışdır. Bundan əlavə, XV kvadrata XVI kvadratın arasında yenə də vaxtı ilə şum zamanı dağıdılmış qəbir abidəsi qablarından bir ədədi başı aşağı üzüm tənəyinin dibində (0,6 metr dərinlikdə) salamat qalmışdır. Kiçik gil dolçadan ibarət bu qabın ağzı novçalı formada olub ikitilli qulpu ağzının kənarı ilə çiyninə yapışdırılmışdır. Qabın boğazı silindrik hazırlanaraq üzəri iki batıq xətlə çevrilmişdir. Gövdəsi dairəvi və oturacağa doğru yığcamlanmış formadadır. Onun oturacağı düzdür. Qabın çiynində üç yerdə yapma

düyməciklərdən ibarət alt-üst bəzək düzəldilmiş və onların arası iki dalğavari xətlə əlaqələndirilmişdir.[9]

Qazıntının üst qarışdırılmış təbəqəsindən dən daşları, saxsı qab qırıqları, dəvəgözü və çaxmaqdaşından alət və qəlpələr, habelə toxa tapıntısına rast gəlinmişdir. Bütün bunlar əsasən 0,25-0,7 metr yer səthindən dərinlikdə aşkar edilmişdir. Bu tapıntılar içərisində daş toxa xüsusilə diqqəti cəlb edir. Ona görə ki, bu cür əmək alətlərinə abidədə birinci dəfə təsadüf olunur. Bərk daş cinsindən düzəldilmiş bu toxanın üst (yuxarı) hissəsi sınmış, yaxud sındırılmış və kəsiyi oval forma almışdır. Onun sınığından göründüyü kimi içərisi çəhrayıdır, işlək hissəsi, yaxud ağzı çox iti olub bir növ təbərzin baltanın ağzını xatırladır. Ağzından bir qədər aralı, gövdəsindən tutmaq, yaxud bağlamaq üçün yanlarından döyülüb nazildilmişdir. Bu hissəsinin çətinliklə çapılıb qopardılması hiss olunur. Çünki, bu daş toxa çapılıb qopardılması hiss olunur. Çünki, bu daş toxa bərkliyinə görə qırmızımtıl qraniti xatırladır. Toxanın üzəri də sürtülüb, hamarlanmış, ağzı isə itilənmişdir.

Qeyd edilən tapıntılar, xüsusilə daş toxa Nüydi yaşayış yerində məskunlaşmanın hələlik tunc dövründən daha doğrusu onun son mərhələsindən mövcudluğu haqqında təsəvvür yaradır.

Nüydi ellin dövrü qəbiristanında bu iki arxeoloji qazıntılar zamanı 18-ə qədər torpaq qəbiri aşkar edilmişdir. Onların bəzisi dağılsa da, əksəriyyəti yaxşı qalmışdır. Həmin abidələr haqqında daha aydın təsəvvür yaratmaq üçün ayrı-ayrılıqda təsvirini verməyi məqsədəuyğun hesab edirik. Onu da qeyd etmək lazımdır ki, təsviri veriləcək qəbir abidələrinin sıra №-si lap ilk qazıntılar zamanı aşkar edilmiş qəbirlərin ardıcıl davamıdır.[10] Qəbirlərin çoxu təsərrüfat işləri zamanı dağıdılmışdır.

**14 saylı torpaq qəbir.** Keçən ildən açılmış sahədə, I kvadratda 0,7 metr dərinlikdə yerləşən bu qəbir abidəsi dağıdıldığından ətrafına qoyulan avadanlığı demək olar ki, sınıb xarab olmuş, sümükləri isə dağılmış şəkildə qalmışdır. Uşağa aid qəbir abidəsində skeletin vəziyyətini müəyyənləşdirmək mümkün oldu. Belə ki, onun başı şərqə olmaqla sol böyrü üstündə cənuba doğru istiqamətləndiyi aydınlaşdırılır. Əl barmaqları və qıç sümükləri ilə yanaşı bir ədəd tunc üzük də tapılmışdır. Üzüyün en kəsiyi üçbucaq formada olub, üstü qabarıq, içəri tərəfi hamardır. Onun ucları bir-birinə yaxınlaşdırılmış və bir qədər arxaya qatlanma vəziyyətində hazırlanmışdır. Bu tip üzüklər, hətta eynən bu formada bilərziklər Nüydi abidəsi üçün səciyyəvidir.

---

[9] Mötərizədə göstərilən №-lər çöl qeydiyyatının sıra nömrəsini bildirir. Çöl qeydi nömrələnməsi 1972-ci il qeydiyyatının davamıdır.

[10] Bunlardan 4 torpaq qəbri 1965-ci ildə, 9 torpaq və 2 küp qəbri 1972-ci ildə aşkar edilmişdir. Odur ki, torpaq qəbirlərinin sıra nömrəsi 1973-cü ildə 14-dən başlanır.

Gil məmulatı içərisində bir ədəd dördbucaq formalı manqala oxşar əşya aşkar edilmişdir. Onun dərinliyi 8 sm, diametri 14x15 sm-dir. Çəhrayı rəngdə olan bu əşyanın gilinin tərkibində qum qarışığı vardır. Təəssüf ki, o həddən artıq ovxalanıb torpaq halına çevrilmişdir. Bundan başqa iki ədəd gil dopu tapılmışdır ki, bunlardan biri sarımtıl, o biri isə boz rəngdə olub gilinin tərkibi boz-qara rəngdədir. Qablardan hər ikisinin ağzı qırılmışdır. Onların lentşəkilli tək qulpları çiyinilə yəqin ki, ağzının kənarına yapışdırılmışdır. Gövdənin çevrəsi boyu üç yerdə yumru çıxıntıları vardır, oturacaqları düzdür. Bundan başqa cam formalı təkqulp, ağzı əyintili qablar da vardır ki, bunlar həddən artıq sınıq olduğu üçün yalnız yerindəcə qeyd edilmişdir və götürülməsi lazım bilinmədi. Həm də bu tip gil qabların bütöv formaları həmin abidədən çox götürülmüşdür. Buradakı qablar içərisində yenə də ağzı üçgül və gövdəsində kiçik lüləyi olan təkqulp qabın qırıqlarına da təsadüf edilmişdir.

**15 saylı torpaq qəbir.** Bu qəbir abidəsi XVI kvadratın şimal-şərq küncündən 1 metr qərbə doğru, 0,6 metr dərinlikdə aşkar edilmişdir. Dayazda yerləşən bu abidə bu dağıntıya məruz qaldığından skelet pis saxlanmışdır. Onun yalnız yerləşdiyi sahə (eni 0,18, uzunu 0,5 m) və qəbir avadanlığı qırıqları ilə sümüklərin qarışığı müəyyən edilmişdir. Kəllə sümüyü parçalanmışdır. Şərq-qərb istiqamətində qoyulmuş ölünün başı şərqə, üzü şimala doğrudur. Onun başı yanından bir tunc bilərzik və iki ədəd enli tunc məftildən düzəldilmiş uzunsov sırğa tapılmışdır. Bilərziyin en kəsiyi üçbucaq formasındadır. Onun ucları bir-birindən azca aralı və bir qədər xaricə əyilmiş vəziyyətdə hazırlanmışdır. Sırğalara gəlincə, onlar nazik metal lövhədən kəsilmiş və bir tərəfi burma şəklində düz boru çubuqcuq kimi formalaşdırılmış, qalan hissəsi isə qulağa keçirmək üçün yarımdairə biçimində düzəldilmişdir. Metal bəzək əşyasından əlavə skeletin baş sümüyünə yaxın yerdə çoxlu saxsı qab qırıqları vardır. Bu qablar içərisində qədim sakinlərin məişəti üçün səciyyəvi badya və çölmək tipli gil qab qırıqları nisbətən çoxluq təşkil edirdi. Həmçinin, bu qabların qırıqları da yalnız qeydə alındı. Onlar həm həddən artıq sınıq olduğu və həm də həmin tiplərdən salamatları çoxlu miqdarda toplandığı üçün götürülmədi.

**16 saylı torpaq qəbir.** Bu abidənin əlamətləri 0,5-0,6 metr dərinlikdə aydın bilinirdi. Həmin səviyyədə qab-qacaq və heyvan sümükləri görünməyə başlamışdı. XV və ona paralel XVII kvadratlarda, daha doğrusu bu kvadratların müəyyən hissəsini əhatə edən qəbir abidəsi materiallarının miqdarına görə çox zəngindir. XVI kvadratın şimal-qərb küncündə, qəbirin avadanlığına yaxın bir öküz və bir xırda buynuzlu heyvan sümükləri aşkar edilmişdir. Burada öküzün 4 ayaqları üstündə kəllə hissəsi qoyulmuşdur.

XVII kvadratın cənub-qərb küncündə aşkar edilən 16 saylı torpaq qəbiri 0,9 metr yer səthindən dərində yerləşmişdir. Sol böyrü üstündə olan skeletin başı şimal-şərqə, üzü cənub-şərqə doğru sıx bükülü vəziyyətdə idi. Bükülmə o qədər sıx olmuşdur ki, ayaqlar və topuq çanaq sümüyünə bitişmiş şəkildə, dizlərlə dirsək bir-

birinin üstündə idi. Əllər üzünə doğru olub, barmaqları burun hissədə qalmışdır. Skeletin qız sümüyünün dizdən aşağı və yuxarı ayrılıqda uzunluğu 40 sm-dir. Kəllədən çanaq sümüyünə qədər isə 80 sm kəllə pis qalmışdır. Dişlərin hamısının salamat qalmasına görə onun cavan adama aid olduğunu söyləmək olar. Skeletin vəziyyəti və avadanlığı bunun kişiyə məxsus olduğunu bildirir. Ölünün əmlakı hesab edilən avadanlıq, xüsusilə gil qablar onun kəlləsi yanında ayaqlarına qədər bütün arxası boyu düzülmüşdür. Başqa avadanlığı nəzərə alınmazsa, onun ətrafına 42-yə qədər gil qab qoyulmuşdur. Qablar iri təsərrüfat küplərindən tutmuş xırda süddan, camlara qədər müxtəlif çeşidləri əhatə edir. Skeletin arxasında bir qədər aralıda dördkünc formalı bir saxsı tava, içərisində də yandan bir qulpu olan ağzı novçavari gil qab, ayaqları yanında iri küp sınıqları və bütövləri vardır. İri küplərdən ikisi ayaqları altında bir-birindən aralı dik qoyulmuş və ağızları yastı daşla örtülmüşdür. Bunların yaxınlığında isə iki ədəd qayıqvari dən daşı bir-birinin üzərinə qoyulmuşdur. Dən daşlarının ölçüsü 50x25 sm-dir. Bu daş əmək alətlərinin bir tərəfi çökək və işlənib hamarlanmış, əks tərəfi isə qabarıq və çopurdur. Ümumiyyətlə, istər gil qablar və istərsə də dən daşları qırıq və təkrar materialdan ibarət olduğundan onların hamısı götürülmədi. Qabların ağzı novçalı və üstdən arakəsməli, üçgül, dördgül formalılar, habelə tayqulplar, manqal sınığı və s. aşkar edilmişdir. Bunlar əsasən qırmızı rəngdə və əl ilə dəzgahsız hazırlanıb bişirilmişdir. Ümumiyyətlə, bütün gil qablar dulus çarxından istifadə edilmədən hazırlandığı üçün sonrakı qab təsvirlərində bu barədə danışmayacağıq. 16 saylı torpaq qəbirindən bir neçə qab nümunəsi və başqa avadanlıqlar götürülmüşdür ki, onların qısa təsvirini veririk:

1. **Kasavari qulplu gil qab** (s.q. № 607). O sarımtıl rəngdə olub, ağzı enli, oturacağa doğru daralır. Gilinin tərkibində ağ qum dənəcikləri vardır. Qabın ilgəkvari qulpu ağzının kənarı altına yapışdırılmışdır.

**2. Gil fincan** (s.q. № 608). Bu qabın ağzı dairəvi olub, qırmızımtıl rəngdədir. Boğazı yığcam, çiynindən bir az qabarıq olan bu qab oturacağa doğru yüngülvari daralır. Onun gilinin tərkibində ağ qum qarışığı vardır.

**3. Ağzı dördgül gil dolça.** Onun lentvari qulpu ağzındakı novçalardan birinin ucu ilə çiyninə yapışdırılmışdır. Enli boğazı bir batıq xətlə və deşmələrlə çevrələnmişdir. Qulpun gövdəyə yapışan hissəsindən köndələn eyni istiqamətdə üç yerdə bərabər məsafədə yumru düyməciklərdən ibarət yapmaları vardır. Bu tip qablar Nüydi abidəsindən çox tapılır (s.q. № 609).

**4. Gil qalqa.** Onun ağzı dairəvi, boğazı yığcam, oturacağı düzdür. Çiynindən əyməli qulp dik qaldırılmışdır. Qab qırmızı rəngdədir (s.q. № 610).

**5. Gil badya.** Ağzında irəliyə doğru və bir qədər yuxarı dikəlmiş şəkildə novçası olan bu qabın rəngi qırmızıdır. En kəsiyi dairəvi olan qulpu çiyni ilə ağzının kənarına yapışdırılmışdır. Onun kiçik oturacağı düzdür (s.q. № 611).

**6. Gil fincan.** Kiçik həcmdə olan bu qab uzunsov, bir növ qayığı xatırladan formada hazırlanmışdır. İlgəkvari qulp qabın ortasında ağzının kənarı ilə gövdəsinə

yapışdırılmışdır. Onun bu hissəsi bir qədər içəriyə basılmış şəkildədir. Kiçik oturacağı da uzunsov və düzdür. Qırmızımtıl rəngdə olan bu gil qab 611 saylı gil qabın içərisinə qoyulmuşdur (s.q. № 612). Bu tip qablar da Nüydi abidəsi üçün səciyyəvidir.

**7. Gil süddan.** Ağzı novçalı və 7 deşmədən ibarət süzgəci olan bu qabın rəngi bozumtuldur. Onun gili təmiz və içərisi qırmızıdır. Gövdəsi yumrudur. Üçtilli qulpunun ağzının kənarına yapışan hissəsində iki qulaqcığı vardır. Qulpun digər ucunun gövdəyə yapışdırılan hissəsində, qabarıq yerində yapma düyməcikləri vardır. Onun oturacağı içəriyə doğru batıqdır (s.q. № 613).

**8. Gil badya.** Enli ağızlı kasacıqdan ibarət gövdəyə malik bu gil qabın ağzının kənarından bir novça əyintisi vardır. Onun qaramtıl qalan saxsısı vardır. Qabın ağzının kənarından (sol tərəfdən) en kəsiyi lentvari qalın qulp yapışdırılmışdır. Qulp kənara doğru uzanaraq ucu qıra şəklində aşağıya doğru qatlanaraq heç bir yerə yapışdırılmamış bir növ yandan qulplu olan çömçəni xatırladır. Bəlkə də bu elə metal və ya başqa ərintilər zamanı “çömçə” (lyaçka) vəzifəsi daşımışdır (s.q. № 614).

**9. Tunc üzüklər.** Bunlardan birinin ucları sivri və aralı, en kəsiyi lentşəkillidir; üzüyün uclara yaxın hissəsi enli, ortasına yaxın hissəsi isə xaricdən içəriyə doğru batıqdır. Onun üzəri cəng atmışdır (s.q. № 615).

Digər tunc üzüklər başqa formadadır. Onların en kəsiyi üçbucaq formasında olub üstü qabarıq, içərisi isə yastıdır. Üzüyün ucları bir-birinə çatdırılmışdır (s.q. № 616).

**10. Tunc əşya.** En kəsiyi yarımdairə təşkil edən bu tunc əşya iki ədəd olub, onlardan biri nisbətən böyük, digəri isə kiçikdir. Onların bir tərəfi qabarıq-dəyirmi, o biri üzü isə çökəkdir. Kənarları qeyri-bərabər kəsiyə malikdir. Bu kiçik tunc əşyanın kənarlarında iki yerdə, bərabər məsafədə kiçik deşiklər kiçik deşikləri vardır (s.q. № 617). Bunlar qabların yanında bir-birinin içərisində ağzı yuxarı qoyulmuşdur. Ola bilsin ki, bunlar zərgərlik tərəzisi kimi istifadə edilmişdir. Çünki bir o qədər də zərif düzəldilmişdir. Digər tərəfdən bəzək şeyləri adətən skeletin üstündə və onun yaxın ətrafında müşahidə olunur.

**11. Tunc əşya (biz və ya sancaq).** Ucu şiş, uzun biz formasında olan bu tunc əşya incə hazırlanmışdır. Onun əl tutan hissəsinə yaxın yeri yastı rombvari düzəldilərək mərkəzindən kiçik deşik açılmış və oraya üzükvari tunc halqa keçirilmişdir (bu metal halqa aləti əldə tutan zaman baş barmağa keçiriləndə rahatlıq yaradır. Buna bəzən metal zəncir də bağlanır ki, bu da asmaq üçün olmuş, yaxud yaraşıq məqsədi daşımışdır). Buradan yuxarı bütöv metal çubuqcuq iki hissəyə bölünmüş, lentvari ucları ayrı-ayrılıqda içəriyə doğru dolanaraq bir-birinə yaxınlaşdırılmış və tunc məftillə cəmləşdirilmiş və bu bir növ ona yaraşıq vermişdir (s.q. № 618). Bu tip tapıntılar Mingəçevirin küp qəbirlərindən də məlumdur. Nüydi abidəsindən isə ikinci tapıntıdır. Bu tunc əşyadan bəzək kimi

istifadə olunmaqla yanaşı sənətkarlığın müəyyən sahəsində biz kimi də işlədilməsi ehtimal olunur.

**17 saylı torpaq qəbir.** Bu torpaq qəbiri XXI kvadratın şimal-şərq küncünə doğru olan sahədə aşkar edilmişdir. Yerin quruluşu ilə əlaqədar olaraq qəbirin avadanlığının üstü yer səthindən 30-40 sm dərində görünmüşdür. Uşağa aid bu abidədə skelet demək olar ki, qalmamışdır. Ona görə də onun istiqamətini dəqiq müəyyənləşdirə bilmədik. Qəbirin avadanlığına görə qız uşağına məxsusiyyəti ehtimal olunur. 0,3-0,4 metr dərinlikdə görünən avadanlığın altına qədər qazılıb təmizləndikdə dərinlik 0,95-1 metrə çatdı. Bu abidənin avadanlığı da özünə görə zəngin hesab olunur. Kəllə sümüyü altından və yanından xırda, nazik lövhə misdən düzəldilmiş gül formalı baş bəzəyinin qırıqları tapılmışdır. Bundan başqa bir dəmir bıçaq qırığı, dəmir və tunc bilərzik, tunc üzük, muncuq, dörd ədəd göz muncuğu, gil matra, süddan, çölmək, habelə başqa qırmızı rəngli qablar aşkar edilmişdir. Bir neçə qulplu qazanı xatırladan gil çölməkləri daha çox rast gəlinir və bunlar Nüydi abidəsi üçün mühüm səciyyə daşıyır. Həmin qablardan bu qəbir abidəsində 7 ədəd bir yerdə qoyulmuşdur. Bundan əlavə dörd ədəd gil vazaya təsadüf olunmuşdur. Onlardan ikisi qara, ikisi isə qırmızı rəngdə olub qara rənglinin biri üçayaqlı ağzının kənarı ilə çiyninə birləşdirilən lentvari qulplu, digəri isə bir hündür oturacaq üzərində düzəldilmişdir. Bunların hər ikisi ovuntu halına düşdüyündən götürülməsi mümkün olmadı. Qırmızı rəngli vazalardan da biri yenə də tək hündür oturacaqlı, digəri isə üç qıçlıdır. Axırıncı yaxşı qalmışdır və ətraflı təsviri veriləcəkdir. Ümumiyyətlə 17 saylı torpaq qəbirindən təkcə 20-dən çox gil qab qeydə alınmışdır. Qeyd edilən materialdan bir neçəsinin təsvirini veririk:

**Tunc üzük.** En kəsiyi dairəvi olan bu üzük metal çubuqcuqdan kəsilərək formalaşdırılmışdır. Müəyyən ölçüdə kəsilən çubuqcuğun bir ucu döyülüb yastılaşdırılmış və bir növ ilan başı formasına salınmışdır. Onun üstü isə mərkəzdən kənarlara doğru sünbül qılçığını xatırladan bitkilərlə bəzədilmişdir. Həmin yastılaşdırılmış və üstü bəzədilmiş üzüyün bir ucu o biri ucuna doğru əyilmiş və dairə şəkli almışdır. Yastılandırılan hissə üzüyün qaşını əmələ gətirmişdir.(s.q.№ 621).

**Dəmir nizələr.** Kəllə yaxınlığında dik sancılan vəziyyətdə aşkar edilmiş nizə ucluqları üç ədəd olmuşdur. Onlardan biri parçalanıb tökülmüş, ikisi yaxşı qalmışdır. Onların tiyəsi uzunsov yarpaq, sulğuncları boru şəklindədir. Tiyə hissəsinin ortası azca qabarmışdır ki, bu da onun mərkəzi hissəsinin qalın, kənarlarının və ucunun olmasını, habelə möhkəmliyini təmin etmək üçündür (s.q.№620).

**Gözmuncuqları.** Dörd ədəd gözmuncuğundan ibarət olan bəzəklər kürəcik şəklində müxtəlif materialların birləşdirilməsi yolu ilə hazırlanmışdır. Onlar altı kiçik dairəvi yaxud oval formalı, göy rəngli gözcükdən ibarət olub (bunlar firuzəyi şüşədən ibarətdir), ətrafı üç qat ağ şüşə zolağı ilə dairəyə alınmışdır. Zolaqların arası çox nazik kanalcıqla ayrılır. Bu zolaqlar şüşəvari pastaya da oxşayır. Ağ

dairəciklər arasındakı firuzə rəngli gözcüklərin bir kürə şəklində birləşən aralıq hissələri yaşıl şüşə parçaları təşkil edir və buradan sap keçirilmək üçün nazik borucuğu var. Şüşə gözmuncuqların hamısında gözcüklər 6 ədəddir (s.q.№ 625).

**Gil vaza.** Qırmızı rəngdə olan bu gil vazanın tərkibində xırda ağ qum dənəcikləri vardır. Onun gövdəsi camvari olub qalın divarlı hazırlanmışdır. Ağzının kənarı düzdür və buradan dik əymə şəklində ikitilli qulp düzəldilmişdir. Vazanın oturacağı dəyirmi olub, üç ədəd ucu şiş, qısa ayaq-dayanacaq üzərində hazırlanmışdır. Qabın üzəri hamarlanmışdır (s.q. № 627).

**Matrayaoxşar gil dolça**. Qırmızı rəngdə olan bu gil qabın gilinin tərkibinə çox xırda ağ qum dənəcikləri qarışdırılmışdır. Onun boğazı uzunsov borunu xatırladır. Ağız isə bir qədər genişləndirilmiş formada, dairəvidir. Çiynindən üç batıq xətlə çevrələnir. Qabın çiynində iki yerdə yapışdırılmış ilgəkvari qulpu vardır. Gövdə yumru olub, oturacağa doğru tədricən daralır. Oturacaq düz hazırlanmışdır. Qabın üzəri hamarlanmışdır (s.q.№ 628).

17 saylı torpaq qəbirin ağzı novçalı, qırmızı rəngli, ağzı ilə çiynini arxadan birləşdirən gil qab nümünələri də aşkar edilmişdir. Bundan başqa oradan tapılmış çoxlu çölməklərdən biri qırmızı rəngdə olub, gilinin tərkibində ağ qum dənəciyi vardır, üzəri hamarlanmışdır. Onun ağzı enli, boğazı bir qədər yığılmış, çiyni isə gövdəyə getdikcə genişlənmiş, oturacağa doğru isə yenidən formadadır. Qabın çiynində iki yerdən, bir-birinin əks istiqamətində ikitilli üçbucaq formalı qulp yapışdırılmışdır. Qulplar boğazın çökək hissəsinə doğru mayilli olmaqla dik düzəldilmişdir. Qulpların arasında yenə iki yerdə, çiyin hissədə üç batıqdan ibarət bəzəyi vardır. Oturacaq düz hamarlanmışdır (s.q. № 631). Bu tip qablar Nüydi qədim yaşayış yeri sakinlərinin əsasən maldarlıqla əlaqədar məişətinə məxsusdur. Bu cür qablar sağın zamanı istifadə etmək və ya heyvandarlıq məhsullarının emal edilməsi üçün daha yararlıdır. Bunlar həm sərnic, həm də qazan rolunu oynaya bilər.

**Kasavari qırmızı rəngli gil qab**. Onun ağzı dairəvi olub, oturacağa doğru tədricən daralır və düz oturacaqla qurtarır. Qabın ağzının kənarı düz olub, içəriyə azca meyillidir. Ağzının kənarından dik qulpu olmuş, lakin sınmışdır. Qabın gövdəsində "L" işarəsini xatırladan gil bəzək yapışdırılmış və onun üstü qabın ağzı kənarından azca yuxarı qaldırılmışdır. Bu cür yapma bəzək üç bərabər məsafədə edilmişdir (s.q.№ 630).

**Qalın divarlı orta həcimli gil küpəyə oxşar qab.** Qırmızı rəngdə olan bu qabın ağzı dairəvi, ağzının kənarlarından dik qaldırılmış qulpu vardır. Onun boğazı batıq xətlərlə (dik və çəp olmaqla) bəzədilmişdir. Qab boğazından aşağıya doğru mayilləşərək genəlir və çiynindən kəskin şəkildə yenidən oturacağa doğru daralır və düz oturacaqla qurtarır, onun kəsiyi bir növ romb şəkli alır. Bu qabın çiynində qalın və kobud kiçik daha bir qulpu vardır. Qabın iki qulpları arasında boğazından çiyninə doğru cızma xətlə işarəsində rəsmlə bəzədilmişdir (s.q. № 632)

**18 saylı torpaq qəbir.** Bu torpaq qəbir aşkar edilərkən, onun üst səviyyəsindən, daha doğrusu 1,2-1,3 metr dərinlikdə bir öküz və xırda buynuzlu heyvan sümükləri görünmüşdür. Burada öküzün başı, qıçları və başqa sümükləri aydın bilinir. Öküz başının ölçüsü 35x40 sm-dir. Onun üzü şərqə doğru bükülü və dağınıq halda idi. Heyvan kəlləsinin boğazı yanında 7 ədəd həddən artıq irrizasiya olub parçalanmış şüşə muncuq və bir ədəd içərisi boş, ağız-ağıza qoyulmuş tunc muncuq tapılmışdır. Öküz sümükləri olan sahənin qabağından bir iri qayıqvari dən daşı və başqa saxsı qırıqları aşkar edilmişdir. Saxsı parçaları çölmək, cam kimi qabların qırıqlarından ibarət idi. Bu heyvan sümüyü altında od, yanğın izi müşahidə edilmişdir.

III kvadratda aşkar edilən heyvan sümüklərinin bir qədər şimala doğru 1,5 metr dərinlikdə qəbirin avadanlığı görünmüşdür. Qəbir dördkünc formada qazılmış, ölünün qarşısında avadanlıq üçün bir qədər geniş yer götürülmüşdür. Onun döşəməsinə qədər yer səthindən 1,7-1,8 metrdir. Skeletin üzü şərqə olmaqla sol böyrü üstündə idi. Bükülü şəkildə dəfn olunmuş ölünün qolları qarnının üstündə köndələn qoyulmuşdur, əllər dirsəklərin yanında idi. İri adama aid skeletin kəllədən çanağa qədər uzunluğu 0,8 sm, qıç sümüklərindən (dizdən aşağı) birinin uzunluğu 48 sm-dir.

Skeletin dizləri qarşısında iri dəmir əşya aşkar edilmişdir. Onun oxşarları hələlik bizə bəlli olmadığı üçün qeyri-müəyyən qalsa da, bir qədər at yüyəni bəzəyi ilə əlaqədar olduğu ehtimal olunur. Lakin qəbirdən at sümüyü tapılmamışdır. Həmin dəmir əşyanın yanında qoyulan çənəsi və onun da yanında vannayaoxşar uzunsov, bir qulplu gil qab qoyulmuşdur. Onun içərisində xırdabuynuzlu heyvan sümükləri var idi. Kəllə yaxınlığında çoxlu gil qablar, əmək alətləri, silah və s. qoyulmuşdur. Gil qablardan iri çölməklər, camlar, çəhrayı rəngli vazalar (tək hündür dayanacaqlı) gövdəsi iti çıxıntı şəkilli, ağzı enli, iki qulpludur. Qulplardan biri lentşəkilli digəri isə en kəsiyi dairəvi olan çubuqcuq formalı, onun qabın ağzına yapışdırılan hissəsinin üstü yastı və qulaqcıq formasındadır. Lakin bunlar həddən artıq ovxalandığı üçün mümkün olmadı.

III və IV kvadratların arasında, ölünün ayaqları yerləşən sahədən 0,7 metr aralı bir ədəd iri təsərrüfat küpü aşkar edilmişdir. Küpün ağzı qəbirin döşəməsi səviyyəsində görünmüşdür. Onun ağzı dairəvi, boğazı isə çox qısadır. Ağzının diametri kənardan-kənara 26 sm, qalınlığı 2,5 sm, hündürlüyü 80 sm, gövdəsinin enli yerindən çevrəsi 1,9 metrdir. Küpün ağzının kənarından 7 sm aşağı çiyninə doğru dörd yerdən (bərabər məsafədə) yumru və ucları şiş bəzək məhmizlər düzəldilmişdir. Boğazdan gövdəyə doğru genələn küp oturacağa doğru daralır və altı düz formadadır. Küpün üzəri bozarmış göy rəngdə ağzının kənarı və içərisi çəhrayı rəngdədir. Gilinin tərkibində xırda ağ qum qarışığı vardır. Əl ilə hazırlanmış bu küpün gövdəsi dalğavaridir. Küpün ağzı dördkünc daşla örtülmüş, içərisinə torpaq dolmamış və içərisində olmuş məhsulun izi onun divarına qalmışdır. İçəridən, küpün ağzından 5 sm aşağı çevrə şəklində ərzaq iri bozumtul-

ağ rəngdə qalmışdır. Həmin maddə izi 10 sm aşağıya doğru davam edir və sonra qara ləkələrlə əvəz olunur. Dibi tamam qaralmış şəkildə idi. Küpün ağzı səviyyəsindən 1 metr şimal-şərqə doğru bir daş dirək sınığı da aşkar edilmişdir. Bütün bu materiallar yerindəcə qeyd edilmişdir.

Aşkar edilmiş gil qablar içərisində qırmızı rəngli, ağzında iki bir-birinə əks uzunsov novçası olan ikiqulplu yumru gövdəli dolça zövqlə düzəldilmişdir. Onun gilinin tərkibində ağ qum qarışığı vardır. Qabın üçtilli qulpları ağzının kənara çıxmış əyinti qulaqcığın altı ilə çiyninə yapışdırılmışdır. Boğazı enlidir və çıxıntı ilə çevrələnir. Bu cür iki çıxıntı uzun novçaların altında boğazı çevrələyən kəbər bəzək ilə gövdəsinin enli yerinə qədər uzadılır. Həmin çıxıntı bəzəklərin üzəri çəp batıq xətlə naxışlanmışdır (s.q. № 635). Daha bir qırmızı rəngli dərin kasanı xatırladan gil qab da diqqəti cəlb edir. Onun ilgəkvari qulpu ağzının kənarından dik qaldırılmışdır. Bu qabın ağzı enli oturacağa doğru nisbətən daralır. Oturacağı düzdür. Onun ağzının kənarında ucları birləşən, bir növ heyvan buynuzu şəklində yapma bəzəyi vardır (s.q. № 636). Gil qablar içərisində ağzı üçgül, süzgəclilər, nəlbəkiformalılar, qapaq və s. çoxlu miqdarda əldə edilmişdir ki, bunların hamısının təsvirini verməyi lazım bilmirik. Bunlardan bir ədəd qara-çəhrayı rəngli gil vazanın hündür dayanacağı vardır. Tutum hissəsi nəlbəkivari olub, ağzının kənarı ilə gövdəyə kiçik lentvari qulp yapışdırılmışdır. Oturacağı dairəvi altdan içəriyə doğru batıqdır (s.q. № 654). Gil qablardan əlavə əmək alətləri, silahlar və bəzək şeyləri də aşkar edilmişdir ki, bunlar dövrün bir sıra məsələlərini öyrənmək üçün müəyyən əhəmiyyətə malikdir. Bu qəbir abidəsində həm əmək aləti, həm də silahlar demək olar ki, eyni dərəcə tapılmışdır. Bunlardan dəmir oraq (s.q. № 669), dəmir çapacaq (s.q. № 672), hətta dən daşları, kəsərli alətləri itiləmək üçün bütöv daşları (s.q. № 656, 657) də tapılmışdır.

Tapıntılar içərisində ən maraqlı və yeganə nüsxələr hesab edilən tunc lövhədən dairəvi formada düzəldilmiş döş örtüyüdür. İki ədəd olan bu əşyanın bir tərəfi qabarıqdır. Onlar skeletin döşləri üstündə aşkar edilmişdir (s.q. № 668). Bu tapıntının qabarıq üzündə mərkəzi kiçik çıxıntı təpəcik vardır. Əks tərəfdə, içəridən isə paltar tikmək, yaxud bağlamaq üçün dəmirdən ilgəyi vardır. Onlardan birinin içərisində yun parça izi qalmışdır. Bu əşya bəzək vasitəsi kimi istifadə edilməklə eyni zamanda zireh əhəmiyyətinə malik umbon vəzifəsi də daşımışdır.

Bəzək şeyləri içərisində tunc bilərziklər (s.q. № 658), tunc üzük (üzüklərdən biri arxaik formada olub, 5 cərgə dairədən ibarət yay şəklində düzəldilmişdir), tuncdan paltara bəzək düzəltmək üçün muncuğa oxşar bəzəklər, şüşə, pasta və s. muncuqlar da çoxdur.

Qəbirin avadanlığı içərisində, daha doğrusu, skeletin önündə, bir qədər aralı iki dəmir əşya tapılmışdır. Onun ətafında dəmir halqa vardır. İki yastı dəmir qol bir-birinə dolanmış və uclarında deşik düzəldilmişdir. O biri ucları uzunsov zəncirvari paxlalarla bir-birinə birləşdirilir (s.q. № 673).

**18 saylı torpaq qəbir.** Bu torpaq qəbir II kvadratda aşkar edilmişdir. Onun yerləşdiyi sahə 1965-ci ildə aparılmış qazıntının kənarına düşür. Odur ki, həmin vaxtdan bəri keçən müddətdə ola bilsin ki, bu qəbir abidəsi uçub dağılmış və nəticədə skeletin sümükləri də yerində qalmamışdır. Qəbir 1,7 metr yer səthindən dərində yerləşmişdir. Qablar yerləşən ərazi və qəbirin sahəsi təqribi olaraq 2,6 metr, 1,5 metr ölçüsündə müəyyənləşdirilmişdir. Lakin qəbirin yerinin açılmasına, orada qabların qalmasına baxmayaraq heç bir insan sümüyünün tapılmaması bir qədər şübhə doğurur. Bu, ola bilsin ki, vaxtı ilə hansısa hadisə ilə bağlı qəbirdə insan dəfn olunmamış, yalnız onun şərəfinə mərasim düzəldilmişdir. Belə ki, qəbirdə düzələn qabların yerləşdiyi sahənin uzunu 1,5 metr, eni 0,5 metrdir. Onlar qəbirin qərb küncünə doğru düzülmüşdür ki, bunların da çoxu sınmışdır. Buradan ağzı dördgül qırmızı rəngli gil qab, kiçik dolça, ağzı slindrik dopu, kiçik vannaya oxşar gil qab, nisbətən iri küp qırıqları və bunların üstündə xırdabuynuzlu heyvan sümükləri aşkar edilmişdir. Ümumiyyətlə 17-yə qədər gil qab qırıqları müşahidə edilmişdir.

**20 saylı torpaq qəbir.** VI kvadratda, 1,25 metr dərinliklə aşkar edilən bu qəbir abidəsinin yerləşdiyi sahə 1,8-1,4 metrdir. İri adama məxsus olan skletin üzü şimal-qərbə doğru istiqamətləndirilmişdir. Onun əlləri üzünə doğru yönəldilmiş vəziyyətdə sıx bükülü qoyulmuşdur. Kəllədən (təpədən) çanaq sümüyünə qədər 90 sm olan bu skletin bükülmə nəticəsində uzunluğu 1 metr olan bir sahədə yerləşmişdir. Dəfn olunanın üzü qarşısında 50 sm aralıda 4 ədəd nizə ucluğu dik vəziyyətdə yerə sancılmışdır. Onların biri tamam ovxalandığı üçün götürmək mümkün olmadı. Başın arxa tərəfində 12 sm aralı dəmir çapacaq, 22 sm aralı isə boyundan asma tunc döş bəzəyi qoyulmuşdur. Dairəvi formada düzəldilmiş bu asqı bəzək əşyasının kənarı bir zolaq kimi çevrələnərək arası deşikli kəsmələrlə bəzədilmişdir. Kənarında tutmaq üçün saplaq, saplağın da ucunda asmaqdan ötrü ilməsi vardır. Bu dairəvi asqının mərkəzindən qabarıq tərəfə kənarları slindirik və çıxıntılı deşik düzədilmişdir.

Döş bəzəyinin qabarıq səthində, kənara yaxın dörd yerdə bərabər məsafədə düyməciyəoxşar dairəvi bəzək vardır (s.q. № 675). Skletin boyun hissəsindən və başına yaxın yerdə 23 ədəd şüşə və pastadan müxtəlif formalı muncuqlar tapılmışdır. Onlar yaşıl rəngli dilikli şüşə və pastadan, uzunsov şüşə və göyrəngli göz muncuqlardan ibarətdir (s.q. № 679). Bundan başqa qolunda bir enli tunc bilərzik olmuşdur. Nazik tunc lövhədən enli və qabırğavari düzədilmiş bu bilərziyin ucları aralı və bir qədər geriyə qatlanmış formadadır (s.q. № 676). Daha sonra əl barmaqlarında iki tunc, iki dəmir üzük olmuşdur. Tunc və dəmir üzüklərin hərəsindən birini salamat götürmək mümkün olmuşdur (s.q. № 677, 678). Dörd ədəd nizədən biri tam xarab olub, sıradan çıxmışdır. Onlar müxtəlif böyüklükdədir (s.q. № 681). Çapacağa gəlincə, 0,28 sm uzunluqda olub, dəstəsi 13, tiyəsi isə 15 sm-dir. Onun tiyə və dəstəsinin arxası qövsvaridir (s.q. № 680).

Skeletin başı yanında adət üzrə saxsı qablar olmuşdur. Onlar 13-ə qədər olub çox sınmışdır və təkrar məmulatın sınıqların təmsil edirdilər. Odur ki, bunları götürmək və bərpa etmək çətin idi.

**21-23 saylı torpaq qəbirlər.** Bu üç qəbir abidəsi bir yerdə, eyni dərinlikdə aşkar edildiyindən və onun çox güman ki, ailəvi olduğundan təsvirlərini də bir yerdə verməyə lazım bilirik. Bunlardan 21-22 sayı ilə qeydə alınanlar VIII kvadratda, 23 saylı isə XIII ilə yanaşı düşən VII kvadratda 1,5 metr dərinlikdə aşkar edilmişdir. Bunlardan 21 saylı nisbətən iri olub, sol böyrü üstdə, çox sıx olmamaq şərtilə bükülü, üzü cənub-şərq istiqamətində idi. Onun sağ qolunun dirsəyi fəqərə sümüyünün üstündə, əli isə çənəsi altında idi. Sol qolun dirsəyi dizlərə yaxın, əli isə düz üzünə doğrudur, hətta bir barmağı burnu üstündədir. Skeletin kəlləsindən çanağına qədər uzunluğu 90 sm-dir. Bu da həmin skeletin iri hündürboylu adama, çanaq sümüyünün kiçikliyi və başqa əlamətlərə görə kişiyə aid olduğunu göstərir. Belə ki, onun hündürlüyü təqribən 1,8-1,9 metr olmuşdur. Yeri gəlmişkən qeyd edək ki, Nüydi abidəsində aşkar edilən insan qalıqlarına görə onların mütənasib bədən quruluşu və 1,6-1,8 metr boy ölçüsü əksəriyyət təşkil etmişdir. Bu isə öz növbəsində burada yaşamış qədim sakinlərin dövrünə görə pis güzəran keçirilməməsilə sıx bağlıdır. Əksəriyyətin dişləri salamatdır və demək olar ki, hamısı yerində olur. Lakin kəllələr və başqa sümüklər çox parçalandığı üçün aşkar olunduğu yerdən kənara aparmaq üçün əlverişli deyildir.

Əlbəttə, bu elementar xüsusiyyətlə onların anatomiyası haqqında geniş fikir yürütmək, eləcə də ixtisasımızdan kənar olduğu üçün çox çətin olsa da, bunların verilməsi dövrün bəzi ictimai münasibətlərinin araşdırılmasında yardımçı rol oynaya bilər. Bizcə qəbir abidələrinin tədqiqində antropoloqun iştirakı çox vacibdir və bu elmi dəqiqləşdirmələrdə böyük fayda verə bilər.

Bu qəbirdə ölünün ayaqları yanında 70 sm aralı bir ədəd iri küp basdırılmışdır. Skeletin sağ əlinin orta barmağında mis üzük, boğazında isə pasta və şüşə muncuqlar vardır. Maraqlı faktlardan biri də ondan ibarətdir ki, kişilərdə qadınlar kimi az da olsa bəzək şeylərinə malik olmuşlar. Nüydi qazıntılarında kişi qəbirlərindən bilərzik, üzük və muncuq tez-tez tapılır.

Təsvir etdiyimiz qəbir abidəsinin skeletin başı yanında 2 iri qulplu, enli ağzı küp, 2 ədəd qara rəngli təkayaq "iki mərtəbəli" vaza, 5 ədəd qırmızı rəngli çölmək (qulplar ikitilli olub, çiyninə köndələn yapışdırılaraq ağzının kənarı altında doğru dik qaldırılmış formadadır), iki kiçik və bir ədəd iri qırmızı rəngli ağzı üçgül dolça, iki ağzı üçgül, oturacağı düz, zərif qab, bir ədəd çiynində dik qaldırılmış qulplu və ondan daha bir kiçik ilgəkvari qulpları olan, ağzı qapaqla örtülmüş dopu tapılmışdır (s.q. № 684-688).

22 saylı torpaq qəbiri bundan əvvəl təsvir edilən ayağı altında və onun tərs istiqamətinə doğru – XIII ilə VII kvadratın arasında sağ böyrü üstdə sıx bükülü şəkildə aşkar edilmişdir. Skeletin üzü şimal-şərqə olmaqla əllər çənədə, ayaqlar isə çanağa dayanmış şəkildə qoyulmuşdur. Bu qəbirin başı yanına düzülmüş avadanlıq

21 saylı qəbirin skeletinin çanağına söykənir. 22 saylı torpaq qəbirin skeletinin başından 21 saylı ayağına qədər olan məsafə 85 sm-dir. Skeletin qolunda tunc bilərzik, sağ əlində bir tunc üzük var idi. Əlləri altında isə dəmir çapacaq qoyulmuşdur.

Çapacağın sulğuncu yanında, əlinin altında (çənəsindən altda 6 sm aralı) bu onun əli içərisində olmuş, çürümə prosesilə əlaqədar əl sümüyünün altına düşmüşdür) bir ədəd gümüş pul tapılmışdır. Bu pulun əks üzündə bir əlində quş tutmuş fiqur kresloda oturmuş, o biri əlində isə uzun dayaq vardır. Üzərində iki sxematik adam başı təsvir edilmişdir. O bənzədilmə yerli sikkə nümunəsidir. Onun üstü bir qədər paslanmışdır (s.q. № 694). Bu Nüydi abidəsindən tapılan ikinci qəbirdir. Bu qəbirdən digər materiallardan başqa bir dəmir ucluğu tapılmışdır. (s.q. № 680). Qəbirin saxsı məmulatını səciyyələndirmək üçün forması bəlli olan qablardan əsasən quş fiquru, qırmızı rəngli qab (qeyd edək ki, bu cür qablar Nüydinin səciyyəvi qab formalarından sayıla bilər), qulplu kasavari qab, çiynində bir qədər xaricə doğru meyilli, dik qaldırılmış qulpu olan, ağzı dairəvi, gövdəsi enli və uzunsov, oturacağı düz, gövdəsində üç yerdə məməciyə malik dopu, habelə zərif süddan tapılmışdır. Axırıncı gil qab sarımtıl-boz rəngdə olub, habelə hamar və qəşəng hazırlanmışdır. Ümumiyyətlə, bu zərif gil qab Albaniyanın məşhur və səciyyəvi nümunələrindəndir. Onun altı içəriyə doğru batıqdır. Ağzı üçgül, üzəri həm cızma, həm yapma bəzəklə bəzədilmişdir (s.q. № 693).

VII kvadratın 1,5 metr dərinliyində aşkar edilən 23 saylı torpaq qəbiri uşağa aid olub, 21-22 saylı qəbirlərdən eyni səviyyədə və bir döşəmədir. Skelet sol böyrü üstdə, şimal-qərbə doğru çox da sıx olmayan şəkildə bükülü idi. Əlləri çənəsinə doğru qoyulmuşdur. Kəllə və ümumiyyətlə başqa sümükləri həddən artıq çürümüşdür. Bu skeletin boğazı yanında muncuqlar əldə edilmişdir. Onun qulaqlarında yumru içərisi boş dairəvi sırğa tapılmışdır. Lakin nazik olduğundan ovxalanıb sıradan çıxmışdır.

**24 saylı torpaq qəbir.** Bu torpaq qəbiri IX kvadratın 0,9-1 metr dərinliyində aşkar edilmişdir. Skeletin qol, qabırğa və kəllə sümüklərindən çürümə nəticəsində çox az hissələr qalmışdır. Hətta onun istiqamətini və yerləşdirmə vəziyyətini dəqiq müəyyənləşdirmək olmadı. Lakin kəlləyə və qalan sümüklərə görə onun başı azca şərqə mayilliklə cənub-şərqə olduğu bilinir. Skeletin boğazı ətrafında (yəqin ki, qolunda olmuş) bir tunc bilərzik tapılmışdır, qulağında bir tərəfi deşik tunc lövhədən sırğa da vardır. Ayaq tərəfdə iki küp sınıqları, baş tərəfində isə xırda gil qablar - əsasən çölməklər (5 ədəd) vardır. Qablar arasında bir ədəd oraqvari dəmir parçası (bıçaq) da qoyulmuşdur. Aşkar edilmiş çölməklər nisbətən kiçik olub, onlardan ikisinin ikitipli qulplu çiynindən köndələn yapışdırılaraq dik qaldırılmışdır. Üçünün qulpu isə lentşəkilli olub, ağzının kənarı ilə çiyninə yapışdırılmışdır. Qabın qulpları arasında üç batıqdan ibarət iki yerdə bəzəyi vardır. Bundan başqa bir dopu, bir ədəd ağzı üçgil, orta həcmli dolça (boğazını hörmə gil çubuqcuq), iki enli boğaz qab tapılmışdır. Axırıncı qablar

sınmışdır. Bu qabların hamısı qırmızı rəngdə hazırlanmışdır. Bundan əlavə bir ədəd sınmış təkayaq vaz da tapılmışdır. Buradan bir neçə şüşə və metal muncuqlar da tapılmışdır. Şüşə muncuqlar (s.q. № 699) eyni ölçülü olmayıb, yumru, uzunsov və təkərvaridir. Xırda şüşə muncuqların tərkibində (müəyyən qatında) çox nazik qızıl təbəqəsi (zağlama) vardır.

**25 saylı torpaq qəbir.** X kvadratın 0,8 metr dərinliyində daha bir dağılmış uşaq qəbiri qeydə alınmışdır. Onun çürümüş sümükləri belə bütöv qalmamışdır. Kvadratın mərkəzində yerləşən bu qəbir abidəsinin dağınıq materialı qeyd edilib toplandı. Əldə edilən gil qablar əsasən qırmızı rəngdədir. Onlardan biri orta həcmli olub, ağzının kənarında boruşəkilli lüləyi vardır. Qabın ağzı dairəvi olub, azca kənara əyilmiş formadadır. Qulp ağzının arxadan kənarı ilə çiyninə yapışdırılmışdır. Onun ağzı ilə lüləyi arasında yapma gil kəbər olub, üstü batıq haşiyələnmişdir. Bu cür bir növ avtafavari qablar, Şirvan ərazisi üçün səciyyəvidir. Bundan əlavə bu qəbir abidəsinin avadanlığı içərisində gil camlar, ağzı dördgül dolçalar, ağzı azca əyməli kiçik gil fincan, gil qapaq, dəmir nizə ucluğu vardır. Salamat qalan qablar 13-ə qədərdir.

XI-XII kvadratların arasında 0,6 metr dərinlikdə daha bir iri adama aid qəbir abidəsinin varlığı aşkar edilmişdir. Dayazda yerləşdiyindən skeletin sümükləri və avadanlığı demək olar ki, təsərrüfat işləri zamanı tamam dağılıb səpələnmişdir. Lakin abidələrin miqdarı cəhətdən onu 26 saylı torpaq qəbiri kimi qeyd etməyi lazım bildik.

XIII ilə XIV kvadratlar arasında 0,6 metr dərinlikdə yenə də dağılmış şəkildə daha bir torpaq qəbiri aşkar edilmişdir. 27 saylı bu torpaq qəbirdə sümüklər tamam dağılmış, kəllə sümüyündən azca qalmışdır. Qalmış sümüklərə görə onun sağ böyrü üstündə, üzü şimal-qərbə doğru olduğu bilinir. Skeletin başı yanından ağzı novçalı, dairəvi və s. bu kimi qab qırıqları və bütövləri dağınıq şəkildə tapılmışdır.

**28 saylı torpaq qəbir**. Bu qəbir abidəsi XII kvadratda yerləşərək demək olar ki, bütün kvadratı əhatə edir. Yer səthindən 1,8 metr dərinlikdə yerləşən bu abidənin çuxuru düzbucaqlı şəkildə olub, 0,9 metr dərinlikdən cizgiləri bilinirdi. Qəbirin çuxurunun eni 1,7 metr, uzunluğu 2,7 metrdir. Skelet qəbirdə sol böyürü üstündə, üzü gündoğana tərəf, çox da sıx deyil, zəif bükülmüş şəkildə qoyulmuşdur. Skeletin üstdə olan sağ qolunun dirsəyi çanaq sümüyü üzərində, əl ilə düz irəliyə uzadılmışdır. Sağ biləyində ağzı aralı bir tunc bilərzik və həmin əlinin şəhadət barmağında bir ədəd tunc üzük var idi. Sol qolunun dirsəyi sağ əlin yanında, əli isə ölünün üzünə söykənmişdir. Bu əlin yanında bir ədəd dəmir əşya da vardır. Skeletin boynu yanında qara rəngli muncuğa oxşar əşyanın toz halına düşmüş əlaməti görünmüşdür. Onun ayağı altında, çiynindən dik qaldırılmış qulplu olan nisbətən iri küp, dizi qarşısında bir təkqulplu kiçik gil qab, üzü qarşısında isə yenə bir-iki sınıb qarışmış gil qab qırıqları (onların içərisində xırda heyvan sümükləri var idi) aşkar edilmişdir. Bütün bunlardan əlavə qəbir çuxurunda,

skeletin başı tərəfdə qırmızı rəngli iri və xırda gil qablar – 5 ədəd çölmək, qara rəngli təkayaq vaza və s. vardır. Bunlar 20-25-ə qədərdir. Qabların əiksəriyyəti qırıldığından onları götürmək mümkün olmadı. Qəbir çuxurunun şərq divarının dibi ilə skeletin üzü qarşısında olmaqla onun uzunu boyu qara rəngdə yanğın izi buraxmışdır. Bu yanğın izi davam edən istiqamətdə davam edən arabir saxsı qırıqlar da var idi. Qəbirin üstü təmizlənərək çaxmaqdaşı parçaları, boz və qrımızı rəngli saxsı qırıqları da tökmə torpağın içərisində var idi. Qablar yerləşən sahədə və onların içərisində heyvan (qoyun-keçi) sümükləri var idi. Skeletin başı yanında, qabların üstündə bir dəmir nizə ucluğu da tapılmışdır (s.q. № 719). Bu qəbirin materialları içərisində qara rəngli təkayaq vazanın iki qulpu vardır. Qulplardan biri lentvari, digəri isə çubuqşəkilli olub hər ikisi qabın ağzının kənarı ilə çiyninə yapışdırılmışdır. Çubuqşəkilli yaxud en kəsiyi dairə təşkil edən qulpun qabın ağzına yapışan yerin üstü batıq və özü qulaqcıq formasındadır. Lakin bu qab tam ovxalanmışdır. Buradan ağzının kənarında bitişik lüləyi olan aftavari qab da tapılmışdır.

Tapıntılardan ağımtıl rəngli, uzunboğaz və uzunsov yumru gövdəsi olan düz oturacaqlı dolça (s.q. № 716), ağzı novçalı kiçik dolça (s.q. № 717), qırmızı rəngli gil çölmək (s.q. № 718), tunc üzük (s.q. № 720), tunc bilərziyi (s.q. № 721) qeyd etmək olar.

**29 saylı torpaq qəbir**. Abidə XVII kvadratda 1,3 metr yer səthindən dərində yerləşir. Qəbirdə skelet sol böyrü üstündə az bükülü şəkildə olub, ayaqları şimala doğru istiqamətləndirilmişdir. Bu skeletin kəlləsi yox idi, skeletin dizdən yuxarıdakı bazu sümüyünün uzunluğu 45 sm-dir. Ümumiyyətlə, bu abidə də iri bədənli kişiyə məxsus olmuşdur.

Skeletin ayaqları altında bir qırmızı rəngli iri təkqulplu küp, bir matra, 5 çölmək, bir dopu, camvari təkqulplu qab, çiynində iki ilgəkvari qulplu olan orta həcmli küp, bir ədəd çəhrayı rəngli, üç şiş qıçları olan qab, bir ədəd kiçik və zərif düzəldilmiş, altından içəriyə doğru batığı olan süddan tapılmışdır. Qablar həddən artıq qırıldığı və təkrar materialdan ibarət olduğu üçün yerindəcə qeyd edilib saxlanılmışdır. Bunlardan yalnız ağzı süzgəcli, sarımtıl gil süddan biçimli qabın sınıqları (s.q. № 724) götürülmüşdür. Gil qablar yerləşən sahədə 3 ədəd dəmir nizə ucluqları da dik sancılmış şəkildə aşkar edilmişdir (s.q. № 723).

**30 saylı torpaq qəbir**. XIX kvadratda 1 metr dərinlikdə aşkar edilən bu qəbir abidəsinin sıx bükülü şəkildə, başı şimal-şərqə, üzü şimala doğru olmaqla sağ böyrü üstündədir. Burada bükülmə o qədər sıx olmuşdur ki, onun topuqları çanağa söykənmiş, dizlərlə dirsəklər birləşmişdir. Əlləri üzünə doğrudur.

Onun çanağı və ayaqları iki qulplu orta həcmli küpə söykənmişdir. Alnı qarşısında yenə eyni ölçülü küp qoyulmuşdur. Küplər həddən artıq ovxalanıb sıradan çıxmışdır. Üzü önündə bir nizə dik sancılmışdır (s.q. № 725). Küp və nizə qoyulan yerdən azca şimala doğru və bir qədər üst səviyyədən iri buynuzlu heyvanın çənə sümüyü vardır.

Skelet çənəsi altında olan sağ əlindən bir tunc üzük var idi. Bundan əlavə qəbirin materialları içərisində dopu, quş formalı gil qab qırıqları da tapılmışdır.

Nisbətən dayazda yerləşən abidələr dağıntıya məruz qaldığından XVIII kvadratın şərq hissəsində 0,7 metr dərinlikdə görünən 31 saylı torpaq qəbir abidəsi də dağılmış vəziyyətdə idi. Bu qəbir abidəsi nəinki ilkin vəziyyətdə qalmamış, hətta sümükləri dağınıq halda aşkar edilmişdir. Onun yanında isə bəzi qab qırıqları və heyvan sümüklərinə təsadüf olunmuşdur.

Qazıntının kənarlarına doğru davam edən qəbir abidəsinin XI, XVIII və XIV kvadratlarında izi görünmüş, lakin ekspedisiya müddətinin qurtarması ilə əlaqədar olaraq açılmamışdır. Görünən hissələr qeyd edilib üzəri möhkəmləndirilib növbəti qazıntı mövsümünə saxlanmışdır.

Ekspedisiya müddətində ətraf ərazi də qismən öyrənilmişdir. Daha bir abidə Nüydi kəndindən 4 km cənub-qərbdə, Nuran kəndindən 2 km şimal-qərbdə yerləşən "Qaraçı bulağı" antik dövr yaşayış yeri və qəbiristanından ibarətdir. "Qaraçı bulağı" adlı sahəyə, yerlilər bəzən Qələyçi bulağı da deyirlər. Burada soyuq suyu olan bulaq vardır. Bulağın kənarında, yol arası sahədə yeni üzüm bağ salınması ilə əlaqədar olaraq dərin şumlama zamanı eramızdan əvvəl I minilliyin son rübünü xarakterizə edən zəngin maddi-mədəniyyət qalıqları aşkara çıxmışdır. Burada 1965-ci ildə Nüydidə arxeoloji işlər zamanı qeyd edilən dövrə aid yaşayış yeri olduğu göstərilmişdir. Yerüstü baxış zamanı çoxlu saxsı qab qırıqları, iri və nisbətən xırda, qayıqvari dən daşları, iri təsərrüfat küplərinin müxtəlif hissələri, xırda qırmızı, qara, boz rəngli qab qırıqları, yanıb qızarmış suvaq parçaları və s. rast gəlinmişdir. Abidə gəzilərkən çox şeylər yerindəcə qeydə alındı və bir neçə qab nümunələri götürüldü. Bu abidə bulağın şimal-şərq kənarı boyu uzanaraq hələlik şumlanan sahadə 2-3 ha-dan artıqdır. Yaşayış yeri əsasən şərqə va başqa istiqamətlərə uzanır. Buradan bir qədər şimala doğru Pirəmeşənin kənarına yaxın yerdə iri və xırda çay daşlarından bünövrə yeri görünmüşdür.

Qaraçı bulağından toplanan keramika məlumatı əksərən Nüydi abidəsinin materialı ilə çox uyğun gəlir. Təbii ki, məsafəcə yaxın və eyni dövrə aid abidədə yaşayış sakinlərin məişəti va istehsalında bir-birinə uyğun olmalıdır. Qabların hazırlanma, naxışlanma və s. xüsusiyyətlərinə görə demək olar ki, Nüydi ilə Nuran kəndi yaxınlığındakı abidə eyni tiplidir.

Beləliklə Nüydi abidəsindən aşkar edilən zəngin maddi-mədəniyyət abidələri e.ə. I minilliyin son rübü və eramızın I əsrində Albaniyanın bir sıra iqtisadi-ictimai məsələlərinin öyrənilməsində mühüm elmi əhəmiyyətə malikdir.

**1975-ci il**

Azərbaycanın antik dövr tarixinə dair kifayət qədər yazılı məxəz olmaması bir çox məsələlərin tədqiqini çətinləşdirir. Məhz buna görə də yazılı mənbə məlumatı ilə yanaşı, arxeoloji qazıntılar nəticəsində aşkara çıxarılan maddi-

mədəniyyət qalıqlarının qarşılıqlı tədqiqi mühüm əhəmiyyət kəsb edir. Albaniyanın antik dövr ictimai, xüsusilə iqtisadi inkişaf səviyyəsini müəyyənləşdirməkdə arxeoloji qazıntıların böyük rolu vardır. Ağsu rayonu Nüydi kəndi yaxınlığında aparılmış son arxeoloji qazıntılar bu baxımdan diqqəti cəlb edir. Nüydidə aşkar edilən qədim yaşayış izləri dövrün iqtisadi, ictimai və siyasi tarixini öyrənmək üçün əlverişli imkanlar açır. Qazıntı zamanı yaşayış məskənindən daş bünövrə qalıqları, təsərrüfat quyusu və s. aşkar edilmişdir. Qəbiristan sahəsindən təsərrüfat quyusu yaxınlığında tapılmış iri daşlar ehtimal ki, bunun müəyyən bir tikintinin bünövrəsinə aid olduğunu bildirir. Lakin sahənin sıx qəbiristanlığa çevrilməsi bu tikinti haqqında tam təsəvvür əldə etməyə imkan verməmişdir. Bununla belə, xam torpaq üzərində qara dairəvi ləkə şəklində quyunun yeri aydın müşahidə edilir. Quyu təmizlənərkən onun 1,7 metr diametri, 10-15 sm hündürlükdə dibi müəyyənləşdirilmişdir. Quyunun dibi yuxarı hissələrə nisbətən geniş, dibinin səthi isə mərkəzə doğru nisbətən maili qazılmışdır. Onun içərisindəki qara torpağın tərkibində cüzi miqdarda kömür, yanıb kərpic halına düşmüş suvaq parçası və s. qalıqları vardır. Nüydi düzündə çaydaşından ibarət hörgü əlamətini bildirən yerlərin mövcud olması[11], habelə 1965-ci il qazıntıları zamanı aşkar edilmiş divar qalıqları[12] burada daş bünövrəli və ya daş divarlı qədim tikililərin varlığı haqqında fikirləri bir daha təsdiq edir. Lakin əsaslı mühasirəsi olmayan kiçik və kənar yaşayış məntəqələri və onlara məxsus xırda binaların izinin yoxa çıxması prosesi möhtəşəm bina, yaxud torpaq altında basdırılmış digər abidələrə nisbətən daha tez baş verir. Çox güman ki, qazıntı aparılan yer əsas yaşayış məntəqəsindən bir qədər kənardadır. Bura isə müxtəlif təsərrüfat tikililərinin qalığı ilə yanaşı, əsasən qəbiristandan ibarətdir. Nekropolda aşkar edilən qəbirlərin sıxlığı və avadanlığının zənginliyi onun yaxınlığında iri yaşayış məskəninin olmasını göstərir. Ətraf ərazidə aparılmış axtarışlar bunu bir daha sübut etmişdir. Abidədən təqribən 1 kilometr şimala doğru məhz belə bir məskənin varlığını göstərən əlamətlər qeydə alınmışdır. Burada 10 hektara yaxın sahə eramızın ərəfəsinə aid saxsı qab qırıqları, dən daşları və başqa daş alətlərlə zəngindir. Həmin sahədə torpağın adda-budda dəyişməsi və maddi-mədəniyyət qalıqlarının töküntüsü qədim yaşayış damlarının yerini bildirir. Bu yaşayış yerinin şimal hissəsində isə təqribən 35x35 metr ölçüdə müəyyən istehsal ocağının yeri vardır. Yanmış suvaq və başqa qalıqlar olduğuna görə yerli əhali bu yeri “kərpiclik” adlandırır. Burada ehtimal ki, qədim yaşayış məskəninin sənətkarlıq hissəsi olmuşdur[13].

---

[11] А л и е в И., О с м а н о в Ф.Л. Бассейн рек Геокчай-Ахсучай в античное время // Советская археология, 1975, № 1,с. 188-202.

[12] Османов Ф.Л. Материальная культура Кавказской Албании III в. до н. э. - III в. н. э. (по археологическим памятникам междуречья Геокчай-Ахсучай). Автореферат канд. дисс, Вакы, 1968, с. 10.

[13] Османов Ф.Л., Раджабли А., Ибрагимов Ф.А., Ахвердиев А.Ш. Раскопки в сел. Нюди // Археологические открытии 1975 года, М., 1976, с. 504.

Albaniyanın antik dövr, xüsusilə yeni eranın ərəfəsində müxtəlif dini görüş və adətləri haqqında, eləcə də məişətdə istifadə edilən müxtəlif avadanlıq əsasında iqtisadi vəziyyətə dair qismən təsəvvür yaratmaq məqsədilə aşkar edilmiş qəbir abidələrinin təsvirini vermək əhəmiyyətlidir. Ümumiyyətlə, nekropolda aparılmış qazıntılar nəticəsində 50-dən çox qəbir abidəsi aşkar edilib öyrənilmişdir ki, onlardan təxminən 20-si 1975-ci il qazıntısı zamanı tədqiq olunmuşdur. Qəbir abidələrinin demək olar ki, hamısı torpaqda dəfnetmə adətinə məxsusdur. Onlardan yalnız bir neçəsi uşaq küp qəbridir. Həmin abidələr haqqında daha aydın təsəvvür yaratmaq məqsədilə yalnız bir neçə qəbir nümunəsinin təsvirini veririk. Bununla da qədim sakinlərin sitayişi, inam və görüşləri, məişəti və s. qismən də olsa, əyani şəkildə nəzərə çarpdırılacaqdır.

**37 saylı torpaq qəbir.** Yer səthindən 1,3 metr dərinlikdə aşkar edilmiş bu torpaq qəbir abidəsi şərq-qərb istiqamətində olub, skeletin kəlləsi şərqə doğrudur. Sıx bükülü və sağ böyrü üstündə qoyulmuş ölünün sağ əli çənəsi altına, sol əli isə döşü üstündə köndələn vəziyyətdə idi. Qıçlar çanaq sümüyünə doğru sıxılmışdır, skeletin kəlləsi və arxası boyu ayaqlarının altına qədər əksəriyyəti qırmızı, tək-tək qara rəngdə olan saxsı qab düzümü vardır. Qablar nisbətən irihəcmli ikiqulplu çölməklərdən, üç və təkayaqlı qara vazalardan (tablo 24), ağzı dairəvi dopudan, ağzı novçalı dolçalardan, habelə ölünün ayaqları altına qoyulmuş iki-üç gil məmulatından ibarətdir. Bütün bunlardan əlavə kəllənin arxasından bir ədəd dəmir biz tapılmış, şüşədən göy rəngli uzunsov burma muncuqlar və çanaq sümüyü üstündə, daha doğrusu, qurşağında bir tunc əşya qalmışdır. Burada bir ədəd qara rəngli gil cam və bir ədəd oyuncaq məqsədilə deşilmiş qoyun aşığı da tapılmışdır. Qəbrin avadanlığı və skeletin vəziyyəti onun qadına aid olduğunu ehtimal etməyə imkan verir. Adətən, bu dövrə aid əksər qəbir abidələrində qadınların əsasən sağ böyrü üstdə dəfn edildiyi müəyyənləşdirilmişdir[14].

**39 saylı torpaq qəbir.** 1,7 metr dərinlikdə aşkar edilmiş bu torpaq qəbir abidəsinin 1 metr hündürlüyündə qazılmış yan divarı bilinir. Onun kənarları düz istiqamətdə qazılaraq dördkünc formada idi. Qəbrin üstündə çoxlu heyvan sümüyü müşahidə edilmişdir. Burada üç iribuynuzlu heyvan (öküz başı, çənəsi və s.) sümüyü vardır. Skeletin ayağı altına doğru öküz, yaxud qaramal başı və ayaqları qoyulmuşdur. İnsan skeleti isə burada dağınıq şəkildə idi. Kəllə və çanaq sümükləri qəbrin divarlarına söykənmiş, alt çənə isə qabların üstündə yerləşmişdir. Skeletin belə parçalanmış və ya pərakəndə olması onun dəqiq vəziyyətini müəyyənləşdirməyə imkan vermədi. Onun qıçlarının şimal-qərbə, üzünün isə şimala tərəf yönəldiyi aydınlaşdırıldı. Kəllə üstündə çiynində əyməşəkilli dik

---

[14] Османов Ф.Л., Ибрагимов Ф.А., Ахвердиев А.Ш. Новые раскопки в Нюдидюзи // Археологические и этнографические изыскания в Азербайджане (1973), Баку, 1974, с. 25.

qaldırılmış qulpu olan çölməklər qoyulmuşdur. Çölməklərdən birinin içərisində heyvan kəlləsi aşkar edildi. Formasına və dişlərinə görə kəllənin donuz, yaxud qabana aid olduğu müəyyən edilmişdir.

Ümumiyyətlə, Nüydi qədim qəbristanında aşkar edilmiş qəbirlərin hamısında qaramal və davar, donuz, quş sümüklərinə tez-tez təsadüf edilir. Onların əsasən gil qabların içərisində və böyük hissələrin sadəcə qəbrin üstündə qoyulduğu müəyyənləşdirilmişdir.

**40 saylı torpaq qəbir.** Çox da dərində yerləşməyən bu abidədə skeletin istiqaməti şərq-qərb üzrədir. Skelet sağ böyrü üstə, kəllə şərqə doğru, üzü isə şimala tərəf olmaqla sıx bükülü şəkildə idi. Qəbirin baş tərəfində 15-ə yaxın saxsı qab qoyulmuşdur ki, bunlar da əsasən gövdəsində iki qulpu olan orta həcmli küpələrdən, ağzı üçgül dolçalardan, çölmək və camlardan, ağzının kənarında lüləyə oxşar novçası olan lüləyin tipli qab və s.-dən ibarətdir. Bunlardan əlavə, skeletin çənəsi altında bir dəmir çapacaq, ondan bir qədər aralı üzü qarşısında yerə sancılmış şəkildə üç dəmir nizə ucluğu aşkar edilmişdir. Nizələr ölünün üzü qarşısında yandırılmış od-ocaq izi olan yerdə tapılmışdır. Həmin qəbrin saxsı materialı nisbətən kobud hazırlanmışdır.

**46 saylı torpaq qəbir.** Bu abidə yer səthindən 0,6-0,7 metr dərinlikdə aşkar edilmişdir. Qeyd olunmalıdır ki, qəbir qazıntı sahəsinin cənub kənarında maili bir sahədə yerləşmişdir. Onun üst torpaq yuyulub axmaya məruz qaldığı üçün bu qəbir abidəsi nisbətən dayazdadır. Skelet qəbirdə sol böyrü üstə, başı şimal-şərqə doğru olmaqla üzü azca cənuba yönəlmiş və sıx bükülü vəziyyətdə qoyulmuşdur. Lakin skeletin qol və qabırğa sümüyünə görə onun azca arxası üstə çevrilmiş vəziyyətdə olduğu bilinirdi. Əllər çənə altında idi.

Skeletin başı yanında qayıqvarı kiçik qulplu gil qab, ağzı enli və dairəvi olan qulplu saxsı qab, ağzının kənarında lüləkdən novçası olan avtafavari su qabı, çölmək və s. tapılmışdır. Onun sol qolunda bir tunc bilərzik, barmağında isə üzük var idi. Alnı qarşısında dörd boru şəkilli tunc muncuq, dəmir bəzək əşyasına salınmış tunc zəncir qoyulmuşdur.

Nüydi nekropolunun dövrünün daha da dəqiqləşdirilməsində bu qəbir abidəsinin mühüm əhəmiyyəti vardır. Belə ki, skeletin sol qolunun sümükləri altından, daha doğrusu, vaxtilə ölünün ovucunda qoyulmuş gümüş sikkə nümunəsi tapılmışdır. Bunlardan biri yerli əhalinin bilavasitə özlərinə məxsus olduğu hesab edilən, bənzədilərək zərb olunmuş yazısız pul, digəri isə Parfiya hökmdarlarından II Mitridatın (e. ə. 124/123-88/87-ci illər) dirhəmidir. Bu iki müxtəlif sikkənin eyni vaxtda qəbirdə qoyulması buradan, eləcə də Azərbaycanın digər rayonlarından əldə edilmiş bənzədilərək zərb olunmuş başqa pul nümunələrinin dövrünü müəyyənləşdirməkdə müstəsna əhəmiyyətə malikdir. Bir qəbirdə eyni vaxtda qoyulmuş bu pullar, şübhəsiz, II Mitridatın hakimiyyəti dövründə və ya ondan az sonra qoyula bilərdi. Belə olduğu təqdirdə, onda bənzədilmə yerli pul nümunəsini də həmin dövrə aid etmək mümkündür. Lakin yerli pulun digər pula nisbətən daha

çox dövriyyədə olduğu onun sürtülüb nazilməsindən aydın bilinir. Bu isə, həmin pulun II Mitridatın sikkəsindən bir qədər əvvəl kəsildiyini güman etməyə imkan verir. Beləliklə, də onun eramızdan əvvəl II əsrin ikinci yarısında və ya ortalarında meydana gəldiyini ehtimal etmək olar. Bu qəbrin və eləcə də ona uyğun abidələrin isə e. ə. II əsrin sonu - I əsrin əvvəlləri çərçivəsinə aid etmək olar. Bununla da əldə edilən digər maddi-mədəniyyət nümunələri və onlarla başqa abidələrin dövrünü daha da dəqiqləşdirmək mümkündür.

**47 saylı torpaq qəbir.** 1,1 metr dərinlikdə aşkar edilən bu torpaq qəbirdəki skeletin kəlləsi şərqə doğru olmaqla sağ böyrü üstdə sıx bükülü şəkildə qoyulmuşdur. Bu skelet qadına, daha doğrusu, qız uşağına aiddir. Onun əlləri sinəsi üstündə çarpazlaşdırılmış vəziyyətdə olub, sağ əlində dəmir parçaları və əlinin qurtaracağında dəmir pası qarışıq tunc zəncir qoyulmuşdur. Sol qolunda en kəsiyi dairəvi, ucları aralı tunc bilərzik, orta barmağında isə en kəsiyi dairəşəkilli tunc üzük var idi. Skeletin boğaz hissəsindən 40-a qədər şüşə və bir ədəd yastı pasta muncuq əldə edilmişdir. Şüşə muncuqların çoxu irrizasiyaya uğrayaraq xarab olmuşdur. Bundan əlavə, kəllənin arxasına doğru və üzünə tərəf olmaqla iki ədəd dəmir əşya, çox güman ki, iynə qoyulmuşdur. Skeletin kəlləsi qarşısında 13, qıçları üstündə isə üfüqi şəkildə saxsı qab nümunələri aşkar edilmişdir. Qablar qırmızı rəngli olub, ağzı dördgül novçalı və lüləli təkqulp hazırlanmışdır. Burada çiynində üfüqi yapışdırılmış və dik qaldırılmış vəziyyətdə qulpu olan üç ədəd qırmızı rəngli çölmək, bir ədəd qırmızı rəngli ikiqulplu çölmək, daha bir qara rəngli üçayaqlı badya da aşkar edilmişdir.

**48 saylı torpaq qəbir.** Bu torpaq qəbir 1,3 metr dərinlikdə aşkar edilmişdir. Böyük adama, çox güman ki, kişiyə aid olan bu skelet arxası üstdə, qıçlar kənara doğru açılmış və dizdən qatlanaraq ayaqlar bir-birinə çatılmış vəziyyətdə idi. Onun qol sümükləri dirsəyə qədər yanlara doğru tam açılmış, əlləri isə dirsəkdən qatlanaraq qoltuğu altına uzanmış şəkildə aşkar edilmişdir. Kəllə həddən artıq çürümüşdür. Skeletin bir növ romb şəklində qatlanmış dizləri üstündə hərəsində üç ədəd qırmızı saxsı qab (iri və orta həcmli üçqulplu, ağzı novçalı təkqulp badya və bir qədər uzunsov ağzı dairəvi qab) qoyulmuşdur. Kəllənin yanında (əsasən şərq tərəfində) çoxlu avadanlıq qoyulmuşdur. Burada nisbətən iri saxsı qab, 6 ədəd qırmızı rəngli çölmək, bir qara rəngli təkayaq vaz, bir qırmızı ağzı novçalı dolça, bir ağımtıl-boz rəngli zərif və nisbətən uzun novçalı, ağzında süzgəci olan kiçik süddan formalı qab daxildir. Saxsı qabların qərb kənarındakı qara rəngli təkayaq vazanın yanında isə bir ədəd tiyəsi söyüd yarpağı formasında olan dəmir nizə qoyulmuşdur. Skeletin sağ böyründə, ucu kəlləyə doğru olmaqla bir ədəd dəmir silah, yaxud çapacaq var idi. Onun uzunluğu 30 sm, tiyəsi 24 sm-dir. 3,5 sm eni olan tiyənin iti tərəfi qabarıq, əks tərəfi isə düz və nisbətən qalındır. Bu dəmir alətin dəstəsində ağac üzlük bəndləmək üçün dörd yerdə mıx çıxıntısı vardır. Bu tip dəmir alət, yaxud silahlar albanların məişəti üçün səciyyəvi olub, Nüydi qazıntılarından çox tapılır. Belə dəmir alətlərin nisbətən qısa formaları bir qədər

enli və iki yerdən əyri dirsəkli düzəldilmişdir. Ölünün döş qəfəsi üstündə soldan-sağa doğru onurğa sümüyünə tam söykənmiş şəkildə qısa saplaqlı nizə ucluğu var idi. Hövsələ çanağından yuxarıda isə belində üç və dördüncü onurğa qatı arasında birinin ucu sola, digərinin isə sağa istiqamətlənmiş şəkildə olmaqla daha iki nizə ucluğu aşkara çıxarılmışdır. Soldan batırılmış nizə ucluğu çanaqdan yuxarı dördüncü onurğa qatına elə batırılmışdır ki, o biri tərəfə keçməsinə azca qalmışdır. Sağdan çalınmış nizə isə onurğanın altında torpaqda qalmışdır.

Nüydi torpaq qəbirləri Azərbaycan ərazisindəki Yaloylutəpə[15], Qəbələ[16], Şəkili[17], Ağyazı[18], Şamaxı[19], Cəfərxan[20], Alazan vadisindəki torpaq qəbirləri[21] oxşardır. Həmin abidələrdən əldə edilmiş maddi – mədəniyyət nümunələri də bir-birinə çox yaxındır. Belə oxşar nümunələr Şəki-Zaqatala rayonlarının eyni dövr abidələri üçün də səciyyəvidir. Yaloylutəpə mədəniyyəti qab nümunələrinin oxşarları son illərdə Qobustanın Ana zağa yaşayış yerinin üst təbəqəsindən (e.ə. I – eramızın I əsrləri üçün səciyyəvidir) şargövdəli, ağzı üçgül ağımtıl anqoblu saxsı qabların tapılması [22] da diqqətəlayiqdir. Maddi-mədəniyyət qalıqlarının yaxın oxşarlığı cəhətinə görə qeyd edilən rayonlardan, habelə Mingəçevirdən tapılan küp[23] və Mollaisaqlı təknə qəbir materialı[24] da eyniyyət təşkil edir. Bütün bunlar isə müəyyən etnik tərkibə malik yerli xalqın iqtisadi, mədəni, ərazi, habelə çox ehtimal ki, vahid ünsiyyət birliyinin də təcəssümünü əks etdirir.

Nüydi nekropolunda cəmi dörd küpdə dəfn adəti nümunəsi müşahidə edilmişdir. Aşkar edilən qəbir küpləri isə xüsusi olaraq dəfn üçün hazırlanmamış, vaxtilə təsərrüfatda istifadə edilib, sıradan çıxan orta həcmli saxsı qablardan, yaxud onların sınıqlarından ibarətdir. Bunlardan 3 saylı qəbir küpü bir qədər iridir. Nisbətən yaxşı qalmış bu qəbir abidəsinin ətraflı təsvirini verməklə onun haqqında müəyyən təsəvvür yaratmaq olar. Bu küp 1,3 metr dərinlikdə ağzı şərqə doğru olmaqla üfüqi vəziyyətdə aşkar edilmişdir. Küpün üstünün yarıya qədər sındırıldığı

---

[15] Исмизаде О.Ш. Ялойлутепинская культура. Бакы: 1956; Шарифов Д.М.Раскопки в Ялойлутапа. Бакы: 1927.

[16] Казиев С.М., Бабаев И.А., Османов Ф.Л. Работы Кабалинской экспедиции // Археологические открытия 1969 г., М., 1970, с. 376-378.

[17] Osmanov F.L. İsmayıllı rayonu ərazisində 1970-ci il arxeoloji tədqiqatların hesabatı // Azərbaycan SSR EA Tarix İnstitutu, çöl tədqiqat bürosu. № H 47, səh. 21-25.

[18] Mahmudov F.R. Ağyazı düzənliyində Yoluylutəpə mədəniyyət // AMM, VI c, Bakı, 1965, səh. 131-144.

[19] Xəlilov C.Ə Xınıslı qədim yaşayış yeri // Azərbaycan SSR EA Xəbərləri (ictimai elmlər seriyası), 1961, № 3, səh. 31-47.

[20] Пассек Т.С. Джафарханский могильник // Вестник древней истории, 1946, № 2.

[21] Ниорадзе Г. Раскопки в Алазанской долине. Тбилиси: 1940.

[22] Materiallarla bizi Qobustan arxeoliji ekspedisiyanın rəisi Cəfərqulu Rüstəmov bilavasitə tanış etmişdir.

[23] Qazıyev S.M. Mingəçevir küp qəbirləri albomu. Bakı, 1960.

[24] Османов Ф.Л. Глиняные саркофаги, найденные на территории Азербайджана // AMM, VII cild, Bakı, 1973, s. 245-250.

və içərisində azyaşlı uşaq dəfn olunduğu müəyyənləşdirildi. Skelet demək olar ki, tamamilə çürümüşdür. Qalmış sümüklərə əsasən onun sol böyrü üstdə yerləşdiyi aydınlaşdırılmışdır. Kəllə küpün dibinə, yəni qərb istiqamətdə olmaqla, üzü şimala doğru çevrilmiş vəziyyətdə idi. Onun boynu yanında müxtəlif muncuqlar, üzü qarşısında bir ədəd kiçik dəmir bilərzik, yaxud "asma bəzək" qoyulmuşdur. Çanaq sümükləri yerləşən hissəyə yaxın küpdə 0,5 sm diametri olan deşik vardır. Belə hallar, adətən, qəbir küpünün oturacağına yaxın hissədə, həm də diametri təqribən 10-12 sm olur. Saxsı təknə qəbirlərdə isə alt və yan hissələrdə bir neçə deşik düzəldilir.[25] Küp və təknə qəbirlərindəki bu əlamət dövrün hər hansı bir dini təfəkkürü ilə bağlı müəyyən məna kəsb edirsə, məhz bu abidədəki eyni əlamət də onların ifadə etdiyi mənaya yaxınlaşır. Küpün cənub kənarı boyu və oturacağına tərəf ağzı novçalı qırmızı dolça, ağzının kənarından dik qaldırılmış qulpu olan çölmək və onun da içərisində xırda buynuzlu heyvan qabırğası vardır. Bundan əlavə, nisbətən iri qırmızı rəngli dolça, daha bir orta həcmli, ağzı dairəvi, üçqulplu gil qab (yanlardan olan qulplarının üstü və gövdəsi boyu gildən yapma düyməciklərlə bəzədilmişdir), bir kiçik ağzı novçalı dolça, küpün oturacağına yaxın qonur rəngli qopu, ikiqulplu qırmızı rəngli gil cam qoyulmuşdur. Qablar düzülən yerdə çoxlu heyvan sümüyü də vardır.

Nüydi nekropolunda aşkar edilmiş küp qəbirlə torpaq qəbirlərin maddi-mədəniyyətində (yalnız qəbir forması istisna olmaqla) əsaslı fərq yoxdur. Bu isə belə bir təsəvvürün yaranmasına gətirib çıxarır ki, artıq daha geniş miqyasda yayılmış küpdə dəfnetmə adəti Nüydi abidəsi sakinlərin adət-ənənəsində hələ dərin kök salmamış və ya tam daxil olub formalaşmamışdır. Belə bir xüsusiyyət Yaloylutəpə mədəniyyətinin mərkəzi zonasında, xüsusən yaxın qonşuluqda olan Qəbələ ərazisində eyni dövr qəbiristanında da müşahidə edilmişdir. Burada əsasən torpaq qəbirlər geniş yayılmış, yalnız uşağa aid cüzi dəfn mərasimləri kiçik təsərrüfat küplərinin sınıqları içərisində icra edilmişdir. Bununla da Albaniyanın dağlıq və xüsusən şimal rayonlarında küpdə dəfn adətinin e.ə. III əsrin sonlarından yayılmağa başladığı mühalizəsini söyləmək olar. Bu halda ehtimal edilə bilər ki, körpə uşaqların hələ dini etiqadlara tam mənsub olmaması cəhəti nəzərə alınaraq məhz ilk əvvəllər uşaqların küpdə dəfni də başqa bir dini əqidə və adətin qəbulunda və ya mənimsənilməsində günah kimi qiymətləndirilməmişdir. Artıq e.ə. I və eramızın I əsrlərindən başlayaraq, göstərilən rayonlarda küpdə dəfn adəti kütləviləşir, kiçiklərlə yanaşı yaşlıların da dəfn mərasimində geniş tətbiq edilir. Halbuki Albaniyanın aran hissəsində, daha doğrusu, Azərbaycanın cənub rayonlarında və ya düzən zonalarında bu tip abidələr geniş yayılmaqla daha qədim tarixə malikdir.

[25] Osmanov F.L. Şıxdərə yaşayış yerində arxeoloji qazıntılar // 1971-ci ildə Azərbaycanda aparılmış arxeoloji və etnoqrafiq tədqiqatlar, Bakı, 1972, s. 12-14.

**1981-ci il.**

1981-ci ildə arxeoloji qazıntılar zamanı əsasən Uzunboylarda (14 iyul – 12 sentyabr) aparılmışdır[26]. İlk günlər bəzi təşkilati işlərlə məşğul olub avtobusla Şamaxı yaxınlığındakı Muğanlı kəndinə gəldik. Buradan isə İsmayıllı rayonunun Sulut kəndinə getmək üçün yol avtomaşını gözləməli olduq. Yeri gəlmişkən qeyd edək ki, Muğanlıdan İsmayıllıya şosse yolunun çəkilməsilə əlaqədar torpaq işləri görülərkən qədim maddi-mədəniyyət nümunələri də üzə çıxmışdır. Burada yüngül axtarış işləri apardıq. Düzdür, Muğanlıda qədim abidələrin varlığı bizə çoxdan bəllidir. Muğanlı kəndinin üstündə Ağsuçaya enən yerdən asfalt yolun sağ tərəfində yol hamarlanarkən orta əsrlərə aid su tüngləri, şirli boşqab və s. qab qırıqları aşkar edilmişdir. Bundan əlavə yolun sağ kənarında, üzüm bağının qırağında antik və ilk orta əsrlərə aid saxsı qırıqları (onların bəzisi oxra ilə boyanmışdır), məsaməli dən daşı qırıqları müşahidə edilmişdir. Buraya yerlilər "Qaraçala" deyirlər. Həmin yer bir qədər şimal-qərbə doğru həqiqətən çaladır və buradan içməli su çıxır. Yerlilərin söylədiyinə görə, həmin sahə şumlanarkən daha bir bulaq üzə çıxmışdır. Bulaq olan yerdən bir qədər şimala doğru, Dilman yolunun altında da antik dövr yaşayış yerinin izləri vardır. Bu qədim yaşayış izi olan yerə yaxın hazır Qurbtəpə adlı kənd yerləşir. Orada indi əsasən malakanlar yaşayır. Şamaxı rayonuna aid olan bu kənddə vaxtı ilə "qurdlar" adlı tayfa yaşamışdır. Bu yaxınlara qədər onlar əsasən sərraflıqla, dabbaqlıqla məşğul olmuşlar. Yerlilərin söylədiyinə görə qurd tayfasından olanlar ətraf kəndlərin mal-qarasını gön əldə etmək üçün aparmış və nəticədə onlar buradan qovulmuşlar. Qurdlar hazırda Göyçay şəhərindən bir qədər cənubda məskən salmışlar. Onlardan bir neçə ailə yenə də Qurdtəpədə qalmışdır. Şamaxıda da qurdlar məhəlləsi var. Deyilənlərə görə qurd tayfasından bir qismi də Zaqatalaya gedib, orada məskunlaşmışlar. Şamaxı şəhərindən 10-12 km qərbdə yerləşən bu qədim abidə mühüm elmi əhəmiyyət kəsb edir. Lakin buranın hazırda üzüm bağları altında qalması işi çətinləşdirir.

İlk dəfə qazıntı aparacağımız Uzunboylarda bizi birinci olaraq çırpınıb havaya qalxan qırqovullar qarşıladı.

Uzunboylar inzibati ərazi bölgüsü üzrə İsmayıllı rayonu Sulut kəndinə məxsus olub, Ağsu rayonunun Leninabad ilə Xasıdərə kəndləri arasında, nisbətən hündür yayla üstündə yerləşir. Münbit torpağa malik olan bu ərazi ta qədim zamanlardan dəmyə əkinçilik və maldarlığın inkişafı üçün gözəl imkan yaratmışdır. Son vaxtlaradək burada əkilən sarıbuğda, qaraqılçıq, ağbuğda və s. taxıl növləri öz dadlı-durumlu çörəyinə görə ətraf yerlərdə "Sanqalan buğdası" adı ilə də çox məşhur olmuşdur. Yaşayış yerinin yaxınlıqları qaynama bulaqlar, iri və

---

[26] Ekspedisiya üzvləri Fazill Osmanov (rəis), Fərhad İbrahimov (baş elmi işçi), Abdulla Fazilli (baş elmi işçi), Qafar Cəbiyev (elmi işçi), Həsənağa Ramazanovdan (elmi işçi) ibarət olmuşdur.

xırda meşəliklərlə əhalətənir (tablo 37). Meşələr, müxtəlif növ ağacların ayrı-ayrı yerlərdə ya təbii yetişməsinə və yaxud da vaxtilə süni salınmasına görə - "Palıdlıq", "Dəndənlik" (göyrüş), "Vələslik", "Qarağaclıq", "Əzgillik", "Yemişanlıq", "Fındıqlıq", "Alçalıq", "Sumaqlıq", "Heyvanlıq", "Vəlgəlik", "Göyəmlik" və s. adlandırılmışdır. Bütün bunlar öz növbəsində tikinti, sənətkarlıq materialı, yanacaq ehtiyatı, alət, alət hissələri, meyvə və dərman bitkisi kimi insanların həyatında müstəsna əhəmiyyət kəsb etmişdir. Şübhəsiz, mövcud təbii vasitələr burada qədimdən intensiv, eləcə də müxtəlif təsərrüfat sahələrinin inkişafını şərtləndirən mühüm amillərdən biri olmuşdur.

Uzunboylarda qədim məskən və ya qəbirlərin varlığı 1972-ci ildə qonşu Nüydi kəndi yaxınlığında arxeoloji qazıntı işləri aparılarkən müəyyənləşdirilmişdir. O vaxt burada hələ yalnız taxıl əkilirdi. Ona görə də nisbətən dərin torpaq qatında yerləşən abidələr üzə çıxmamışdı. Onların yerüstü əlaməti də qabarıq nəzərə çarpmırdı. Yerin qədim yaşayış üçün mümkünlüyü baxımından diqqətlə axtarış aparıldıqda saxsı qırıqları müşahidə edilmiş və həmin vaxtdan qədim abidə kimi qeyd olunmuş, 1978-ci ildən etibarən isə abidələrin mühafizəsi siyahısına daxil edilmişdir. Buna baxmayaraq respublikada üzümçülüyün genişləndirilməsi ilə əlaqədar bu sahədə də 1979-cu ildə üzüm bağı salınarkən çoxlu daş tikinti qalıqları və qəbir abidələri dağılmışdır.

Uzunboylarda yalnız 1981-ci ildən qazıntıya başlanmışdır. İlk dəfə qazıntıya başlanan bu abidədə qazıntı yeri seçmək birinci növbədə qarşıda dururdu. Qeyd etmək lazımdır ki, 1979-cu ildə sahə üzüm bağı üçün şumlandığı zaman müəllif tərəfindən payızda yoxlama-axtarış işləri aparılmışdır. Bu vaxt xeyli saxsı məlumatı dəmir əmək alətləri, bəzək şeyləri toplanmış, tikinti materialı (daş), dən daşları və s. müşahidə edilib qeydə alınmışdır. Bundan başqa qazıntı yeri də təqribi olaraq seçilmişdir. Keçən ildən basdırılmış tənəklərin dibi və ətrafını ot-alaq basdığından yerüstü maddi-mədəniyyət qalıqları və yerin relyefi yaxşı bilinmirdi. 4 hektara yaxın olan bu sahənin mərkəzi, hündür yerində 6x6 metr ölçüsündə yoxlama qazıntısı açdıq. Lap üst təpəcikdə, daha doğrusu qarışdırılmış qatda köhnə saxsı qırıqları və başqa qalıqlar müşahidə edilmişdir. Lakin bunların çoxu yer şumlanarkən bir yerdən başqa yerə sürülmüş və qırılmışdır. Ümumiyyətlə, 0,5 metr dərinliyə qədər çoxlu saxsı qırıqları və s. qalıqlara tez-tez rast gəlinmişdir. Bu qatdan bir ədəd tunc qayış toqqasına da təsadüf edilmişdir. Bunların əksəriyyəti qəbir materialını da xatırladır. Burada müəyyən bir yaşayış qatını və ya qəbir abidəsini aydınlaşdırmaq məqsədilə yoxlama qazıntısının əvvəlcə ikidə bir hissəsini, sonra onun da yarısını daha dərin qazıb endirdik. Ümumiyyətlə, alt qatlarda xam torpağa (1,8 metr dərinlikdə) heç bir tikinti qalığı və qəbir abidəsinin olmadığı yəqinləşdirildi. Bundan sonra həmin yerdə işi dayandırıb təqribən 50 metr qərbə, nisbətən hündür və maddi-mədəniyyət qalıqlarının çox səpələndiyi yerdə ikinci (4x2; 5 m) yoxlama qazıntı açdıq, (ölçülər əkilmiş tənəklərdən az miqdar məhv olunmasına görə uyğunlaşdırılmışdır). Burada da 0,5, bəzi yerlərdə 0,7 metr

dərinliyə qədər şum zamanı qarışdırılmış, bu qatlardan tikinti və ya qəbir abidələri uçurulub-dağıdılmışdır (tablo 38). Bura abidənin demək olar ki, ən hündür axar-baxarlı nöqtəsidir yoxlama qazıntısında 0,5 m-dən tək-tək saxsı qırıqlarından əlavə başqa qalıqlar görünmürdü. 0,7-0,8 m-lik də isə bütöv saxsı qablar və başqa materiallar görünmüşdür. Bundan sonra yoxlama yerinin ətrafında əsaslı, nisbətən geniş sahə açmağa başladıq. Beləliklə yoxlama qazıntısı təqribən mərkəzə yaxın yerdə olmaqla dörd tərəfə 10x10 metr ölçüsündə artırıldı. Üst, qarışdırılmış qatın ot-alağı təmizlənərkən bir tunc üzük və ya kiçik bilərziyi xatırladan əşya da tapılmışdır. Ümumiyyətlə, yer üstündən dəmir nizə, oraq, qayçı, bəzək zənciri və s. tapılmışdır. Açdığımız qazıntı sahəsinin torpağı cənub istiqamətində, 20-30 m-lik məsafəyə xərəklə daşınıb tullanmışdır. Bir təpəcik üst əkin sahəsinin torpağı götürüldükdən sonra ikinci təpəcikdə torpaq nisbətən yumşaq olub, mərkəzi hissələrdə onun rəngi qara, kənarlarda sarımtıl, cənub hissədə isə daşlı qat davam edir.

Qeyd etməliyik ki, qazıntı sahəsi abidənin hündür, həm də cənub kolluq yamaca yaxın bir növ qabırğavari yerində olduğundan üst örtük müxtəlif aşınma və başqa dəyişikliklərə məruz qalmışdır. Sahə dörd kvadrata bölünmüşdür. Qeyd etməliyik ki, götürülmüş qazıntı sahəsinin qərb və şimal hissələri aşkar edilmiş qəbir abidələrinə görə kənarlara doğru artırılmışdır. 0,7-0,8 metr dərinliyə qədər üst qarışdırılmış qatdan altda bəzi yerlərdə 35-40 sm qalınlığında qara torpaq qatı müşahidə edilmişdir. Bu qatın torpağı içərisində heç bir forması məlum olmayan xırda saxsı qırıqlarına təsadüf olunmuşdur. Lakin onların antik dövrdən əvvələ aid olduğu bilinir. Bu saxsı parçaları içərisində xarici üzü qara, içərisi qırmızı təbəqəyə malik qab qırıqları da vardır. Bunlar çox güman ki, tunc dövrü və ya dəmirin əvvəllərinə aiddir.

Tapıntılar içərisində dəvəgözü və başqa dövr üçün səciyyəvi daş qəlpələrinə də rast gəlinmişdir. Bütün bunlardan əlavə yer üstündən həddən artıq uzunsov və bir tərəfi çökək-işlək dən daşları da tapılmışdır (tablo 39).

Qeyd edilən tapıntılar və 0,4-0,5 m-dən altda 30-35 sm-ə yaxın qatda maddi-mədəniyyət qalıqlarının varlığı Uzunboylarda tuncun sonu və dəmir dövrünün əvvəllərindən yaşayışın varlığını bildirir. Gözə çarpan bu qədim dövr təbəqəsi şübhəsiz geniş qazıntı işlərindən sonra daha dəqiqliyi ilə aydınlaşdırıla bilər. Qazıntının üst qarışıq təbəqəsində isə üzəri boz və sumağı rəngə boyanmış qab qırıqlarına da təsadüf edilmişdir. Bundan başqa yaşayış yerinin üstündən saxsı qab qulpları üzərində kiçik deşmələrdən, kəsilmələrdən ibarət naxışlara malik nümunələrə də təsadüf edilmişdir.

Bütün bunlar hazırlanma texnikası, boyanma, naxışlanma və s. görə e.ə. III - b.e. ilk əsrləri üçün də səciyyəvidir. Lakin tapıntıların əksəriyyəti ellininizm dövrü çərçivəsinin məhsuludur.

Qazıntı sahəsinin cənubunda, qərb kənarından 2,5 metr şərqə doğru 1 metrə qədər enində divarın qalığı görünmüşdür. Bunlar çay daşından olub, araları xırda

çınqıl və sarı narın torpaqdan ibarətdir. Həmin sahə daş dağıntısı olan yer 4 metr cənub-qərbə doğru davam edir və bundan sonra 3 metr şimal-şərqə uzanır. Daş dağıntısı tökülmüş yerin arxası çınqıllı qəhvəyi-sarı torpaqla döşəndiyi hiss olunur. Bu töküntülər demək olar ki, yerin üstünə yaxındır. Odur ki, həmin qalıqlar əvvəlki yerini dəyişmiş və pozulmuşdur. Bina qalığı hesab edilən yerdən iri və xırda ucu şiş, uzunsov daşlar tapılmışdır. Bunların içərisində bir tərəfindən deşik açılmışlarına da təsadüf edilir. Bu daşların sənətkarlıqla işləndiyi güman edilir. Lakin bu daşların alət kimi istifadə olunması hələ tam yəqinləşdirilməmişdir. Belə bir fakt diqqəti cəlb etməyə bilməz ki, Nüydi yaşayış yerinin yaxınlığında sənətkarlıq ocağı kimi qeyd edilən çoxlu yanğın izi və kərpic halına düşmüş suvaq parçaları tapılan sahədə də bu cür alətlərə təsadüf edilir. Açılmış qazıntı sahəsində tikinti qalıqları, sənətkarlıq, başqa təsərrüfat işlərilə bağlı tapıntılardan başqa yaşayış məskəni və onun sakinlərinin həyat fəaliyyətini daha aydın nəzərə çarpdıran qəbir abidələri də aşkar edilmişdir. Həmin abidələr torpaq qəbirlərdən ibarət olub, çox zəngin avadanlığa malikdir. Qəbirlər dördkünc şəkildə qazılmışdrr. Böyük ölçülü və qeyri-adi təchizata malik olan bu qəbir abidələrinin ayrı-ayrılıqda təsvirini verməyi lazım bilirik.

**1 saylı torpaq qəbir.** Uzunboylarda arxeoloji qazıntı zamanı ilk dəfə təsadüf edilən bu qəbir abidəsi nisbətən dayazda olduğundan yer şumlanarkən dağıdılmış, əksər avadanlığı sınmış və yerindən tərpədilmişdir. Odur ki, onun istiqamətini müəyyənləşdirmək mümkün olmadı. Hətta skeletin sümükləri də qarışdırılmışdır. Lakin bütün bunlar bilərəkdən olmamışdır. Buradan salamat qalmış qablara habelə bəzək əşyalarına təsadüf olunmuşdur. Qol sümükləri yanında tunc bilərzik, muncuq (şüşə, əqiq, pasta) tapılmışdır (tablo 45-14). Bütün bunlarla birlikdə qol və əl sümükləri yanında bir ədəd yerli gümüş sikkə də tapılmışdır. Makedoniyalı İsgəndərin puluna bənzədilərək zərb olunmuş bu sikkə yaxşı qalmışdır. O abidənin dövrünü müəyyənləşdirməkdə, eləcə də onun sakinlərinin iqtisadi və mədəni səviyyəsini aydınlaşdırmaqda bizə böyük kömək göstərə bilər. Bundan başqa daha maraqlı tapıntılardan biri də ağ əhəngdaşından olan dayaz piyalədir. Qabın ağzının kənarı ilə çevrələnən iki batıq xəttin arası (2,5 sm enində) çox məharətlə iki maral, bir ceyran, yaxud tur qaçan şəkildə onların ardınca quyruğu yuxarı qatlanmış şəkildə bir it (yaxud bəbir?) cəld qaçışda təsvir edilmişdir. Hər bir rəsmin arası iki dik cızıqla kəsilərək araları yenə də dik, lakin ziqzaq cizgilərlə bəzədilmişdir.

Bu ziqzaq xətlərlə itlərlə ceyranın arasında dörd, ceyranla birinci maralın arasında isə 6, ikinci maralın arasında beş xətt çəkilmişdir. Piyalənin içərisində kəsik xətti bildirən cızıq vardır. Bu cür yenə də xaricdən az bir hissəsini bölən şəkildə verilmişdir. Həmin piyalə və yaxud cam dayaz və qalın olub kiçik və nisbətən düz oturacağa malikdir. Onun oturacağı nəmlik və ya yuyulmadan bir qədər aşınmışdır. Həmin qabın eyni forması saxsıdan hazırlanmışdır. Həm də bu

forma tədqiq olunan abidədən çoxlu miqdarda tapılır və onun səciyyəvi qab nümunələrindən birini təşkil edir.

1 saylı torpaq qəbirində Albaniyanın ilk dövrləri üçün daha səciyyəvi olan süddanbiçimli, yumru gövdə, yandan qulplu qablar üçayaq və təkayaqlı qara qonur rəngli vazaların hissələri də tapılmışdır. Abidənin əsas saxsı qab nümunələrindən biri də cam formalı kiçik qulplu olan nümunələrdir. Bu tip qabların böyük nümunələri də aşkar edilmişdir. Onlar bir növ xeyrələri xatırladır. Qalqa tipli qabların içərisində qoyulmuş çox kiçik camlara da təsadüf edilmişdir. Onların ağzının kənarından dik qaldırılmış qövsşəkilli kiçik qulplar vardır. Bu cür kiçik ölçülü qablar da Uzunboylardan həddən artıq tapılır.

Qəbirdən aşkar edilmiş vaza, xeyrə və qalqa tipli qabların içərisindən qoyun və quş sümükləri var idi. Bu qabların üzərində yanğın izi də müşahidə edilir. Bundan əlavə qablar qoyulan yerdə od izi qalmışdır. Bu qalıqlar içərisində kömür qalıqları da vardır ki, onların bəzisinin palıd ağacına aid olduğu kömürünün qatlarından bilinir. Bundan başqa bu qəbirin dağıdılmasına baxmayaraq bir qoyun skeletinin demək olar ki, tam hissələri müşahidə edilmişdir.

Saxsı qablarda Albaniyanın ilk dövrlərini səciyyələndirən ağzında novçavari çıxıntısı olan süddan, ağzı dörd tərəfə əyməli dopu, şargövdəli digər bardaqlar diqqəti cəlb edir. Enli və qısa boğaza malik bu qabların bir qulpu olub gövdəsilə ağzının kənarı altında yapışdırılmışdır. Onların boğazı batıq xətlə və çəp kəsmələdə bəzədilmişdir.

Tapılmış qara rəngli qapağın üstündə ilgəkşəkilli qulpu və barmaqla basılmış bəzəyi vardır (tablo 46-5). Qapaq ağzı dairəvi və enli boğaz qabın ağzını örtmüşdür.

Bəzək şeyləri içərisində pastadan asmalara da təsadüf edilmişdir. Onun bir tərəfi qabarıq olub üzəri kiçik qazıma yolu ilə bir növ balığın pulcuqlarını bildirir. Asmaq üçün baş tərəfindən deşik açılmışdır. Bu isə balığın gözlərini xatırladır.

1 saylı qəbirin avadanlığı içərisində dəmir materialı da çoxdur. Onlardan ox ucları (tablo 45 - 7, 8), bıçaq tiyəsi (tablo 45-3), biz (tablo 45-6), nizə qırıqları və s. göstərmək olar. Dəmir əşyalarla birlikdə qara rəngli uzunsov düzəldilmiş bülöv daşı da tapılmışdır (tablo 45-9).

İçərisində dəmir yapışdırılmış bir ədəd dairəvi bəzək əşyasının kənarlarında iki yerdə deşiyi vardır. Onun bir tərəfi qabarıqdır. Çökək tərəfindəki dəmir qalığı bu əşyanın sancaq hissəsi olduğunu bildirir. Yerüstü tapıntılar içərisində müxtəlif ölçülü zəncir həlqələrindən ibarət bəzək nümunələri də tapılmışdır. Bu zəncirin üstündə dəmir lehimi qalmışdır. Görünür ki, onu silah və ya başqa alətə lehimləyib bərkitmişlər.

**2 saylı torpaq qəbir**. Bu qəbir abidəsi qazıntı sahəsinin cənub kənarına yaxın, daha doğrusu VV a,b kvadratları arasında aşkarlanmışdır. Qazıntı yeri seçərkən yoxlama nöqtəsində qəbir abidəsinin izi üzə çıxdığından, məhz buradan kənarlara doğru sahəni artırmışdır. Təbiidir ki, bu abidə də qazıntının təqribən

mərkəzi yerlərinə düşmüşdür. Lakin 0,75 metr dərinlikdən başlanan bu qəbir abidəsinə qədərki qatda dağıdılmış qəbir abidəsi, habelə cüzi mədəni təbəqə izləri öyrənilmişdir.

Qəbirin istiqaməti və kənar xətləri müəyyənləşdirmək üçün çınqıllı və xırda daş qarışıqlı sarımtıl töküntüsü götürüldü. Çınqıllı torpaq çox çətinliklə qoparılırdı. Onun altında yanğın izi olan qara torpaq zolağı qəbir boyu davam edirdi. Bu çınqıllı qara torpaq altında nisbətən yumşaq, ağımtıl torpaq müşahidə edilmişdir. Qara-qonur rəngdə tökmə torpaq kənar hissədən aydın seçilirdi. Düzbucaqlı formasında olan qəbirin kənarları 30 sm enində qara rəngli torpaq zolağı ilə əhatələnirdi. Şərq-qərb istiqamətinə doğru olan bu qəbirin uzunluğu 4 metr, eni 2 metrdir. Tək adama məxsus bu abidə çox dəbdəbəli və zəngin dəfn mərasiminə malik olmuşdur. Qəbirin şimal-qərb küncündə, kəllə qərbə olmaqla, əllər üzünə doğru, qıçlar dizdən qatlanaraq sağ böyrü üstdə insan skeleti aşkar edilmişdir. Onun dizləri önündə xırda daş və bir çölmək vardır. Qəbirin şərq hissəsində və ya skeletin ayaqları istiqamətində iki iri küpün ağzı görünmüşdür. Bu küplərin ağzı vaxtı ilə yastı daşla örtülü olmuşdur. Daşlardan biri yana düşmüş, digəri isə küpün ağzında qalmışdır (tablo 41). Bundan başqa küplərin yanında daha bir dolça da qoyulmuşdur. Ağzı örtülü qalmış küpün içərisi boş və təmiz qalmışdır. Onun dibində maye çöküntüsü izi hiss olunur. O biri küpün ağzındakı daş düşdüyündən içərisi torpaqla dolmuşdur.

Küplərin içərisində maye-içki qoyulduğu güman edilir. Bunu iri küplərin yanındakı dolça da müəyyən qədər təsdiqləyir. Belə ki, axirət dünyaya inamla əlaqədar olaraq kiçik dolça ilə böyük küplərdəki içkidən götürüb istifadə edilməsi nəzərdə tutulduğu ehtimal olunur. İri təsərrüfat küpləri qarşısında, yəni qəbirin şərq-qərb hissəsində, qabların ağzı səviyyəsindən bir qədər üstdə dörd qoyun sümüklərinin qoyulduğu müəyyənləşdirildi. Qoyun yaxud, davar skeletinin bütöv qalıqları aşkar edilmişdir. Qurban gətirilmiş heyvan sümükləri ilə qabların arasındakı nazik torpaq qatında od yandırılması izi müşahidə edilmişdir. Qoyun cəmdəyinin qalığına görə kəllə gündoğan tərəfə qoyulmuşdur. Bundan başqa enli ağız saxsı qablar içərisində də xırdabuynuz heyvan sümükləri aşkar edilmişdir. Az miqdarda quş sümüklərinə də təsadüf edilmişdir. Qəbirin içərisinin torpağı ehtiyatlı qazılıb çıxarıldıqca skeletin önündə başdan ayağadək müxtəlif saxsı qab, metal əmək alətləri, silah və s. görünməyə başladı. Qeyd edək ki, əvvəlcə skeletin özünün yönünü müəyyənləşdirdik və ətrafını təmizlədik. Skeletin sümükləri həddən artıq olduğundan, şotka-bıçaq toxunarkən ovulub tökülürdü. Hətta kəllə sümüyü xırda hissələrə parçalanıb yerində qalmışdır. Çox güman ki, yer şumlanarkən ağır kotanların təzyiqi və s. nəticəsində olmuşdur. Kəllə enli tunc cütqabağı (başlıq) ilə əhatələnmişdir (tablo 44-4, s.q. № 34). Onun yanında çoxlu miqdarda tunc bəzək tikmələri aşkar edilmişdir. Dairəvi formada olan bu bəzəklərin bir tərəfi çökək və ortadan kiçik qabartılıdır. Bu hissədə onların kiçik halqalarından ibarət tikilmək üçün yeri də olmuşdur (s.q № 36). Bundan başqa tunc lövhəciklərin qırıqları da

vardır (s.q. № 35). Bütün bu metal hissələr çox güman ki, baş zirehi əhəmiyyəti də kəsb etmişdir. Bu fikri təsdiqləyici dəlillər çoxdur. Belə ki, digər avadanlıqla yanaşı çoxlu dəmir silaha (nizə, mizraq, toppuzabənzər, daş bülöv daşı və s.) da təsadüf edilmişdir. Skeletin qarşısında bir dəmir əşyaya rast gəlinmişdir (tablo 45-1, s.q. № 49).

Onun iki çıxıntısı irəliyə doğru uzanır, ucları nisbətən şiş və bir tərəfə azca maillidir. Onun çıxıntılarının birləşdiyi yer dairəvi qalın lövhə şəklində olub xaricdən mərkəzində çıxıntısı vardır. Bu dəmir əşyanın at əsləhəsilə əlaqədar olduğu güman edilir. Onun bənzəri bizə nə arxeoloji tapıntı kimi, nə də etnoqrafik material kimi bəlli olmadığından hələlik hansı vəzifə daşıdığı tam aydın deyildir.

Skeletin yerləşdiyi kiçik sahədən başqa onun başı, üzü qarşısından ta qəbirin şərq küncünədək müxtəlif antik dövr saxsı qabları – iri xeyrələr, qulplu dayaz qablar, ilgəkvari qulpu olan qırmızı rəngli çanaqlar, iki qulpu küpə, üçayaqlı vazalar, qara saxsı camlar, dopu və s. düzülmüşdür. Təkcə saxsı qablar 50-dən çoxdur. Bu qabların əksəriyyəti həddən artıq ovxalanmışdır. Əlbəttə, onların əksəriyyəti götürülmüş, təkrar olmayan qablar isə çətinliklə də olsa yığılıb bərpa edilmişdir ki, bu barədə ayrıca məlumat veriləcəkdir.

İnsan kəllə sümüyü yanından dəmir silah və başqa əşyalarla yanaşı bir dəmir dəhnə (gəm) də tapılmışdır. Həmin dəhnə at ağzına taxılan iki iri dəmir zəncir paxlasından və onları birləşdirən iki yastı, uzunsov dəmir hissədən ibarətdir. Bu dəmir hissələr atın qulağı yanından burnunadək uzanır və oval ucları üstə tərəf əyilib dik dayanır. Dəmir sahənin atın cəngləri yanından da halqavari dik dayanan çıxıntısı da vardır. Həmin çıxıntılar atın hərəkət zamanı istənilən tərəfə döndərmək, qaytarmaq üçündür (tablo 45-2, s.q. № 38).

Qəbirin şərq tərəfində, divardan 70 sm aralı bir at kəlləsi və qıç sümükləri aşkar edilmişdir. Kəllənin uzunluğu 50 sm-dir. At kəlləsi qarşısında, qəbirin cənub divarlarında xırda daşla doldurulmuş (hündürlüyü 50, eni 90 sm) tağvari boşluq nəzərə çarpır. Atın çənəsində 8 diş, yanda isə 10 diş var idi. At sümüklərinə görə onun cavan heyvan olduğu bilinir. At sümüklərindən qərbə doğru kiçik heyvan sümükləri də aşkarlanmışdır. Təmizləmə zamanı kəllə və dişlərə görə, habelə qıç sümüklərinə görə itə aid qalıqlar aydınlaşmışdır. At sümüklərinin şimal hissəsində qırmızı rəngdə tava formalı saxsı qabın sınıqları (bu qabın bütün hissələri yox idi), ondan qəbrə doğru bozumtul qabın sınıq hissələri, onun altında isə bir tunc halqa (s.q. № 42-43), iki tunc muncuq (s.q. № 40-41). İki dəmir biz (tablo 44-9, s.q. № 46) və başqa materiallar aşkar edilmişdir.

Dəmir məmulatı ilə yanaşı daha doğrusu bilavasitə alət və silahların yanında bir neçə bülöv daşı və bir ədəd bozumtul çəkicə oxşar alət hissəsi tapılmışdır. Sonuncunun ucları işlənib yeyilmişdir. Onun qalmış parçasında deşik izi yoxdur (tablo 45-16, s.q. № 61). Bülöv daşlarından ikisi qara və yastı formadadır (tablo 45 - 9, 10, s.q. № 60, 58). 58 saylı bülöv daşının uzunsov və hamar gövdəsinin bir tərəfi şiş olub asmaq üçün iki tərəfli deşiyə malikdir. Bu cür alət və ya silah

itiləmək üçün düzəldilmiş başqa bir daşın da bir ucunda iki tərəfli deşik açılmışdı (tablo 45-10, s.q. № 59).

Bu qəbirdə 55 saxsı qab nümunəsi qeyd edilmişdir. Lakin qabların əksəriyyəti qırılmış və hətta bərpası çətinləşmişdir. Bundan başqa istər bütöv olsun, istərsə də sınıq, təkrar olmayan və orijinal qabların xırda hissələri də yığılıb bərpasına çalışmışıq. Xarakterik saxsı qablar aşağıdakılardır:

Çölməklər bu qablar içərisində xüsusi yer tutur. Onlardan biri orta həcmli qazan ölçüsündə düz oturacağa, enli gövdəyə və dairəvi ağıza malikdir. Bozumtul rəngdə bişirilmiş bu çölməyin üzəri sayadır. Ucları qabın gövdəsindən öküz buynuzu formasında yapışdırılaraq, ağzının kənarlarında fəzaya doğru qaldırılmışdır (qulpun üstü sınmışdır. Qabın ağzının diametri 18,5, hündürlüyü 14,5 oturacağının diametri isə 11 sm-dir).

Digər iki ədəd çölmək də yuxarıdakı kimidir. Bunlardan birinin ağzı nisbətən geniş olması, bir qədər kiçikliyi və bir də üzərindəki bəzək müxtəlifliyinə görə fərqlənir. Bu qabın ağzının kənarı batıq xətlərlə haşiyələnmişdir. Qırmızı rəngdə boyanmış həmin qabın bir tərəfindən buynuzvari ucları gövdəyə yapışdırılmaqla əl tutan hissəsi ağızın kənarından dik fəzaya qaldırılmışdır. Qabın ağzı kənarında, qulpların yanında (hər tərəfdə bir ədəd) yapma düyməcik vardır. Qulpun əks tərəfində, üstü qabın qırağına doğru olmaqla “L” formasında yapma işarə bəzəyi vardır.

Daha bir qırmızı rəngdə boyanmış çölməyin də buynuzvari qulpu ağzının kənarından fəzaya doğru qaldırılmışdır. Qulpun ucları yapışdırılan yerin arasında qabın ağzından aşağıya doğru bucaqşəkilli cızma naxışla bəzədilmişdir. Bu naxışlar gövdədəki düyməciyin üstünədək endirilmişdir. Qabın ağzının kənarından bərabər məsafədə dörd yerdə çıxıntı-düyməcikdən bəzək vardır. Qabın ağzından bir qədər gövdəyə doğru yenidən dörd düyməcik (üstdəki düyməciklərin arasına düşmək şərtilə) vardır (s.q. № 74). Beləliklə qabın ağzının yanındakı düyməcikdən 3 batıq xətlə aşağıdakı düyməciyə endirilmiş, oradan yenə yuxarıya qaldırılaraq bir növ dalğavari şəkildə çevrələnmişdir (hündürlüyü 14 sm, ağzının diametri 14, oturacaq diametri 8 sm).

Uzunboylar abidəsi üçün xüsusilə 2 saylı qəbir abidəsindən tapılmış iri saxsı çanaqlar da səciyyəvidir. Bunlardan bir ədədi çox böyük olub dairəvi düz oturacağa və geniş dairəvi ağıza malikdir. Onun hündürlüyü 14,5, oturacağının diametri 10,5 ağzının diametri isə 39 sm-dir (s.q. № 72). Bu qabın ağzının kənarı düzdür, üzəri qırmızı boya ilə örtülmüşdür.

Təsvirini verdimiz qabla yanaşı, bilavasitə çanaq və ya xeyrə tipində daha iki qab da maraqlıdır. Bunlar gen ağıza, düz oturacağa və ağzının kənarı ilə çiynini birləşdirən tək qulpa malikdir. Bu çanaqların ağzının qıraqları kənarlara doğru əyilmiş vəziyyətdədir. Hər iki qab 72 saylı çanaq kimi qırmızı rəngdə bişirilmiş və üzəri yenidən tünd qırmızı rənglə boyanmışdır (tablo 46-4, s.q. № 73). Bu iki qab bir-birindən ölçülərinə görə fərqlənir. Gilinin tərkibi, saxsının rəngi habelə oxra ilə

boyanmasına görə bir ədəd iri, qalın divarlı vaza da özündən əvvəlki qablarla uyğunluq təşkil edir. Onun ağzının kənarı düz və bir qədər qalındır. Vazanın lentvari tək qulpu qabın ağzının kənarı üstündə körpüşəkilli düzəldilmişdir. Qabın oturacağı nisbətən hündür və altdan içəriyə doğru çala səklində düzəldilmişdir. Vazanın ağzının diametri 30 sm (kənardan-kənara) hündürlüyü 14 sm, oturacağının diametri 12,5 sm-dir. Onun oturacağının altından içəriyə doğru dərinliyi 4,5 sm-dir. Bu cür vazalara Uzunboylar abidəsindən tez-tez təsadüf olunur. Onların qulpunu nəzərə almasaq Azərbaycanda e.ə. VI-V əsrlər üçün səciyyə daşıyır. Bu tip nümunələr Naxçıvandan daha çox təsadüf edilir. Bu oxşar nümunələr və maddi-mədəniyyətin qədim elementləri 2 saylı torpaq qəbirin e.ə. IV-III əsrlərə aid etməyə imkan verir (s.q. № 66).

2 saylı qəbirin saxsı materialı içərisində yenə də çanaqformalı iri, ağzının kənarı ilə çiyninə kiçik lentşəkilli qulp yapışdırılmış qablara da təsadüf edilmişdir (tablo 46-3, s.q. № 64). Bu cür nisbətən kiçik ölçülü qablar da çoxdur (s.q. № 62-67).

Vazalardan və ya çıraq formasında olan üçayaqlı qablardan biri daha maraqlıdır. Üçayaq üzərində olan çəhrayı rəngli bu qabın bir tərəfində iri və kobud şəkildə düzəldilmiş lentvari qulpu ağzını kənarı ilə altında qıçlardan birini birləşdirmişdir. Qulp yana doğru çox uzanmışdır. Onun ağzının kənarlarından irəliyə doğru uzanan novçası vardır. Qabın içərisi novçası və novçadan arxa tərəfi qara his çəkmişdir. Görünür, bunun içərisində nə isə yandırmışlar və onu yana-yana əldə hərəkət etdirmişlər. Çünki, iri və yana çox uzanan qulp bunu bir daha sübut edir. Qulpun yana çox uzanması ilə yəqin ki, hərəkət zamanı alovun və ya odun əli yandırmamasını nəzərdə tutmuşlar (tablo 46-2, s.q. № 75).

**3 saylı torpaq qəbir.** Bu mövsüm aşkar edilən abidələr içərisində üçüncü torpaq qəbir də özünün avadanlığına, dəbdəbəli mərasiminə, böyüklüyünə görə diqqəti cəlb edir. Bu yer səthinin 70 sm dərinlikdə Ia kvadratında müşahidə edilmişdir. Həmin səviyyədə qəbirin kənar xətləri ayrılmış və xırdabuynuz heyvan sümükləri görünmüşdür. Sümüklərin ətrafı diqqətlə və ehtiyatla təmizləndikdə dörd bütöv davar sümükləri görünmüşdür (tablo 42). Dördkünc formada olan qəbir abidəsinin eni 1,9 metr, uzunu isə 3,5 metrdir. Qəbirin üst səviyyəsində qoyulmuş xırdabuynuz heyvan sümükləri təmizlənib fotosu çəkildikdən sonra onların altında yerləşən qab-qacağı aşkarlamaq üçün həmin qat götürülmüşdür. Onu da qeyd edək ki, bu sümüklər qəbirin ayaq tərəfində qoyulmuşdur. Qəbirin istiqaməti cənub-qərb və şimal-şərqə doğru olub, skeletin kəlləsi cənub-qərb tərəfə yönəlmiş, sağ böyrü üstdə sıx bükülü vəziyyətdə idi. Skelet azca arxası yönünə qəbirin cənub-qərb küncündə yerləşdirilmişdir. Skeletin ölçülərinə görə onun iri, uca boylu olduğu aydındır (tablo 42). Skeletin ətrafı diqqətlə təmizlənərkən onun yanında heç bir bəzək əşyasına təsadüf edilməmişdir. Baş və ayaq tərəfindəki müxallafatın yalnız dəmir nizələrdən ibarət olduğu aydınlaşmışdır. Nizə ucluqları korroziyaya uğradığından sarı torpaq vəziyyətinə dönmüşdür. Ona görə də ehtiyatla təmizləyib

üzərinə şəffaf yapışqan tökülərək bərkidilmişdir. Beləliklə, onların ilkin düzülmüş vəziyyətini saxladıq. Aydın oldu ki, ölünün başı yanında dörd nizə, ayaqları yanında da bir o qədər, yəni dörd nizə ucları fəzaya doğru olmaqla dik sancılmışdır. Bu xüsusiyyət qonşu Nüydi abidəsində də müşahidə edilmişdir. Oradakı qəbirlərdən birində 4 nizənin ölünün üzü qarşısında ucları yerə sancılmış vəziyyəti aşkar edilmişdir. Bütün bunlar çox güman ki, axirət dünyaya inamla əlaqədar özünü qorumaq kimi mənaya malik olduğuna işarədir.

Bilavasitə skeletin yanından nizədən başqa bəzək əşyasına aid mis zəncirlərin bir paxlası tapılmışdır. Adətən bəzək şeyləri qadın qəbirindən çox tapılır. Həm də öyrəndiyimiz dövr üçün qadınlar əsasən sağ böyrü üstə dəfn olunduğundan daha çox müşahidə edilir. Bu qəbir abidəsində skelet sağ böyrü üstdə olmasına baxmayaraq yanında qadına aid material tapılmadığına və başqa əlamətinə görə kişi qəbiri olduğu güman edilir. Ölünün yanına qoyulmuş başqa müxəllafatın təmizlənib aşkarlanması zamanı həddən artıq saxsı qab (70 ədəd) üzə çıxmışdır. Bunlar xırda çölməkvari qablardan başlayaraq iri təsərrüfat küplərindən müxtəlif çeşidlərə malikdir. Həmin qablar içərisində 5 ədəd (biri boz, dördü qırmızı) aftafaya oxşar, lüləyi ağzının yaxınlığında olan qab, 5 ədəd qara, qonur, çəhrayı rəngli üçayaqlı vaza (bunların içərisində qoyun sümükləri var idi, həm də bu qablar həddən artıq xarab olub ovxalanmışdır. Onların yalnız qıçları salamat qalmışdır, ona görə də götürmək mümkün olmadı) aşkar edilmişdir. İçərisində heyvan sümükləri olan vazalar Nüydi və Qəbələnin eyni dövr torpaq qəbirlərindən çoxlu aşkar edilmişdir (bu müqayisələr yalnız müəllifin öz tədqiqatları zamanı müşahidə edilmişdir). Bundan başqa dolça, bardaqlar (s.q. № 85-87), iki ədəd təkqulaq qırmızı rəngli saxsı sərnic (tablo 46-6, s.q. № 80), çölməklər (s.q. № 84), iri kasavari saxsı çanaqlar tam yerli səciyyə daşıyır.

Bir ədəd boz rəngli, çox keyfiyyətli bişirilmiş süddanbiçimli zoomorf gil qab da diqqəti cəlb edir (s.q. № 86), Ağzında süzgəci olan bu qab orijinal formaya malikdir və e.ə. III-I əsrlərdə Albaniyanın səciyyəvi saxsı qablar sırasına məxsusdur. Saxsı qablar içərisində qırmızı boya ilə rənglənənləri də çoxdur. Boz rəngli xeyrələr, vazalar (s.q. № 88) ağzı əyməli camlar, dopular və s. tapılmışdır. Bütün bunlardan başqa qəbirin ayaq tərəfində şimal-qərb küncündə bir iri küp basdırılmış və ağzı yastı daşla örtülmüşdür. Daş sonradan sürüşüb düşmüş və içərisi torpaqla dolmuşdur. Bu küpdə də o biri qəbirlərdəki iri küplər kimi içki məhsulu olmuşdur. 1 metrə yaxın hündürlüyü olan bu küp daha dərinə basdırılaraq ağzı qabların səviyyəsində qalmışdır. Qəbirin ayaq tərəfində qablar düzülən yerin qurtaracağında daha iki bütöv qoyun sümükləri və bir inək yaxud öküzün baş və ayaq sümükləri aşkar edilmişdir (tablo 42). Qəbirin şərq divarının mərkəz hissəsində, qabların arasında iki dəmir çapacaq (tablo 44 - 3, 6, s.q. № 93-94), iki ədəd dəmir bıçaq [(tiyəsi də ağac qında olduğu çürüntüdən bilinir (tablo 44-7, s.q. № 91-92)], bir dəmir biz (tablo 44-5, s.q. № 95) qoyulmuşdur.

Göründüyü kimi, bu qəbirdə təkcə 7-8 bütöv davar, bir inək sümüklərinin aşkarlanması burada maldarlıq haqqında aydın təsəvvür yaradır. Budan əlavə çoxlu qab-qacaq, xüsusən enliboğaz çaynik və ya aftafavari qablar, başlıca olaraq bir cüt enliağız, yandan tək qulpu olan saxsı səmic, cam, çölmək tapıntıları süd məhsulları ilə əlaqədar olaraq ağartı tədarükü haqqında da ətraflı təsəvvür yaradır. Burada şumlama zamanı müxtəlif əmək alətlərilə yanaşı dəmir yaylı qırxlığın tapılması qoyunçuluq və onların yunundan da geniş istifadə haqqında məlumatımızı genişləndirir.

Saxsı qablar üzərində yapma naxışlara çox təsadüf edilir. Bu baxımdan 3 saylı torpaq qəbirindən tapılmış iri yumru gövdəli, enli boğaz və ağzına yaxın fəzaya dikəlmiş lüləyi olan qab diqqəti cəlb edir. Bu cür qab beş ədəd tapılmışdır. Lakin bu qabın üzərinə yapışdırılmış bəzək diqqəti cəlb edir. Qırmızı rəngdə olan saxsı qabın gövdəsinin enli yeri üstündən göydələn dalğalı xətti xatırladan bəzək vardır. Həmin bəzəklər gövdəni çevrələməklə bərabər məsafədə üç yerdə düzülmüşdür. Onların iki qalxan dalğasının qabaran üstünə, qabın çiynindən düyməcikli başlanğıcı olan yapma xətt endirilmişdir ki, bu da bir növ sxematik insan təsvirini xatırladır. Bu, Qobustan qaya rəsmlərindəki rəqs edən insan təsvirlərinə müəyyən qədər uyğun gəlir. Əlbəttə, onun sxematik xüsusiyyəti hələlik tam aydın deyildir. Ola bilsin ki, su ilə əlaqədar işarə əhəmiyyəti də kəsb etmişdir. Qabın hündürlüyü 32, ağzının diametri 12, oturacağının diametri 11 sm-dir. Onun lentvari qulpu qabın dairəvi ağzının arxa hissəsi ilə çiyninə yapışdırılmışdır. Qulpun hər iki tərəfdə yapışdırılan yerində iki qulaqcığı vardır (s.q. № 89).

Saxsı qabların hamısı dulus çarxından istifadə etmədən, əl ilə hazırlanmışdır. Buna baxmayaraq onlara düzgün simmetriya və yaraşıq verilmişdir. Xüsusi formada, yaraşıqlı, cürbəcür və keyfiyyətli istehsal olunmuş saxsı qablar burada dulusçuluğun da yüksək inkişafına sübut ola bilər.

İlk dəfə tədqiqinə başlanan bu abidə Azərbaycanın antik dövr abidələri içərisində tam yeni obyektdir. Buna baxmayaraq ilk nəticələrin varlığını sübut edən zəngin maddi-mədəniyyət qalıqları tapılmışdır. Daşlar içərisində hətta dördkünc yonulmuşlarına da təsadüf edilmişdir. Əkinçilik və maldarlıq təsərrüfatı haqqında zəngin tapıntılar əldə edilmişdir. Dəmirçilik, zərgərlik, dulusçuluq daş işləmə kimi sənətlərin varlığını bildirən qiymətli material tapılmışdır. Böyük və zəngin qəbir abidəsinin aşkarlanması onun sahibinin yüksək rütbəli hərbiçiyə və tayfa başçısına aid olmasını söyləməyə imkan vermişdir. Bir ədəd bənzədilərək zərb olunmuş yerli gümüş sikkə tapıntısı abidənin tarixinin dəqiqləşməsində və başqa ticarət əlaqələri sahəsində müstəsna əhəmiyyətə malikdir. Bu göstərilən tapıntılar və onlarla əlaqədar tədqiqatlar şübhəsiz ki, Azərbaycanın e.ə. V-IV əsrlərə aid tarixi və mədəniyyətini xeyli zənginləşdirəcək, ona yeni səhifələr əlavə edilməsinə şərait yaradacaqdır.

**1982-ci il**

Ağsu rayonu ərazisində yerləşən Uzunboylar və Qırlartəpə abidələrində arxeoloji tədqiqat işləri 1982-ci il iyulun 12-dən sentyabrın 10-na kimi davam etdirilmişdir[27]. 1981-ci ildə ilk dəfə qazıntıya başlanan Uzunboylarda aşkar edilmiş zəngin torpaq qəbirləri diqqəti cəlb etmişdir. Ona görə də bu il həmin qazıntı sahəsi genişləndirilərək işlənmişdir.

İlk günlər bəzi axtarışlar, müşahidə edilmiş, təşkilatı işlərlə məşğul olunmuşdur. 1981-ci ildə İsmayıllı-Muğanlı asfalt yolunun çəkilişi ilə əlaqədar tədqiqat ərazisində bəzi abidələr üzə çıxmış, bir neçə qədim qəbir dağıdılsa da ekspedisiya müddətində onlar qeydə alınmış, materialı toplanmış və lazımi tədbirlər görülmüşdür. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, 1981-ci ildə yol çəkilişi Girdimandan Bədova, Tircan kəndi altınadək çatdırılmışdır. Məhz həmin ilin yayında İsmayıllı-Basqal istiqamətində Girdimançayın üstündən ilk dəfə olaraq körpü salınmışdır. 1982-ci ildə isə həmin asfalt yol Muğanlıyadək (Şamaxı yaxınlığında) çatdırılmış və payız mövsümündə Ağsuçayın üstündən (göstərilən istiqamətdə) yenə də ilk dəfə körpü işə salınmışdır. Münbit torpaqlara malik yaylaların üstündə izləri qalan qədim yaşayış məskənlərini bir-birilə əlaqələndirən və şərq-qərb istiqamətində uzanan həmin qədim yeri əhali “poçt yolu”, “top yolu” da adlandırır. Əsrlərdən bəri hərəkət xətti kimi istifadə olunmuş həmin torpaq yolun istiqamətilə yeni salınmış tranzit xətti (şosse və körpülər) 1982-ci ilin son aylarından tamamilə işə düşmüşdür ki, bu da Şirvanın dağlıq və dağətəyi zonasında yaşayan əhalinin iqtisadi həyatında xüsusilə böyük əhəmiyyət kəsb edir. Bu yolun Uzunboylardan keçib getdiyi yerdə bəzi qəbir abidələri və başqa qədim maddi-mədəniyyət qalıqları üzə çıxmışdır. Yolun hər iki tərəfindən çoxlu yonulmamış tikinti daşları (çaydaşı), dən daşları, yanmış suvaq parçaları və saxsı qırıqlarının səpələndiyi müşahidə edilmişdir. Bir qədər şimala doğru nisbətən hündür yerdə bina daşları, iri küp qırıqları və s. qeydə alınmışdır. Buradakı dən daşları içərisində çay daşlarından düzəldilmişlərinə də təsadüf edilmişdir.

Ümumiyyətlə, Uzunboylar abidəsində tikinti qalıqları, daha doğrusu daş, kirəcə oxşar qalıqları və s. həddən artıqdır. Lakin onların hər hansı bir nizamlı qalığı və ya başqa tikinti planını müəyyənləşdirə bilməmişik. Qeyd etmək lazımdır ki, antik dövrə aid yaşayış mənzilləri, tikililərinin izini tapmaq ondan əvvəlki və sonrakı yaşayış yerlərinə nisbətən çətindir. Bu dövrdə yaşayış yerləri əsasən daha möhkəm istehkamlarda və ya hündür təpələrdə olmamışdır. Ona görə də əksər yaşayış yerləri, xüsusən kiçik məskənlərin sonradan uzun müddət təsərrüfat işləri

---

[27] Ekspedisiya aşağıdakı tərkibdə işləmişdir: Fazill Osmanov (dəstə rəhbəri), baş elmi işçilər Fərhad İbrahimov ( 20. VII-20. VII-82). Abdulla Fazilli (I.VIII-15. VIII.82); kiçik elmi işçi Qafar Cəbiyev (15.VII-30.VII.82).

və təbii hadisələr nəticəsində izi itmişdir. Qalmış cüzi əlamətlər isə yaşayış yerini, onun tikintisini və bu kimi xüsusiyyətlərini öyrənməyi çətinləşdirmişdir. Lakin bununla belə Uzunboylarda yerüstü axtarışlar zamanı yaşayış yeri haqqında daha geniş təsəvvür əldə etmək olur. Burada yenə də tikintidə istifadə edilən daşlara (divar, döşəmə, dən daşlarına və s) tez-tez çoxlu miqdarda təsadüf edilir. Dən daşlarından çox irilərinə də rast gəlinir. Bu cür dən daşları bir növ mexaniki qüvvə ilə işləyən dəyirmanlara yaxın üsuldan istifadəni xatırladır. Bundan başqa yerli daş cinslərindən müəyyən çapılma, yonulma, döyülüb hamarlanma izi olanlarına da təsadüf edilir. Bu ərazidə çay daşlarından 5 saylı qəbirdə skeletin başı cənuba doğru olmaqla arxası üstə dəfn edilmişdir. Kəllə, daha doğrusu ölünün üzü azca gündoğana meyilli qoyulmuşdur. Qollar yana doğru olub dirsəkdən qatlanaraq qarnı üstünə gətirilmişdir. Onurğa sümüyü yaxınlığında olan əllərində, daha doğrusu hər biləyində bir tunc bilərzik vardır. Başında misdən pilək-bəzəklər qalmışdır. Bu cür metal bəzəklər kəllənin ətrafına çevrələndiyini və çiyni yanında boynunda da olduğu müşahidə edilmişdir. Skeletin boynundakı bəzəklərin altında qaramtıl narın torpaq qatı qalmışdır ki, bu da saç, hörük çürüntüsünü xatırladır. Başı yanında bir kiçik üzük, sırğa formalı bəzək vardır.

Skeletin qıçları dizdən qatlanaraq bir növ bardaş qurma formasında olub, ayaqları çanaq sümüyü yaxınlığında bazu sümükləri arasında bir-birinə bitişik vəziyyətdə idi. Sol qıçın dizi qarşısında bir ədəd qara formalı bəzək və bir bilərzik var idi.

Qəbirdə ölünün üzü qarşısında qırmızı rəngli saxsı qablar düzülmüşdür. Qeyd etdiyimiz kimi torpaq üstündə ağır texnika işlədiyi üçün qablar tamam qırılmışdır. Saxsı qablar skeletin başı yanındakı ayaqları altınadək qoyulmaqla qəbir boşluğu doldurulmuşdur. Qəbirin ayaq tərəfində (skeletə görə) 6 bütöv xırda buynuz heyvan cəmdəyinin sümükləri müşahidə edilmişdir. Burada dəmir əşyaya xırda iynə yaxud sancaq formalı dəmir şeylər istisna olmaqla təsadüf olunmamışdır. Qəbirin şimal-qərb küncündə bir iri təsərrüfat küpü dik basdırılmışdır.

Küpün yalnız ağız hissəsi qəbirin dibi səviyyəsində idi. Qalan bütöv küp daha dərinə qazılıb basdırılmışdır. Bu küpün ağzı yastı daşla örtülmüşdür. Ona görə də içərisi boş və təmiz qalmışdır. Dibində qaramtıl çöküntü izi qalmışdır ki, bu da onun içərisində maye halında ərzaq və ya bu kimi məhsul qoyulduğunu bildirir. Küpün ağzı dairəvi, boğazı qısa, uzunsov, gen gövdəsi və düz oturacağı vardır. Küpün ağzının diametri 25, qalınlığı 2, oturacağının diametri 13, hündürlüyü 65 sm-dir.

Bu küp yaxşı qalsa da gövdəsindən çatlamışdır. Odur ki, onu yerindəcə qeyd etdik. Fotosunu yenidən çəkdik, yenidən öz yerində basdırıb içərisinə yaxınlıqdakı 6 saylı torpaq qəbirindən çıxmış, sınıq və götürülməsi məsləhət olmayan təkrar materiallar yığılıb saxlandı.

Qeyd edək ki, 5 saylı qəbirin ovxalanmış təkrar götürülməyən materialı da məhz 4 saylı torpaq qəbirinin ayaqları altında aşkar edilmiş, iri, sınıq küpün içərisinə yığılıb yerindəcə basdırılıb saxlandı və planda yeri qeyd edilmişdir.

Skeletin üzü qarşısındakı qablardan birinin dirsəkvari qulpu vardı. Bundan başqa burada dayaz qablardan biri ağımtıl, digəri qırmızı rəngdə olub altdan içəriyə doğru batığı vardır. Bunlar saxsı camlardır. Qablar içərisində lüləyi ağızının kənarında olan aftafavari saxsı qaba da təsadüf edilmişdir. Ümumiyyətlə, bu cür qablar burada geniş yayılmışdır. Yandan tək qulpu olan cam və kasavari, qırmızı rəngli qablar, dolça, ləyən, vedrəyə oxşar uzunsov saxsı məlumatı da diqqəti cəlb edir. Əlbəttə, bunların yeni və orijinal nümunələri, təkrar olmayanları götürülmüş, qalanları götürülməsi mümkün olmayanı yerindəcə qeyd edilmişdir. Kasavari badyalardan birinin içərisində düzbucaqlı formada, kənarlarında dik qaldırılmış qulpu olan deşikli bir qapaq da tapılmışdır (tablo 49-4). Qırmızı rəngdə boyanmış bu deşikli qapaq iri, kənarlarından əyməşəkilli dik qaldırılmış qulpu olan kasavari badyanın ağzında olmuşdur. Eyni tip başqa bir qab da həmin qabın altında idi. Onun üstündə dəmir iynə, sancaq qırıqları tunc bəzək şeyləri, muncuq qoyulmuşdur. Bunlar qırmızı rəngdə boyanmışdır. Qəbirin ayaq tərəfində orta həcmli şargövdəli küp qoyulmuşdur. Onun gövdəsində iki yerdən dik yapışdırılmış qulpu vardı. Qulpların üstündə bir məhmiz düzəldilmişdir. Məhmizin kənarlara çəp batıqlarla naxışlanmışdır. Bu qabın yanında daha bir iri boz rəngli gil çanaq qoyulmuşdur. Onun bir tərəfində kiçik lentşəkilli qulpu vardı. Çanağın ağzının diametri 45 sm-dir. O həddən artıq ovxalanmışdır. Bundan əlavə qəbirdə 50-yə qədər saxsı qablar içərisində iri ləyənvari saxsı qab, qonur üçayaq vaza, ağzının kənarlarından qırağa çıxıntısı olan vaza tapılmışdır ki, onların içərisində quş sümükləri qoyulmuşdur. Dərin ləyənvari qabların bəzisinin ilgəkvari qulpu içərisindən dibinə və ya dibinə yaxın qabın divarına yapışdırılmışdır ki, bu da onlardan həm qab kimi, həm də qapaq kimi istifadəni asanlaşdırır. Bundan başqa vedrəyəoxşar uzunsov qabın yanında daha bir boz enli boğaz, lentvari təkqulp qab da tapılmışdır.

Bu qəbirin qadına aid olduğu daha aydın nəzərə çarpır. Onun dizləri və üzü qarşısında qabların üstü və arası ilə 1 metr uzunluqda 25 sm enində yanğın, od izi qalmışdır. Od izi əsasən qabların üstündə daha çox müşahidə olunur. Bu da onu göstərir ki, qablar ölünün qarşısında düzüldükdən sonra od yandırılmışdır. Ölülər önündə qabların arasında, bir tərəfi yastı, o biri tərəfi isə nisbətən dəyirmiləşən ağımtıl daş qoyulmuşdur. Ondan nə isə əzmək üçün istifadə olunmuşdur. Bu cür daha bir eyni tip daş (azacıq iri həcmdə) 1,5 metr qərbdə açılmış 6 saylı iri kişi qəbirindən də tapılmışdır. 5 və 6 saylı qəbirlərdə dəfn edilənlərin yaxın qohumluq əlaqəsini, çox güman ki, ər-arvad olduğunu söyləmək ağlabatandır. Bu iki qəbirdəki bəzi uyğun əlamətlər də ailə münasibətlərinə müəyyən işarələr verir.

**6 saylı torpaq qəbir.** Bu torpaq qəbir abidəsi qazıntının şimal-qərb küncündə 1 kvadratda yerləşmişdir. Lakin qəbirin xeyli hissəsi qazıntı sahəsindən

kənarda qaldığından sahənin şimal küncündən 2x1,5 metr, şimal-qərb küncündən isə 5x1 metr şimal-cənub xətti üzrə qazıntı artırıldı. Əlbəttə, bu saxsı qabların üstü görünəndən və qəbirin sərhədləri bilinəndən sonra abidəni tam açmaq və rahat işləmək məqsədilə edilmişdir. Həmin qəbir abidəsi yer səthindən 1-1,2 metr dərinlikdə olmaqla dördkünc formadadır (bax, plana). Onun uzunluğu 3,9 eni 1,7 metrdir. Qəbir çuxuru 30-40 sm dərinlikdə yaxşı qalmışdır.

İri adama mənsub olmuş skelet qəbirin cənub-qərb kənarında yerləşmişdir. Sağ böyrü üstə, kəllə cənuba, üzü şərqə doğru qoyulmuş ölünün qıçları dizdən qatlanaraq azca bükülü şəkildə idi. Onun sol qolu böyrünə salınmaqla dirsəkdən qatlanaraq qarnı üstündə köndələn vəziyyətdə idi. Sağ qolu isə yana uzadılaraq dirsəkdən qatlanıb o biri əlinin yaxınlığında dik qaldırılmışdır. Bu qolun üstündə bir daş da qoyulmuşdur. Alnında paslanmış kiçik tunc bəzəklər var idi.

Skeletin kəlləsi arxasında 7 iri dəmir nizə qoyulmuşdur. Alnının qarşısında, saxsı qab düzümünün qurtaracağında bir "hərbi yaba" formasında ikiqulaq dəmir silah qoyulmuşdur. Onun saplanan tıxac hissəsi nizə küpü kimidir. Bu silahın küpü yaxud tıxacının uzunluğu 28 sm-dir. Yabasının yanlarına açılan hər hissənin uzunluğu 5, şiş qulaqlarının uzunluğu da 5 sm-dir. Tıxacın diametri 2 sm-dir (tablo 50-7).

Skeletin ayaqları yaxınlığında qolun sümükləri yanından bir dəmir oraq (tablo 50-4 şəkil), bir dəmir dəhrə sınığı, qıç sümükləri arasında bir ucunda ilməsi olan dəmir qıyığa oxşar alət tapılmışdır. Dəmir əşya bir də at yüyəni ilə əlaqədar dəhnə (gəm) və onun hissələrindən ibarətdir. (tablo 50-6, 10).

Skeletin üzü qarşısında ağzı süzgəcli iki ədəd iri süddan biçimli qab, matra, 6 ədəd qonur-çəhrayı rəngli vaza, bir qırmızı vaza, orta həcmli küp dizləri qarşısına doğru, oradan da qəbirin ayağına qədər düzülmüşdür. Vazalardan üçü üçayaqlı, üçü isə təkayaqlı olub gövdəsi kənara doğru iki çıxıntılı, ağzının kənarlarında, qulpun üstündə qulaqcığı olan qablardan ibarətdir. Alban mədəniyyəti üçün tipik nümunələr olan həmin qabların buradan əvvəllərdə nüsxələr götürüldüyündən və bunların həddən artıq sındığından yerindəcə qeyd edilib saxlandı.

Bu qabların içərisində, eləcə də ölünün dizinə yaxın çanaqları ləyənlərin içərisində xırda buynuzlu heyvan sümükləri aşkar edilmişdir. Sümüklər lülə, aşıq və s-dən ibarət idi. Bundan başqa qəbirin ayaq tərəfində 6-7 xırdabuynuz heyvan sümükləri bütöv qalmışdır. Bu hissədə bir iribuynuzlu heyvanın baş və qıç sümükləri aşkar edilmişdir.

Ümumiyyətlə bu qəbirdə 8-ə qədər xırda buynuzlu və bir iri buynuzlu heyvan sümükləri qeyd edilmişdir. Bundan əlavə sümüklər içərisində bir heyvan aşağı donuza aiddir. Sümükləri Azərbaycan SSR EA müxbir üzvü, biologiya elmləri doktoru, professor Dəmir Hacıyev təyin edərək aşağıdakı ilkin nəticələr söyləmişdir: iribuynuzlu heyvan sümüyü (Bostaurus G) xırda inək cinsi; keçi sümüyü qalığı (Sapça aedadrus G); donuz aşığı (Lus serofa domestica).

Skeletin dizləri önündə böyük qırmızı rəngli çanağın içərisində qoyulmuş xırdabuynuzlu heyvan sümüyünün üstündən bir daş da qoyulmuşdur. Bundan başqa qabların arasında da bu cür sümüklər var idi ki, onların da üstünə vaxtı ilə ağırlığı təqribən 1,5 kq olan daş qoyulmuşdur. Bu qəbirdən bir ədəd qırmızı maddə əzmişlər. Yuxarıda qeyd etdiyimiz kimi bu cür bir daş 5 saylı qəbirdə də qoyulmuşdur.

Skeletin ayaqları altında dörd ədəd umbonaoxşar tunc əşya aşkar edilmişdir. Onlar dəmir dəhnənin üstündə idi. Nazik metal təbəqədən ibarət olan bu at bəzəyinin bir tərəfi qabarıq, o biri üzü çökəkdir. Çökək tərəfindən mərkəzdə dəmir yapışdırıldığı aydın müşahidə edilir. Onların mərkəzində həm içəridə, həm də xaricdə düyməyəoxşar çıxıntı vardır. Bu tapıntıların ikisinin diametri 13,5 sm, ikisinin isə 10,5 sm-dir (tablo 50-9). Onların kənarları boyu batıq nöqtələrlə haşiyələnmişdir (qabarıq nöqtələr xaricə doğrudur). Kənardan bir qədər içəriyə doğru, xırda batıqlar bir qədər irisi ilə naxışlanıb çevrələnmişdir. Bunların yanında bir dəmir halqa da var idi. O da yəqin ki, dəhnə ilə əlaqədar olmuşdur. Bütün bunlardan əlavə daha doğrusu nəlbəkivari tunc şeylərin altında iri dəmir dəhnə daha çox diqqəti cəlb edirdi (tablo 50-6). Dəhnənin əsas yan dəmirləri iki yastı hissədən ibarət olub, hər birinin uzunluğu 25 sm-dən çoxdur (onların bəzi yerləri çox korroziyaya uğradığından çürüyüb tökülmüşdür). Atın üzü uzununa müvafiq düzəldilmiş dəmir hissələrin 17-18 sm-liyində dirsəkvari halqa düzəldilmiş və oraya iki bir-birinə keçirilmiş şəkildə iri dəmir paxlalar yerləşdirilmişdir. Bu iki dəmir paxla atın ağzından hərəkət etmək vəziyyətində olmuşdur. Onların hər birinin uzunluğu 10 sm-dir. Ağıza keçirilən zəncir paxlalarının bəndliyi yerdən 5 sm aralı dəmir hissə uzanır və bundan sonra dirsəkvari əyilərək ucları dairəvi şəkildə formalaşır. Dairəvi şəkildəki ucluqların kənarı kəsikdir. Ucdakı dairəvi hissənin ölçüsü 3-4 sm-dir. Dəhnə hissələrinin eni 2 sm-dir. Bu tip dəmir dəhnələr göstərilən ərazi üçün səciyyəvidir. Belə ki, onlardan bir ədədi də 2 saylı torpaq qəbirindən və daha biri yaxın qonşuluqda yerləşən Nüydi abisədində tapılmışdır. Bu cür dəhnələr və ya qaytarğanlar atın qulağının yanından ağzının cəylərinə qədər uzanır və buradan (ağzındakı dəmir paxlalardan əlavə) ucları burnunun üstünə doğru qövsvari əyilib dayanır. Bu da atın başını istənilən tərəfə döndərməkdə əlavə vasitə kimi əlverişlidir.

6 saylı torpaq qəbirində dəfn olunmuş ölünün kişiyə aid olduğu onun avadanlığına görə ehtimal edilir. Belə ki, burada dəmir dəhnə, oraq, iri nizələr, hərbi yaba, at yüyəninə aid ləvazimat və s. qoyulmuşdur. Skelet çox irir adama məxsus olmuşdur. Onun qıç sümüyündən dizə qədər uzunluğu 53 sm, çanaq sümüyünün ucundan kəllədə təpəyə qədər isə 90 sm uzunluqdadır. Başı bir qədər uzunsovdur. Onurğa sümüyünün 18 qatdan ibarət olduğunu saydıq. Antropoloji cəhətdən öyrənmək üçün kəllə həddən artıq parçalanıb yararsız hala düşmüşdür. Lakin onun yerindəcə müxtəlif fotoları çəkilmiş və ölçüləri ilkin qeyd edilmişdir.

Ayağının uzunluğu 21 sm-dir. Ayaq barmağının uzunluğu 7-8 sm (bir buğumu 5 sm-dir). Dişlər salamatdır, uclarından bir qədər qaraltısı vardır.

Bağqa qəbirlərdə olduğu kimi burda da qəbirin şimal divarı dibində inək kəlləsi və ayaq sümükləri qoyulan yerdən bir qədər qərbə doğru yenə də iri küp basdırılmışdır. Onun ağzı və boğazı gövdəsinə qədər sınıb içərisi tökülmüşdür. Qulpların en kəsiyi lentşəkillidir. Küpün gövdəsinin enli yerində diametri 50-55 sm-dir.

Bu torpaq qəbirindən 40-dan artıq saxsı qab çıxmışdır ki, onların götürülməyənləri 5 saylı torpaq qəbirinin ayaqları altda açılmış küpün içərisinə yığılıb ordaca basdırılmışdır.

**Qırlartəpə və Kəndyeri abidələri.** Bu abidələr Ağsu rayonunun Qırlar kəndinin şimal-şərqində, nisbətən hündür yayla üstündə yerləşir. Abidə 1960-cı illərdə müəllif tərəfindən yoxlanmış və dövlət qoruğu siyahısına salınmışdır. Qırlartəpə abidəsi yerli əhali tərəfindən "Təpədalı" kimi də adlandırılır. Burada 1972-ci il Nüydi arxeoloji qazıntıları zamanı cüzi axtarış aparılmış və onun haqqında təqribi-ilkin fikir söyləmişdir.[28]

İsmayıllı-Muğanlu şose yolunun çəkilişi ilə əlaqədar bu abidənin də ətrafındda antik dövrə aid maddi-mədəniyyət nümunələri üzə çıxmış, bəziləri zədələnmişdir. Bunula əlaqədar olaraq 1982-ci il arxeoloji qazıntı mövsümündə həmin təpədə və ətəyində bəzi kəşfiyyat işləri görülmüşdür.

Təpənin şimalından keçən yolun işlənməsi ilə əlaqədar olaraq bəzi sirlər açılmışdır. Burada Kəndyeri və Təpədalının arasındakı fındıqlıqdakı ekskavatorun qazdığı yerdən bir qəbrin açıldığı xəbərini eşitdik. Bura gələrkən onun uçurulduğunu gördük. Yalnız onun sındırılmış və yol işçiləri tərəfindən toplanmış materialın bir qismini əldə edə bildik. Qəbrin materialından qara rəngli dopular, kəllə sümüyü, dəmir qılınc (tablo 52-1), xəncər (tablo 52-2) və başqa bəzək şeyləri (tablo 51-10, 11, 12, 13) toplandı. Əldə edilmiş avadanlıqdan hiss olunur ki, bu qəbir abidəsi varlı-nüfuzlu adama aid olubmuş. Bununla əlaqədar İsmayıllı rayonu Daxili İşlər Şöbəsinə məlumat verdik. Uzun yazışmalardan sonra aydın olduq ki, həqiqətən beli bir qab tapılmış, lakin qara pas atmış çürümüşdür.

Həmin tapıntılar iki ədəd metal camdan ibarətdir. Camlardan biri nisbətən dayaz olub, döymə üsulu ilə hazırlanmışdır. Camın çiyni içəriyə doğru batıq düzəldilmişdir. Bundan kənara doğru əyilmiş formada olub, kənarları 2 sm enində xaricə maillidir.

Digər metal cam misdən olub, nisbətən dərin hazırlanmışdır. Həmin qab bu ərazidə tapılan antik dövr saxsı qabların formasına oxşayır. Camın oturacağı dəyirmidir. Bu dəyirmilik qabın çiyninə qədər davam edir. Qabın ağızını diametri 16, hündürlüyü 7 sm-dir. Camın üzəri cilalanmış, sürtülüb hazırlanmışdır.

---

[28] Osmanov F.L. Nüydidə 1972-ci ilin arxeoloji tədqiqatların hesabatı. Azərbaycan EA Tarix İnstitutunun arxivi, səh. 25-26

Ümumiyyətlə, urada aşkar edilmiş torpaq qəbirlərdən bir ədəd kəllə demək olar ki, salamat qalmışdır. Kəllə biologiya elmi namizədi Rəbiyyə Qasımova tərəfindən təyin edilərək antropoloji tipi müəyyən edilmişdir. Onun təyinatına görə, e.ə II-I əsrlərə aid torpaq qəbirdən aşkar edilmiş kəllə orta yaşlı, yəni 50-55-ə qədər yaşı olan kişiyə məxsusdur. Morfoloji və ölçü əlamətlərinə görə Avropa irqinin cənub şaxəsindən "aralıq dənizi" antropoloji tipinə aiddir.

E.ə. I-eramızın I minilliyinə aid antropoloji materiallar da həmin tipə aiddir. Müasir azərbaycanlılar səciyyəvi olan "kaspi" antropoloji tipi həmin "aralıq dənizi" tipi əsasında inkişaf etmişdir. Görkəmli antropoloq Rəbiyyə Qasımovanın verdiyi bu qiymətli məlumatı götürülməsi mümkün olmayan, lakin yerindəcə fotoşəkilləri çəkilən Uzunboylar abidəsindən aşkar edilmiş insan skeleti, kəlləsi qalıqlarına da aid etmək olar. Beləliklə, antik dövrün zəngin, inkişaf etmiş əkinçilik, maldarlıq və sənətkarlıq mədəniyyətinə malik bu qədim sakinlərin "kaspi" antropoloji tipinə mənsubiyyəti bir daha onların müasir azərbaycanlıların sələfləri olduğunu sübut edir.

Buradan daha üç dağıdılmış qəbrin materialları [iri təsərrüfat küpünün qalıqları, zoomorf gil qab (tablo 52-8), həvəng dəstəsinə oxşar gil əşya, qapaqlar, mis bəzək şeyləri, qolbaq parçası, 3 ədəd dəmir nizə (tablo 52-3,4), bıçaqşəkilli alət (tablo 52-5), sümük biz və s.] toplanmışdır.

**Qırlartəpə.** Ağsu rayonunun Qırlar kəndi üstündə, hündür nöqtədə yerləşən bu təpənin heç bir xüsusi adı yoxdur. Yerli əhali təpənin ətəyində nisbətən düzən sahəyə "Təpədalı" deyirlər. Ümumiyyətlə, buradakı əkilib biçilən sahəni həmin təpəyə görə adlandırırlar. Qeyd edək ki, hal-hazırda üzüm bağına çevrilmiş həmin sahədə antik dövr üçün səciyyəvi maddi-mədəniyyət nümunələri, qəbir abidələri vardır. Təpənin üstündə ətraf yerlər də çox gözəl müşahidə edilir, əlvan mənzərələr - Ağsuçayın dərin vadisi meşəlik, kolluq, otlaqlardan ibarət geniş sahilləri, Şamaxı rayonu ərazisi, xüsusən Pirdəriki, Buğurt, Pirqulu, Qart, Fit, Niyal dağları aydın görünür.

Təpənin yerləşdiyi ətraf ərazi dəmyə əkinçilik və maldarlıq təsərrüfatının inkişafı üçün çox gözəl əlverişli şəraitə malikdir. Münbit torpağı, zəngin bitki növləri, meşəsi, suyu ilə şöhrət tapan bu yerlərdə çox böyük zəhmət tələb olunmadan lazımi həyati vasitələrini yaratmaq mümkündür. Şirvan boz dağlarının müəyyən hissəsini təşkil edən bu regionun səfalı havası axar-baxarlılığı da insanı özünə cəlb edir. Bütün bu vasitələr Qırlartəpə və ətrafında ən qədim zamanlardan insan yaşayışının zəminini şərtləndirmişdir. Yuxarıda qeyd etdiyimiz kimi abidə hələ 1960-cı illərdə diqqətimizi cəlb etmişdir. Lakin bilavasitə qazıntı işləri aparılmamışdır.

Nəhayət 1982-ci il arxeoloji tədqiqatları zamanı bu təpənin üstünün əvvəlki müşahidələrimizə görə çökdüyü aydın hiss olunurdu. Burada yoxlama qazıntısı qoyulmasını qərara aldıq. Bundan əlavə mövsümün tədqiqat planına görə burada qazıntı aparılması nəzərdə tutulmuşdu.

Təpənin hazırkı vəziyyətinə görə nisbi hündürlüyü təqribən 10 metr, üstünün uzunluğu 40 metr, eni 15 m-dir (orta enlik). Təpənin səthinin çevrəsi təqribən 100 addımdır. Qazıntı nöqtəsini cənub kənarda təpənin üstündən götürməyi məsləhət bildik. Belə ki, buradan porsuq yuvası ağzında çıxmış kərpic və ya kürə divarını xatırladan qırıqlar, habelə əhəng-kərpic qalığının varlığı müəyyənləşdirildi. Bu məqsədlə təpənin cənub-qərb kənarından üstdə 3x5 metr ölçüsündə (relyefə uyğun) yoxlama qazıntısına başlandı. Həmin yerdə kərpicləşmiş suvaq parçaları, kül və s. yanğın izi bilinirdi. Üst təpəciklərdə ilk orta əsr keramikası, dən daşlarına rast gəlinir. Lap başlanğıcdan zəngin yaşayış izi insan fəaliyyəti qalığı aydın hiss olunur. Burada son antik və ya ilk orta əsrlər üçün səciyyəvi saxsı qab ağzının kənarı qulp və başqa hissələri aşkar edilmişdir. Saxsı qab qulplarının üstündə basma, kəsmə naxışları vardır. Maraqlı tapıntılardan biri Nehrənin oturacaq hissəsidir. Onun dibində (içəridən) iki dik məhmizi vardır.

Ümumiyyətlə, saxsı qalqa və nisbətən iri məişət qablarının qırıqları həddən artıq tapılır. Üst, qarışdırılmış və ya uçub tökülmüş hissədə yanıb bişmiş suvaq parçalarına, təndir divarına oxşar qalıqlar, dairəvi, kiçik təndiri xatırladan yerlər də üzə çıxır. Həmçinin əhəng kirəclə bərkidilmiş daş parçaları qəlpələri, tikili hissələri aşkar edilir.

Burada kül, qızarmış yanğın tozu həddən artıqdır. Tikinti daşları arasında iri qayıqvari dən daşın yarısı da tapılmışdır. Bu tapıntılar 0,5-0,7 metr dərinlikdə müşahidə edilir. Dərinə düşdükcə qazıntının kənarına doğru hissə yenə də üst səthə yaxınlaşır. Yəni təpənin tədricən aşağı yamacında yenə də iri təsərrüfat küplərinin dik basdırıldığının şahidi olduq. Bu küpün oturacağı dar, gövdəsinin enli yerindən diametri 0,7 m-dir; saxsının qalınlığı 0,2 sm-dir. O parçalanmış vəziyyətdə idi. Onun içərisində yanğından əmələ gəlmiş kül qalıqları var idi. 0,9-1 metr dərinlikdə daş töküntü, suvaq parçaları təmizlənərkən tərkibinə saman qarışdırılmış kəndiyə oxşar dairəvi ocaq və ya başqa təsərrüfat yeri aşkar edilmişdir. Onun içərisindən və uçub tökülmüş hissələri yanğından yarımçıq bişmiş, saman qarışıqları gili olan dayaz və kobud qab qırıqları tapılmışdır. Onlar primitiv qab formasında olub, eneolit qablarını da xatırladır.

Ümumiyyətlə, açdığımız yoxlama qazıntı yerində 1,5 metrə qədər (üstdə) dərinliyə düşmüşüksə də hələlik abidənin sirli aləmi istehsal ocağı, yaşayış yeri əlamətini və bu kimi yerlərin olduğunu nəzərə çarpdırır. Burada möhtəşəm tikintinin qalığı da gözlənilir. Tikinti daşları hamısı çaydaşındandır. Qazıntı ətəkdə dərinləşdikcə, təpənin maili yamacına görə təbii olaraq sahə genişlənmişdir. 1,5 metr dərinlikdə qazıntının eni 5 metrə çatmışdır. Burada yanıq torpaq, kül, daş əvvəlki kimi davam edir. Buradan yarımqazan, səhəng tipli qablar aşkar edilmişdir. Yuxarıda qeyd etdiyimiz kiçik ocağın diametri 28 sm, salamat qalmış hissəsində hündürlüyü 24 sm, qalınlığı isə 2,5 sm-dir. Bu ocaq təndirvaridir. Bu cür nisbətən iri təndirvari və ya kəndiyə oxşar qurğuların uçub töküldüyü və onun sarımtıl palçıqdan düzəldiyi müşahidə edilmişdir. Ümumiyyətlə, qazıntı palçığına saman

qatılmış dairəvi qurğulara xeyli təsadüf edilmişdir. Bu cür qurğuların divarının hündürlüyü xaricdən 10, içəridən 7 sm-dir. Onun altından dibinin qalınlığı 3-4 sm-ə çatır. Divarının qalınlığı isə 3-5 sm-dir. Buradan tapılmış keramika qalıqları dayaz, qalın divarlıdır. Hələlik burada planlı və geniş qazıntı işi aparılmamışdır. Təkcə üst qatdan zəngin həyat izinin nəzərə çarpması onun ən son dövrünün təqribən eramızın III-VI əsrlərinə aid etməyə imkan verir.

**1983-cü il**

Ekspedisiya 1983-cü il iyulun 1-dən avqustun 31-nə kimi Ağsu rayonu Qırlar kəndi yaxınlığında yerləşən təpədə arxeoloji qazıntı işləri aparmışdır[29]. Təpə və onunla eyni kompleksə malik "Kəndyeri" yaşayışməntəqəsi, habelə onların arasındakı qədim qəbiristan Ağsu rayonunun məzrəsində yerləşməklə böyük bir sahəni əhatə edir.

Qırlartəpədən təqribən 1 km şərqə doğru, Sanqalan yaylasının hündür yerindəki yastandan da qədim maddi-mədəniyyət nümunələrinə, xüsusilə üzüm bağı salınarkən qəbir abidələrinə rast gəlinmişdir. Buradan yerüstü axtarış zamanı eramızın ərəfəsi üçün səciyyəvi saxsı qab nümunələrinə tez-tez təsadüf edilən bu sahə "Bədbinə" adlanmaqla, təqribən 8-10 ha-ya bərabərdir. Yerli əhalinin verdiyi məlumata görə buradan yalnız qəbirlər aşkar edilib. Lakin buranı Qırlartəpə yaşayış yerinin qəbiristanı hesab etmək düzgün olmaz. Çünki təpə ilə kəndyeri arasında məhz onun qəbiristanı yerləşir. Belə olduqda onda burada da ya kiçik qonşu yaşayış məntəqəsi və ya müəyyən əqidə sahiblərinə məxsus ictimai qrupun ayrıca qəbiristanı olmuşdur.

Yaşayış yeri və onun ətrafı meşəlik, münbit və dəmyə torpaqlara, qaynama bulaqlara, habelə müxtəlif zəngin bitki örtüyünə, geniş otlaqlara da malikdir. Təbii şəraitdəki dəyişikliklərin uzun müddət davam etməsini nəzərə alaraq və tapıntı flora, fauna qalıqlarına əsasən həmin təbii şəraiti öyrəndiyimiz dövrə də aid etmək mümkündür. Beləliklə antik dövrdə bu yaşayış yerində iqtisadi həyatın mühüm sahələrinin inkişafı üçün lazımi şərait olmuşdur. Bununla belə buradan qədim ticarət yollarının keçməsini şərtləndirən kifayət qədər maddi mənbələr vardır. Bütün bunlar hələlik yaşayış yerində əsaslı qazıntı aparılanadək alınmış məlumatdır.

Qazıntı əvvəlcə təpənin cənub qərb yarısında, keçən ildən açılmış yoxlama sahəsi də buraya daxil olmaq şərtilə başlandı. Əvvəlcə 16x16 metr ölçüsündə sahə götürməyi qərara aldıq. Lakin bu təpənin hər hansı bir vahid tikinti kompleksinə aid olduğu güman edildiyindən, həm də daha aydın təsəvvür əldə etmək üçün

[29] Ekspedisiya bu tərkibdə işləmişdir: rəis Fazill Osmanov (1.VII-15.IX.83), baş elmi işçi Fərhad İbrahimov (l.VIII-3l.VIII.83), kiçik elmi işçi Qafar Cəbiyev (1.VII-31.VIII.83), kiçik elmi işçi Sevda Hüseynova (1.VIII-31.VIII.83), memar Qalib Xoşginabi (15.VIII-31.VIII.83), rəssam Cəbrayıl İsgəndərov (5.VIII-31.VIII.83), baş laborant Tofiq Mehdiyev (1.VII-31.VII.83).

əvvəlcə götürülmüş ölçünü şimala doğru 24 metrə çatdırdıq. Həmin ölçü təpənin şimal hissəsilə kənar xətt kimi uzanan hündür divarı andıran yerə çatdırıldı. Onlar da 4x4 metr ölçülü kvadratlara bölündü. Bu ölçüdə götürülmüş sahə təqribən təpənin cənub ətəyindən və qərb zirvəsindən başlamaqla onun yarısını, daha doğrusu, qərb yarısını əhatə edir. Kvadratlar qərbdən şərqə doğru əlifba sırası ilə, cənubdan şimala doğru isə rəqəmlərlə nömrələndi. Kvadratlar şahmat üsulu ilə nömrələnməsilə göstəriləcəkdir. Qərb tərəfdə qazıntı sərhədi yalnız zirvədən başladığı üçün a kvadratını ehtiyatla saxladıq ki, gələcəkdə qazıntı üçün düşdükcə təpənin meylli döşündə sahə genişlənəcək və daha bir kvadratın yaranacağı nəzərə alınmışdır. Belə olacağı halda “a” kvadratı məhz başlanğıca, daha doğrusu kənara düşəcəkdir və əlifba ardıcıllığı ilə pozulmayacaqdır.

Beləliklə qərbdən şərqə doğru 16 metr (b, v, q, d), cənubdan şimala doğru isə 24 metr (1, 2, 3, 4, 5, 6) 4x4 ölçüsündə 24 kvadrata bölünüb götürüldü (384 $m^2$).

Qazıntıya başlanan ilk günlərdə çox əziyyət çəkdik. Çünki sahənin üstü başdan-başa tikinti daşları töküntüsündən ibarətdir. Odur ki, bel ilə qazmaq olduqca çətindir. Yalnız külüng və iti uclu bel ilə işləmək olurdu. İlk qazıntısına başladığımız yaşayış yerində külüng işlətmək də təhlükəli idi. Ona görə ki, lap üst qatdan çoxlu daş töküntüləri, uçquntuları arasında maddi-mədəniyyət qalıqlarına da təsadüf edilir. Burada elə nadir və qiymətli tapıntılara rast gəlinir ki, artıq külüng işlətmək olmazdı. Bunlar gümüş sancaq, gil büt, dən daşları, saxsı qab qırıqları və s-dən ibarət idi. Daş töküntülərinin arası bıçaq və şotka vasitəsilə işlənirdi ki, bu da işin ləng getməsinə səbəb olurdu. Daş töküntülərinin qalmış düzümü də maraqlı idi. Onlar elə bil tağlı tikintinin uçub töküldüyünü də xatırladırdı.

Təpənin istər hündür kənarları və istərsə də çökmüş üst qatı götürüldükcə nisbətən xırda əhəngdaşından olan (qumdaşı) alətə oxşar daşlar tapılır. Bu daşların işlənməsi xüsusilə də ovuc içərisində tutulmaqla işləndiyi aydın bilinir. Onlar piramida üçbucaq və başqa həndəsi fiqur formasında olub bir ucu iti, tərəfləri hamar, kənarları-tinləri isə iti vəziyyətdədir. Bu daşların əksəriyyəti ovuc içərisinə asanlıqla sığır. Onlar sürtüləndə asanlıqla aşılanır. Onlardan ola bilsin ki, nəyisə (metalı) sürtüb pasını açmaq, silahın alətin itilənməsində istifadə etmək mümkündür. Bundan başqa gön işində, primitiv üsul ilə sünbüldən dən çıxarmaqda və s. bu kimi işlərdə də istifadə edilə bilərdi. Bu cür işlək daşlar yalnız yaşayış yerlərində və ya antik dövr maddi-mədəniyyət qalıqları tapılan yerlərdə müşahidə edilir. Bu tip daş alətləri Nüydi, Uzunboylar antik dövr yaşayış yerlərində, habelə Sulut ilə Kalva kəndləri arasında da çoxlu müşahidə edilir (Seyfi adlı yerdə).

Bundan başqa qırmızı kərpic rəngində çox rahat yazan qırmızı təbaşir parçaları da tapılmışdır. Qırlartəpənin lap yaxınlığında ağ təbaşir yatağı vardır. Göstərilən qırmızı təbaşir daşından vaxtilə boyaq və ya müxtəlif rəsm, yazı, işarələr cızmaq işində istifadə edilmişdir. Yaşayış yerində tapılmış saxsı qab

qırıqları içərisində qırmızı rəngə boyanmışlarına da təsadüf edilir. Şübhəsiz geniş sənətkarlıq sahələrinə malik olmuş bu yaşayış yerlərində müxtəlif bitkilərin kökü və külündən boyaq kimi istifadə edilmişdir. Burada yabanı şəkildə bitən çoxillik gülxətmi bitkisi də yetişir. Ondan indi də müxtəlif rəngli boyalar hazırlamaq sahəsində istifadə edilir.

Üst qatda davam etdirilən qazıntı zamanı, təqribən 0,2-0,3 metr dərinlikdə, təpənin qərb kənar xətti üstündə bir ədəd yastı daş parçası tapılmışdır. 55 kvadratında aşkar edilmiş bu daş lövhənin bir üzündə barmaq ucu yerləşən batıqlar düzəldilmişdir. Həmin batıqların bəzisinin içərisində dəmir pasına oxşar qalıqlar vardır. Bu daşdan dəzgah hissəsi və ya müəyyən qəlib kimi istifadə edilməsi güman olunur. Buradan qalın saxsı küp ağzı, suvaq parçaları, yonulmuş tikinti daşları da tapılır. Bu daşlar yumşaq cinsli (əhəngdaşı) olub, yaxınlıqdakı Pəldahar yatağındandır.

Təpənin cənub-qərb kənarında, şərq-qərb istiqaməti üzrə uzanan kəbərvari töküntü daşları altında 0,5 metr dərinlikdə daş hörgü üzə çıxmışdır. Bu hörgünün içəri tərəfidir. Lakin onun barı və ya otağa məxsusluğu hələlik bəlli deyildir.

Təpənin mərkəzinə yaxın hissəsində, Q4 və D5 kvadratları arasından, 0,5 metr dərinlikdən bir ədəd saxsı insan fiquru aşkar edilmişdir (tablo 56). Gil heykəlciyin başı şiş konusvari, gövdəsi silindrik, oturacaq və ya ayaq hissəsi dairəvi və altdan içəriyə doğru batıqdır.

Təpənin çökmüş mərkəzi hissəsinə yaxın kvadratlarda (Q3-Q5 və D3-D5-ci kvadratların) 0,4-0,5 metr dərinlikdə divar hörgüsünü bildirən kənarları çapılıb düzəldilmiş daşlar aşkar edilmişdir. Onlar həddən artıq xırda sınıqlardan ibarətdir ki, bu da onların vaxtı ilə məişətdə işlənib sıradan çıxdığını və tullandığını bildirir. Saxsı qırıqlarından qırmızı, qara, bozumtul qab oturacağı və ağzının kənarı, habelə metal bəzək (mis, üzük, sırğa və s.) tapılmışdır. Aşkar edilmiş sahədə tapılmış maddi-mədəniyyət qalıqları həddən artıqdır. Tam hissələri qalmış və bu dən daşından başqa Q4 kvadratından 0,3 metr dərinlikdən yenə də saxsı qab qırıntıları və ovuntu daşlar arasından daha bir dən daşının yarısı əldə edilmişdir.

**Gil çıraqlar.** Mənzillərin işıqlandırılmasında müxtəlif dövrlərdə müxtəlif çıraqlardan istifadə edilmişdir. Azərbaycanda antik dövrə aid çıraqdan istifadə haqqında istər yazılı və istərsə də arxeoloji məlumat yox dərəcəsindədir. Lakin həmin dövrdə təkayaq və üçayalı vazalar və bu kimi qablardan şamdan kimi istifadə olunduğunu güman etmək olar. Bununla belə üçayaq və təkayaq vazalar vasitəsinə məxsus elə qablar vardır ki, onlardan bilavasitə çıraq kimi istifadə edilmişdir. Bu cür çıraqlar Nüydi, Uzunboylar, Kürdüvan abidələrindən e.ə. II-I əsrlərə və eramızın əvvəllərinə aid olan nümunələri əldə edilmişdir. Bu çıraqların irəliyə uzanan dar uzunsov novçası vardır ki, onların da bu hissəsi hisdən-alovdan qaralmışdır. Bunlardan ağzı örtülməklə müəyyən yanacaqdan, çox güman ki, neft məhsullarından istifadə edilmişdir. Qırlartəpədən tapılmış qısa lülələr və bir ədəd lüləklə gövdənin müəyyən hissəsinin tapılması bu fikri daha da möhkəmlətdi.

Bununla belə çıraq və onun yanından saxsı qabların içərisindən qətran qalığının aşkar olması isə onu bir daha təsdiqləməyə imkan yaratdı. Bu saxsı çıraq lüləyindən biri qırmızı rəngdə olub tərkibində ağ qum dənələri vardır. Lüləyin ucunda-altda və üstdə düyməcik olmuşdur. Bunun üstündə his izi yoxdur. Digər bir çırağın hissəsi isə olduqca yaxşı və aydın təsəvvür yaradır. Tünd boz rəngdə olan saxsı çırağın oturacaq və lülək hissəsi qalmışdır. Lülək çox qısa olub üstü bir qədər basılmış vəziyyətdədir. Onun üstündə kiçik düyməcik vardır. Çırağın oturacağının qalmasına və dayanmasına əsasən lüləyin ucu dik dayanır. Bu isə onun içərisində yanacağın maye halında olmasına əsas verir. Qalmış hissəsinə görə onun dəyirmi gövdəsi olmuşdur. Qulpunun olub-olmaması məlum deyildir. Çırağın xarici şüyrələnmişdir. Onun lüləyinin ucundan oturacağınadək alov və yanma nəticəsində möhkəm qaralmışdır,

**Daş məmulatı.** Qırlartəpədə daş alətləri çoxlu miqdarda aşkar edilir. Bunlar başlıca olaraq qayıqvari dən daşlarından, sürtgəclərdən, daş qab və üstü deşikli alətəoxşar əşya, itiləyici alətlər (xart) və s. ibarətdir. Həmin material haqqında yuxarıda yeri gəldikcə adı çəkilmiş tapılma şəraiti göstərilmiş, hətta bəziləri haqqında nisbətən ətraflı danışılmışdır. Odur ki, bunların bəzisi haqqında həm də təsərrüfat əhəmiyyəti barədə qısa məlumat vennək istəyirik.

Ağımtıl rəngdə yastı daş parçası diqqəti daha çox cəlb edir. Onun birtərəfli azca qabarıq əks üzü isə nisbətən hamar və üstündə 12 yerdə barmaq ucu yerləşən çalalar vardır (tablo 56-5). Bu kiçik çökəklikdə dəmir çıxarını xatırladan qalıq izi də bilinir. Bu daş tapıntının yaxınlığında bir ədəd kiçik saxsı iy başlığı da əldə edilmişdir. Buradan belə bir təsəvvür də yaranır ki, həmin daş toxuculuqla bağlı hər hansı bir dəzgah hissəsi olmuş və buna yaxın vəzifəni ifa etmişdir.

Daş alətlər içərisində kobud qabaoxşar nümunələr (tablo 56-6), yumru alətlər (tablo 56-8, 9), asmaq üçün deşikli xart daşı da maraqlıdır.

Dəmir materialı içərisində bir ədəd ox ucu daha çox cəlb edir (tablo 55). Bu tip dəmir ox ucularının tam oxşar formaları çoxdur. Həmçinin yeni Tsruxaytud və Zorqol kəndlərində tapılanlar da buraya daxildir. Bu tip dəmir ox ucları Zabaykalyada hun dövründən başlayaraq müasir etnoqrafik dövrə qədər ən çox yayılmışdır.[30] Həmin ox ucunun tiyəsinin uzunluğu 6 sm, eni 1-1,5 sm, saplağının uzunluğu isə 5 sm-dir. Ox ucu çox yaxşı qalmışdır. Burada dəmir materiallının yaxşı qalmasının bir səbəbini də yaşayış yerinin hündürdə olması və burada nəmliyin azlığı, suyun dayanmaması ilə də izah etmək olar.

**Qəbir abidəsi.** Qırlartəpə yaxınlığında təzə salınmış şosse yolunun kənarında qədim qəbir abidələrinin qalıqları yenə də müşahidə edilmişdir. Bunlardan xeyli nümunələr 1982-ci ildə aşkar edilib öyrənilmişdir. 1983-cü il qazıntı mövsümündə yolun kənarında bir qəbir abidəsinin varlığı aşkara

---

[30] Й.С.Худяков. Коллекция железных наконечников стрел Читинского музея// Археологии северной Азии, Новосибирск, Наука-Сибирское отделение, 1982, с. 140.

çıxarılmışdır. Ona görə də qazıntı sahəsində 200 metr şimal qərbə doğru fındıqlıqda, yolun səviyyəsindən 5-6 metr yüksəkdə avadanlıq (gümüş qab) və kəllə sümüyü görünən yerin üstünü açdıq. 3x3 metr ölçüsündə sahə 1-1,5 dərinləyə qədər qazılaraq skeletin üstü açılmışdır. Qeyd edək ki, onun baş tərəfi görünürdü. Burada üstdən yol çəkilərkən bir qədər sıyrılmışdır və yolun kənarına düşdüyü üçün dərinə salınmışdır. Qazıntı zamanı qəbirdə saxsı qablara təsadüf edilməmişdir. Yalnız skeletin ayaqları ucunda bir iki küp sınmış şəkildə qalmışdır. Saxsı qablar adətən ölünün başı yanına və üzü qarşısına düzülür. Odur ki, bu qəbir də aşkar edilən ölünün baş və üzü istiqaməti tamamilə yola, yəni qazılıb dərinə salınmış yerə düşür. Çox güman ki, yol qazılarkən ölünün baş tərəfinə düzülmüş qablar da açılıb torpağa qarışıb atılmış, yaxud götürülmüşdür. Lakin skeletin üstündə olan avadanlıq tərpədilməmiş, yerində qalmışdır.

Skelet sıx bükülü şəkildə olub, sol böyrü üstdə, üzü şərqə doğru idi. İri adama məxsus olmuş skeletin kəllə ucundan çanaq sümüyünə qədər uzunluğu 90 sm, qıçlarının bazu sümüyünün uzunluğu 65, dizdən topuğa qədər də 65 sm-dir. Skeletin ətrafı, ayaqları yanında başlayaraq, başına qədər hər tərəfi qoz böyüklüyündə ağımtıl bərk daşlarla əhatə olunmuşdur. Hiss olunur ki, bu daşlar xüsusi olaraq düzəldilmiş və seyrək şəkildə ölünün ətrafına düzülmüşdür. Ölünün ayaqları iri, qalın divarlı, boz rəngli küpə dirənmişdir. Bu küp dik basdırılmış ağzı və gövdəsi parçalanıb aşağıya çökmüşdür. Küpün ağzının diametri 25 sm, ağzının kənara doğru uzanan qırağı 3 sm-dir; oturacağının diametri 16 sm-dir. Bu küp rəngi, ölçüləri və formasına görə yaşayış yerindən tapılmış iri təsərrüfat küplərinin qalıqlarına demək olar ki, uyğundur.

Skeletin çanaq sümüyü altında daha doğrusu yaxınlığında üçtilli və saplağı armud saplağı formasında bir dəmir ox ucu aşkar edilmişdir (tablo 54-3). Kiçik ölçüdə hazırlanmış bu ox ucunun yanında lövhəşəkilli uzunsov sümük əşya qırağı da var idi. Bu qabırğavari sümük parçasının ucuna yaxın hissədə deşik vardı. Həmin sümük əşyanın qalan hissələri skeletin kürəyə yaxınlığından tapılmışdır (tablo 54-5). Bu əşyanın kaman və ya ox-yayla bağlı alət hissəsi olduğu şübhəsizdir. Bu cür tapıntılar nadir haldır. Onun ölünün kürəyi boyu aşkarlanmasına görə çiyninə keçirilmiş yaraqlı olduğu görünür.

Bunun onun başqa silahlarının da müvafiq yerlərində aşkarlanması da göstərir. Kəllənin yaxınlığında bir ədəd dəmir nizə də tapılmışdır (tablo 54-6). Kəllənin arxasında bir ucu deşik olan yastı və qara rəngli bülöv daşı qoyulmuşdur (tablo 54-4). Skeletin arxa tərəfində şiş ucu çanaq sümüyünə dirənmiş forel balığına oxşar hamar və uzunsov, en kəsiyi dairəvi daha bir ədəd minyatür bülöv daşı qoyulmuşdur (tablo 54-1). Bu bülöv daşının o biri ucu yastı və özək hissədən içəriyə doğru 2-3 sm dərinlikdə deşilmişdir. Həmin məsafədə yandan ikitərəfli deşik açılmışdır. Kəllədən içəriyə doğru açılmış nisbətən iri deşik yanlardan açılmış deşiklə əlaqələndirilmişdir ki, bu da vaxtı ilə oradan ip, sap zəncir və s. keçirilərək beldən asılmaq və ya qotaz üçün olduğu güman edilir. Qeyd etdiyimiz

kimi skeletin üzü qarşısında bir gümüş cam qoyulmuşdur (tablo 55-6). Gümüş cama yaxın, altda bir ədəd dəmir bıçaq qoyulmuşdur (tablo 54-2). Bıçağın dəstəsi qısa və ucu şişdir. Üstündə bir yerdən mıxbəndi olduğunu bildirən əlaməti var. Bıçağın tiyəsi nazik olub uca doğru daha da nazikləşmişdir. İti tərəfi bir qədər qövsşəkillidir. Çox güman ki, bu bıçaq qatlama olub cibdə gəzdirilmişdir. Bıçaq və camın yanında bir davar çənəsi də var idi. Skeletin sağ qolunda bir nazik mis bilərzik aşkar edilmişdir. Onun ucları sivri, içərisi yastı, üstü isə bir qədər qabartılıdır. Bilərziyin ortaya yaxın hissəsi içəriyə doğru basılıb əyilmiş şəkildədir (tablo 54-10). Skeletin barmaqlarında iki üzük var idi. Onlardan biri sümükdən olub çürüyüb xarab olmuş, yalnız qaş hissəsi qalmışdır. Qaşında bir tərəfi qabarıq, əks tərəfi yastı və heç bir işarəsi olmayan saya şüşə qaş vardır (tablo 54-12), daha bir üzük gümüş qarışıqlı olub üstündə möhür vardır. Möhürün nəyə aid olduğunu hələlik müəyyənləşdirməmişik (maral rəsmi həkk edilmişdir) (tablo 54-11). Bundan başqa bir ədəd ağımtıl şəffaf, yumru şüşə toppuza oxşar əşya da skeletin önündə qoyulmuşdur (tablo 54-13). Onun üstündə, deşiyin ağzında kiçik mis halqa vardır (tablo 54-9). Bununla belə burada, yəni skeletin qurşağı önündə bir qayış, yaxud toqqa başlığı var idi. Bu göstərir ki, onun geyimində belini kəmərlə bağlamış və üstündəki yaraqları oradan asmışdır. Belə ki, qurşaqdan dizlərə doğru uzanan enliağız dəmir xəncər, qolları yanında dəstəsi olmaqla, ucu ayaqlarına doğru uzanan ikiağızlı dəmir qılınc var idi (tablo 54-7, 8). Dəmir xəncər, bıçaq və qılıncın üstündə qalmış qəhvəyi çürüntüyə görə onların ağac astarlı qında olduğun göstərir. Bu skeletin yanında dövrün məlum silahlarının demək olar ki, hamısı vardır. Bütün bunlardan həmin adamın dövrün görkəmli nümayəndəsi - sərkərdə və ya tayfa başçısı, ağsaqqalı kimi nüfuzlu mövqeyi hiss olunur. Qeyd etdiyimiz kimi skeletin ətrafına düzülmüş xırda ağımtıl daşların sayı 53 ədəddir. Ola bilsin ki, bir-ikisi təmizlənmə zamanı torpağa qarışıb. Ancaq çox diqqətlə həmin daşlar arıdılıb yerində qeyd edilmişdir. Ölü ətrafına düzülmüş bu daşlar çox güman ki, onun yaşı və ya həyat yolundakı hər hansı bir hadisənin əbədiləşdirmək məqsədilə daşıdığını bildirir.

**Xaraba şəhər.** Ağsu-İsmayıllı arxeoloji ekspedisiyasının çöl-tədqiqatları zamanı Qırlartəpədə qazıntıları davam etdirməklə yanaşı, həm də kəşfiyyat işləri aparmışdır. Nəticədə tariximizin bir sıra məsələlərinin araşdırılması baxımından olduqca mühüm əhəmiyyət kəsb edən xeyli yeni abidə aşkara çıxarılaraq qeydə alınmışdır. Onlardan biri də Ağsu rayonu ərazisində yerləşən Xaraba şəhər abidəsidir. Rayon mərkəzindən 3-4 km cənubda, Ülgüc kəndi yaxınlığında yerləşən bu möhtəşəm abidə plan etibarilə kvadrat şəklində olmaqla 33,5 hektar sahəni əhatə edir. Onun ətrafı dərinliyi 6-7 metr, eni isə 20-25 metr olan xəndəklərlə və uzunluğu 2400 metrə çatan divarlar ilə əhatələnib, cənub tərəfdə xəndəyin eni 40 metrə çatır. Yerli qocaların dediyinə görə bu xəndəklər əvvəllər indi olduğundan xeyli dərin imiş. Abidənin cənub-şərq və cənub-qərb künclərində hər birinin hündürlüyü 10 metrə, diametri isə təqribən 20 metrə çatan iki süni təpə var. Həmin

təpələrdən vaxtı ilə çox güman ki, müşahidə məntəqəsi kimi istifadə olunmuşdur. Ola bilsin ki, abidənin giriş darvazası və çıxış yolu da bu təpələrin yanında imiş.

Aparılmış ilkin kəşfiyyat xarakterli axtarışlar nəticəsində orada çoxlu tikinti qalıqları və istehsal ocaqları olduğu müəyyənləşdirilmişdir. Abidənin təqribən mərkəz hissəsində uzunluğu 48, eni 15, dərinliyi isə 8-10 metrə çatan və hamam yeri adı ilə məlum olan çökəklik var. Tikinti qalıqlarının sıxlığına, tez-tez istehsal tullantılarına rast gəlinməsinə və digər yerüstü əlamətlərinə əsasən ərazinin şimal-şərq tərəfində qala divarları boyunca vaxtı ilə sənətkarlar, daha doğrusu dulusçular məhəlləsi yerləşdiyini güman etmək olar. Burada inşaat materiallı kimi çay daşından və bişmiş kərpicdən geniş istifadə olunmuşdur. Orada həmçinin çoxlu miqdarda yerüstü material toplanmışdır. Maddi-mədəniyyət qalıqları içərisində şirli, şirsiz keramika məlumatı üstünlük təşkil edir. Bu tapıntılar göstərir ki, yerli sakinlər calaq olunmuş hissələrinin üzərinə kobud yapma kəmərlərlə vurulmuş iri təsərrüfat küplərindən, darboğaz bardaqlardan, səhəng və sərnic tipli qablardan, habelə səthi anqob, marqans, kobalt naxışlarla bəzədilmiş kasa, boşqab və camlardan xüsusilə geniş istifadə etmişdir. Tapıntılar içərisində şərqdən gətirilmiş fayans, farfor və seladon qab qırıqlarına da tez-tez təsadüf olunur. Kəşfiyyat zamanı qoyulan kiçik ölçülü şurf-qazıntıdan tapılmış bir ədəd mis pul da maraq doğurur. Oradan təsadüfən tapılmış daha bir ədəd mis pul isə Ülgüclü kəndinin 60 yaşlı sakini Əbülfəz Şıxəliyev tərəfindən ekspedisiya üzvlərinə verilmişdir.

Qeyd edək ki, əldə olunmuş keramika nümunələri və pullar xronoloji cəhətdən XVII-XVIII əsrlərə aid edilir.

Yuxarıda deyilənlər bəhs olunan bu möhtəşəm abidənin Azərbaycanın orta əsr şəhərlərindən biri olduğunu söyləməyə əsas verir. Lakin onun məhz hansı şəhər olduğunu demək hələlik çətindir. Dərin xəndəklərlə, hündür torpaq sədlə və keçilməz qala divarları ilə möhkəmləndirilmiş bu şəhər ərazisinin böyüklüyü və qala divarlarının uzunluğu baxımından Beyləqan şəhərinə daha çox uyğun gəlir. Yeri gəlmişkən deyək ki, əsrimizin yaşıdı olan qocalar da buranın bir zamanlar şöhrəti çox-çox uzaqlara yayılmış, Balakən (Beyləqan) xarabalığı olduğunu söyləyirlər. Tarixi mənbələrdə göstərildiyi kimi Beyləqan şəhəri monqollar tərəfindən əsaslı surətdə dağıdılmış və sonradan onun bərpası üçün göstərilən bütün cəhdlər demək olar ki, heç bir nəticə verməmişdir. Örənqalada Leninqrad və Azərbaycan arxeoloqlarının birlikdə aparmış olduqları geniş miqyaslı qazıntılar da bunu təsdiq etmişdir. Lakin bununla belə XIV-XVII əsr müəlliflərinin qeydlərindən yeri gəldikcə Beyləqanın adının çəkilməsini də təsadüfi hesab etmək olmaz. Məsələn: Adam Oleari XVII əsrin 30-cu illərindən səfəvilərin nisbətən gözəl şəhərləri sırasında Beyləqanın da adını çəkir. Azərbaycanın orta əsr şəhərlərinin tarixinin tədqiqi ilə məşğul olan Mikayıl Heydərov Beyləqanın bir

yaşayış məntəqəsi kimi XVII əsrin sonlarına qədər mövcud olduğunu güman edir[31] və s.

Haqqında danışılan abidənin Yeni Şamaxı şəhəri olduğunu güman edənlər də vardır. Məsələn tarix elmləri doktoru F.Əliyev P.Butkova və Y.Qaqemeysterə əsaslanaraq bu barədə belə yazır: "Şamaxılıların müqavimətindən qəzəblənən Nadir şahın əmri ilə şəhər tamamilə darmadağın edilmiş, əhalisi ilə Ağsuya köçürülmüşdür". Bu hadisə 1734-cü ildə baş vermişdir. Nadir şahın ölümündən sonra (1747) əhalinin xeyli hissəsi yenidən köhnə Şamaxıya köçür. 1768-ci ildə Şirvan xanlığı Quba xanlığı ilə birləşdirildikdən sonra isə Şirvan (köhnə) xanlığının inzibati və iqtisadi mərkəzinə çevrilmişdir. Yeni Şamaxının əhalisi də zorla oraya, 17775-ci ildə xanlıqda siyasi vəziyyətin kəskinləşməsi ilə əlaqədar paytaxt yenidən Şamaxıya köçürülmüşdür.

Nəhayət, Ağa Məhəmməd xanın başçılıq etdiyi İran ordusunun hücumundan çəkinən Mustafa xan şəhəri Fitdağa köçürmüşdür. Səyyah Bibirşteynin qeydlərində deyilir ki, İran qoşunları yeni Şamaxıya soxularkən onu bom-boş görüb daha da qəzəblənmiş və şəhəri alt-üst etmişlər. Bu məlumatların nə dərəcədə doğru olub-olmadığını söyləmək üçün əlimizdə hələlik elə bir tutarlı dəlil yoxdur. Lakin bir cəhəti qeyd etmək lazımdır ki, qısa vaxt içərisində belə bir möhtəşəm şəhər salındığını güman etmək məntiqi cəhətdən o qədər də ağlabatan deyildir. Bu, yeni Şamaxını kiçik şəhər kimi təsvir edən S.Bronevskinin qeydlərinə də uyğun gəlmir. İkincisi, bəhs olunan abidədən tapılmış yerüstü materialların xeyli hissəsi xronoloji cəhətdən XVII əsrin əvvəllərinə aid edilir ki, bu da həmin ərazidə Nadir şahdan təqribən bir əsr qabaq şəhər həyatı olduğuna dəlalət edir.

Sözsüz ki, Xaraba şəhərin məhz hansı şəhərin xarabalığı olduğunu müəyyənləşdirmək üçün orada geniş miqyaslı arxeoloji qazıntılar aparılmalıdır. Belə edilərsə, Azərbaycan tarixinin hələ öyrənilməmiş neçə-neçə qaranlıq səhifəsi öz sirrini açar. Xəritələrdə daha bir orta əsr Azərbaycan şəhərinin adı dəqiq yazılar. Tarixi mənbələrdə adı çəkilən daha bir şəhərimizin ünvanı dəqiqləşər.

Nəhayət, təəssüf hissi ilə demək istəyirik ki, tariximizin belə bir mühüm abidəsi olduqca pis mühafizə olunur. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin qərarı ilə qoruq elan edilməsinə baxmayaraq Xaraba şəhərin dağıdılaraq xarabazara çevrilməsi prosesi bu gün də davam edir. Nə qədər təəccüblü olsa da ətraf kəndlərin əhalisi neçə illər əvvəl olduğu kimi indi də ordakı tikintiləri, bünövrə qalıqlarını söküb daşıyır, tarixi abidənin daşından, kərpicindən inşaat materialı kimi istifadə edir. Xaraba şəhərin arxeoloji cəhətdən öyrənilməsi, orada əsaslı qazıntıya başlanması vaxtı çatmışdır.

**Nəticə.** Qırlartəpədə aparılmış ilk arxeoloji qazıntıların nəticələrinə əsasən müəyyən edilmişdir ki, yaşayış yerinin üst qatında eramızın əvvəllərinə aid daşla

[31] Q.C.Cəbiyev, Beyləqan. Yeni Şamaxı, yoxsa... "Sovet kəndi" qəzeti. 21 yanvar 1984-cü il, səh. 4

tikilmiş möhtəşəm binalar olmuşdur. Təpənin qərb kənarlarında iki dördkünc bürcü xatırladan tikinti qalığı aşkar edilmişdir. Daş hörgüdən ibarət möhtəşəm divarlar təpənin üstdən kənarlarını əhatələyir. Bu hələlik təpənin yarısına qədər müəyyənləşdirilmişdir. Əkinçilik, maldarlıq və sənətkarlığın yüksək inkişafını göstərən zəngin maddi-mədəniyyət qalıqları tapılmışdır ki, bunlar da daş, dəmir əmək alətlərindən, silah, saxsı və sümük məlumatı müxtəlif bəzək şeylərindən ibarətdir. Aşkar edilmiş maddi-mədəniyyət qalıqları eramızdan II-IV əsrləri çərçivəsinə aiddir. Qazıntıdan aşkar edilmiş çoxlu sümük qalıqlarını Azərbaycan SSR EA müxbir üzvü Dəmir Hacıyev təyin edərək aşağıdakı heyvan növünü müəyyənləşdirmişdir. 1. Keçi (Sapra hircus); 2. İri buynuzlu heyvan (bos taurus); 3. Ev donuzu (Sus Seroffus); 4. Ev iti (canus domestica). Vəhşi heyvanlardan: 1. Maral (cerrus elaphus) 2. Cüyür (capreolus capreolous). Sümüklər içərisində 4 ev heyvanı, 2 vəhşi heyvan sümüyü müəyyən edilmişdir.

**1984-cü il**

Arxeoloji ekspedisiya 1984-cü ilin iyul-avqust-sentyabr aylarında Ağsu və İsmayıllı rayonları ərazisində işləmişdi[32]. Əsas tədqiqat işləri İsmayıllı-Muğanlı yolu üstündə yerləşən Qırlartəpə və Kəndyeri şəhərgahında aparılmışdır.

...Qırlartəpə üzərindəki yaşayış məskəni Kəndyeri adlanan eyni dövr yaşayış məntəqəsindən təqribən 350-400 metr cənuba doğru ətraf ərazinin daha aydın görünən bir səmtindədir. Bunların arasında isə yaşayış məskənlərinin nekropolu yerləşir. Buradan kifayət qədər qəbir abidələri aşkara çıxarılmışdır. Bunların içərisində zəngin avadanlığı olanı, habelə hərbi başçılara məxsus qəbir də vardır. Kəndyeri şəhərgahı və onunla bilavasitə əlaqəli təpə üzərindəki akropolun ətrafları qaynama bulaqlarla da zəngindir. Buradan "Govur bulağı", "Söyüdlü bulağı", "İncilli bulağı", "Xan bulağı" və s. vardır. Bu bulaqların yaşayış məntəqələrini içməli su ilə habelə təsərrüfatın ayrı-ayrı sahələrini təmin etmək üçün kifayətdir. Kəndyeri şəhərgahı üzərində bir daha axtarış işi aparıldı. Burada çoxlu küp qırıqlarının səpələndiyi müşahidə edildi. Küp qırıqları qalın divarlı qırmızı rəngdə olub, tərkibində ağ qum dənəcikləri vardır. Həmin materiallar, həmçinin saxsı qab qulpu və başqa hissələrinə görə eramızın I minilliyinin I yarısı üçün səciyyəvi nümunələrdir. Bu yaşayış yeri saxsı qab qırıqlarının səpələnməsinə görə 5-6 paya qədər sahəni əhatə edir. Bu qədim şəhərgahın şimal-şərq tərəfi sıldırım meşəli dağdan ibarətdir. Məhz yaşayış yeri bu etibarlı keçilməz yerin döşünə söykənir. Həmin meşəli sıldırım qayalıq Pəldahar adlanır. Dağın lap kənarında dairəvi yastan yer vardır. Burada yaşayış yerinin nisbətən hündür axar-

[32] Ekspedisiya bu tərkibdə işləmişdir: rəis Fazill Osmanov (2.VII-30.IX.84), baş elmi işçi Hüseyn Ciddi (1.IX-15.IX.84), kiçik elmi işçi Qafar Cəbiyev (2.VII-30.IX.84), kiçik elmi işçi Sevda Hüseynova (2.VII-31.VII.84), baş laborant Tofiq Mehdiyev (15.VII-15.VIII.84), memar Qalib Xoşginabi (15.VII-30.VII.84).

baxarlı yeridir. Bu hissədən başlayaraq şəhərgahın cənub-şərq tərəfində barı yerini xatırladan qabarıq xətt uzanır. Çox güman ki, həmin köbər hər hansı bir sədd və yaşayış yeri ilə bağlı qalığının nişanəsidir. Şübhəsiz gələcək qazıntılar bu barədə daha düzgün fikir yürütmək üçün imkan yaradacaqdır.

Adından bəlli olduğu kimi Kəndyeri vaxtı ilə Azərbaycanın hansısa yaddan çıxmış iri yaşayış məntəqəsi, bəlkə də antik dövr şəhərlərindən biri olmuşdur. Burada qazıntı aparılması da yaxınlığındakı həm də bilavasitə bu abidə ilə bağlı olan zəngin nekropolun, eləcə də təpə üstündəki möhtəşəm tikinti kompleksinin aşkarlanması onun şəhər xarabalığı olduğunu söyləməyə zəmanət verir. Hələlik təsadüfən aşkar edilmiş qəbir abidələrində dövrün varlı zümrəsinin həyat tərzini əks etdirən habelə şəhər mədəniyyətinə xas olan tapıntılar bu barədə tez də olsa ilkin fikir söyləməyə tam əsas verir. Antik dövr və orta əsrlərə dair böyük bir şəhərgahın mühüm hissəsini təşkil edən bu təpə üzərindəki kompleks tikintini açmaq məqsədi ilə üst və kənar yamacların bir növ qabağını götürmək lazım gəlir. Bu vəzifəni tədricən yerinə yetirərkən işi davam etdirmişik. Qeyd etməliyik ki, təpənin kənar xətti və içəriyə doğru olan hissəsini qazmaq olduqca çətindir. Çünki bu sahələr sırf daş çöküntülərindən ibarət olub uçub dağılmışdır. Daş divarların qalığından bəlli olduğu kimi onların çox yerdə üstü içəriyə doğru meyllidir. Bu divarların əsrlərdən bəri içəri boşluğa tərəf uçğuntu ilə əlaqədar da əyilməsini güman etmək olar. Lakin bununla belə mənzillərin içərisində uzunsov daşların tökülmə cərgəsi, düzümünün qalığı, tağlı tikinti haqqında da bəzi mülahizələr yürütmək üçün inamlı təsəvvür yaradır. Onu da etiraf etməliyik ki, bu fikri qəti şəkildə söyləmək üçün hələlik geniş memarlıq və müşahidə tədqiqatları aparılmamışdır. Belə xüsusiyyət akropolun əsasən şərq-qərb istiqaməti üzrə olan şimal kənar divarı boyunca qismən müşahidə edilmişdir. İçəri tərəfdən divarın üzü aydın bilinir. Onun daşları bir-birinə xüsusi sarı torpaqdan tutulmuş palçıqla bərkidilmişdir. Bu əlamət daşların arasında çox aydınlıqla nəzərə çarpır. Divarın bayır tərəfdən üst qatı götürüldükcə elə bil xeyli aralıdan iri daşlar dayaq kimi söykənərək barını möhkəmlətmiş, bir növ konturfors şəklinə salmışdır. Əlbəttə bu fikir də tam son nəticəyə əsaslanmayaraq irəlicədən söyləndiyi üçün ehtimali xarakter daşıyır. Barının üstündən daşların arası təmizlənərkən iri və qalın divarlı küp ağzının qırıqları və s. tapılmışdır. Təpənin şimal-qərb küncündə üstdə və xarici yamacında yanmış suvaq, gül, çıxdaş qalıqlarına tez-tez rast gəlinir. Həmin qalıqlar çox güman ki, altda kürəxana qalıqlarının varlığına işarə edir. Belə ki, burada aşkar edilən dördkünc tikintinin döşəməsinin altında çoxlu yanğın izi və boşluqlar üzə çıxır. Həm də bu vəziyyət qərb kənarda bütün şimal-cənub xətti üzrə davam edir. Lakin üst qatdakı möhtəşəm daş divarlı və nömrəli tikintilərinin kompleksinə xələl gəlməsin deyə və onların quruluşunu öyrənəndən pozmamaq üçün (bəlkə də gələcəkdə bərpa etdirmək mümkün oldu). Hələlik daha dərinə doğru qazmaq əl vermir. Burada üst otlu əncərli çim götürülərkən adda-budda suvaq ovuntularına rast gəlinir. Suvaq və ya kürədə yanmış, hətta kərpic halına düşmüş torpaq

ovuntuları arasında saxsı qırıqlarına da təsadüf edilir. Belə saxsı parçalarından biri bozumtul rəngdə, yumru gövdəli, düz oturacağa malik və kobud lentşəkilli qulpu olan (qulpun üstü bir cərgə batıqlarla bəzənmişdir) dolçanın sınıqları tapılmışdır.

Yuxarıda kürəxana əlamətini qeyd etdik. Bununla əlaqədar bəzi mülahizələr yürütmək lazun gəlir. Belə ki, burada kürəxanada iş üçün şərait, əlverişli təbii imkanlar vardır. Yanacaq ehtiyatından əlavə hündür yayla üstündə yerləşdiyindən və Ağsu çayının dərin dərəsinin bir növ onu çevrələməsi burada daim külək və ya havanın cərəyanı üçün imkan yaranmışdır. Əgər bu təpədəki yaşayış məskəni müəyyən (qeyd edilən yerdə) kürəxana olmuşsa, onun tez odlanması, odun lazım olanda daim közərməsi və alışması üçün belə yerin seçilməsi də əlverişli ola bilərdi.

Belə ki, kürənin alışdırılması, qızdırılması üçün çox vaxt gözləmək lazım gəlməzdi. Bizcə qədim sakinlər bunu nəzərə almışlar. Lakin bunlar da hələlik ilkin əlamətlərə görə yürüdülən fikirlərdir. Dərinə qazınca, abidələri tam aşkara çıxarınca mühüm yəqinliyə nail olduqdan sonra daha dəqiq fikir söyləmək olacaqdır. Bu möhtəşəm təpə üzərindəki qiymətli tikinti qalıqlarının səbirsizliklə gözlədiyimiz son nəticələrinə doğru səbrlə addımlayırıq. Burada indiyədək adı məlum olmayan qədim yaşayış məntəqələrindən ən mühüm və cəsarətlə demək olar ki, ən möhtəşəmlərindən biri yerləşir. Bu isə Kəndyeri və Qırlartəpənin kompleks şəkildə öyrənilməsindən sonra mümkündür.

Qırlartəpənin şərq kənarında üst qat götürülərkən üstü tam yaşıl şirli saxsı parçası və çox kiçik fayans qab qırıqlarına təsadüf olundu. Lakin onların buradan tapılması təəccüb doğursa da, mütləq qeydə götürdük. Bu qırıqların isə buraya sonradan kənar yerlərdən gətirildiyi güman edilir. Üst çayırlı qatda təsadüf edilən bu cür sonrakı dövrlərə aid tapıntılara iki ildən artıq qazıntılar ərzində ilk dəfədir ki, rast gəlinir. Yaşıl rəngli şirli qab parçası bir qədər fikrimizi yayındırsa da, yəni onun dövrü şirli qabların meydana gəldiyi vaxt üçün (təqribən IX-X) səciyyəvidisə, kiçik fayans fraqmentinin daha sonraya (XIII-XIV əsrlərdə) aid olunası bir faktdır. Bu tapıntıların burada olmasına təəccüb etdiyimizi hiss edən fəhlələrdən biri həmin şirli qab qırığını başqa yerdən (Kəndyerindən) tapdığını və buraya gətirdiyini söylədi (Həsən Osmanov). Lakin bununla belə orta əsrlərdə yaşayış yerlərinin olması da bəllidir. Bu tapıntılar bir və ya iki fraqmentdən ibarətdir. Odur ki, onların orta əsrlərdə və ya sonralar buraya gətirilib salınması şübhə doğurmur. Digər tərəfdən axar-baxarlı hündürdə yerləşən bu abidənin üstündən orta əsrlərdə bir gözətçi məntəqəsi kimi istifadə etmək olardı. Bu fikri tamamlamaq üçün məhz təpənin şərq kənarının xaricdən yenə də çayını çim lay götürülərkən, daşların üstü təmizlənərkən bir ədəd mis pul da tapılmışdır (tablo 59-5). Bu mis pulu Azərbaycan SSRİ EA Tarix İnstitutu Arxeologiya və etnoqrafiya bölməsi Numizmatika qrupunun rəhbəri Məhəmməd Seyfəddini təyin etmişdir. Pul Şamaxı şəhərində hicri 771-ci il (1369-cu il) tarixində zərb olunmuşdur. Şirvanşahalara məxsus mis pulun da buradan tapılması və abidənin yuxarıda qeyd etdiyimiz kimi

Şamaxı və Qəbələ şəhərinin düz xətt üzrə olan yolu üstündə yerləşməsi onun orta və son əsrlərdə müəyyən bir məntəqə kimi istifadə olunması üçün əlverişlidir. Lakin bu dövrdə burada yaşayış izini göstərən başqa bir şey tapılmamışdır. Onu da qeyd edək ki, bu təpədən Şamaxı yaxınlığındakı Gülüstan qalası, Buğurt qalası yerləşən ərazi, şimalda Səyad, Qart, Fit dağları, oradakı qala və başqa yaşayış məntəqələri Niyal dağı, Xankəndi, Basqal, Nüydi, Nuran kəndləri ərazisindəki yaşayış məntəqələri, cənuba doğru Ağsu çayının geniş dərələri və düzləri, Təngə dağı və s. yerlər çox aydın və demək olar ki, dəqiq müşahidə edilir. Bu da abidənin tarixən çox böyük strateji və siyasi əhəmiyyətə də malik olduğunu göstərir.

B6 kvadratında, dördkünc daş tikintinin içərisindən (1 metr dərinlikdən) saxsı qab qırıqları, qaramal çənəsi, dişləri və başqa sümükləri, dəmir bıçaq hissəsinə təsadüf edilmişdir. Saxsı qablardan boz rəngli dopunun qıç və gövdəsindən bir parça əldə edilmişdir. Qulp kobud lent şəkilli olub, üstündə batıqlardan ibarət naxışı vardır. Ümumiyyətlə, buradan tapılan qabların hamısı əllə formalaşdırılıb hazırlanmışdır. Dəmir bıçaq isə çox qısa sulğunca malik olub üstündə ağac və ya başqa materialdan olan dəstəyi bərkitmək üçün mıx izi vardır (Ağsu arxeoloji ekspedisiyasına aid gündəlik, 1984-cü il, № 2, səhifə 49). Görünür, qatlanmış bıçaq olmuşdur. Bu cür bıçaqlara burada tez-tez rast gəlinir. Onlar bir növ ülgücü də xatırladır. Buradan başqa ortadan deşilib istifadə edilmiş daş çarxın yarısı da tapılmışdır.

J3, J5 kvadratlarında 0,5 metr dərinlikdə xırda daşlarla qarışıq qara çürüntülü və maddi-mədəniyyət qalığı olan torpaq qatı qazılarkən şirsiz saxsı qab qırıqları, heyvan sümükləri tapılmışdır. Onlarla yanaşı bir ədəd əyircək və ya saxsı çarx tapılmışdır. Onun üzəri azca qızarmış şəkildə olub içərisi qara rəngdədir. Pis bişirilmiş bu gil əşyanın mərkəzi hissəsindən deşiyi olmaqla həmin hissə qalın hazırlanmışdır. Çarx şəkilində olan bu əşyanın kənarları nisbətən nazikdir. Üzərində isə kiçik deşiklərdən ibarət bəzəyi vardır (gündəlik № 5, səh. 2). Bununla birlikdə bir ədəd bozumtul saxsı qab, qulp və ağzının kənarlarından bir parça tapılmışdır.

Bu mövsümdə başlıca olaraq təpənin şərq yarısındakı tikintinin qalıqları aşkara çıxarılmışdır. Lakin bununla belə qərb divarların üstündə və xarici yamaclarında da xeyli iş görülmüşdür. Şimaldan şərq-qərb üzrə uzanan divarın içəri tərəfindən əvvəldə açılmış dördkünc daş tikintinin şərqə doğru istiqaməti bir neçə tikinti qalıqlarının da sırası aydınlaşdırıldı. Şərq hissədə 3 kvadrat şəkilli tikintinin bünövrəsi yaxşı qalmışdır. Onların qarşısında da müvafiq otaqların varlığı bilinir. Beləliklə 6 otağın və dördkünc tikintinin qalıqları müəyyənləşdirilmişdir. Bunlar hələlik abidənin qərb yarısında açılan və nisbətən salamat qalan tikintinin qalıqlarıdır. Şimal və cənub kənarlardan qərbdən şərqə doğru uzanan divarların 12-14 metr uzunluqda məsafəsi tam aydınlaşdırılmışdır. Bununla belə şərq tərəfdə də yan divarların içəridən çevrəsi aydınlaşdırılmışsa da

bəzi yerlərdə uçmaq təhlükəsi ilə əlaqədar aşkarlanma, qazılıb açılma işləri hələlik qalmışdır. Bu iş mərkəzə yaxın şimal divarında başa çatdırılmamışdır.

Təpənin şərq qurtaracağına yaxın hissəsində qazıntı sahəsi dərinləşdikcə, qazıldıqca kömür, saxsı qırıqları, heyvan sümükləri üzə çıxır. Burada torpaq bir qədər yumşalır və kül-kömür qatına da təsadüf edilir.

Buradan bir ədəd şaxəli buynuz (çox güman ki, cüyür buynuzudur) tapılmışdır. Buynuzun uclarından göründüyü kimi işlənib hazırlanmışdır (tablo 60-1). Ondan ola bilsin ki, biz kimi istifadə edilmişdir. Ümumiyyətlə Qırlartəpədə heyvan buynuzundan əmək aləti kimi istifadə edilməsi halları müşahidə edilmişdir. Bu ənənə çox güman ki, həmin yaşayış yerində bizcə ən qədim zamanlardan (eneolit dövründən) bəri davam edən ən adət-ənənənin nəticəsidir. Təqribən aydınlaşdırılmışdır ki, eramızın IV-V əsrlərinədək burada yaşayış demək olar ki, arasıkəsilmədən davam etmişdir. Üst tikinti qatına aid olan təbəqədən vəhşi heyvan buynuzu ilə yanaşı saxsı təkər, daş alətləri və s.-yə də tez-tez rast gəlmək olur. Burada da daş töküntüsü həddən artıqdır. Nizamsız halda olan uçub tökülmüş daşlar qazıntı işini çətinləşdirir.

Şimal xətti üzrə uzanan daş divarın içəri tərəfindən divarın dibində B6 kvadratında bir ədəd təsərrüfat küpünün ağzı görünmüşdür. Küpün ağzı yastı daş ilə örtülü idi. Burada vaxtı ilə yaşayış olduğu zaman küpdə ərzaq saxlanmış, onun ağzı daşla kip örtülmüşdür. Əsrlərdən bəri ağzı örtülü qalmış küpün içərisində olan ərzaq qurumuş, yaxud buxarlanmış və ya sızıb yerə hopmuşdur. Odur ki, küpün ağzı açılan zaman onun içərisinin boş qaldığı göründü. Lakin küpün dibində çox narın torpaq qatı qalmışdır ki, bundan nümunə götürülmüşdür. Nünunə hələ analiz edilməmişdir. Ona görə də bu küpdə hansı ərzaq saxlandığını dəqiq söyləmək çətindir. Güman etmək olar ki, burada maye halında olan ərzaq, yaxud da dən və ya un kimi məhsullar saxlana bilərdi. Küpün ağzındakı daşın alt üzü qaralmışdır. Küpün ağzı uzunsov dairəvidir. Bu isə görünür küpün üstünə düşən ağırlıqdan basılıb parçalanmış, çatlamışdır. Onun ağzının diametri ağzının kənara çıxıntısı 5 sm-dir. Ağzının kənarından küpün dibinə qədər içəridən dərinliyi 1,35 m-dir. Dibi isə nisbətən şişdir. Küp dik basdırılmışdır. Bu küpün əks istiqaməti üzrə cənub divarın istiqamətində daha bir küpün yarıdan aşağı hissəsi qalmışdır. Bu küp çox dərinə basdırıldığından otağın düzündə olduğundan sınıb tökülmüş, yalnız oturacağa yaxın hissə qalmışdır.

Ümumiyyətlə akropolda təsərrüfat küplərinə, onun qırıntılarına çox rast gəlinir. Həm də onlar əsasən divar diblərində, otaq künclərində və hətta bir barı divarından xaricə yenə də divar diblərinə basdırılmış və ya qoyulmuşdur. Əsasən dövrün bir növ ərzaq anbarını təşkil edən iri küplər yaşayış yerindən, onun nekropolundan çoxlu miqdarda aşkar edilir. Bunlar, həm nekropoldan, həm akropoldan, həm də Kəndyeri yaşayış yerindən əldə edilən küp qırıqları ilə tam bir-birinə oxşardır. Onlar eyni bir dövrün məhsulu olub eramızdan əvvəlki I minilliyin son rübü və eramızın əvvəlləri üçün səciyyə daşıyır.

Qeyd etmək lazımdır ki, başqa saxsı qablara nisbətən iri təsərrüfat küplərinin ömrü daha uzun olur və onlar demək olar ki, bəzən bir neçə nəsil, bir neçə əsr istifadə edilir. Bu bir tərəfdən qalın və möhkəmliyi ilə əlaqədardırsa, digər tərəfdən həm də əsasən çox hərəkət etməsindən müəyyən yerdə uzun müddət tərpədilmədən qalması ilə də bağlıdır. Buna misal olaraq, bu cür iri küplərin qonşu Nüydi, Uzunboylar torpaq qəbirlərindən, eləcə də bilavasitə bu yaşayış yerindən tapılması onları qeyd etdiyimiz dövrdə geniş yayıldığını bir daha təsdiq edir.

Akropoldan və ətraf şəhərgahdan təsərrüfat küplərinin həddən artıq tapılması burada bir daha yüksək əkinçilik mədəniyyətinin inkişafını əyani şəkildə təcəssüm etdirir.

Qeyd edildiyi kimi, təpənin şərqə doğru eni daralır və onun sərhəddindən xaricə doğru bir növ pilləli eniş başlanır. Təpənin ümumi vəziyyətinə görə kənar divarların istiqaməti bilinir. Məhz bu istiqamət üzrə divarların üstü və ətrafı təm izlənir. Divarların üstü içəriyə doğru əyilmiş, hətta bəzi yerlərdə sallanmış vəziyyətdədir. Q3 və Q4 kvadratları, yəni akropolun cənub kənar xətti boyu qərbdən-şərqə doğru uzanan divarın içəri tərəfi 0,7 metr hündürlükdə qalmışdır. Bu isə qərbdən şərqə doğru hələlik 5-6 metr uzunluqda davam edir. İri daşlardan hörülmüş divarın qarşısında və dibi təmizlənərkən yanğın izi, daha doğrusu yanmış ağac hissələri müşahidə edilir. Buradan da çoxlu heyvan, qaramal sümükləri aşkar edilmişdir. Bununla yanaşı, qara, qonur, qırmızı rəngli saxsı qab qırıqlarına da tez-tez təsadüf olunmuşdur. Bu cür tapıntılar Q4, Q5-Q6 kvadratlarında da eyni dərəcədə aşkara çıxarılır.

Q4 kvadratında 0,8 metr dərinlikdən bir ədəd saxsı dibək dəstəsinə təsadüf edilmişdir (tablo 59-7). Onun yuxarı hissəsi yastı və deşikdir. Gövdəsinin en kəsiyi dairəvi, aşağı hissəsi at ayağı formasında olub, hər hansı bir ədviyyat və bu kimi şeyləri qabda əzmək üçün çox əlverişlidir. Bu cür əşyaya Qırlartəpə yaxınlığındakı qəbiristanda saxsı qab içərisindən iki ədəd tapılmışdır. Bunların bilavasitə qabın içərisindən tapılması, onun vəziyyətinin aydınlaşdırılmasına xeyli kömək edir. Bundan başqa həmin tapıntıların həm qəbirdən, həm də yaşayış yerindən aşkar edilməsi qəbiristanla yaşayış yerinin eyni dövrə aidiyyatı və bilavasitə onun burada yaşamış sakinlərə məxsusiyyəti məsələsində də tam aydınlıq yaradır. Məhz burada 0,8-1,2 metr dərinlikdə bu və ya digər tapıntılar eramızdan əvvəl I əsrləri üçün səciyyə daşıyan materiallarla da zəngin olduğunu bildirir. Belə ki, Q5 kvadratında sarımtıl, ağzının kənarından dik qaldırılmış qulpu olan və qulpun üstü boyu gil düyməciklərə malik saxsı cam (tablo 59-1), ağzı süzgəcli və novçalı qab qırıqlarının tapılması da qeyd etdiyimiz dövrü səciyyələndirən nümunələrdir. Ümumiyyətlə yaşayış yerlərindən tapılan qablar və qırıqları ilə onun kənarında yerləşən qəbiristanda tapılan materiallar çox hallarda əksərən uyğun gəlir. Deməli yaşayış yerinin qəbiristanı elə onun lap yaxınlığında yerləşmişdir. Qəbir abidələrinin avadanlığı və yaşayış yerinin materiallarına görə sakinlərin əkinçi, maldar, sənətkar, həm də hərbi işlərdə, ovçuluqda mahir olduqlarını göstərir.

Təpənin cənub kənarı boyu uzanan divarın içəri tərəfindən şərq cənub-şimal üzrə dönən yerə qədər aşkarlanması başa çatdırılmışdır. Yəni YJZ kvadratlarında divarlar içəridən 0,7-0,8 metr dərinliyə qədər qalmışdır. Bu hissədə daş hasarın içərisi bir qədər boşdur. Bura tökmə daş torpaq qarışığından ibarətdir. Şərq tərəfdə şimal-cənub istiqaməti üzrə olan hörgüsünün üstü və ətrafı qazılıb açılarkən 1 metr hündürlüyü divar qalınlığı 1,4-1,6 enində isə ortada qapı yerini xatırladan tikinti qalığı üzə çıxmışdır. Bu daş divar arasında qapı yerinin altında divarın içərisinə doğru 2 metrdən çox yanıb kömürləşmiş ağac izi qalır. Əsrlərdən bəri daş divar arasında basdırılaraq bəzi yerlərdə hündürdə, bəzi yerdə isə alçaqda görülən kömürləşmiş şəkildə qalmışdır. Bu çox güman ki, qapının altına doğru uzanan və bir ucu divarın içərisində yerləşən kətilbəndin qalığıdır. Hiss olunur ki, böyük yanğın nəticəsində daş divar arasındakı şəkildə yanıq kömürləşmiş hala düşmüşdür.

Ümumiyyətlə Şirvan zonasında hal hazırda binalar əsasən daş və ağacla tikilir. Daş divarlardan hər 0,4-0,5 metr daş hörgünün arasında dördgünc yonulmuş möhkəm ağacdan kətilbəndlər qoyulmuşdur. Divarın kənarlarında paralel uzanan iki kətil qısa ağacla bir-birinə möhkəm tikilir və arası xırda daşla doldurulur. Sonra isə yenidən daş cərgəsi davam edir. Bu da binanın möhkəmliyini, hər hansı bir hadisədən, məsələn zəlzələdən uçmamasını təmin edir. Çox güman ki, hələ eramızın əvvəllərindən burada bu tikinti üsulundan geniş istifadə edilmişdir. Ola bilsin ki, antik dövrdə bu ərazidə zəlzələ hadisələri də baş vermiş və yerli əhali bütün bunları nəzərə almışdır.

Ümumiyyətlə palçıq vurulmaqla çəkilən daş divarların müəyyən qatlardan arasında ağac kətil qoyulmasa tezliklə uçub sıradan çıxır, odur ki, daş divarın davamlılığını təmin etmək məqsədi ilə hələ antik dövrdə bu ərazidə sakinlərin divar arasında möhkəmlədici vasitələrdən (ağac, kəlilbəndlərdən) istifadə etməsi fikri yaranmışdır. Beləliklə aşkar olunan faktik material kətilbəndli daş hörgülərin eləcə də yonulmuş əhəng daşı ilə tikintinin eramızın əvvəlindən mövcud olduğunu sübut edir. Bununla yanaşı akropoldakı tikintilərdəki müşahidələrə görə tağlı hörgülərin də olduğu nəzərə çarpmışdır. Beləliklə, akropolda xeyli memarlıq təcrübəsindən istifadə edildiyi gözümüzün qabağındadır. Bunları daha qabarıq nəzərə çarpdırmaq üçün ayrı-ayrı qazıntı yerlərinin və tikinti qalıqlarının təsvirini yeri gəldikcə vermək məqsədəuyğundur.

Yaşayış yerinin cənub hissəsində - J3 kvadratında qərb istiqaməti üzrə uzanan divarda keçid, yaxud qapı yeri müəyyənləşdirilmişdir (plana bax). Daş divarı kəsən keçid, yaxud cənuba doğru çıxış yolu təmizlənərkən. Çox böyük kətil və ya nal, yaxud qapıaltı ağac döşəmənin yanıb kömürləşmiş hissəsi tapıldı. Ağacın kömürünə və müşahidələrimizə görə palıd olduğunu söyləmək olar.

Qazıntının mərkəzinə doğru, həmin J3 kvadratı istiqamətində - J4 kvadratından 0,8 metr dərinlikdə çoxlu heyvan sümükləri ilə yanaşı, bir xırdabuynuzlu heyvan aşığı tapılmışdır. Kiçik və dar, uzunsov davar aşığının

keçiyə aid olduğu bilinir. Onun üstündən deşmək istəmişlər, lakin yarımçıq qalmışdır. Ümumiyyətlə istər bu cür deşilərək oyuncaq və ya bəzək kimi istifadə edilən, istərsə də sadə aşıqlar Nüydi, Uzunboylar torpaq qəbirlərindən, eləcə də Azərbaycanın digər antik dövr abidələrindən kifayət qədər məlumdur. Bununla birlikdə digər heyvan sümükləri, kömür, saxsı qab parçaları, daş alətlər və s. çox tapılır. İri təsərrüfat küplərinin sınıqlarına da tez-tez rast gəlinir.

Antik dövrün nadir tikintilərindən olan bu abidələrin uçub tökülmüş daşları arasında və altında ara-sıra dən daşlarına, gur yanğın izinə, yanğın nəticəsində rəngi qızarıb kərpic halına düşmüş torpaq suvaq parçalarına, kövrəkləşib əhəng halına düşmüş daşlara da addımbaşı təsadüf olunur. Bunlar əsasən J4-J5, Z4-Z5 kvadratlarında daha kəskin nəzərə çarpır. Daşların arasında döşəməyə yaxın yerdə yoğun ağacların şərq-qərb istiqaməti üzrə kömür vəziyyətində izi qalmışdır. Bunlar çox güman ki, pərdi və tirin, yaxud da dirək basdırmaların yanıb düşmüş izidir. Yanğın izləri divar diblərinə yaxın yerlərdə daha çox müşahidə edilir.

J5 kvadratında təpənin uzununa perpendikulyar dayanan daş hörgü aşkara çıxarılmışdır. Bu daş hörgünün şimal divara bitişdiyi küncdə yanğından qızarmış suvaq, kül və kömür qatı üzə çıxmışdır ki, orada ocaq yeri aydın bilinir. Ocaq yeri olan hissədə uzunsov daşların baş-başa çatıldığı da müşahidə edilmişdir. Bu isə evlərdə divarın dibində və küncündə bacalıq təkmil ocaqların, binaları qızdıran qurğuların varlığı aydın təsəvvür yaradır.

Qazıntı sahəsinin cənub-şərq küncünə yaxın, Z3-İ3 kvadratlarında kənar hörgünün içəri tərəfində çoxlu daş uçuntusu vardır. Hiss olunur ki, bura hər hansı damın içərisi-boşluq imiş, üst divarlar uçub həmin boşluqları doldurmuşdur, daşlar çıxarılarkən onların altda qalan üzü və ya bütöv hər tərəfi ağ çəng atmış şəkildə idi. Bu da onların vaxtı ilə uçub tökülmüş boşluqda xarici mühitin təsirindən azad olduğunu və hava keçmədiyini bildirir.

Yuxarıda qeyd etmişdik ki, təpənin orta hissələrində, daha doğrusu çökmüş yerlərdə uzunsov daşların cərgə ilə bir-birinə yapışıb töküntüsü onların tağlı tikintidən qopduğu ehtimalını doğruldur. Kənar divarların tikintisinə diqqətlə fikir verdikdə elə bil onlar yuxarı qalxdıqca içəriyə doğru maililəşir. Bu da tikintinin üstünün günbəzvari olduğunu xatırladır. Belə qurulmuş təpənin qərb kənarından 8 metr şərqdən başlayaraq daha qabarıq nəzərə çarpır ki, məhz təpənin üstü də həmin məsafədən başlayaraq qərb kənara qədər çökülmüşdür. Təpənin üstünün qabırğavari hündür olması yerli və yaşlı adamların yaddaşında qalıbdır.

İ4 kvadratında təpənin şimal-şərq küncündə sarımtıl qəhvəyi narın torpaq, kül, narın torpaq qatı aşkar edilmişdir. Burada şimal və şərq divarlarının əmələ gətirdiyi küncdə iri təsərrüfat küpünün sınıqları aşkar edilmişdir. Həmin küpün içərisindən çıxan narın qəhvəyi torpaq ola bilsin ki, taxıl və ya un kimi ərzaq məhsulunun çürüntüsüdür. Şərq divarının cənub-şərq küncündə isə yanıb kömürləşmiş yoğun ağac kötüyü qalmışdır. Artıq burada divarların qalmış üstünə nisbətən 1,3 metr çatır. Burada ümumiyyətlə qazıntı divarların dibindən sonuna

qədər işlənib qurtardığından hələlik tam aydınlıq əldə edə bilmişik. Bu fikri bütün qazıntı sahəsinə də şamil etmək olar. Çünki böyük bir kompleksdən ibarət olan bu binalar tam açılmamış, əksər yerləri sirli olaraq qalır ki, onu qazıntı başa çatdıqdan, axıradək qazdıqdan sonra aydınlaşdırmaq mümkündür. Lakin bununla belə çox yerlərdə divarlar açılmış, dördkünc otaqlar, qapı yeri, ocaq yerləri, onların ölçüləri aydınlaşdırılmamışdır. Beləliklə qədim Qəbələ ilə Şamaxı şəhərlərini birləşdirən ticarət yolu üstündə akropol, nekropol və şəhərgah kompleksindən ibarət böyük bir yaşayış məskəninin varlığı müəyyənləşdirilmişdir. Tikinti qalıqları altında, sarımtıl torpaq qatında eramızın I-II əsrləri üçün səciyyəvi saxsı qab qırıqları çoxdur. Bunlar sarımtıl rəngli enliboğaz, ağzı üçgül, batıqlarında yapma düyməciyi və ya gözcüyü olan saxsı qab nümunələrindən ibarətdir. Bundan əlavə lentşəkilli qulplar, qulpların üstündə üç cızıqla tillərə ayrılmış nümunələr tapılmışdır ki, bunlar da yeni eradan əvvəl I və yeni eranın I əsrləri üçün səciyyəvidir. Qırıq materiallarla yanaşı bütöv qalmış maddi-mədəniyyət nümunələri də əldə edilmişdir. Z4 və İ4 kvadratları arasında bir ədəd sırğa və ya üzüyü xatırladan mis məftildən olan bir bəzək əşyası da tapılmışdır. Bu bəzək əşyasının daha doğrusu sırğanın ucları bir qədər aralı hazırlanmışdır. O rombvari formada olub yaxşı qalmışdır. Ümumiyyətlə abidə hündür təpə üzərində yerləşdiyindən və burada rütubətin qalması üçün şərait olmadığından tez çürüyə və ya korroziyaya uğraya bilən materiallar uzun müddət yaxşı qalmışdır.

Akropolun şərq kənarında, daha doğrusu onu hasarlayan əsas divarın xaricində də ümumi kompleksə uyğun olaraq qazıntı davam etdirilmişdir. Bura təpənin şərq qurtaracağıdır. Daş divarların arası qazılıb açılarkən yenə də iri küp qırıqları, xırda saxsı parçaları, dən daşı və heyvan sümüklərinə təsadüf edilirdi. Bu hissələr əsasən İ3-İ4 kvadratlarını, habelə K3-K4-K5 kvadratlarını əhatə edir. Təpənin şimal-şərq tinindən aşağıya doğru enən yamacın üst, çayırlı torpaq qatı götürülərkən qeyd etdiyimiz kvadratlardan xaricdə təqribən L4 kvadratının yerinə düşən hissədən tam üstdən yaşıl şirli qab qırığı və bir ədəd mis pul tapıldı (tablo 59-5). Pul haqqında yuxarıda məlumat verilmişdir.

Təpənin şərq qurtaracağında bir növ astananı xatırladan hissədə K3-K4-İ3-İ4 kvadratlarında qazıntı zamanı kobud şəkildə yonulmuş daşlarla hörülmüş divar qalıqları üzə çıxdı. Divar şimal-cənub xətti üzrə uzanaraq təpənin daralan şərq ucunun hər iki tərəfinə çatır və qövs şəkilində qıraqlardan dönür. Buradan içəriyə doğru qapı yeri vardır (əvvəldə qeyd etdiyimiz qapının bayır tərəfdən olan hissəsi).

Ümumiyyətlə, burada təpənin şərqə doğru endirimi bir növ pilləli şəkildədir. Bir qədər aşkar etdikdən sonra daha bir yastança ondan da aşağıda yenisi vardır. Lakin bunlar təbii relyef də ola bilər. Hələlik qazılmadan, yoxlama işləri aparmadan qəti fikir söyləmək çətindir. Şübhəsiz gələcəkdə bunlar yoxlanıb dəqiqləşdiriləcəkdir. Qazıntıda hələ qəti fikrə gəlinməmişdirsə də onun mühüm tikintilərə malik olan yaşayış məntəqəsindən, daha doğrusu yuxarıda qeyd etdiyimiz kimi böyük yaşayış məntəqəsinin akropol hissəsi olduğu ehtimal edilir.

Qırlartəpədə aparılmış arxeoloji qazıntı zamanı tikintinin dövrünü səciyyələndirən müxtəlif maddi-mədəniyyət qalıqları da kifayət qədər aşkar edilmişdir. Bu maddi-mədəniyyət nümunələrinin bir qayda olaraq əksəriyyətini saxsı materialı təşkil edir. Bundan əlavə daş, metal, sümük, kömür və s. qalıqları da aşkar edilmişdir.

Onların arasında bir ədəd nisbətən iri gövdəli qab diqqəti cəlb edir. Qonur (qaramtıl) rəngdə olan bu qab enli ağıza və gen gövdəyə malikdir. Saxsının tərkibində xırda qum qarışığı vardır. Qabın boğazı da enli ohıb, ağzının qırağı cüzi kənara əyilmiş vəziyyətdədir. Onun qalmış hissəsində lentşəkilli qulpu, ağzının kənarı ilə çiyninə yapışdırılmışdır. Qulpun üstü boyu batıqlardan ibarət bəzəyi vardır. Boğazı bayırdan uzunsov seyrək batıqlarla çevrələnmişdir. Qabın üzəri yüngülcə sığallanmışdır. Bu qab dəmir dövrünün əvvəllərinə aid nümunələri xatırladır. Lakin o formaca belə olsa da, eramızdan əvvəllərə aiddir (s.q. № 74, tablo 60-2).

Çəhrayı rəngli saxsı küpə parçasının (s.q. № 75) boğazı çəp batıqlarla haşiyələnmişdir, ağzının kənarı xaricə doğru maillidir.

Saxsı qab və ya qapaq qulpları (s.q. № 76) qırmızımtıl rəngdə olub, qövsvari, müxtəlif ölçüdədir. Onlar əsasən küpə formalı qabların ağzı kənarından dik fəzaya doğru qaldırılmış formada olur. Bu cür qulplar saxsı qapaqlarının üstündə yapışdırılır. Bu cür əlamətlər Qırlartəpə yaxınlığındakı qəbiristandan tapılan saxsı qablarda tez-tez müşahidə edilir.

**Dən daşı.** Bozumtul qara rəngli dən daşının forması qayığı xatırladır. Bu forma qədim eneolit-tunc dövrlərində istifadə edilən dən daşlarından fərqlənmir. Bu daş alətin işlək hissəsi çökək və çopurdur. O ortadan enli, uclardan isə dardır. Əks tərəfi qabarıqdır. Qranit daşını xatırladır. Onun çox işləndiyi hiss olunur (tablo 59-13).

Digər bir daş alət dəyirmi şəkildədir. Bu daş alət qalın olub, bir tərəzı cüzi qabarıq, o biri üzü isə nisbətən çökəkdir. Çökək hissədə sürtgü işi getdiyindən hamarlanmışdır. Daşın kənarından bir qədər hissəsi də yastıdır. Elə bil həmin hissə yerə qoyulmuş, daş bir kənarı üstə dik dayanmışdır və onun işlək hissəsindən bu vəziyyətdə istifadə edilmişdir. Onun kənarından azca sınmışdır. Çopur daşdan ibarət olan bu daş alətin yanğına düşdüyü hiss olunur. Daş qara-boz rəngə çalır (tablo 59-12). Dən daşlarından başqa sürtgü, itiləyici vasitəsi kimi istifadə edilmiş daş alətlərə də çox təsadüf edilir. Belə daşlardan biri də çəhrayı rəngdə olub, işlənib hamarlanmışdır (tablo 59-11). Digər bir daş isə ortadan deşilərək təkər kimi, yaxud hər hansı bir dəzgahda istifadə edildiyi güman edilir. Ağımtıl əhəng daşından ibarət olan bu daşın kənarları qopardılıb dəyirmi formaya salınmışdır (tablo 59-6). Ümumiyyətlə burada daşişləmə sənətinin inkişafını bildirən, onu əyani şəkildə əks etdirən əlamətlər çoxdur.

Sümük məmulatı. Qırlartəpədən xeyli sümük məmulatı da əldə edilmişdir. Bunlar əsasən buynuzdan düzəldilmiş və biz kimi istifadə edilmiş alətlərdən və

yenə də sümükdən kəsilərək düzəldilmiş müxtəlif alət və bəzək şeylərindən ibarətdir. Maral və cüyür buynuzundan daha çox istifadə olunmuşdur. Bunlardan biri daha maraqlıdır. Üç şaxədən ibarət olan kiçik cüyür buynuzundan sənətkarlıqda istifadə edilmişdir. Sümük tapıntıları içərisində bir ədəd üzüyü xatırladan barmaqcıl da vardır. Bu əşya hər hansı bir lülə sümüyündən iti alətlə çəp kəsilərək üzük formasına salınmışdır. Onun üstündə bir növ qaşı xatırladan hissəsində kiçik dairə, dairənin ortasında isə nöqtə şəkilli deşiyi yardır. At dırnağını xatırladan bu əşya yaxşı hamarlanmışdır. Bu sümük üzüyü xatırladan əşyadan ox atmaqda istifadə olunduğu ehtimal edilir. Ondan kamana tarma çəkilmiş ipin və ya köşənin dartılması zamanı barmağı kəsməsin deyə istifadə edildiyi güman olunur. Yaxınlıqdakı nekropoldan və bilavasitə akropoldan kaman və ox ucları da tapılmışdır ki, bu da həmin alətdən göstərilən məqsəd üçün istifadəni söyləmək fikrini bir daha asanlaşdırır.

Ümumiyyətlə Qırlartəpədə tapılmış müxtəlif maddi-mədəniyyət qalıqları burada daşişləmə, dulusçuluq, sümükişləmə, metalişləmə, ağac işləri və bunların da xırda və incə sahələrinin inkişafı haqqında aydın təsəvvür yaradır.

**1985-ci il**

Ekspedisiya iyulun 2-dən sentyabrın 15-nə kimi Ağsu və İsmayıllı rayonları ərazisində işləmişdir[33]. Həmin müddətdə əsas qazıntı yeri olan Qırlartəpədə əvvəldən başladığımız qazıntını davam etdirmişik (tablo 61-62). Bununla yanaşı, Ağsu şəhəri yaxınlığında Xaraba şəhər yerində kəşfiyyat qazıntısı qoyulmuşdur.

...Qırlartəpədə kompleks tikinti qalıqlarının içridən bəzi xüsusiyyətləri aydınlaşdırılsa da, hasar divarının xarici tərəfi qazılıb açılmamışdır. Bu mövsümdə ekspedisiya abidənin həm də ətraf divarlarının xarici sərhədlərini və onun qalınlığını müəyyən etməyə çalışmışdır. Qeyd etməliyik ki, bu böyük tikintinin yerləşdiyi təpənin ətrafları dik yamaclardan ibarətdir. Ona görə də bayırdan qazmaq kompleksin tezliklə uçub dağılmasına əvvəlki vəziyyətinin pozulmasına səbəb ola bilərdi. Divarın uçmasının qarşısını almaq məqsədi ilə bütün divar boyu xarici səthinin hər yerdə açılmasını hələlik təxirə salmışıq. Lakin onun qalınlığını aydınlaşdırmaq üçün şimal divarın xaricində V7Q7 kvadratlarında qazıntını davam etdirməklə bayır tərəfini müəyyənləşdirə bildik. Həmin kvadratlarda 0,7-1 metr dərinliyə qədər qazılaraq demək olar ki, tam bünövrəyə qədər endirilmişdir. Aydın olmuşdur ki, yan divarın bu hissədə qalınlığı 3,1 metrdir. Bu da həmin hörgünün hasar və ya ətraf müdafiə hörgüsü olduğuna şübhə doğurmur. Cənub divarı

---

[33] Ekspedisiya bu tərkibdə işləmişdir: rəis Fazill Osmanov (2.VII-15.IX.85), kiçik elmi işçi Qafar Cəbiyev (2.VII-15.IX.85), baş elmi işçi Fərhad İbrahimov (1.VIII-30.VII1.85), kiçik elmi işçi Sevda Hüseynova (1.VIII-30.VIII.85), kiçik elmi işçi Ayna Əlizadə (10.VII-10.VHI.85), baş laborant Tofiq Mehdiyev (I VIII-30.VIII.85), rəssam Cəbrayıl İsgəndərov (15.VIII-30.VIII.85). memar Qalib Xoşginabi (15.VIII-15.IX.85).

xaricində də qazıntı işi aparılaraq bu hissədə divarın qalınlığını müəyyən etmək mümkün olmuşdur. Burada xüsusilə cənuba doğru açılan baş doqqazın (darvaza) ətrafı təmizlənmiş və xaricdən sərhəddi müəyyənləşdirilmişdir. Əsas qapı kimi qeyd edilən bu hissədə divarın qalınlığı 3,5 metrdir. Qapının eni isə 2,4 metrdir. Qapı yerinin 0,6 metr hündürlüyü qalmışdır. Burada qapı üstündə qoyulmuş qalın ağac-qapıbaşı və ya qapıüstü ağaclarının yanıb kömürləşmiş izi qalmışdır. Kömürləşmiş ağac qalıqları iki ədəd olub, biri qapının girəcəyində yəni xaricə doğru, digəri isə içəriyə doğru olan kənarlarında qoyulmuşdur. Qalmış ağac kömürü qat-qat və coddur. Bu da yoğun palıd ağacının qalığı olduğunu bildirir. Bu yaşayış yerinin ətrafı və yaxınlıqlarında meşəliklər, xüsusilə palıdlıqlar çoxdur. Ona görə də tikinti damının və qapı üzərinə döşənmiş ağaclar, eləcə də digər tikinti materialı içərisində palıd ağacları üstünlük təşkil etmişdir.

Cənub doqqazı yerinin şərq tərəfindən 0,8 metr enində və 0,9 metr uzunluğunda divar içəriyə doğru artır (plan). İçəriyə doğru uzanan bu hissənin davamı yoxdur. Ola bilsin ki, bu elə 0,9-1 metr uzunluqda qapı girəcəyində hər hansı bir çıxıntı, künc təşkil etmişdir. Burada əmələ gələn küncdən şərqə doğru əsas divara qədər 6 metrlik məsafədə şimala doğru uzanan divar başlanır. Şərq tərəfdən şimal-cənub istiqaməti üzrə uzanan divarın içəridən uzunluğu 7 metrdir. Onun 1,4 metri divarın ortasında qapı yerinə düşür. Burada da divarların qalmış hündürlüyü 1 metrə qədərdir. Bu qapı yerində də qapıüstü ağacın olduğu qalmış kömür izindən məlum olur. Tikinti kompleksinin şərq ucunda ümumi tikintinin kəlləsini tamamlayan və qeyd edilən qapının şərqə çıxan hissəsində daha bir dördkünc yer aşkar olunmuşdur. Buranın şimal-cənub üzrə uzunluğu 7,45 metr, eni isə 5,2 metrdir. Bu da yenə şimal-cənub üzrə olmaqla ortadan arakəsmə divarla iki hissəyə bölünmüşdür. Onun şərq yarısının eni 2,9 metrdir. Ümumiyyətlə göstərilən ölçülərin hamısı içridən-içəriyədir. Həmin yerdən çürüntülü torpaq, saxsı qırıqları, sapand daşı hesab etdiyimiz yumru daşlardan xeyli miqdarda əldə edilmişdir. Qeyd edək ki, bu cür daşlar qərb kəllələrdə aşkar edilmiş dördkünc tikintidən və ya bürclərin içərisindən də çoxlu tapılmışdır. Qazıntının və ya tikinti kompleksinin mərkəzi hissəsində həmin daşların anbarı aşkar olunmuşdur. Qapı yerindən bir ədəd zərif düzəldilmiş və işlənib nazilmiş dən daşı hissəsi əldə edilmişdir. Bu dən daşı yarısının ucu işlək tərəfindən əks istiqaməti üzrə olmaqla bir qədər maili düzəldilmişdir ki, bu da həmin üst sürtəc daşın işlənməsi zamanı əli yerə və alt daşına toxunub zədələnməkdən mühafizə etməkdən ötrüdür.

Abidənin şərq ucundakı böyük düzbucaq formalı tikintinin içərisi təmizlənərkən buradan içəriyə doğru olan qapının yanından bir iri küp ağzının qırığı tapılmışdır. Küp qırığı, daha doğrusu onun ağzı kənarındakı səthində kiçik ovalşəkilli sxematik insan təsvirli möhür yeri vardır. Qırlartəpədə möhür izinə ilk dəfə rast gəlinir.

Divarların xaricindən tikintinin vəziyyətini aydınlaşdırmaq məqsədilə aparılmış tədqiqat zamanı daha bir xüsusiyyət nəzərə çarpmışdır. E7 kvadratında

kənar divarın bayır tərəfi təmizlənərəkən 1,5 metr dərinlikdə, şərq-qərb istiqaməti üzrə uzanan şimal hasara perpendikulyar olaraq daha bir divar xətti aşkar edilmişdir. Bu isə ətraf hasara dayaq kimi bir növ korturforsu xatırladır. Bu əsas divarı möhkəmləndirmək üçündür. Onun 2 metr uzunluqda davam etdiyi aydınlaşdırılmışdır. Bu dayaq və ya söykənən divar xəttinin yalnız bir üzü açılmışdır. Onun tam vəzifəsi bir qədər qaranlıqdır. Şimala doğru çıxış yolu ilə də bağlı ola bilər. Belə tikinti üsulu öyrəndiyimiz dövrdə bizə bəlli deyil. Əlbəttə, antik dövr üçün belə tikinti xüsusiyyəti maraqlı faktdır. Qeyd etdiyimiz kvadratdan həmin divar qalığı ətrafından içərisi qırmızı, üzü qonur rəngli hisdən qaralmış saxsı qab qırıqları tapılmışdır.

Qalaça tipli yaşayış yerinin içərisində xeyli iş görülmüşdür. Şimal-qərb küncdəki (V6, B6 kvadratları) dördkünc otağa oxşar divarların arasının keçən ildən açılmış davamı qazılarkən şimala doğru içəridən sahəsinin 1 metr artdığı aydınlaşdı. Bundan sonra divarın içərisi görünür. Bu kəllədəki otağın və ya bürcün kənar divarı ümumi şərq-qərb üzrə olan böyük divarın içərisinə girməklə bir qədər kənara çıxır. Bu da qalaçanın şimal-qərb kənarında əsas divarın kəlləsini və ya tinini tutur. Bu növ kəllə-baş otağı xatırladır. Deməli, kəllədəki bu dördkünc otaq ümumi yan divarların içərisinə girməklə kəllələrdən küncləri tamamlayır. Artan uzunluqlar 1,25 metr olmaqla ölçüsü 4,25x4,25 metrdir (plan). Otaq və ya bürcün içəridən divarın üstünədək 0,7 metr qalmışdır. Bu otağın bürc olmasını söyləməyə əsas verən amillərdən biri də möhkəm mühasirə səddini təşkil edən divarların künclərində dördkünc daşla tikilmiş bürcəoxşar yerlərdən ətraf yerləri yaxşı müşahidə etmək və lazım gəldikdə təhlükəyə müqavimət göstərmək də çox əlverişlidir. Şimal-qərb küncdəki dördkünc tikintinin içərisini çox çətinliklə qazmaq olur. Vaxtilə burada o qədər güclü yanğın olmuşdur ki, torpaq, suvaq və daşlar əhəng, kərpic bərkliyi qədər möhkəmlənmişdir. Yanğın içərisində hətta saxsı dolçalar da kül və başqa çıxarlar arasında bərkiyib qalmışdır. Otağın döşəməsi o qədər közərmişdir ki, kürə divarlarını xatırladır. Lakin burada ayrı-ayrı tikinti dövrləri və ya bir-birindən daha çox ayrılan dövrlər vardır ki, bunların tam aydınlaşdırılması dərin qatlara düşdükdən sonra mümkün olacaqdır....

**Xaraba şəhər.** Bu abidə Ağsu rayonu ərazisində rayon mərkəzindən 7 km cənubda Ülgüc, Ərəbuşağı, Curuqlu və Ağarx kəndləri arasında yerləşməklə 34 hektar sahəyə malikdir. Abidənin ətrafında qəbristanlıq var. Bunlardan ikisi şimal tərəfdə, biri qərb, başqa biri isə şərq tərəfdə yerləşir. Ətrafı dərin xəndək və torpaq səddlə əhatələnib. Ağsuçay abidənin qərb tərəfi boyunca axıb keçir.

1985-ci ilin tədqiqatları zamanı Xaraba şəhərdə iki yerdə şurf - yoxlama qazıntısı qoyulmuşdur. Məqsəd abidənin stratiqrafiyasını müəyyən etməkdən ibarət idi.

**Birinci şurf.** 5x2 metr sahədə qazılmışdır. Bu şəhərin yerüstü əlamətlərindən nisbətən gur həyat olduğu güman edilən şimali-qərb hissədə yerləşir. Orada ikinci təpcəkdən başlayaraq şirli-şirsiz saxsı məmulatı nümunələri

üzə çıxmağa başladı. Tapıntılar içərisində fayans və farfor qab qırıqlarına da tez-tez təsadüf edilir (tablo 63). İkinci təpcəkdən bir ədəd mis pul çıxdı. Üçüncü təpcək qazılarkən, yəni daha bir təpcək dərinə düşdükdə orada fayans qab qırıqları ilə bərabər yerli istehsal nümunələri olan şirli-şirsiz qab nümunələri üzə çıxdı (tablo 64). Bunlar əsasən anqob olmayan saya qablardan və anqob naxışlı qablardan ibarətdir. Bu cür qab nümunələri Bakı və Qəbələnin üst qatlarından çıxır. Tapıntılar içərisində çoxlu metal əşya var. Bunlar əsasən dəmirdən hazırlanmış nal, mismar, bıçaq tiyəsi və çıxardan ibarətdir (tablo 65). Üzəri dişli dəmir halqa da məhz həmin materiallarla eyni səviyyədən tapılıb. Müxtəlif heyvan sümüklərinin bəziləri işlənmişdir (tablo 64). Belə ki, müəyyən məmulat hazırlanmaq üçün ayrı-ayrı sümüklər bir neçə yerdən mişarla kəsilmişdir.

Üçüncü təpcək qazılarkən şurfun şimal tərəfində divar qalıqları üzə çıxdı. Bunlar çaydaşından səliqə ilə yonulmuş və palçıq məhlulundan istifadə edilməklə hörülmüşdür. Adətən tikintidə istifadə olunan daşların üç tərəfi yonulmuş, içəri tərəfinə çəkic vurulmamışdır. Dördüncü təpcək qazılarkən tikintinin bünövrəsinə çatdıq. Divarda ümumilikdə dörd cərgə daş qalıb. Üstü uçub gedib. Daş divarın bünövrəsinə yaxın səviyyədə torpaq döşəmə qeydə aldıq. Bəzi hissələrdə döşəmədə iri ölçülü çiy kərpiclərdən istifadə olunduğu görünür. Şurfun divardan cənub yan hissədə quyu yerinə düşdük. Oradan yaxşı qalmış fayans kasa parçası (tablo 63) və bəzəkli şüşə qab qırıqları aşkar olundu.

Beşinci təpcək qazılarkən artıq dərinlik 1,4 metrə çatmışdı. Bu hissədə şurfun cənub tərəfində qazıntını davam etdirdik. Divarlar açıldığından şimalda qazıntını dayandırdıq. Qazıntı davam edən yerdə quyu yeri təmizlədik. Oradan daha bir ədəd mis pul, bir ədəd mis oymaq, çoxlu dəmir nal, mismar və metal çıxarlar tapıldı. Tapıntılar içərisində yenə də fayans məmulatı çoxluq təşkil edirdi (tablo 63). Buradan bir ədəd şirsiz nisbətən salamat qalmış çıraq da əldə edilmişdir. Birinci şurf xeyli material versə də abidənin stratiqrafiyasını təyin etməyə imkan vermədi. Odur ki, başqa yerdə, birinci şurfdan 70 metr qərb tərəfdə ikinci şurf qazmalı olduq.

**İkinci şurf.** Bu birinciyə nisbətən kiçik sahədən ibarət idi: 2x1 metr. Burada üç təpcək dərinə düşdükdən sonra aydın oldu ki, vaxtı ilə zibillik olmuşdur. Çoxlu daş qırığı, müxtəlif məişət tullantıları tökülüb. Burada da stratiqrafiyanı müəyyən etmək mümkün olmadı. Bununla belə, həmin şurfdan tapılmış üç ədəd mis pul, bir ədəd yaxşı vəziyyətdə qalmış dayaz şirli kasa və bir ədəd kiçik piyalə tipli şirli qab parçası (anqob astarsız) maraq doğurur.

Xaraba şəhərdən tapılmış pullar:

| № | Tapıldığı yer | Kimin adından zərb edilib | Nominal | Zərb yeri | Ölçü (mm) | Çəki (q) |
|---|---|---|---|---|---|---|
| 1 | Xaraba şəhər | adsız | mis | Şamaxı-XV əsr | 14x16 | 2,6 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 2 | Xaraba şəhər | adsız | mis | 1018-ci il | 16x17 | 2,1 |
| 3 | Xaraba şəhər | adsız | mis | İrəvan-XVIII əsr | 17x18 | 8,5 |
| 4 | Xaraba şəhər | adsız | mis | Şamaxı-1216 | 2,4x17 | 4,1 |
| 5 | Xaraba şəhər | adsız | mis | XVIII əsr | 2,7x15 | 8,5 |
| 6 | Xaraba şəhər | adsız | mis | Yazısı pozulmuşdur. | | |

Xaraba şəhərdən tapılmış çoxsaylı maddi-mədəniyyət nümunələri, o cümlədən numizmatik materiallar hələlik orada XVII-XVIII əsrlərdə intensiv şəhər həyatı olduğunu deməyə əsas verir. Lakin orada həyat nə vaxtdan başlanıb sualı hələlik açıq qalır. Bunu gələcək tədqiqatlar aydınlaşdıracaqdır.

**1986-cı il**

Ekspedisiya 1986-cı il iyulun 1-dən sentyabrın 30-dək Ağsu rayonu ərazisində arxeoloji qazıntı işləri aparılmışdır[34]. Qazıntı işləri əvvəlki illərdə başladığımız Qırlar kəndi yaxınlığındakı qədim yaşayış yerində davam etdirilmişdir (tablo 67). İlk günlərdə Bakıda, Ağsu rayonunda ekspedisiyanın təchizatı və iş şəraitini sahmana salmaqla məşğul olmuşdur. Eyni zamanda qazıntı işlərinə də başlanmışdır. Keçən illərdə aşkarlanıb üzə çıxarılmış daş divarların üstü ilə boyu yağan yağış və qardan sonra torpağı boşalıb ovuntu halına düşmüş (quzulaşmış) və nəticədə bəzi yerlər uçub tökülmüşdür. İlk iş günlərində əvvəlki qazıntı vəziyyətini bərpa etmək üçün ot-alaq basmış sahəni təmizləmək, divarlardan yuyulub axmış torpağı-daşı çıxarıb kənara daşımaqla məşğul olduq.

Qazıntı çuxurlarına axmış daş-torpaq kürünüb təmizlənən zaman bəzi tapıntılara da rast gəlindi. Keçən ildən V3 kvadratında açılmış təsərrüfat küpü istiqamətindən (qərb küncdə) ocaq yeri yaxınlığından bir ədəd saxsıdan iy başlığı və ya tağalaq tapılmışdır. Rombşəkilli toxuculuq alətinin ikitərəfli deşiyi vardır. İkitərəfli deşik hissənin kənarlarından başlayaraq mərkəzdə iti çıxıntı şəkilli yerinə qədər bərabər məsafəli 7 batıq xətt çəkilmişdir. Bu iy başlığının bir tərəfi odda yanıb qaralmışdır. Bundan başqa yaşayış yerinin mərkəzində saxladığımız kiçik təpəciyi (tumbanı) dağıtdıqda qara torpağın içərisindən (Q4 kvadratında) bir ədəd dairəvi sümük düyməcik tapılmışdır. Onun bir tərəfi nisbətən qabarıqdır. Mərkəzində iynə ucu ilə deşilmiş nöqtəyəoxşar yer düzəldilmişdir. Ətrafına isə

---

[34] Ekspedisiya bu tərkibdə işlənmişdir: Fazill Osmanov - ekspedisiyanın rəhbəri (I.VII.86-30.IX.86), Qafar Cəbiyev kiçik elmi işçi (15.VII.86-30.IX.86), Sevda Hüseynova kiçik elmi işçi (1-30.VIII-86), Cavid Novruzov baş laborant (I-30.VII.86), Tofiq Mehdiyev baş laborant (I-30.VII.86), Ayna Əlizadə kiçik elmi işçi (1-30.VII.86), Xaləddin Xəlilov kiçik elmi işçi (1-30.IX.86), Cəbrayıl İsgəndərov baş rəssam (20.VII.-5.VIII.86). Qalib Xoşginabi-memar (16-31.VIII.86).

qoşa cızıqla dairə çəkilmişdir. Əks tərəfində isə diametri 0,5 sm olan yuvacıq kəsilib düzəldilmişdir. Bu sümük düyməciyin hər iki tərəfindəki dairəciyin ətrafı kənarlara qədər (çətinliklə sezilən) müxtəlif işarə və rəsmlərlə əhatələnmişdir.

Əvvəlki illərdən aşkarlanmış ətraf qalın divarlarla və içərisindəki divarların hələ tam öyrənilməsi başa çatdırılmamışdır. Odur ki, həmin divarların davamı öyrənilir. Bunlar əsasən təpənin qərb və şərq kənarlarında daha mürəkkəb şəkildədir. Çünki dərinə doğru qazıldıqca yeni divarlar üzə çıxır və üstdəki qalıqları uçurtmaq lazım gəlir. Bu isə ümumi mənzərəni pozur və dəqiqlik yaratmaq işini çətinləşdirir. Onsuz da içərisi daş töküntülərdən ibarət olan binaların daşını təmizləmədən aydınlıq yaratmaq olmur. Əsrlərdən bəri uçub dağılmış bu daş qalanın hörgüsü ilə töküntünü ayırmaq həddən artıq gərginlik tələb edir. Çox vaxt istədiyimizə nail ola bilmirik.

Yuxarıda qeyd etdiyimiz kimi yaşayış yeri ya qəsrin mərkəzi hissəsində şərq-qərb istiqaməti üzrə uzanan daş divarın tam aşkarlanması bu mövsümdə başa çatdırılmışdır. Bu divarın uzunluğu 10,5 metrdir. Bu divar yerli daşdan hörülmüşdür. Daşlar seçmə və bəzən çapılıb düzəldilmişdir. Divar möhkəm, həm də çox qalmışdır. Bu divar cənubdan keçən iri kənar divara papaleldir. Divarın eni 1,2 metrdir. Divarın şərq qurtaracağı yəni 34 kvadratından cənuba doğru dönərək kənar divara qədər uzanıb çatır. Bu hissədə içəridən uzunluq 4,8 metr, xaricdən isə 6 metrdir. Divarın içərisindən dönən küncü bucaq şəklində deyil, ovalvaridir. Bu divarın cənubdan 90 sm-lik məsafəsində qapı yeri vardır. İçəri divarlarda olduğu kimi bu qapı yeri də 1,4 metr enindədir. Lakin bu qapı yeri həddən artıq dağılmışdır. Bu divar qəsrin şərq hissəsindəki ümumi divardan 1,5 metr aralıdır. Həmin hissə isə dəhliz və ya hər hansı yol kimi divar boyu hərlənir.

Qeyd edilən 10,5 metr uzunluqdakı divarın mərkəz hissəsindən 1,45 metr enində qapı yeri divarın üstünə yaxın hissəsindədir. Həmin qapı yeri qəsrin cənub tərəfilə şərq-qərb istiqaməti ilə uzanan yan hasardakı darvaza yolunun qarşısındadır. Şimal tərəfdə isə yenə də yan hasara doğru olan dəhliz və ya keçid də həmin qapı ilə təxminən tuş gəlir. D3, D4 kvadratlarında yenə də cənub yan hasara söykənənədək bir divar da uzanır.

Beləliklə ümumi kompleksin cənub-şərq küncünə yaxın uzunsov düzbucaqlı bir sahə alınır. Burda dörd tərəfə qapı yerləri vardır. Üzbəüz qapılar arasında dəhlizvari yerdən sağa və sola doğru otaqlar yerləşmişdir. Qeyd etdiyimiz divarların içəri tərəfi boyu iri təsərrüfat küpləri basdırılmışdır. Burada 6 təsərrüfat küpü qeydə alınmışdır. Küplərin dibi divarın bünövrəsində yerləşir. Belə hiss olunur ki, küplər mənzillərin döşəməsində basdırılmışdır. Ümumiyyətlə Qırlartəpədə aşkar edilən tikinti kompleksinin divarları boyu hər tərəfdə iri təsərrüfat küpləri basdırılmışdır. Onların ümumi sayı 25-dən artıqdır. Bu küplər başlıca otaqların içərisində və ya divarların dibində yerləşdirilmişdir. Tək-tək divarların xaricində də küplərə təsadüf edilir.

Z4 kvadratının cənub-şərq küncündə iri təsərrüfat küpünün sınmış hissələri aşkar edilmişdir. Bu küpün dibindən yuxarı qalxmış hündürlüyü 80 sm-dir. Onun ağzının kənarları sınıb içərisinə tökülmüşdür. Küpün ağzının kənarı azca xaricə doğru mailli düzəldilmişdir. Küpün gövdəsindən diametri 70 sm, dibinin diametri isə 20 sm-dir.

Həmin küpdən qərbdə E4 kvadratında daha bir təsərrüfat küpü aşkar edilmişdir. Bunun ağzı yastı daşla örtülmüşdür. Küplə eyni tipli olub bir-birindən 3-4 metr aralı divarın dibi ilə və divar səviyyəsindən alta doğru cərgə ilə qoyulmuşdur. Bunlar elə bil binanın zirzəmisində və ya döşəməsindən altda basdırılmışdır. Bura bir növ anbar vəzifəsini də xatırladır. Ola bilsin ki, müəyyən bir ictimai qrupun və ya hərbi dəstənin ərzaq anbarı burada yerləşmiş, xüsusi gözətçilər bunu qoruyub saxlamışlar.

Bu təsərrüfat küpləri və divarlar aşkar edilən kvadratlarda (E4, Z4), 2,5 metr dərinlikdən üzəri sığallı qalın divarlı saxsı qab ağzının parçaları, saxsı qab lüləyi, gövdəsi deşikli küpəyə oxşar qab qırıqları aşkar edilmişdir.

Tikinti kompleksinin şərq tərəfində (Z4, İ4), yəni şərq qapısının içəri tərəfindən qabağında yerli daşdan bir növ dayaq şəklində kobud yonulmuş bir daş aşkarlandı. Bu divarın üstündən alta doğru 1 metr dərinlikdə idi. Onun hər iki tərəfi yastı olub müəyyən bir dirək altında istifadə olunması və bu kimi məqsədə xidmət etməsi güman edilir. Onun yastı tərəfləri 26x26 sm, hündürlüyü 27 sm-dir. Daş yerində saxlanmışdır. Həmin daş qapı ağzında pilləkən kimi də istifadə edilə bilər.

Ümumiyyətlə, Qırlartəpə abidəsində istər tikintidə və istərsə də məişətin digər sahəsində daş məmulatından geniş istifadə edilmişdir, yəni daşdan müxtəlif alət, silah, qab hazırlandığını bildirən nümunələrə çoxlu miqdarda təsadüf olunur. C3 kvadratında divarın yanından bir çopur daş qabın yarısı da tapılmışdır. Bu daş qabın kənardan-kənara eni 24 sm-dir, içərisinin oyuq hissəsi isə 12 sm-dir. Kənarlarının qalınlığı 8-6 sm-dir. Onun döşəməsinin qalınlığı 4-5 sm, içərisinin dərinliyi isə 3-4 sm-dir. Daş qab qırığı yerindəcə saxlanmışdır.

ECZ3-5 kvadratlarda aşkar edilmiş divarın ətrafları qazılıb dərinə salındıqca buradan çoxlu sümük, iri küp qırıqları, habelə daha qədim saxsı qab parçaları ilə bərabər bəzən antik dövr üçün səciyyəvi-süzgəcli və ağzı əyməli qab qırıqlarına da təsadüf olunur. Ola bilsin ki, bu tip qablar daha qədim dövrlərdə mövcud olub.

E6 kvadratında, əvvəlki illərdə D6 kvadratında aşkarlanmış iri təsərrüfat küpündən 3,3 metr şərqə doğru daha bir iri təsərrüfat küpünün sınıqları üzə çıxmışdır. Bu küpün içərisi təmizlənərkən onun ağzının aşağı dibinin isə üstə doğru olduğu müəyyənləşdi.

Bu gün həm də şimal divarının dibində ona bitişik divarın küncündə daha doğrusu kiçik dar dəhlizvari yolun döngəsində qoyulmuşdur. Oturacağı yuxarı olan bu küpün ağzı torpağa quylandığından ağzının kənarının formasını müəyyənləşdirə bilmədik. Lakin onun ağzının boğaza yaxın yerində (içəridən-içəriyə) diametri 30 sm-dir. Küpün təqribən yarısına qədər üstdən (oturacağı) qırılıb tökülmüşdür.

Onun gövdəsinin diametri 85 sm-dir. Ağzından gövdəsinin qalmış hissəsinədək hündürlüyü 90 sm-dir. Küpün sınmış hissəsi divarın altına düşür. Küpün sınıqları üstündən divar da dönür, elə bil küpün daşla hörülmüş quyunun bir növ üstünü xatırladır. Bu küpün sınıqları içərisinə tökülmüşdür. Ola bilsin ki, dar yol çəkilən yerin döngəsində küpü nə məqsədləşə ağzı aşağı basdırmışlar. Belə hal Qırlartəpədə birinci dəfə deyildir. Q3 kvadratında hələ 1984-cü ildə bu cür ağzı aşağı qoyulmuş küpün qalıqları ilə rastlaşılmışdır. Həmin küp də divarın dibində olmuşdur. Lakin onun ağzından başqa qalan hissələri çox parçalandığından və ətrafına töküldüyündən, həm də ilk dəfə rastlaşdığımızdan onu sonradan sınıb düşmə hesab edirdik. Küplərin belə başaşağı basdırılmasının təkrar aşkarlanması və həm də dəqiq olaraq vaxtı ilə bu cür edilməsi, onların bu formada basdırılması bizə tam aydın deyildir. Ola bilsin ki, onların bu cür başıaşağı qoyulması seysmik məqsəd güdərək tikintidə elastiklik yaratmış və binaların möhkəmliyini təmin etmişdir. Bu bir fərziyyə kimi irəli sürülsə də, Şirvan zonası, xüsusən onun dağlıq hissəsi ta qədimdən tez-tez yertərpənmə hadisələrinə qarşı əks tədbirdə axtarış və memarlıqda yeni, əlavə üsullar tətbiq etmişlər. Bununla belə bu hal binalarda rezonans yaratmaq məqsədi də daşıya bilərdi.

Kompleks tikintinin şərq hissəsində, əsas divarlardan xaricə doğru, İKL 3,4 kvadratlarda qazıntı işi dərinləşdirildikcə daha başqa daş divarlar üzə çıxmışdır. Burada üst qatda şərq qapısı ağzında, 0,7-1 metr yer səthindən alta doğru daş döşəmə və aralarında sapand daşlarının töküldüyü qat məlum idi. Bunları tamam sökmədən saxlayaraq bir qədər cənub və şərq hissədə qazıb dərinə düşdük. Qeyd etdiyimiz sahədə 2,4-2,7 metr dərinliyə qədər qazılmışdır; yer səthindən daha doğrusu bir qədər altda, üst divarların qalmış səviyyəsindən 1,5 metr dərində daha bir divarın üstü aşkar edilmişdir. Onun hələlik cənub kənarı aşkarlanmışdır. Buradan 2 metr dərinlikdə tapılan saxsı qab qırıqları da tunc və ya dəmir dövrünün əvvəllərinə aid materaillara uyğun gəlir. İ2, K2 kvadratlarında 2 metr dərinlikdə aşkar edilmiş qədim daş divarlar şərq qurtaracaq divar hissəyə 1,5 metr qalmış şimala və qərbə doğru uzanan enli bünövrə davam etdiyi aydınlaşdırılmışdır. Bu bünövrənin şimala doğru 4,3 metr, qərbə doğru isə 3,5 metr məsafədə davamı aşkarlanmışdır. Divarın enliliyi 1,4 metrdir. 1,2 metr hündürlükdə qalmış bünövrə yerindəki daşlar kifayət qədər böyük olub divara yatımlı vəziyyətdədir. Onlar bir qədər çapılıb düzəldilmişdir. İK 2 kvadratında qərbə doğru uzanan bünövrənin cənub tərəfindən dəhlizvari aralıq bir yer aşkarlanmışdır ki, bundan cənubda da ona paralel divar fraqmenti vardır. Bu aralığın eni 1,7 metrdir. Bundan sonra cənub kənara söykənən divarın davamı 1 metr aşkarlanmışdır. Ola bilsin ki, cənuba doğru davam edəcəkdir. Çünki hələ cənuba doğru olan hissə tam açılmamışdır. İ2 kvadratında 2,4 metr dərinlikdən bir gil muncuq da tapılmışdır. Dəyirmişəkilli bu gül muncuq qırmızı rəngdə bişirilmişdir. Onun bir tərəfi yastıdır. Bundan başqa daha bir ağımtıl və uzunsov muncuq tapılmışdır. Onun ucları nisbətən nazik olub kənarları cızıqla haşiyələnmişdir. Orta hissəsi nisbətən yoğundur. Bu muncuq

daşdan hazırlanmışdır. Buradan ilk dəmir dövrü və ya son tunc dövrü üçün səciyyəvi saxsı qab qırıqları, heyvan və quş sümükləri aşkar edilmişdir. Qeyd etdiyimiz qədim saxsı nümunələrilə yanaşı buradan antik dövrə aid maddi-mədəniyyət qalıqlarına da təsadüf edilir. Ola bilsin ki, bunlar sonrakı tikinti dövrü zamanı bünövrə və daş divarın inşası ilə əlaqədar xəndək və ya bu kimi quyu yerində qarışmışdır. İK3-4 kvadratlarında 2-2,5 metr dərinlikdə aşkar edilmiş, iri daşlarla hörülmüş bünövrə cənuba və şimala doğru qazılmamış sahənin altına doğru davam edir. Buradan yuxarıda şeyd etdiyimiz tapıntılarla yanaşı dəmir qırıqları da tapılmışdır. Lakin heç bir forması məlum olmayan bu dəmir qırıqlara hər hansı bir əşyanın qalığı və bu təbəqədən tapılması daş hörgünü və digər tapıntıları eradan əvvəl I minilliyin birinci yarısına və ya əvvəllərinə aid etməyə müəyyən əsas verir. Bu daş bünövrə açılan yer təpənin şərqindəki yamacın üstüdür. Buradan pilləli yamac şərqə doğru enir. Əvvəlki hesabatlarda bu barədə ilkin qeydlər edilmişdir (lakin qazılmamış, üst relyefə görə). Bu il həmin hissədə, yuxarıdan enən birinci yastana qədər xeyli qazıntı işləri görülmüşdür. Hətta I yastanın düzündə də qazılmış və daş döşəməni xatırladan bütöv terrasın üstü açılmışdır. Lakin hələlik burada tam aydınlıq yaradılmamışdır. Bununla belə yastanın üstündəki dik yamacda qazıntı aparılarkən üstdəki divar hörgüsünə qədər L2, L3 kvadratlarında iri daşların arası təmizlənmişdir. Kompleks tikintinin şərq hissəsində ən ucqar divardan xaricə həmin yamacın ətəyinə doğru, yaxud I yastanın üstünə 4-4,5 m-lik məsafədə şimal-cənub istiqamət üzrə iri daşlardan hörgü izi aşkarlandı. Bu cür iri daşla hörgü ümumi təpənin, yaxud qalaçanın xaricindən demək olar ki, hər tərəfdə müşahidə edilmişdir. Bunu ona görə qəti demirik ki, qalaçanın kənar (əsas) hasarından xaricə və ətəyə doğru başqa bir divarla hasarlandığını hələ də hər tərəfdə öyrənməmişik, daha doğrusu hələ təpənin daşlı döşü qazılmamışdır. Bu əlbəttə çətin, məsuliyyətli və həm də xeyli vaxt tələb edən işdir. Bunu yalnız tədricən və səbirlə işləmək lazım gəlir.

Qeyd etdiyimiz kimi təpənin bu daşlı sinəsində qazıntı işi çətinliklə gedir. Ona görə ki, daşlar yerindən tərpədildikcə hörgünün izi itir. İki minillik tarixə malik hörgülər çox hallarda ilkin yerindən tərpənmiş, uçmuş, laxlamış və s. Odur ki, çox böyük diqqət və ehtiyat tələb olunur. Düzdür, işçilərimiz (fəhlələr) içərisində təcrübələri və səliqəliləri çoxdur, qazıntı texnikasını yaxşı bilirlər. Lakin bununla belə yenə səbrləri tükənəndə (yer bərk gələndə) və ya qazılmış torpaq daşların üstün örtəndə bəzən yaddan çıxır, daşlar uçurulur, hörgünün izi pozulur. Ona görə də qazıntını bir an belə nəzarətsiz qoymaq olmur. Hətta tək olanda gündəliyi yazmağa da macal tapılmır. Buna görə də qazıntıda bir neçə elmi heyətin olması vacibdir.

Qalaça, yaxud akropol yerləşən hündür təpələrin şərq yamacında L2 kvadratında iri daş hörgülərin arası və üstü təmizlənərkən 1-1,5 metr yer səthindən dərində (düz oturacağa malik) saxsı qab qırıqları, bozumtul təkayaq vaza hissəsi aşkar edilmişdir. Bütün bunlarla yanaşı burada ilk dəfə olaraq iki ədəd gümüş

Parfiya pulu tapılmışdır. Əlbəttə antik dövrün bu möhtəşəm abidəsindən qədim pul nümunəsinin əldə edilməsini çoxdan gözləyirdik və. bu gümanımız doğrulmuşdur. Mədəni təbəqədə, 1,2-1,3 metr dərinlikdə olan bu pul yaxşı qalmış, onun aversində Parfiya padşahı III Artaban, yaxud III Vologezin şəklinin həkk edilməsi və digər üzündə - reversində yunan əlifbası ilə yazılar və başqa rəsmlər, “A” hərfi və s. çox aydın bilinir. İlkin təyinata görə III-IV Vologezin adına həkk edilməsini numizmat Sənubər Dadaşova və Əli Rəcəbli yoldaşlar söyləmişlər. Lakin pulun dəqiq təyin edilməsi üçün Azərbaycan Tarixi Muzeyinin numizmatika şöbəsinin müdiri Əli Rəcəbli yoldaşa verilmişdir. Pulun təqribən II əsrin birinci yarısına aid Parfiya hökmdarlarından III Vologezin adına zərb olunduğu təsdiq edilmişdir.

Məhz Qırlartəpənin üst təbəqəsi ilə də pul nümunəsi uyğun gəlir. Üst təbəqənin aşağı həddi ilə. Çünki biz üst qatı bir qədər geniş çərçivədə vermişik (II-IV əsrlər). Əlbəttə bu ilk qazıntı dövrləri üçün belə tərəddüdlər geniş verilmişdir. Bunun özünü də, yəni üst təbəqəni iki dövrə ayırmaq olar. Lap üst hədd III əsr və IV əsrin başlanğıcı, aşağı hədd II əsr. Şübhəsiz, bunlar getdikcə xeyli dəqiqləşəcək və daha yığcam, qısa vaxtı əhatə edən xronoloji çərçivə ilə göstəriləcəkdir. Abidənin üst təbəqəsindən, daha doğrusu üst təbəqədən o birisinə keçid təbəqədən olan tapıntı yaşayış yerinin dövrü haqqında bir çox mülahizələri xeyli aydınlaşdıra bilər. Ona görə də buradan tapılan digər materialın da bir qədər müfəssəl verilməsi əhəmiyyətlidir. Buradan en kəsiyi dairəvi və lentşəkilli olan saxsı qab qulpları tapılmışdır. En kəsiyi dairə şəkilli olan qulplardan saya və üstündə düyməcik yapışdırılanları da vardır. En kəsiyi lentşəkilli yaxud düzbucaqlı formada olan saxsı qab qulplarının nisbətən qalınları da vardır. Məhz pul tapılan yerdən olan bu qulpun qabın ağzına yapışdırılan hissəsi və qulplarının üstü naxışlıdır. Qulpun üstündəki kəsmə naxışlar çəp və bir-birinə paralel vurulmuşdur. Bundan başqa kiçik, düz oturacaqlı qab qırığı da buradan tapılmışdır. Ümumiyyətlə, saxsı qab qulplarının üstü kəsmə naxışla bəzədilmiş nümunələri Qırlartəpədən çox tapılır. Onları məhz eyni təbəqədən tapılmış gümüş sikkənin dövrü ilə bir vaxtın məhsulu kimi vermək olar (I əsrin sonu II əsrin əvvəlləri). Buradan həmçinin bir ədəd yumru gil əşya-muncuq tapılmışdır. Lakin bu muncuq deşilməmişdir. Ola bilsin ki, bu əşya başqa məqsəd üçün (oyuncaq və s.) düzəldilmişdir. Buradan yenə də saxsıdan iy başlığı yaxud tağalaq dibi tapılmışdır. O sarımtıl rəngdə kiçik gil düyməcikdən ibarət olub sayğac aşığını xatırladır. Sümük, saxsı qab və başqa maddi-mədəniyyət qalıqlarından əlavə bir daş alət və ya fiqur tapılmışdır. Bu işlənmiş daşın ucları sındığından onun vəzifəsini aydınlaşdırmaq çətindirsə də, bir tərəfinin daha yoğun və kənarlarında qopuqların olmasına görə (qulaq və buynuz yeri) heyvan başı fiquru kimi də təsəvvür etmək olar. Lakin daş əşyanın hər iki ucunun sınıb itdiyinə görə dəqiq nə olduğunu söyləmək çətindir. Hər halda eramızın əvvələrində ondan məişətdə nə məqsədləsə istifadə edilmişdir. Bu daş əşya M3 kvadratından tapılmışdır. Lakin qazıntı genişləndirildiyindən və memarın bunu nəzərə almadığından bu kvadrat planda öz əksini tapmamışdır. L2

kvadratından bir ədəd əşyaya da təsadüf edilmişdir. Bu daş əşyanın en kəsiyi dairəvi, üstü hamarlanmış, bir tərəfi sınmışdır. Onun ucundan bir azca oyulub deşilmişdir. Bu daş əşya formasına görə fallosa oxşayır. K4 kvadratında 1 metr dərinlikdən bir ədəd saxsı qab ağzının və qulpunun sınığı da tapılmışdır. Bu qabın ağzının formasına görə üçgül olmuşdur. Qulpun qabın ağzına yapışdırılan hissəsinin içəri tərəfindən yapma işarə vurulmuşdur. Qulp özü eşmə formada olub, üstü boyu üç cərgə barmaq ilə basılmış batıqlarla naxışlanmışdır. Bu cür yapma naxışlar eramızın ərəfəsi və bizim eranın əvvəlləri üçün səciyyəvidir.

Ümumiyyətlə, Qırlartəpədə kompleks tikintinin şərq yamacından əldə edilmiş tapıntılar içərisində toxuculuq, daş işləmə və s. sənətkarlıqla bağlı maddi-mədəniyyət qalıqları nümunələrinə kifayət qədər rast gəlinmişdir. Düzdür, bu cür tapıntılara qazıntının və kompleksin mərkəzi yerlərində də təsadüf olunur. Lakin ətraf sahələrdə elə bil (nə isə) bu cür tapıntılar üstünlük təşkil edir. Bu isə özlüyündə belə təsəvvürün yaranmasına gətirib çıxarır ki, məhz bu kənar ətəklərdəki yastanlarda daha doğrusu mərkəzi hissələri əhatələyən böyük daş hasarlı tikintilərdən kənarda məhz sənətkarlar (toxucular, daşyonan və s.) yaşamışdır. Doğrudur bu fikri söyləmək hələ tezdirsə də, tapıntılara və dövrün ictimai vəziyyətinə, cəmiyyətin məhz bu qəbildən olan zümrəsinin qıraq-bucağa, kənara sıxışdırılması dövrün tələbinə uyğun bir hal olmuşdur. Abidənin şərq yamacı boyu ətəklərdən onu əhatələyən iri daş hörgülərinin, habelə üstdəki yan hasarının xaric tərəfini aydınlaşdırmaq məqsədi güdən xeyli iş görülmüşdür. Bu sahədə istər şimal və istərsə də cənub tərəfdən şərq-qərb istiqamətilə uzanan hasar boyu bəzi işlər görülmüş və təxminən aydınlıq yaradılmışdır. Belə ki, həmin üstdəki yan hasarların eni müəyyənləşdirilmişdir (eni 3 saylı 1 metr qalınlığındadır). Bu sahədə işi davam etdirmək üçün EC3-7-ci kvadratlarda, yəni şimal tərəfdən şərq-qərb üzrə uzanan divarın şərq yarısında xaric hissədən qazıntı davam etdirilmişdir. Burada üstdən uçub tökülmüş daşların və başqa töküntülərin əmələ gətirdiyi qarışıq təbəqə təmizlənərkən bir sıra tapıntılara da rast gəlinirdi. Üstdən 1-1.5, bəzən 2 metr dərinliyədək qazılmışdır. E7 kvadratında 1 metr dərinlikdən bir ədəd iy başlığı, tağalağın arxasına keçirilən yumru gil aşıq tapılmışdır. Ağımtıl rəngdə olan bu iy başlığı yaxşı bişirilmişdir. Yuxarıda qeyd etdiyimiz kimi, sənətkarlığı bildirən əsasən qalacanın xaricində daha çox müşahidə edilir. Məhz bu toxuculuq aləti və başqa bu kimi tapıntılar həmin fikrin sübutu üçün müəyyən dəlil hesab edilə bilər. Həmin tapıntı ilə birlikdə bir ədəd gil boşqab tipli qabın yarısı əldə edilmişdir. Bu qabın da üzərinə ağımtıl anqob məhlulu çəkilmişdir. Bundan başqa buradan iri təsərrüfat küpünün sınıqları, daha doğrusu onun dib hissəsinin qalıqları aşkarlandı. Düz oturacağa malik olan bu küpün divarlarının qalınlığı 2 sm-dir. Oturacağının altdan ölçüsü 21-23 sm-dir; qalan hissələri tapılmamışdır.

Göründüyü kimi təsərrüfat küpləri təkcə qalacanın içərisində deyil, onun xaricində də tez-tez müşahidə edilir. Buradan bir uzunsov bir tərəfi yastılanmış və

əl içərisinə yatımlı şəkildə düzəldilmiş, hər tərəfi işlənmiş sürtgəc-daş alət də tapılmışdır. Ümumiyyətlə, bu cür sürtgəclərə və başqa daş alətlərə tez-tez təsadüf edilir. Bunlardan əvvəllərdə tapıldığı və nümunələr götürüldüyü üçün hamısının gətirilməsi lüzumsuz hesab edilərək yerindəcə saxlanmışdır. 1.5 dərinlikdə ECZ7 kvadratlarının bəzi yerlərində divarın bayır üzünə yaxınlaşma hiss olunur. Burada iri daşlar, xırda daş və torpaqla bərkidilib möhkəmləndirmə əlamətləri də nəzərə çarpır. Şübhə etmirik ki, bayır tərəfdən divara dayanan söykənəcək, möhkəmləndirici tikililər də olmuşdur. C7 kvadratında, 2 metr dərinlikdə qara rəngli vazanın qırığına da rast gəlinmişdir. Bu cür təkayaq gil vaza qırığı abidənin şərq yamacında da təsadüf edilmişdir. Bundan başqa E7 kvadratında saxsı qab qırıqları, heyvan sümüklərilə yanaşı (1,5-2 metr dərinlikdə) bir kiçik sümük düymə və ya sədəf tapılmışdır. Dairəvi və yastı şəkildə sümük sədəflə yanaşı buradan bir iri qaban qılıncı aşkar edilmişdir (tablo 66-6). Ümumiyyətlə, Qırlartəpə abidəsindən çoxlu heyvan sümükləri qaramal, ev donuzu, xırdabuynuzlu heyvan sümük və buynuzları, maral, ceyran, qaban sümüklərinə çoxlu miqdarda rast gəlinir. Yeri gəlmişkən qeyd edək ki, bu sümüklər təyinat üçün yığılmış, onların bir qismi Azərbaycan SSR EA müxbir üzvü, görkəmli paleontoloq Dəmir Hacıyev tərəfindən təyin edilmiş, bir qismi isə işlənilir. Builki sümük tapıntılarının tam təyinatı başa çatmasa da, professor Dəmir Hacıyevin ilkin məlumatına görə yuxarıda adı çəkilən heyvanlardan əlavə ağ balıq, qulan sümükləri də vardır. Bütün bunlar yaşayış yerində maldarlığın ovçuluq təsərrüfatının mübadilə və ticarət əlaqələrinin inkişafını Xəzər ətrafındakı əhali ilə yaxın və sıx münasibətlərinin varlığını aydın bildirir.

Qırlartəpədə aparılan qazıntı zamanı bu il abidənin qərb yarısında da xeyli iş görülmüşdür. V3 kvadratında güclü yanğın izi olduğu, taxıl qalığı, bütöv saxsı qabların tapıldığı yerdən yenə də başqa qab-qacaq nümunələrinə rast gəlinmişdir. Bunlardan ağzında əyintisi olan tayqulp qabı göstərmək olar. Qara rəngdə olan bu qabın ağzının kənarından gövdəsinə yapışdırılmış qulpu var. Bu qabın metal ərintisinin götürüb qəlibə tökmək işində istifadə edildiyi güman olunur. Bu qabın oxşarları qonşu Nüydi və Uzunboylar abidəsindən də tapılmışdır. Bu saxsı qab tapılan kül-kömür təbəqəsi içərisindən nazik divarlı metal qab qırıqları da əldə edilmişdir. Bu qab qırıqları cəng atmış və əsasən qaramtıl rəngdədir. Onun gümüş cam qırıqlarından olduğu bilinir. Ümumiyyətlə, Qırlartəpə yaxınlığındakı nekropoldan mis və gümüş camların bütövləri əldə edilmişdir. Bu qablar tapılan yerin otaq və ya mətbəx yeri olduğu güman edilir. D3 kvadratından isə 1,5 metr dərinlikdən sarı torpaq qatı içərisindən daha bir qara rəngli dolça tapılmışdır. O düz oturacaqlı, ağzı üçgül, arxadan tək qulpu çiynilə ağzının kənarına yapışdırılmış formadadır.

Yenə də V3 kvadratından, lakin cənub-qərb küncdəki dördkünc daş tikintinin divarı dibindən bir saxsı cam bütöv şəkildə tapılmışdır. Onun ağzı azca kənara doğru mayilli düzəldilmişdir. Çiynində aypara şəkilli, qulpu xatırladan gil

yapması vardır. Qabın ağzının xaricindən kiçik bataqlıqlarla çevrələnib bəzədilmişdir. Düz oturacağa malik olan bu qabın ağzının diametri 14 sm, hündürlüyü 7 sm, oturacaq diametri 8 sm-dir. Bu qab yaxşı bişirilmiş, gilinin tərkibində narın qum qarışığı olmuşdur. Həmin saxsı qabın yanından bir qaramtıl daş alət də tapılmışdır. Prizmaşəkilli alətin bir tərəfi yastı, digər tərəfi isə nisbətən şişdir. O bir növ qədim Naxçıvan mədənlərindən işlədilmiş baltalara oxşayır. Lakin bunun üstündə balta kimi istifadə üçün gəz yeri yoxdur. Bu adi qara daşdandır (Ağsu arxeoloji ekspedisiyasının 1986-cı il gündəliyi, səh. 63).

Qeyd edildiyi kimi, təpənin qərb kənarındakı tikinti qalıqları daha çox yanğına məruz qalmışdır. Burada o qədər güclü yanğın olmuşdur ki, daş divarlar kərpic kimi qızarmışdır. V6 kvadratında (bu tikinti kompleksinin şimal-qərb küncündədir) dördkünc tikinti qalığının içərisi qazılarkən daş, torpaq bərkiyib qalmışdır. Elə bil əhəng-kərpic içərisində qalıb bərkiyib, hətta burada olan qab və qırıqlarını kirəcləmiş maddədən ayırmaq olmur. Əhəng-kirəc kimi bərkimiş torpaq içindən ağzı üçgül tək-qulp lüləkli saxsı dolçalar, nəlbəkivari dayaz qablar, düzbucaqlı dayaz qab, qəlibin bir parçası və bu kimi şeylər tapılmışdır. Buradakı şimal divarın içərisindən bir ədəd dəmir qırxlığın bir hissəsi tapılmışdır (tablo 70). Onun tiyəsi enli, ucu şişdir, dəstəsi yastı, uca doğru enli, tiyəyə bitişik yeri nisbətən nazikdir. Dəstənin ucuna yaxın yerindən və kənarından bir tərəfi açıq deşiyi vardır. Qayçının tiyəsinin uzunluğu isə 10 sm, eni 3 sm-dir. B6 kvadratında dərinə düşdükcə (3 metrə yaxın) maddi-mədəniyyət qalıqlarındakı fərq gözə çarpır. Belə ki, buradan kündəyə oxşar bişmiş palçıq hissələr tapılır. Bunlar çox kobud şəkildə olub, qab ağzını örtmək üçün istifadə olunduğu aydınlaşdı. Yəni eyni formada, lakin üstündə dəstəyi olan başqa bir qapaq nümunəsi də tapılmışdır. Dairəvi formada olan bu qapağın üstündəki qulpu yəhərvaridir. Onun yəhərvari hissəsinin altından deşiyi vardır. Bu da kənardan baxanda quş gözünə oxşadıldığı təsəvvürünü yaradır. Qapağın altı düz olub, kənarları bir qədər üstə doğru meyilli düzəldilmişdir ki, bu da qabın ağzında kip dayanmanı təmin edir. B6, V6 kvadratlarındakı dördkünc tikinti qazılıb dərinləşdikcə maddi-mədəniyyətdə və tikinti quruluşunda dəyişiklik aydın nəzərə çarpır. Düzbucaqlı otağın şərq divarı altından qapı yerinə oxşar uzun dəhlizvari bir sahə aşkarlanmışdır. Lakin burada üst divarlar tərpədilmədiyi üçün altdakı tikintinin tam istiqaməti və quruluşu aydınlaşdırılmamışdır. Həmin istiqamətdə şərqə doğru, yəni VQZ-5 kvadratlarında 1,8-2 metr dərinlikləri bəzi yerdə 2,5 metrə qədər çatmışdır ki, buradan da artıq tunc və dəmir dövrü maddi-mədəniyyətinə aid saxsı qab qırıqları və başqa material tapılır. V4 kvadratında 4 ədəd küp açılmışdır. Bunlar da yenə də yanğından kərpic kimi qızarmış daş divarlar arasında, daha doğrusu otağın içərisində aşkar edilmişdir. Lakin bu divarlar üst divarların planı əksinə olaraq, bir qədər başqa istiqamətdə xaricə doğru (təpənin kənarına) davam edir. Q5 kvadratında 1,8 metr dərinlikdən bir iri və qalın küp ağzının qırığı tapılmışdır. Onun ağzının kənarı düz istiqamətdə kənara doğru uzanır. Bu xaricə doğru artan hissənin altı ilə çiyninə

birləşən ikitilli qulp yapışdırılmışdır. Q4 kvadratında iki yan-yana açılmış küplərin ətrafı və içərisi təmizlənərkən kənarı bayırdan düz, içərisindən isə azca xaricə doğru maili qonur rəngli saxsı qab qırıqlarına rast gəlinmişdir. Bunlar daha qədim dövrə aiddir (çox güman ki, tunc dövrünə). Lakin ola bilsin ki, bu forma burada ilk antik və ya bizim eradan əvvəlki I minilliyin birinci yarsında da yayılmış, məişətdə istifadə edilmişdir. Q3 kvadratı iri təsərrüfat küpü yanında çoxlu saxsı qablar və bir iy tağalağı arxasına bərkidilən yumru gil əşya tapılmışdır (gündəlik № 4, səh. 78). Ümumiyyətlə, bu cür əyircək hissələri buradan tez-tez tapılır ki, bu da toxuculuğun inkişafı ilə əlaqədardır. Q4 kvadratında həmin iri təsərrüfat küplərinin qoşa olduğu aydınlaşdı. İki yan-yana dik basdırılmış bu küplərin üst hissələri qırılıb yanlarına tökülmüşdü, onların demək olar ki, yarıdan aşağı hissələri qalmışdır. Küplər bir-birinə söykənmişdir. Küplərin qalmış hissələrinin hündürlüyü 1-1,4 metrə çatır. Cənub tərəfdəki küpün qalmış hündürlüyü 1 metrdir. Onun sınmış yerindən diametri 1 metrdir. Bu hesabla küpün ümumi hündürlüyü təqribən 1,5 metrə bərabər olmuşdur. Küpün içərisi təmizlənərkən onun ağzının kənarından parçalar tapılmışdır. Ağzının qırağı xaricə doğru rəfşəkilli artır və üstündə kənardan başlayaraq içəridə doğru bir nöqtədən çıxıb ayrılan üç cızıq çəkilməklə küpün ağzı bəzədilmiş və ya işarə vurulmuşdur. Bu xətlərin üstündən bir istiqamətə olmaqla kiçik çəp cızıqlarla haşiyələnərək bir növ quş ayağı izinin şəkli alınmışdır. Bu küpün içərisinin təmizlənməsi davam etdirilərkən qara torpaq və kömürləşmiş çürüntüyə rast gəlindi. Diqqətlə yoxlandıqda bunun taxıl qalığı olduğunu aydınlaşdırdıq. Taxıl-buğda vaxtı ilə yanğından məhv olmuş, kömürləşmiş və demək olar ki, küpün yarısına qədər buğda olduğu müəyyənləşmişdir. Taxıl qalığı yığılaraq analiz üçün Bakıya gətirilmiş, laboratiyaya verilmiş, hələlik cavab alınmamışdır.

Q6 kvadratında artıq təbii daş və ya qaya örtüyünə çatmışıq (2, m). Buradan bir ədəd nəlbəkivari saxsı qabın ağız və gövdə hissəsindən bir parça tapılmışdır. O qırmızı rəngdə olub, ağzının kənarı içərisindən bayıra doğru yatıq, xaricdən isə bütöv və ya düz istiqamətdədir. Bu qabın parçasının ağzının kənarından bir qədər aşağı deşilmişdir. Bu görünür, qab sınandan sonra ikinci dəfə istifadə üçün sınığı bir-birinə tikmək üçün düzəldilmişdir. Həmin qab parçası tunc dövrü, çox güman ki, ilk tunc dövrü qablarındandır. Bununla belə, Qırlartəpədə başqa deşikli düzəldilmiş (süzgəcli) küpələrə də təsadüf edilmişdir. Lakin bunları bir-birilə qarışdırmaq olmaz. Birincisi sonradan qabı bərpa etmək üçün olduğu halda, ikincisi də əvvəlcədən süzgəcli hazırlanmışdır. Q3 kvadratında taxıl anbarı vəzifəsini daşıyan küplərin aşkar edildiyi yerdə, yanğın və kömür qalıqları içərisindən bir ədəd dəmir alət tapılmışdır. Dəhrəyə oxşayan bu alətin tiyəsinin qalığı 10 sm, dəstəyinin qalığı 6 sm, eni isə 4 sm-dir.

Tikinti kompleksinin qərb kənarı boyu aşkar edilən divarlar və otaqların içərisindən güclü yanğın izi davam edir. Cənub-qərb küncdəki dördkünc otağın içərisi dərinləşdikcə, daha doğrusu küllü torpaq çıxarıldıqca yeni-yeni maddi-

mədəniyyət qalıqları habelə başqa istiqamətli divar qalıqları aşkar edilir. Hələlik divarların bir küncü bəllidir, qalan hissələri aşkarlanmamışdır. Onların ucu üstdəki enli divarların altı ilə xaricə doğru davam edir. BV3 kvadratından, daha doğrusu əvvəldə qeyd etdiyimiz cənub-qərb küncdəki kvadrat şəkilli otağın içərisindən 4 iri küp aşkarlanmışdır. Bunlardan ikisi keçən ildən məlum idi.

Qərb divarı dibindəki küpün şimal böyrünə söykənmiş daha bir iri təsərrüfat küpü, bunun yanında da divarın altında başqa bir küpün aşağı hissəsi, onun da içərisində bir təkqulplu, ağzı kip, nisbətən böyük küpə aşkar edilmişdir. Bu küp də başqa bir saxsı qabın içərisində yerləşmişdir.

B3 kvadratında aşkar edilmiş dördkünc otağın qərb divarı altından yanıq, ovuntu torpaq təmizlənərkən divarın dibindən bir ədəd iri və dayaz saxsı təknə (teşt) aşkar edilmişdir. Bu divar və dibində yerləşən teşt üstdəki divar yerləşən təbəqənin altındadır, daha doğrusu bundan qabaqkı, əyri tikinti qalığıdır. Saxsı təknə dairəvi formada olub, içəridən-içəriyə diametri 85 sm-dir. Onun dərinliyi 12 sm, saxsının qalınlığı ağzının kənarından 2,5 sm-dir. Onun rəngi qırmızımtıl-çəhrayıya çalır. Bu gil teşt sonrakı daş tikinti ilə əlaqəsi olmayan alt divarın dibindədir. Alt qatda aşkar edilən bu divarlar güclü yanğına məruz qalmışdır. Daşlar və üzərinə çəkilmiş suvaq yanğından qızarıb kərpic rəngi almışdır. Qeyd edək ki, təknə aşkar edilən tərəf divarın içərisidir. Çünki, burada daşların üzəri saman qatışıqlı suvaqla suvanmışdır. Təknə yerləşən sahədən bir qədər aralı divarın dibində səhəng tipli iri saxsı qablar da vardır. Lakin bu hissədəki divarlar üst divarların altında yerləşir. Üst divarlar hələlik saxlandığı üçün altdakı divarların davamı axıradək izlənə bilməmişdir. Alt tikintinin dəqiq dövrünü hələlik söyləmək üçün qazıntını genişləndirmək, xeyli dəqiqlik yaratmaq lazımdır. Tapılan qablar iri küp, təknə, səhəng tipli qablar da bir o qədər aydınlıq vermir. Lakin hər halda onların antik dövrün əvvəlləri və ya daha qədimə aid olması bilinir. Bununla yanaşı buradakı yoxlama qazıntısından ilk tunc və eneolit materiallarına təsadüf etmişik. A7 kvadratından isə (təpənin şimal-qərb yamacından) ilk tunc dövrü saxsı qabları - orta həcmli küpün qırıqlarına (səciyyəvi qulpu ilə birlikdə), habelə yenə də ovalvari qulpa malik boşqab formalı qab qırıqları tapılmışdır. Qeyd etməliyik ki, alt tikinti təbəqəsinin (daş divarların) son tunc və yaxud ilk dəmir dövrünün məhsulu olduğunu güman edirik. Bu fikrimizi tam qəti şəkildə demək üçün həmin təbəqədə ətraflı tədqiqat aparmaq lazımdır.

**1987-ci il**

1987-ci il Ağsu arxeoloji ekspedisiyası[35] iyulun 1-dən başlayaraq sentyabrın 30-na kimi Ağsu rayonunun Qırlar kəndi yaxınlığında yaşayış yerində işləmişdir (tablo 68).

Qazıntı işlərinə obyektin müxtəlif sahələrində əsasən şərq yamacda, qərb divarların içəri tərəfində, mərkəzdəki divarın dibində, habelə mərkəzi hissəyə yaxın iri təsərrüfat küpləri yerləşən nöqtələrdə başladıq. Qazıntı sahəsinin qərb kənarı boyu uzanan divar və onun ətəklərində işi davam etdirməklə yenə də bəzi hallarda təkrar materiallara rast gəlinmişdir. Divarlar əsasən üst qata aid olduğundan təbiidir ki, onunla bağlı tapıntılar da məhz həmin divarların dövrünə aid olacaqdır (yəni bizim eranın ilk əsrləri). Divarların altına doğru endikcə yanıq torpağın içərisindən heyvan sümükləri, habelə müxtəlif keramik parçalarına təsadüf edilirdi. Bunların içərisində tunc dövrü keramika nümunələri (cam formalı qabın parçası) də vardır. Bu qab parçası sarımtıl rəngdə olub, üzərində qızılı parıltı verən zərrəciklər gözə çarpır. Bundan başqa küpə formalı saxsı qab parçası diqqəti cəlb edir. Bu qab parçası bozumtul rəngdə, ağzı dairəvi və nisbətən gen gövdəyə malik küpənin parçasından ibarətdir. Onun çiynindən aşağı hissəsi içəridən bayıra doğru qabartıları vardır.

Tikinti kompleksinin qərb divarları üstündə, daha doğrusu xaricə tərəf hissələrini aydınlaşdırmaq məqsədi ilə plana keçirilmiş divarın üstünün nizamsız tökülmüş daşları götürüldü. Burada B4, B5 kvadratlarından təqribən şimal-cənub istiqaməti üzrə 8 metr uzunluğunda daş divarın izi müəyyənləşdirildi. Həmin divarın kənar xəttindən şərqə A kvadratına doğru 2 metr uzunluğunda perpendikulyar divarların davamı aşkar edildi. Həmin divarların altında güclü yanğın olduğunu göstərən əlamətlər - əhəng halına düşmüş daş qırıqları, torpaq, yanıq izi vardır. Bu yanmış torpaq və daş içərisində qalmış başqa istiqamətli divarlar davam edir. Onların isə kürə (istehsal ocağı) tikintisi ilə əlaqədar olduğu aydın bilinir. Lakin buradan bir qədər cənuba doğru, kompleks tikintinin cənub-qərb küncündəki dördkünc otağın altında, B2 kvadratında içərisində iri və orta həcmli küplər olan mətbəxəoxşar yer hələ keçən ildən məlum idi. Bura qərbə doğru genişləndirilərkən qara rəngli saxsı küplər, qırmızı rəngli saxsı qab qırıqları, səhəng tipli saxsı qab və ağzı daşla örtülmüş iri təsərrüfat küpləri üzə çıxarıldı. Ağzı daşla örtülmüş iri küpün ağzının qırağı kənara doğru düz istiqamətdə çıxıntılı olub üstündə quş ayağı şəklində üç şaxəli batıqlardan ibarət bəzəyi yaxud işarəsi vardır. Buradan tava (teşt) və ya sac tipli saxsı qablar da tapıldı. Həmin qabların yanında gövdəsində iki qulpu olan orta həcmli səhəngi xatırladan saxsı qab da

---

[35] Ekspedisiya bu tərkibdə işləmişdir: rəis Fazill Osmanov (1.VII-30.IX.87), baş elmi işçi Qafar Cəbiyev (25.VII-30.IX.87), baş elmi işçi Fərhad İbrahimov (1 VIII-30.VIII.87), kiçik elmi işçi Sevda Hüseynova (1.VIII-31.VIII.87), kiçik elmi işçi Həsənağa Ramazanov (25.VII-19.IX.87), Xaləddin Xəliləv kiçik elmi işçi (1.IX-30.IX.87), Cavid Novruzov baş laborant (1.IX-30.IX.87), rəssam F.Cavadova (15.VII1-31.VIII.87). Memar Qalib Xoşginabi(5.VIII-15.VIII.87).

aşkar edilmişdir. Göründüyü kimi bu dördkünc tikinti içərisindən cürbəcür qab tiplərinin tapılması onun mətbəx və ya sənətkarlıqla bağlı hər hansı bir istehsal ocağı yaxınlığında ona xidmət göstərən otaq olduğu ehtimal edilir. Bu ocaq qarşısında bir dəmir alət dəstəsi tapıldı. Bu təsərrüfat otağının qərb tərəfdə şimal-cənub istiqaməti üzrə uzunluğu 3 metr (ortadan 2,9), şimal tərəfdən isə şərq-qərb üzrə olan divarların uzunluğu 1,7 metrdir. Bu otağın şimal divarlarının şərq tərəfdə qurtaracaq yerindən şimala doğru üç arakəsməli istehsal ocağının qarşısı boyu düz xətt üzrə diyar, bəzi yerlərdə eyni istiqamətdə bünövrə - daş düzümü qalmışdır. Ümumiyyətlə kompleks istehsal tikintisinin içəridən-içəriyə qərb divarının cənubdan şimal divarının dibinədək uzunluğu 14,2 metrdir. B3-B4-B5 kvadratlarında, qərb divarlarının içəri tərəfdən dibində qazıntı işləri zamanı yenə də yanıq izi davam edirdi. Bu kürəxana yeri olduğunu aydın şəkildə bildirirdi. B4 kvadratında divarın içərisinə doğru tağvari girintiyə rast gəlmişdir. Həmin tağvari girinti olan çox qalın divarın şimal tərəfində kürəxananın izi nisbətən daha yaxşı qalmışdır.

B6 kvadratında olan kürə yerinin şərq tərəfdən içəriyə doğru girişinin başlanğıcında eni 1,78 metr, içəriyə doğru qurtaracağında isə 1,67 metrdir. Giriş yerinin birinci istilik yayan yuvacığınadək məsafəsi 1,75 ikinci yuvacığadək birinci ilə birlikdə 3,24 metrdir. Kürənin girəcəyindən içəriyə şimal istiqaməti üzrə ölçüsü 3,54 metrdir. İstilik paylayan tağçalarının eni 40, uzunluğu 43, hündürlüyü 50 sm-dir. Bu kürəxananın şərq-qərb istiqaməti üzrə divarların bayırdan bayıra ölçüsü 7,2 metrdir. Şimal divarının dibindən cənuba doğru (buraya giriş və iki kürə arasındakı divarın kəlləsi eni də daxildir) ölçüsü 4,57 metrdir. Kürəxananın içərisində yanlarda istilik çuxurları (bunlar üzbəüz döşəməyə yaxın yerdədir) və qərb tərəfdə çınqıl qatışıqlı bir növ əhəng kirəc halına düşmüş bərk qalıqlar vardır. Onu hətta linglə də qoparmaq çətindir. Həmin qarışıqdan bərkimiş əhəng kirənin istehsal tullantısı, saxsı qab və hissələri, dəmir alət, dəmir ovuntusu (dəmir tozu) və s. vardır. Buranın dəmirçiliklə əlaqədar istehsal ocağının olmasını söyləmək üçün əlimizdə xeyli dəlillər vardır. Bunlardan dəmir tozu qarışığı bərkiyib kərpicləşmiş tullantı qalaqları içərisində bütöv dəmir əmək alətləri də qalmışdır. Bu dəmir əmək aləti yaylı iri qayçı hissəsindən ibarətdir. Onun digər hissəsi həmin buradan töküntülər içərisindən tapılmışdır. Onlar tutuşdurularkən eyni alətin hissələri olduğu aydınlaşdı (tablo 70-1, 2). Bu cür yaylı dəmir qırxlıq yaxınlıqda yerləşən Uzunboylar yaşayış yerinin qəbiristanlığından da tapılmışdır. Buradan tapılan qırxlıq (qayçı) böyüklüyünə görə fərqlənir.

Burada istehsal ocağının varlığı şübhəsizdir. Həm də burada müxtəlif sənətkarlıq sahələri olmuşdur və onlar bir-biri ilə müəyyən əlaqələrə də malik olmuşdur. Burada istehsal ocaqlarının işləməsi üçün mühüm təbii zəminlər də mövcud olmuşdur. Belə ki, ətraf ərazi həm də sıx meşələrlə əhatələnmişdir. Bu da öz növbəsində tikinti və yanacaq ehtiyatı yaratmışdır. Bunu sübut edən külli miqdarda dəlillərimiz vardır. Qazıntı zamanı müxtəlif ağacların kömürləşmiş

qalıqları (palıd, göyrüş, dəndə) habelə palıd qozasının kömürü, qoz, cır armud, zoğal, alça tumları və s. tapılmışdır. Bütün bunlar isə antik dövrdə bu ərazinin ekoloji xüsusiyyətləri haqqında da təsəvvürlərimizi əyani şəkildə genişləndirir. Bundan əlavə keçən illərdə qeyd etdiyimiz kimi Ağsuçay dərəsindən hava cərəyanının pəncərələrindən biri Uzunboylar, digəri isə məhz Qırlartəpə abidəsinə açılır. Buna görə də burada həmişə külək əsir və yəqin ki, təbiətin bu qüvvəsindən də qədim sakinlər müxtəlif məqsədlər üçün istifadə etmişlər. Maraqlıdır ki, Şirvanın dağətəyi abidələrinin coğrafi yerləşməsindən yuxarıda qeyd etdiyimiz xüsusiyyətləri səciyyəvidir.

Böyük kompleks tikintini tam aydınlaşdırmaq, divarların əlaqəsini otaq və istehsal ocaqlarını öyrənmək üçün bütün divarlar boyu, habelə ətraflarında qazıntı və təmizləmə işləri aparılmışdır. Buna görə də onun müxtəlif yerlərində işlənmişdir. Cənub tərəfdən keçən əsas divardakı qapı yerinin içəri tərəfindən qazıntı işləri aparılarkən bəzi cəhətlər aydınlaşdırıldı. Belə ki, qapıdan alta doğru divarın davam etdiyi üzə çıxarıldı. Divarın dibində bir iri təsərrüfat küpünün təzyiqdən parçalanmış hissələri aşkar edildi. Bir qədər dərinə düşdükdən sonra məlum oldu ki, burada iki küp yan-yana qoyulmuşdur. Onlardan biri daha çox ovxalanmışdır. Bu küplərin ağzı bünövrə daşları düzülən yerədək 0,4-0,5 metr altda dururdu. Bunlar kompleks tikintinin mərkəzində açılmış divarla cənub tərəfdəki əsas divar arasında yerləşmiş tikintinin içərisindədir.

Divarın altında 1 metrdən artıq qalınlıqda xırda qəlpə daşlardan qat davam edir. Bu hal da ən çox cənub qapısı altında (bir qədər də qərbdən) başlayaraq şərq divarı altına, oradan da dönərək şimal divarı altı ilə qərb istiqaməti üzrə davam edir. Şərq tərəfdə şimal-cənub istiqaməti üzrə olan daş divarın dibindən saxsı cam qırıqları və bir dəmir mıxa bənzər əşya tapıldı. Saxsı cam qırıqları daha qədim dövrə aid olduğu onların forması, tərkibi hazırlanması habelə təbəqələrdən də aydın bilinir.

**Quyu.** V3 kvadratında açılmış otağın içərisi təmizlənərkən onun şərqə doğru açılan qapı yerinə yaxın quyuya oxşar çuxur aşkar edildi. Bu çuxurun ağzı gen, alta getdikdə daralan formadadır. Onun kənarları xırda daş və sarımtıl-yaşıl torpaqla əhatələnmişdir. Bu dolmuş quyunun ağız hissəsi Q4 kvadratında hələ keçən illərdən açılmış iki yan-yana qoyulmuş təsərrüfat küpləri yerləşmişdir. Bu küplərin içərisindən xeyli yanmış taxıl qalıqları tapılmışdır. Lakin bu küplərin yarıdan aşağı hissəsi öz yerindəcə saxlanmışdır. Küplərin ətrafı işlənərkən yenə də kömürlənmiş buğda, bir qara rəngdə, üzəri naxışlı gil muncuq, iri heyvan sümükləri, saxsı qab qırıqları və s. qalıqlar aşkara çıxarılmışdır.

Boşluq çala qazıldıqca iki yanaşı qoyulmuş küplərin altı görünməyə başladı. Aydın oldu ki, bu küplər həmin iri quyunun üstündə, daha doğrusu onun qərb yarısında yerləşdirilmişdir. Şərq tərəfdə isə quyunun üstünü şimal-cənub istiqaməti üzrə kəsib keçən daş divar olmuşdur. Küplərin ağzı yəqin ki, həmin divarın dibinə yaxın olmuşdur. Bu quyunun içərisi dolmuş, lakin bərkiməmiş, yaxıd boşluq hələ

tam yatmamış daş divar hörülmüşdür. İllər, əsrlər keçdikcə divarın quyu üstündən keçən hissəsi boşluq alta doğru basılmış və həmin hissədən divar 0,5 metr aşağı çökmüşdür. Quyunun içərisinə 0,5 metr dərinliyə çökmüş divar hissəsinin uzunluğu 2,3 m, eni isə 1,3 m-dir. Divarın ölçüsü, yəni eni və material üstdə, quyudan kənarda qalmış hissənin eynidir. Bu quyunun ağzının kənarları və sonradan görəcəyik ki, divarların çox yeri iri təbii sal daşlardan ibarətdir. Odur ki, quyu qazılarkən bəzi yerlərdə daşlar çapılıbdır. Onun qazılması zamanı çətinliklər qarşıya çıxmış və əsasən dairəvi formada qazılan quyunun bəzən dördkünc olduğu da təsəvvür edilirdi. Lakin sonradan dairəvi olduğu müəyyənləşdi. Bu quyunun ağzının diametri 2,5 m-dir.

Təqribən 0,5-0,7 metr dərinliyə doğru olan yerlərdə quyu materialı həmin qeyd etdiyimiz iri təsərrüfat küpləri antik dövrə aid saxsı qablar, içərisi çəhrayi, üzəri qara rəngli küpə qırıqları, taxıl qalığı heyvan və quş sümükləri tapılır. İri, yanaşı basdırılmış küplərdən birinin (içərisindən buğda tapılan) hündürlüyü 1,5 m, gen gövdəli olub saxsının qalıqlığı 4 sm, yastı oturacağının diametri isə 24 sm-dir. Onun ağzının kənarı rəfli olub üzəri quş ayağı izini xatırladan batıqlarla naxışlanmışdır. Ümumiyyətlə ağzının kənarı bu cür işarələrlə naxışlanmış küplər buradan çox tapılır. O biri küpün də ölçüləri təqribən belədir. Lakin onun yastı oturacağının diametri 20 sm-dir. Bu küp bir qədər kiçik həcmlidir. Buradakı tapıntılar içərisində boz rəngli vazanın cam hissəsindən bir parçası, kiçik dolu formalı sarımtıl saxsı qab, qara qab qırıqları və qulp hissələri maraqlıdır. Onların içərisində Yaloylutəpə qab tipləri nümunələri də diqqətəlayiqdir. Buradan tapılan taxıl qalıqları Azərbaycan SSR EA Genetika və selleksiya institutunda təyin edilmək üçün verilmişdir. Azərbaycan SSR EA akademiki İmam Mustafayev həmin materialları ilkin olaraq təyin etmiş, bərk və yumşaq buğdaların qarışığından ibarət olduğunu, yəni həm yumşaq, həm də bərk buğda növlərinin varlığını müəyyən etmişdir. Bu taxıl qalıqları içərisində əksər dənlər iridir. Lakin bu tapıntılar əsaslı sürətdə təyinat üçün laboratoriyada saxlanmışdır. İlkin təyinat zamanı xüsusi növ buğda toxumunun varlığı da müəyyən edilmişdir ki, bu da bərk və yumşaq buğdadan seçilir. Şübhəsiz Qırlar kəndi ətrafının dəmyə əkinçilik üçün ta qədimdən yararlı torpaq iqliminə malik olması və burada çox növlü müxtəlif buğda, arpa, ümumiyyətlə taxıl yetişdirilməsi üçün geniş imkanlar yaratmışdır. Şirvanın dağətəyi hissəsində yerləşən Qırlar və eləcə də Sanqalan yaylası ən qədim zamanlardan əkinçilik və taxılçılıq məskənlərindən biri olmuşdur. Qırlartəpə kompleks tikintisinin mərkəzə yaxın yerində aşkar edilmiş bu quyu hələlik yeganə hal olduğu üçün onu nömrəsiz təsvir edirik. Şübhəsiz yenisi aşkar edilərsə, bu 1 sayı ilə qeyd ediləcəkdir.

Bu quyunun üstündən keçmiş daş divarın sonradan çökmüş hissəsinin fotosu və ölçüləri götürüldükdən sonra onu söküb götürdük və alta doğru qazıntını davam etdirdik. Çökmüş divar hissəsi və küplərin alt səviyyəsindən başlayaraq həddən artıq saxsı qab qırıqları, qulpu ağzı ilə gövdəsinə dik yapışdırılmış küpə və

cam formalı qabların qırıqları tapılmışdır. Saxsı çölmək və qulplarının üstü kəsmə naxış, basma deşiklərlə bəzədilmişdir. Bu qablar içərisində üzəri ağ-göyümsov anqoblu qab qırıqları, habelə Yaloylutəpə qab tipinə məxsus olan qulp, ağzı üçləçək formalı qab ağzının qırığı, bozumtul vaza hissəsi və üçayaq vazanın ucu şiş qıçı və s. tapılmışdır. Bütün bunlar quyu ağzından 03,7 metr dərinə doğru olan səviyyədən əldə edilmişdir. Bundan başqa buradan ilk dəmir dövrü qab tiplərinə də təsadüf edilmişdir. Buradan ən maraqlı yenə də yanıq torpaq və başqa materialın külü-kömürü arasından yanıb gömürləşmiş buğda layı tapıldı (bir küncdə). Deməli burada təkcə küplərdə deyil, elə quyunun bu üst səviyyəsindən yerdə taxıl anbarı olduğuna da işarə verir. Lakin bu məhz hələ ağız hissəsi aşkarlanan quyunun özünün bilavasitə taxıl quyusu olduğu demək deyildir. O böyükdür və sonradan görəcəyik ki, daha dərinə gedir və içərisindən cürbəcür qalıqlar tapılır.

Quyunun cənub küncündə ocaq və ya qalın tavayaoxşar dayaz qab və ya suvaq hissələri də tapılmışdır. Buradan iri buynuzlu heyvan sümükləri - kürək, buynuz, aşıq, dırnaq, lülə və s. hissələr çoxlu miqdarda tapılmışdır. Buynuzlardan keçi, cöngə, cüyür, marala aid olan tapıntılar da vardır.

Quyunun 1,8-2 m-ə yaxın dərinliyə doğru səviyyəsində qara çürüntülü torpaq, daş və maddi-mədəniyyət qalıqları ilə doludur. Belə ki, yenə də çoxlu iri buynuz, davar, quş sümükləri, saxsı qab qırıqları, daş qab və alətlər tapılır. Bundan başqa bir ədəd saxsı qab qapağı tapıntısının üstü cam içərisi formada olub, oradan da ilgək formalı qulpu vardır. Bu cür qapaqlar bu yaşayış yerinin yaxınlığındakı qəbir abidələrindən, ətraf ərazisindəki Uzunboylar və Şamaxı ərazisindəki son antik dövr abidələrindən çoxlu miqdarda əldə edilmişdir (b.e. I-III əsrləri). Bundan başqa burada daş qab lüləyi, daş alət, iri qulplu, süzgəcli qabın gövdə və qulp hissələri də tapılmışdır. Sonuncu tapıntı diqqəti daha çox cəlb edir. Belə ki, bu qab iri küpə formalı olub çiynində nehrə qulpuna oxşar dəstəsi vardır. Onun demək olar ki, gövdəsinin bütün hissəsini əhatə edən qırıqları əldə edilmişdir. Deməli bu qabın bütün gövdəsi və oturacağı deşikli hazırlanmışdır. Hətta qulpunun da qabın gövdəsinə yapışan yerləri süzgəcli hazırlanmışdır.

Bu cür süzgəcli qab nümunələri Mingəçevirdən, Qəbələ ərazisindən, İsmayıllı rayonu Şıxdərə kəlləsi antik dövr abidəsindən də tapılmışdır. Lakin yuxarıda qeyd etdiyimiz və hələ adını çəkmədiyimiz daha qədim dövrlərə aid bu cür süzgəcli qab tiplərinin süzgəci ancaq oturacağındadır (əlbəttə buraya ağzı novçalı və süzgəcli qablar daxil deyildir). Çünki onların süzgəci ağzındadır və onların vəzifəsi tez anlanmışdır. Qırlartəpədən tapılan bu qabın boğazına qədər hər tərəfi deşiklidir və onun hansı vəzifəyə xidmət etdiyi bizə tam aydın deyildir.

Qazıntı müddətinin sona çatması və havaların soyuması, yağışların başlaması qazıntını davam etdirmək işini çətinləşdirirdi. Lakin yuxarıda təsvir etdiyimiz quyunun dibi görünmür, davam edirdi. Həm də onun qazılması, xüsusən torpağının çıxarılması xeyli çətinləşmişdir, torpağı yalnız kəndir bağlanmış vedrə vasitəsilə çıxarıb xərəyə töküb və oradan da kənara daşınırdı. Odur ki, iş ləng gedir

və uzun çəkir (Quyunun divarlarında iri sal daşlar (bəzi yerlərində) təbii olaraq qalmışdır ki, onların da çox hallarda vaxtı ilə çapıb düzəltmişdilər.

Quyunun 2-2,5 metr dərinliyində yenə də çürüntülü torpaq, torpağın içərisinə iri tikinti daşları da düşmüşdür. Buradan yenə də heyvan, quş sümükləri, çoxlu güp və xırda saxsı qab qırıqları, yanıq izi və s. aşkar edilirdi. Quyunun 2,3 metr dərinliyindən (əlbəttə bu dərinlik xam torpaq səviyyəsindən götürülmür) qalın yanıq izi aşkar edilmişdir. Quyunun şimal divarı dibindən qara yanıq torpaq qatı içərisindən bir neçə qoz və zoğal, yanıb kömür halını almış cır armud (qərbi), bir neçə zoğal və alça tumları, palıd və dəndə (görüş) ağaclarının kömürü tapılmışdır. Bütün bunlar bizim eranın ərəfəsi və əvvəllərində yaşayış yerinin təbiəti, iqlimi, təsərrüfatı və s. xüsusiyyətləri haqqında əyni və tutarlı dəlillərlə məlumat verir. Qeyd etdiyimiz tapıntılarla yanaşı ağ balıq (asetrin), keçi, qaramal, donuz və başqa heyvan sümükləri də əldə edilmişdir. Saxsı qablar içərisində qulplu qara rəngli qalqalar, çıraq qırmızı rəngdə boyanmış qab, qulplu, lüləkli qab qırıqları, süzgəcli qabın hissələri və s. tapılmışdır.

Maraqlı, həm də nadir tapıntılardan biri də üzəri qırmızıya çalan və ya günəş şüası altında, işıqda bənövşəyi bərq vuran qabdır (balzamari).

Onun gili ağ-sarımtıl rəngə çalır, üzəri şirlənmişdir. Qədim şirli qablara məxsus olan bu qabın üzərinə şir (rəng) anqob çəkilmədən vurulmuş və nazik qat əmələ gətirmişdir. Üzəri parıldayan bu şirli qabın uzunsov gövdəsi olmuşdur. Lakin onun oturacağına doğru olan nisbətən geniş hissəsi qırılıb itmişdir. Odur ki, onun oturacağının necə olması aydın deyildir. Lakin boğazı slindrik ağzının kənarı bir növ baftalı şəkildə dəyirmiləşir, ağzının kənarı ilə boğazının dik yapışmış yastılama qulpu vardır. Eramızın əvvəllərinə aid olan bu qabın oxşar nümunələri Mingəçevir, Şamaxı, Torpaqqala, Gürcüstandan cəmi bir neçə nümunələri məlumdur. Təqribən II-III əsrlərə aid olan bu qab nümunəsi Qafqazda nadir tapıntılardan hesab olunur. Onun xüsusilə xaricdən gətirilmə olduğu güman edilir. Həmin balzamari (?) qabın gövdə hissəsindən bir parçası 2,8-2,9 metr dərinlikdə tapılmışdır. Saxsı qablar içərisindən nazik divarlı cam, çölmək və s. qırıqları tapılır. Buradan yenə də gen boğaz, ağzının kənarından bir qədər aşağı dik fəzaya doğru tuşlanmış lüləyi olan aftafavari qabın boğazı, onun ağzı üçün düzəldilmiş kənarları üstə doğru çevrilmiş və üstündə ilgəkformalı qulpu olan qapaq tapılmışdır. Qapağın alt hissəsi qırılmışdır. Quyunun 3,8-4 metr dərinliyinə qədər qazılıb çatmışdır. Çox yumşaq tökmə torpağın içərisində yenə də çoxlu sümük, kömür, çürüntü, saxsı qab qırıqları vardır. Qab qırıqları içərisində üzəri şüyrələnmiş, üstündə düyməsi olan, qırmızı boyanmış qab qırıqları və qulpları nəzərə çarpır. Bundan başqa daş alətlər, heyvan sümükləri yenə də tapıldı. Buradan tapılan iri küp ağzının qırağı üstündə vergül və ya “9”a oxşar naxışlardan ibarət bəzək cızılmışdır.

Quyunun dərinliyinə doğru endikcə tapılan materiallarda hələlik bir o qədər böyük fərqlər gözə dəymir. Çünki qeyd edilən dərinlik az bir müddət içərisində də

(quyu sıradan çıxıb istifadəsiz hala düşdükdən sonra) dola bilər. Bu quyunun dibində çürüntülü və maddi-mədəniyyət qarışıqlı torpaq hələ davam edir və boşluq üstdən hiss olunur. Yağış yağan zaman və buraya çoxlu su axdıqda tezliklə yox olur: demək olar ki, heç dayanmayır. Bu gen diametrli quyunun işlənməsi növbəti qazıntı mövsümünə qalmışdır. O hələlik qazılıb qurtarmadığı üçün nə məqsəd üçün olduğunu demək çətindir. Onun su üçün olması ağlabatan deyildir. Çünki ətraf sıldırım yamacdır, susaxlama şəraitindən uzaqdır (bəlkə də daha dərinlikdə ola bilər). Yeraltı yol məqsədi güdməsi fikrini də gələcək qazıntı isbat edə bilər. Əgər çox davam etməsə bəlkə anbar vəzifəsi daşıya bilər. Müəyyən şeyləri qorumaq üçün gizlin yerdə ola bilər və s. Lakin bu fərziyələrin qabaqcadan söylənməsinin şübhəsiz lüzumu yox idi. Oxucu bizi məzəmmət etməsin deyə, belə təvazödən xaric səbirsizliyə yol verdik və fikrimizdən keçənləri bildirdik. Əlbəttə bu sirli quyu axıradək qazılıb qurtarmadıqdan onun haqqında fikir söyləmək düzgün deyildir. Çünki onu axıradək diqqətlə işləyib öyrəndikdən sonra ola bilsin ki, heç bizim gözləmədiyimiz tam başqa nəticəyə gəlmək üçün dəlillər meydana çıxsın və onun vəzifəsini aydınlaşdırmağa ehtiyac da qalmasın.

**1988-ci il**

Ekspedisiya 1988-ci il avqust ayının 10-dan oktyabrın 25-nə kimi Ağsu rayonu ərazisində arxeoloji qazıntı və kəşfiyyat işləri aparmışdır. Bu mövsümdə yenə də başlıca olaraq Qırlartəpə və Xirəki qala divarlarında tədqiqat işləri görülmüşdür.

Qırlartəpədə keçən illərdən qazılmış və yarımçıq qalmış sahələrdə iş davam etdirilmiş, başlıca olaraq iri quyu təmizlənib xam torpağa qədər endirilmişdir. Quyunun dərinliyi 4-5 metrə qədərdir (üstdən quyunun ağzı səviyyəsi dəqiq deyil). Onun içərisi əsasən antik dövr materialını əks etdirən maddi-mədəniyyət qalığı və torpaq qatı ilə örtülmüşdür. Quyunun dibində isə tunc dövrünün materiallarına da təsadüf edilmişdir. Quyunun divarında iri sal qaya daşları vardır. Dibində isə bir tərəfdə iri daşlar elə bil əl ilə düzülmüşdür. Lakin daşların ətrafı təmizlənəndən sonra onların gətirilib düzülmə deyil, yerindəcə təbii daşların çapılıb düzəldildiyi aydınlaşdırıldı. Quyunun dibindən eni 1,8 metrdir, ağzının diametri 2,5 metrdir. Quyunun ancaq dibinə az qalmış hissəsi qazılmışdır. Quyu haqqında keçən ilki hesabatda ətraflı bəhs olunmuşdur. Lakin bu quyunun daşıdığı vəzifəyə gəlincə qeyd etməliyik ki, ondan başlıca olaraq təsərrüfat məqsədilə istifadə edilmişdir.

Quyunun demək olar ki, keçən ildən bəri uçub tökülmüş və başqa təsirlərdən dolmuş daş-torpağı çıxarılmış və dibi yoxlanmışdır. Bundan əlavə bir neçə ildən bəri açılmış qazıntı sahəsi, habelə divar qalıqları yenə də bir il ərzində yöndəmsiz hala düşmüş, uçmuş, ot-alaq basmışdır. Həmin vəziyyətlə əlaqədar və qazıntının görkəmini bərpa etmək üçün xeyli təmizləmə, divarları bərkitmə və bu kimi işlər görülmüşdür. Antik dövrün belə bir nadir abidəsi əsasən İnstitut rəhbərliyini, eləcə də bərpa-mühafizə idarələrini bir o qədər də narahat etmir, onun

saxlanması və bir unikal nümunə kimi nümayiş etdirmək və istifadəsi diqqət mərkəzindən kənardadır. Bizim isə yalnız sadə şəkildə, yəni divarların dibinə bəzi dayaqlar verib müvəqqəti mühafizə etmək imkanımız vardır. Hətta onun plan-quruluşunu çıxarmaq üçün də lazımi mütəxəssislərlə təmin edilmir (memar, fotoqraf və s). Az-çox bu işləri özümüz görürük.

Xeyli təmizləmədən sonra qazıntı sahəsinin əvvəlki görkəmi alınmış, müəyyən hissələrdə əsasən qərb-şərq və şərq uclarda qazıntı işləri aparılmış, slayd və fotolar çəkilmişdir. Həqiqətən də açılmış yaşayış məntəqəsinin izdihamlı insan məskəni olduğu indi daha aydın nəzərə çarpır. Qazıntı yerində o qədər müxtəlif çeşidli saxsı qab qırıqları, daş alət qalıqları, əti yeyilmiş mal-qara sümükləri, binalar vardır ki, onlar antik dövr insan cəmiyyətinin gərgin və coşqun əmək fəaliyyətini göz qabağında canlandırır. Qırlartəpə ilə Kəndyeri arasından keçən şosse yolunun təpə tərəfə olan kəsiyində antik dövrə aid torpaq qəbrinin dağılmış hissəsi görünürdü. Daha doğrusu bu abidə yol çəkilən zaman açılmış çoxlu qəbirlərdən biridir. Bunun yalnız qarşı tərəfi uçmuşdur və az hissəsi görünürdü. Meşənin kənarında habelə yaşayış yerinin lap yaxınlığında olduğundan həm də çox hissəsinin meşə və torpaq altda qaldığından onu tərpətmək fikrində deyildik. Lakin bu il qazıntıya gedəndə onun qazıldığını və dağıdıldığını gördük. Odur ki, həmin abidəni daha saxlamaq olmazdı. Abidənin tədqiqilə məşğul olarkən gördük ki, onun çox hissəsi qazılmış, saxsı və başqa qabları sındırılmış, çürümüş bəzək şeyləri və at sələhəsi yaxınlığa tullanmışdır. Əvvəlcə həmin materialı ətrafdan toplamağa başladıq. Xoşbəxtlikdən sındırılmış və atılmış materiallar meşənin içərisində qalmışdır. Onlar əsasən dəmir gəm, at yüyəninin tunc bəzəkləri, əsa və ya silah (qılınc və ya xəncər) dəstəsinə keçirilmiş tunc başlıqdan, saxsı qablardan və ağ daşdan zərif yonulub düzəldilmiş bəzəkli qabdan ibarətdir (tablo 71). Bu daş qab ağır və bütöv olmuş onu “qarətçilər” yerə çırpıb üç yerə parçalamışlar. Onlar hamısı toplanmışdır. Bu daş qabın ağzının kənarına yaxın hissəsindən iri batıq cızıqla çevrələnir. Cızıqların arasında maral, şir və zebu-öküz rəsmləri və habelə onların arasında cızılmış naxışlar aydın bilinir. Daşın bəzi yerləri torpaqda aşındığından hansı rəsm olduğu görünmür. Həm tərkibinə həm də forma və rəsmlərinə görə bu cür oxşar daş qablar Uzunboylar, Buynuz ərazisindən də tapılıb. Bu abidələr bir-birindən çox da uzaq deyildir. Qeyd edilən qəbir abidəsini aşkarlamaq və öyrənmək məqsədilə meşə basmış sahənin məlum istiqamətlə qırıb açdıq və bir qədər gendən qazmağa başladıq (5x3 metr ölçüsündə). Torpaq yola tökülməsin deyə xərəklə meşənin içərisinə daşıdıq. 0,7 metr dərinlikdə qalmış qabların üstü göründü. Onların çoxu parçalanmış vəziyyətdə idi. Həddən artıq parçalanmış saxsı qab qırıqlarını qeyd edib kənara yığdıq. Bütöv və təkrarsız sınıq qabları toplayıb götürdük. Qeyd etmək lazımdır ki, bu qəbir abidəsində çox zəngin material olmuşdur. Təəssüf ki, əksər materialı sökülüb aparılmışdır. Skeletin yalnız qıç sümüklərindən müəyyən hissələr qalmışdır, kəllə sümüyü töküntüsünə görə onun başının şimal-qərbə doğru qoyulduğu görünür. Qəbrə qoyulmuş silah, əmək

alətləri və bəzək şeylərinə təsadüf etmədik. Çünki belə materiallar adətən baş, üz tərəfdə qoyulur. Görünür qəbir dağıdılanda həmin materiallar ya götürülmüş, ya da məhv edilmişdir. Odur ki, onların varlığı və necəliyi barədə heç bir şey deyə bilmərik. Lakin həmin qəbir olan yerdən bir ədəd iki qulaq yabaya oxşar dəmir silah çıxarılmış (bir-iki il bundan qabaq) və Sulut kənd məktəbinə aparılmışdır. Bu cür dəmir silah qonşu Uzunboylar qəbiristanlığından 1982-ci ildə 6 saylı torpaq qəbrindən də tapılmışdır. Həmin qəbirdən də umbonaoxşar tunc at bəzəyi və dəmir at gəmi də tapılmışdır ki, bu cəhətdən bu qəbir abidələri bir-birinə çox oxşardır. Onların dövrü də eynidir. Qırlartəpə yaxınlığında aşkar edilmiş bu torpaq qəbir abidəsində təqribən hesablamaya görə 70-dən artıq təkcə saxsı qab olmuşdur. Bu qabların xeyli hissəsi toplanmış, salamatları götürülmüşdür. Həmin qablar əsasən novçalı, ağzı süzgəcli, lüləkli saxsı qablardan, dabanlı və kasa formalı qırmızı vazalar, qulplu saxsı qalqalar (bunların da içərisində xırdabuynuz heyvan sümükləri-qabırğa, aşıq və s. vardır) çox kiçik qablardan, dopu və kiçik nehrəyə oxşar saxsı avadanlığından ibarətdir. Qabların əksəriyyəti qırmızı rənglə boyanmışdır. Ümumiyyətlə burada qırmızı rəng çəkilmiş xırda və orta həcmli saxsı qablar çoxdur. Qəbirdə təsadüf edilən qara rəngli qablar isə həddən artıq parçalanıb-ovulub tökülmüşdür. Tək-tək ağzı novçalı-üçgül və süzgəcli qablar da vardır ki, bunlar çox keyfiyyətli hazırlanmaqla ağımtıl rəngdə boyanmışdır.

Qırlartəpə yanında aşkar edilmiş həmin qəbir abidəsinin materialı haqqında bir qədər ətraflı məlumat vermək üçün onları müəyyən təsnifatla təhlil və təsvir etmək lazımdır. Qeyd edildiyi kimi istər dağılma zamanı tullanmış material və istərsə də bilavasitə qazıntı zamanı aşkarlanmış maddi-mədəniyyət qalıqları əsasən daş, metal və saxsı məlumatından ibarətdir.

**Daş qab.** Dümağ rəngdə olan bu daş əşya dayaz və qalın cam formasında hazırlanmışdır (tablo 71). Üzəri hamarladılmış bu daş əşyanın oturacağı duz, kənarları isə kiçik çıxıntılı şəkildədir. Qabın ağzının kənarı içəriyə, hündürlüyü 7,5, qalınlığı mərkəzdə 5, kənarlarda isə 2 sm-dir. Daşın kəsiyindən göründüyü kimi onun tərkibi də təmiz və ağdır. O bir növ əhəngdaşını xatırladır. Daş qabın altı və bir tərəfi uzun müddət torpaqda qaldığından aşınmışdır. Hətta ağzının kənarındakı rəsmləri də həmin aşınma gedən hissəyə pozulmuşdur. Bu daş qabı elə bil hazırlamazdan qabaq odda, yaxud kürədə qoyub keyfiyyətini dəyişmişlər. Çünki o kürədə əhəng üçün yandırılan daşa da oxşayır. Lakin bu cür ağ daşlara tapıntı yerləşən ərazisinin yaxınlığındakı dağlarda da təsadüf etmək olar. Daş əşyanın maraqlı cəhətlərindən biri də ondan ibarətdir ki, onun ağzının kənarında 4,5 sm aşağı bir batıq xətlə dövrələnmişdir. Qabın ağzının kənarı boyu çevrələnən zolağın içərisində hərəkətdə olan heyvan rəsmləri yüksək rəssamlıqla cızılmışdır. Heyvan təsvirlərini bir-birindən ayırmaq üçün hər heyvan rəsminin arasında eni 1-1,5 sm olan şaquli vəziyyətlə xətlər cızılaraq 5 zolaq əmələ gətirmişdir. Bunlardan kənardakı iki zolağın daxilində iti ucu yuxarıya doğru olmaqla bir-birinin içrəsində bucaqlar cızılmışdır. Onların yanındakı iki zolağın daxili isə sınıq xətlə yaxud

ziqzaqla, mərkəzdən zolağın arası isə iti ucu aşağıya doğru olan (kənar zolaqların əks istiqamətinə) bucaqlarla cızılıb doldurulmuşdur. Beləliklə də gözəl və zövqüoxşayan həndəsi naxışlar alınmışdır. Bu beş zolaq həndəsi naxışla arakəsmələr müxtəlif heyvan rəsmləri arasında təkrar edilmişdir.

Qabın kənarı boyu çəkilmiş hissədə hansı və neçə heyvan olduğu bəlli deyildir. Lakin bu daş qab tapılan yerdən təqribən 5 km qərbə doğru eyni yayla üstündə yerləşən Uzunboylar antik dövr qəbir abidəsindən 1981-ci ildə tapılmış bu cür daş qabın da üzərində belə rəsmlər vardır. Buradakı heyvan rəsmlərinin hamısı görünür. Onların sayı beşdir və Qırlartəpədən tapılan daş qab üstündəki rəsmlərlə bəziləri uyğun gəlir. Daşın özü isə tam eyni cinslidir və eyni sənətkarlıq və rəssamlıq məktəbinin məhsuludur.

**Metal tapıntıları.** Bunlar dəmir və tuncdan olub, ət əsləhəsinə aid dəmir gəm və onunla əlaqədar dairəvi lövhəşəkilli tunc bəzək eləcə də qılınc dəstəsilə tiyəsinin ayrıcında istifadə edilən ortası deşik, cam formasında tunc əşyadan (efes) ibarətdir (tablo 71).

Gəm yan dəmirlərdən və ağıza keçirilən 8,5 sm uzunluğunda iki “8” rəqəmi formalı dəmir paxladan ibarətdir. Yan dəmirlər 2 sm enində və 25 sm uzunluğunda (qalığı, uclarında sınmışdır) olub, bir ucu düz, digər ucu quş başı formasındadır. Onun əyri ucuna yaxın yerində (üstdə) eni 1,5, uzunu 5 sm ölçüsündə olan dəmir halqa rəbt edilmişdir. Bunların vəzifəsi isə at ağzına keçən dəmir halqaların uclarının keçirilməsindən ötrüdür. Yan dəmirlərdən birinin üstündəki oval formada rəbt edilmiş halqa içərisindəki paxlanın ucuna daha bir başqa uzunsov halqa keçirilmişdir. O biri tərəfdəki sındığından onun üstündə qalmamışdır.

Gəmlə bir yerdə tapılmış umbonaoxşar bəzək əşyası çox güman ki, at yüyəni üstündə rəbt edilmişdir. O bəzək və qoruyucu rolunu da oynaya bilər. Onlar iki ədəd olub biri sınmış, digəri isə bütöv qalmışdır. Bu onların bir tərəfi qabarıq olub ortasında kiçik düməciyi vardır. İçəri tərəfində mərkəzdə dəmir rabitənin iki qalmışdır. Bunların kənarları boyu içəridən bayıra doğru döymə naxışla haşiyələnmişdir. Həmin əşyanın diametrli 12 sm-dir.

Haqqında danışdığımız yüyən hissələri Nüydi və Uzunboylar antik dövr abidələrindən də tapılmışdır. Umbonaoxşar tunc əşya Nüydi qazıntılarından insan skeletinin döş hissəsində iki ədəd və bir ədəd başqa qəbirdə materiallar içərisində, Uzunboylar qazıntıları zamanı isə hərbçi qəbrindən at əsləhəsilə birlikdə tapılmışdır. Deməli onlardan təkcə yüyən bəzəyi kimi deyil, həmçinin insanın döşləri üstünü də bəzəmək, yaxud zireh kimi (qoruyucu vasitə) kimi istifadə edildiyini söyləmək olar. Hazırda bəhs etdiyimiz bu tunc bəzəklərə gəlincə onların dəmir gəmlə bir yerdə tapıldığından yalnız at əsləhəsi bəzəyi və ya zirehi kimi istifadə edildiyinə şübhə yoxdur. Dəmir gəmin özünə gəlincə, ondan Azərbaycan ərazisindən cəmi dörd ədəd, bir ədəd də Gürcüstandan (R.Ramişvili) tapılmışdır.

Başqa bir metal əşya daha maraqlıdır. Bu tunc cama oxşar əşyanın qabarıq tərəfdən 6 sm diametrində dairəvi içəriyə doğru batığı və onun da mərkəzində 2,5

sm diametri olan deşiyi vardır. Bu tunc əşyanın gövdəsində üç yerdə bərabər məsafədə tunc düyməcik məhmizi vardır. Həmin məhmizlərin içəri tərəfdə üstündə dəmir körpücüklər rəbt edilmişdir. Onlar qırılmış, yalnız biri qalmışdır. Bu əşyanın və onun analogiyası Uzunboylar qəbiristanlığından da dağılmış qəbir materialı kimi tapıldığından onun vəzifəsi bizə tam aydınlaşmamışdır. Lakin 15 sm diametrə malik olan bu tunc əşyanın qılınc və ya süngü dəstəsinə keçirildiyini, döyüş zamanı müdafiə əhəmiyyəti kəsb etdiyi (efes vəzifəsi daşıdığı) güman olunur.

Qırlartəpə abidəsində aparılmış arxeoloji qazıntılar zamanı başqa maddi-mədəniyyət qalıqları ilə yanaşı metal məlumatı tapıntıları da çoxluq təşkil edir. Onlar həm qəbir abidələrindən, həm də yaşayış yerlərindən tapılmışdır. Aydındır ki, dəmir alət və silahlar tez korroziyaya uğrayaraq sıradan çıxır. Ona görə də yaşayış yerlərində qeyd edilən əşya qalıqlarına nisbətən az təsadüf edilir. Yalnız təsadüfən əlverişli şəraitə düşmüş, divar və ya ocaq yerində uzun müddət tərpədilmədən örtülü qalmış dəmir əşyalar nisbətən salamat qalmışdır. Lakin qəbirlərdən nisbətən çox və həm də bütöv alət və silahlar əldə edilir. Burada isə ən çox silahlara təsadüf olunur. Tapılmış dəmir alət və silahların çoxluğu, həm də onların qədim Azərbaycan məişətinə məxsus yerli nümunələrin olması baxımdan olduqca maraqlıdır. Məhz Qırlartəpədə metal istehsalı ilə bağlı istehsal kürülərinin tapılması əldə edilən dəmir at gəminin və başqa alət və silahların elə burdaca hazırlanmasına heç bir şübhə doğurmur. Qonşu abidələrdən də külli miqdarda dəmir müxəlləfatının tapılması da bu abidələrdə dəmirçi sənəti və dəmirçixanaların varlığı haqqında aydın təsəvvür yaradır.

**Saxsı məlumatı.** Qırlartəpə yaşayış yeri və qəbir abidələri saxsı qablarının çox çeşidliyi və zənginliyinə görə diqqəti cəlb edir. Bu xüsusiyyət hesabat dövründən aşkar edilmiş torpaq qəbrin materialında qabarıq şəkildə gözə çarpır. Yuxarıda qeyd etdiyimiz kimi çox zəngin saxsı qablara malik olan bu qəbir abidəsinin avadanlığından salamat qalmış və lazımi nümunələr götürülmüşdür ki, həmin material əsasında mülahizələr yürüdüləcəkdir. Belə ki, həmin material içərsində eramızdan əvvəl I miniliyin son əsrləri və bizim eranın I əsri üçün səciyyəvi sayılan yumru gövdəli, ağzı üçgül və ördək dimdiyi formasında irəli uzanan novçalı habelə süzgəcli qablar öz zərifliyi, keyfiyyəti, estetik baxımlı çalarlarından da maraqlıdır. Həmin qablardan iki nümunənin təsvirini veririk. Onlardan biri nisbətən nisbətən iri, digəri isə kiçik dolça-suddanlardan ibarətdir. Həmin qablar sınmışdır və əsas hissələri bərpa edilmişdir. Nisbətən iri və qalın saxsıya malik olan qabın ağzı qırılıb itmişdirsə də, onun qalan hissəsinə görə təsəvvür əldə etmək olar. Bu qab əl ilə hazırlanmasına baxmayaraq çox incə və simmetrikdir. Saxsı nisbətən qalın (çəhrayı rəngdədir) qabın gövdəsi iki çıxıntı şəkilində çevrələnir. Bu çıxıntıdan oturacağa doğru gövdə tədricən yuvarlanır, aldan dairəvi və hamarlanmış batıq oturacağı tamamlayır. Gövdənin yuxarı hissəsi qabın içərisinə doğru yatıq şəkildədir. Qabın boğazı enli və nisbətən hündür şəkildədir. Onun ağzı ilə çiyninin kənarlarına yapışdırılmış və 5 zolağa bölünmüş

lentşəkilli enli qulpu vardır. Zolaqların üzəri çəp cızıqlarla haşiyələnmişdir. Qulpun qabın ağzına yapışdırılmış yerində üstü yastı olan dairəvi yapma düyməciklər bəzədilmişdir. Qabın boğazını çevrələyən iki batıq xəttin arası qısa çəp cızıqlarla naxışlanmışdır. Dəqiq formalaşdırılmış və yaxşı bişirilmiş bu qabın altından bir qədər yeri ağımtıldır. Görünür o kürədə yetişdirilməsi ilə əlaqədardır. Başqa bir "suddanbiçimli" saxsı qab xüsusi gildən yüksək keyfiyyətli ağımtıl zərif və şux görünüşdə hazırlanmasına görə fərqlənir. Əl ilə çox incə və ustalıqla hazırlanmış bu qabın da ağzı gen üçləçək olmaqla irəliyə doğru uzanan novçasının dibində 10 deşikdən ibarət süzgəci vardır. Enli qulaqcıqlı və ördək dimdiyini xatırladan ağız kompleksinin qabın gövdəsinə yapışdırılan yeri iki batıq xətlə dövrələnmiş və içərisi qısa çəp cızıqlarla naxışlanmışdır. Süddanın yandan bir ədəd ikitilli qulpu qulaqcığızın kənarı ilə yuvarlaq gövdənin enli yerinə yapışdırılmışdır. Qabın gövdəsinin enli yerindən çıxıntı şəkilində çevrilən hissəsində (qulpun gövdəyə yapışdırılan istiqaməti üzrə) üç yerdə bərabər məsafədə yəhərvari düyməciklər yapışdırılmışdır. Qabın oturacağı düzdür. Adətən bu tip qabların oturacağı altdan içəriyə doğru kiçik yuvacıqşəkilli batıqdan ibarət olur ki, o yuvaqcığın kənarı qabın yerdə daha yaxşı dayanmasını təmin edir. Bu qabın saxsısının içərisi qırmızı üzəri isə ağımtıl göy rəngdə gil məhlul ilə örtülmüşdür. Ümumiyyətlə, bu tip qabların əksəriyyətinin üzəri ağımtıl rəngdə kefiyyətli məhllula örtülmüş olur. Həmin qabların forma və yayılmasına gəlincə onlar kütləvi surətdə Şimali Azərbaycan ərazisindəki antik dövr abidələri tam səciyyə daşıyır. Deməli bu tip və bundan başqa neçə-neçə tip saxsı məmulatı vardır ki, onlar genetik mənsubiyyət əlaməti baxımından Azərbaycanın qədim tarixi üçün olduqca əhəmiyyətlidir.

Saxsı qablar içərisində tünd qırmızı rəngə boyanmış vazlar da var. Bunlar kasavari gövdəyə malik olub, altdan içəriyə doğru dərin batıq şəkilli oturacağa malikdir. Eyni tip bir neçə qabın sınıqlarından ibarət olan bu vazanın bir bütöv və bir də qopmuş oturacağı götürülmüşdür. Qopmuş qab oturacağının qalığına görə onun ayrıca hazırlandığına və sonradan gövdəyə yapışdırıldığı aydın oldu. Onu tərsinə çevirdikdə kiçik camı xatırladır. Bu vazanın gen ağzı kənara doğru açılmış və yüngülcə aşağıya doğru əyilmiş formadadır. Onun xaricə doğru əyilmiş ağzının bayır tərəfindən çiyin hissəyə doğru kiçik lentşəkilli qulp yapışdırılmışdır. Qabın hündürlüyü 8,5, ağzının diametri 20, oturacağının diametri 10, içəridən dibinin diametri 9 sm-dir. Digər bir saxsı cam enli ağıza və düz oturacağa malikdir. Onun qulpu ağzının kənarından düzbucaqlı formada çıxıntılı düzəldilmiş və üstündən barmaq ilişdirmək üçün kiçik deşik açılmışdır. Bu gil cam da hər tərəfdən qırmızı rəngdə boyanmışdır. Onun hündürlüyü 5, ağzının diametri 15, oturacağın diametri isə 9,5 sm-dir. İstər yuxarıda qeyd etdiyimiz vazaların və istərsə də bu cam formalı saxsı qabların üzərində heç bir naxışlama işi aparılmamışdır. Bir tərəfdən də qablar eləcə də sonra təsvirini verəcəyimiz çox kiçik bir növ oyuncaq üçün olan nümunələr üzərində naxışlama işi aparmaq çox da əlverişli deyildir. Lakin bunlar

qırmızı rəngdə boyanmışdır. Ümumiyyətlə saxsı qablara əlavə estetik görkəm vermək üçün onların ya müxtəlif rəngdə boyamışlar, ya cızma üsulu ilə naxışlamışlar, yaxud da düyməcik və ya bu kimi yapma bəzəklərlə təchiz etmişlər. Saxsı materialı içərisində güvəc, dopu, goduş, həmçinin çox xırda qablar da vardır. Bunlar əksərən dairəvi ağızlı, uzunsov yumru gövdəli düz oturacaqlı və tək qupludur. İri qabların boğazı çəp batıq xətlərlə haşiyələnmişdir. Qabların hamısı qırmızı rəngdə boyanmışdır. Sadə hazırlanmış bu qabların ölçüsündə, qulpların yapışdırılma istiqamətində və formalarında metr müxtəliflik vardır. Bu qabların biri nehrə formasında hazırlanmışdır. Onun qulpu çiynində üfüqi istiqamətdə yapışdırıldığı yerin bir tərəfində kiçik məhmizdən ibarət yapma bəzəyi vardır. Qabın gövdəsində bişmə zamanı hələ bərkiməmiş zədələnib içəriyə doğru batıq əmələ gəlmişdir. Kiçik qablara gəlincə, onlar təkqulp dopu, güvəc və camı xatırladır.

Saxsı qabların hamısı dulus çarxından istifadə edilmədən əl ilə hazırlanmışdır. Şübhəsiz həmin qablar yaxınlığındakı yaşayış yerindəki açılmış dulus kürələrində bişirilmişdir. Buradan da başqa sənət sahələri ilə yanaşı dulusçuluq mühüm yer tutmuşdur. Saxsı qablar əsasən qırmızı, boz, qismən qara rəngdə istehsal olunmuşdur. Yuxarıda bəhs etdiyimiz saxsı qabların əsasən qırmızı rənglə tam boyanması göstərilən yaşayış yeri dulusçuların arasında boyaçılıq peşəsində də mühüm yer tutduğunu bildirir. Qırmızı boyaq almaq üçün məhz Qırlartəpə yaşayış yeri və ətrafında təbii şirə, habelə xüsusi yetişdirilmiş bitkilərin kökü və qabığından istifadə edilmişdir. Qırlartəpə və ətrafında vəlgə (saralan), sumax kolları yetişmişdir ki, onları da boyaçılıqda istifadə edilir. Təpənin özündə ot bitkilərindən teşənəayağı-kasnı qırmızı kaşanin çox güman ki, marenadır. Kolcuqlar bitir. Həmin bitkinin kötüyü tünd qırmızı rəng verir və boyadığı əşyanın üstündən getmir.

Çox güman ki, həmin bitkinin kötüyündən vaxtı ilə qırmızı rəng alınmış, məişətdə boyaqçılıq məqsədi ilə istifadə edilmişdir. Bununla da belə qənaətə gəlmək olar ki, qırmızı boyalı qabların rənglənməsində həmin bitkilərin kötüyündən geniş surətdə istifadə edilmişdir. Yerlilərin söylədiyinə görə kasnıy kaşanel deyilən bitkinin kötüyündən xalq təbabətində istifadə olunmuşdur. Belə ki, kasnı, yaxud teşənəayağının qırmızı kaşanel kötüyündən yığılan, kərə yağında qaynadılıb məlhəm hazırlanır və öskürək - soyuqdəyməni sağaltmaq üçün içilir. Bundan qanaxmanın kəsilməsində də istifadə edildiyini söyləyirlər. Kasnı bitkisinin kötüyündən alınan rəng və ya dərman acı dadır, boğazı göynədir. Bunları söyləməklə bir qədər mətləbdən uzaqlaşsaq da hər halda həmin bitkinin qırmızı rəng verdiyini və onun dadının bilavasitə müşahidə etməyimizi, eləcə də yerlilərinin bu barədəki maraqlı məlumatını xatırlatmağı lazım bildik. Həmçinin yerli ahılların söylədiyinə görə bu bitkidən boyaqçılıqda da geniş istifadə edilməlidir. Qeyd etməliyik ki, kasnı və başqa təbii ehtiyatlar qədim sakinlərin məişətində mühüm yer tutmuşdur.

**1989-cu il**

Ekspedisiya 1989-cu il avqust-sentyabr aylarında Ağsu rayonunun Qırlartəpə abidəsində qazıntı və kəşfiyyat işləri aparmışdır.

Qırlartəpədə bir neçə il ərzində aparılmış arxeoloji qazıntılar nəticəsində onun demək olar ki, antik dövr tikililərinin bünövrəsinə qədər qazılmış divarlar (onlar bəzi yerlərdən 3-4 metr hündürlükdə qalmışdır) açıq havada uzun müddət davam gətirib qalmır, uçub tökülür. Bu divarlar vaxtı ilə tikilərkən araları palçıq məhlulu ilə bərkidildiyindən yağış, qar və başqa təbii qüvvələrin təsirindən tez sıradan çıxır. Antik dövrün bu nadir tikinti nümunələrini aşkar edəndə nə qədər sevinirdiksə, indi ona əlaqədar idarələrin, elə İnstitut rəhbərliyinin özünün də ögey münasibəti üzündən məhv olub sıradan çıxması bir o qədər kədərləndiricidir. Görünür abidələrin qiyməti onun tarixi əhəmiyyəti ilə deyil, tədqiq edənin kim olması ilə ölçülürmüş. Çünki bu barədə dəfələrlə müdiriyyətə məlumat verilmiş, hətta yerli ziyalılar Akademiyanın rəhbərliyinə bu barədə ürək ağrısı ilə məlumat vermişlərsə də, heç bir təsiri olmamışdır. Ağırlıq yenə də üzərimizə düşmüşdür. Biz ancaq abidənin divarların dibinə iri daşlar söykəməklə onun uçmasının müvəqqəti qarşısını almağa çalışmışıq. Lakin bu da kömək etmir. Bu cür işlər isə ekspedisiyanın xeyli vaxtını alır. Digər tərəfdən belə primitiv konservasiya abidənin və divarların görkəmini korlayır.

Məlum olduğu kimi Qırlarpətə abidəsi qədim və müasir Şamaxı şəhərinin qərbə doğru 20 km-liyində, qədim yollar üstündə yerləşir. Hazırda isə həmin qədim yolun istiqaməti üzrə yeni şosse yolu salınmışdır. Bu yol Qırlartəpə abidəsi tamaşaçılarının sayını çoxaltmışdır. Buradan hərəkət edənlər tez-tez abidəyə gəlir, baxır, keçmişimizlə tanış olurlar. Bunu söyləməklə məqsədimiz ondan ibarətdir ki, respublikamıza gələn xarici turistləri və mütəxəssisləri buraya istənilən vaxtda gətirmək, göstərmək və qədim mədəniyyətimizi nümayiş etdirmək olar. Bunu söyləməklə məqsədimiz ondan ibarətdir ki, respubilkamıza gələn xarici turistləri və mütəxəssisləri buraya istənilən vaxtda gətirmək, göstərmək və qədim mədəniyyətimizi nümayiş etdirmək olar. İş o yerə gəlmişdir ki, abidənin qorunması haqqında balaca bir izahedici lövhə də basdırılmışdır. Görünür bunlar da biganəlik, durğunluq dövrünün nəticəsidir. Nə rayon mədəniyyət şöbəsi, nə də onun tabe olduğu mədəniyyət Nazirliyi belə məsələlərə baxır. Halbuki abidə 20 ildən artıqdır ki, qoruq siyahısındadır.

Bu mövsümdə qəsr tipli Qırlartəpə abidəsinin yalnız xaricində daha doğrusu divarlardan bayıra tərəf yamaclarda qazıntı işləri aparmışıq. Bu bir tərəfdən daş tikinti kompleksinə toxunmamaq, onu hələlik saxlamaq, digər tərəfdən isə xaric yamacın xüsusiyyətini, tikinti ilə əlaqəsini aydınlaşdırmaq olmuşdur. Bu da başlıca olaraq abidənin Cənub və Şərq yamaclarında iş aparmaqdan ibarət olmuşdur. İçəridə isə dağıntı, uçquntuları sahmana salmış və keçən illərdən aşkar olunmuş iri quyunun qazılmasına təşəbbüs göstərilmişdir. Qeyd edək ki, quyu keçən bir il

ərzində xeyli dolmuşdur ki, onu yenidən təmizləməli olduq. Məlum olduğu kimi quyunun divarları nəhəng daşlardan, qayalardan ibarətdir ki, quyu qazıldıqda onların uçub düşməsi qorxusu da var. Quyunun dibində isə elə bil bir tərəfi çapılmış iri daşlardan hörgü var. Bu bizi keçən ildən şübhələndirir. Onları çıxarmaq istədikdə üstəki daşların qopub düşməsindən çəkindik. Odur ki, bu müəmmalı işi yenə də başa çatdıra bilmədik. Quyu haqqında əvvəlki illərdə verdiyimiz hesabatlarda fərziyyələrimizi göstərdiyimizdən burada onun haqqında söhbət açmağı artıq hesab edirik. Hər halda bu quyunun sirri tam aydın deyildir.

Tikinti kompleksi yerləşən təpənin Cənub-qərb küncündə, yamacda qazıntı işləri apararkən buradan yenə də tərkibində saman qarışığı olan yarımbişmiş keramika qırıqlarına, yanıq, kül, savaq parçaları izinə təsadüf edilirdi. Lakin bunların, daha doğrusu, yanğın izi daş divarların altına doğru davam etdiyindən axıra çatdırılmadı. Yuxarıda qeyd etdiyimiz kimi bunun üçün üstdəki divarlar götürülməlidir. Burada A1, B1, V1 kvadratlarında qazıntı işləri zamanı daşlı torpaq qazılıb dərinləşdirildikcə yanmış suvaq parçaları, heyvan sümükləri, habelə gil qab ağzından sınmış parçalar tapılırdı ki, bunların da ağız kənarı yastı olub xaricdən deşmə naxışlara malikdir. Bu qab parçaları antik dövrdən əvvəlki vaxtları xatırladır. Çox güman ki, ilk dəmir dövrü və ya son tunc dövrünə aiddir. Bura təpənin maili yamacından ibarət olub, qarışıq maddi-mədəniyyət qalıqlarına rast gəlinir. Çünki təpənin ətəyindən iri daşlardan hörgü çəkilmiş və ətəkdən yuxarı qalxdıqca pilləvari hörgülər paralel davam etdirilmiş, beləliklə də onlar həm yamacın təbii hadisələr zamanı aşınmasının qarşısını almış, həm də onun möhkəmliyini təmin etmişdir. Görünür bu üsulun tətbiq edilməsi, tikintinin təpənin üstündə inşa edilməsilə bağlıdır. Yamac hissədə pilləli divarların və ya hörgünün arası təmizlənərkən buradan dən daşı qırıqlarına, qara və hamar, yumru bütöv daşına, heyvan sümüklərinə də təsadüf edilmişdir. İri dən daşı parçası ilə divar hörgüsü arasında tikinti daşı kimi istifadə edilmişdir. Bu alət sıradan çıxandan sonra ondan tikinti materialı kimi istifadə edilmişdir.

Təpənin şərq yamacında, daha doğrusu əvvəlki illərdə açdığımız daş divarlı tikinti qalığından xaricə doğru mailli uzanan sahədə də pilləli bərkitmə işləri görülmüşdür. Bu hissədə qazıntını davam etdirərkən abidənin şərqə doğru 5 metr, şimal-cənub istiqaməti üzrə isə 7 metrlik məsafəsi olan yerdə, ətəkdə iri daşlardan hörgü ilə əhatələnmişdir. Bu iri daş hörgüsündən üstdə isə yenə də hər 2, 3 və ya 1 metrdən bir daş cərgəsi çəkilərək araları xırda daş, torpaqla doldurulmuşdur. Bu hissələrdə maddi-mədəniyyət qalıqlarına az təsadüf edilir. Beləliklə əldə olan material çox xırda saxsı qab qırıqlarından, kömür və sümük materialından ibarətdir. Qeyd etmək lazımdır ki, istər bu sahədən və istərsə də abidənin başqa yerlərindən həddən artıq ev heyvanı, quş və balıq sümükləri tapılmışdır. Buradan hərbi kazarma kimi də istifadə olunması güman edilir. Şübhəsiz, abidə uzundövrlü yaşayış yeri olduğundan ayrı-ayrı dövrlərdə zamanın gərdişilə əlaqədar yaşayış yerindən müxtəlif təsərrüfat sahələri və siyasi münasibətləri əks etdirən həyat

fəaliyyəti mövcüd olmuşdur. Bunun üçün qədim dövrlər üçün səciyyə daşıyan əlverişli təbii coğrafi şəraitin olması əsas şərtlərdən biridir. Buranın havası, torpağı, suyu, daşı, meşəsi, xüsusilə çaydan dərələrlə boru kimi çəkilən hava cərəyanı, ətraf ərazinin aydın görünməsi və i.a. cəhətdən çox böyük əhəmiyyət kəsb edir. Təbiidir ki, yaşayış üçün təbii imkanların çoxluğu və strateji xüsusiyyətlərin varlığı uzun müddətli yaşayış məskənin bərqərar olmasına səbəb olmuşdur. Qalaça yerləşən təpənin şimal yamacında da təmizləmə işləri apardıq. Bu işlər əsasən yan divarlardan xaricdədir. Çox hallarda buraya tökülmüş daş-torpaq üstdən axmış və maddi-mədəniyyət qalıqları da təkrar material qırıqlarından olduğundan onları yenidən toplayıb gətirməyi lüzumsuz bildik. Məlumdur ki, Qırlartəpənin yaxınlığında yaşayış yerinə məxsus qəbir abidələri də vardır və onlardan yenə də əvvəlki illərdə bir neçəsi tədqiq edilib öyrənilmişdir. Qeyd etməliyik ki, həmin qəbir abidələrinin heç bir yerüstü əlaməti demək olar ki, yoxdur. Odur ki, onları əsasən təsadüfi hadisələr zamanı açılan vaxt öyrənmişik. Əslində onların axtarılmasına səy göstərilmiş, lakin qazılmasına hələlik tələsməmişik. Çünki kifayət qədər açılmış qəbir abidələri yaşayış yeri ilə müqayisə üçün lazımi material vermişdir. Lakin bu o demək deyildir ki, biz qəbir abidələrinə biganə qalmışıq. Hər halda həm qəbir abidəsi, həm də yaşayış yeri bərabər öyrənilərsə daha hərtərəfli məlumat əldə etmək olar. Ona görə də biz hər il çox dağılmış qəbir abidəsinin yaxınlığında, xırda meşənin içərisində daş topası olan yerdən şübhələndik və orada kəşfiyyat qazıntısı götürdük. Burada 4x4 metr sahədə işi davam etdirdiksə də, nəticəsiz qaldı. Məlum oldu ki, həmin daş topası vaxtı ilə yaşayış yeri becərilərkən sahənin təmizlənməsilə əlaqədar buraya daşınıb tökülmüşdür. Burada isə qəbirlərin varlığı şübhəsizdir. Bunun üçün geniş qazıntı sahəsi açmaq lazım gəlir. Bu isə bilavasitə bu ilki planımıza daxil olmadığı üçün edilmədi. Digər tərəfdən də bu barədə əlimizdə kifayət qədər material vardır. Əldə olan materiallara görə isə burada açılan qəbir abidələrinin əksəriyyəti hərbçiyə məxsus olmuşdur. Belə ki, bunların yanında dövrün döyüş texnikasını, hətta suvari döyüşünü əks etdirən zəngin maddi-mədəniyyət qalıqları-nizə, oxucu, hərbi yaba, kaman, at əsləhəsi, sapand daşı və s. tapılmışdır ki, bu da qalaçanın hərbi strateji xüsusiyyətilə müəyyən dərəcədə çulğalaşır.

**1990 - cı il**

Son bir-iki ildə ölkədə siyasi və iqtisadi vəziyyətin kəskinləşməsi, hərcmərcliyin tuğyan edilməsi, xüsusən Azərbaycan Respublikasına Mərkəzin himayədarları ilə erməni millətçilərinin xaincəsinə qəsbkarlığı bütün sahələrdə öz mənfi təsirini göstərmişdir. Vəziyyətin gərginliyi elmi-tədqiqat işlərinin də pozulmasına səbəb olmuşdur. Gecikmə və başqa düşgünlüklərə baxmayaraq ekspedisiya öz işini davam etdirmişdir. Belə ki, çöl-tədqiqat işləri 1990-cı il avqustun 15-dən oktyabrın sonunadək antik və orta əsr abidələrində qazıntı işləri, Kürdivan kəndi yaxınlığındakı son antik dövr şəhərgahında yerüstü axtarışlar,

habelə Sulut kəndi yaxınlığında olan Qılınc dağı üstündəki orta əsr qala yerlərində kəşfiyyat aparılmış, nəticədə xeyli tarixi məlumat toplanmışdır. Ekspedisiyanın tərkibində dəstə yaradılmasına imkan verilmədiyi üçün (dəfələrlə təşəbbüs edilmiş, səlahiyyət sahibləri sakitcə üstündən xətt çəkmişlər) böyük bir ərazidə çox mühüm, hətta dağılıb yoxa çıxmaqda olan abidələrin vaxtında öyrənilməsi ləngiyir. Vaxt öz işini görür, tariximizin səhifələri pozulub sıradan çıxır.

Qırlartəpədə qazıntını davam etdirmək məqsədilə ötən bir il ərzində ot-əncər basmış sahəni təmizləyib köhnə sahənin görkəmini bərpa etməklə məşğul olduq. Sahənin təmizlənməsi xeyli vaxt aparır. Qazıntı aparılmış yerlərdə divarlar uçub tökülmüş, quyunun kənarları uçub içərisi yenidən dolmuşdur. Bir də ki, burada qazıntı aparmaq işi də xeyli çətinləşdirilmişdir. Əvvəlki qazıntı ölçüləri pozulub, divarlar uçub. Alt təbəqələrə doğru işləmək üçün divarların altını qazmaq lazım gəlir. Lakin bunun üçün də tam memarlıq və başqa işlər də görülməyib. Bərpa və başqa işlər də görülməyib. Bərpa və möhkəmlətmə işlərindən isə heç danışmaq olmaz. Çünki bərpaçılarımız və əlaqədar mütəxəssislər Bakı və onun ətrafından uzağa getmək istəmirlər. Ona görə də abidənin saxlama məsələsi də müşküldür.

Təpənin nisbətən hündür yerində-qərb tərəfində açılmış divarların üstü və ətrafı təmizləndikdə saxsı qab qulpu və başqa hissələri müşahidə edilirdi ki, bunlar da əsasən keçən illərdən qalandır. Bundan başqa divarların dibindən oturacağı enli və yastı, bərni formalı ilk tunc dövrü və ya eneolit qab qırıqlarına da təsadüf edilirdi. Buradan qeyd edilən dövrlərə aid qab-qacaq və materiallar əvvəlki illərdə də tapılıb. 2 BVK kvadratlarından (təpənin cənub-qərb tinindəki istehsal ocağı və ya məişət otağı olan yerdən), küllü torpağın içərisindən iki ədəd çox kiçik buynuzdan (çox güman ki, cüyür buynuzudur) biz kimi istifadə edilən alət də tapılmışdır. Bütün bunlar və başqa ocaq yerləri və s. burada hələ ibtidai icma dövründən istehsal ocağı və başqa təsərrüfat sahələri haqqında aydın təsəvvür yaradır. Təəssüf ki, burada qazıntı işləri davam etdirməyə başqa bir amil də mane olurdu. Belə ki, 1990-ci ilin yay ayı tam quraqlıq keçdiyindən və təpənin daim küləktutanda yerləşdiyindən kül halında olan torpağı tərpətmək belə mümkün olmadı. Külək tozu sorub duman halına salırdı. Odur ki, burada iş şəraiti gözləməklə, yəni yağış yağmasını gözləyib toz kəsiləndən sonra burada işləməyi qərara aldıq. Bu fürsətdən istifadə edib Qırlartəpə ilə Kəndyeri arasında yerləşən nekropolda çoxdan güman etdiyimiz yerlərdə qəbir abidələri qazmağı qərara aldıq. Düzdür, burada şose yolu çəkilərkən qəbir abidələri dağıdılmış və dağıntı ilə əlaqədar onlarda tədqiqat aparmışıq. Həmin qəbirlər açılan yerlərdə isə indi yol və bağ salındığından qazıntı aparmaq bir qədər çətinləşib. Lakin biz heç bir təsərrüfata və yola xələl gətirmədən tam kolluq ola bilməsi gümanı ilə Kəndyerinin cənub kənarında, Qırlartəpədən 200-300 metr şimala doğru yolun o biri tərəfində, Govur bulağının üstündə, Sulut çayına baxar yamacda kəşfiyyat qazıntısı aparmağı qərara aldıq. Bu yamacın ətəyindən bağa və başqa sahələrə maşın işləməsi üçün yol

düzəldilərkən saxsı qabları və insan sümüklərinin çıxmasını müşahidə edilmişdir. Bütün bunlar burada qəbir abidəsi olmasına işarə verirdi. Qırlartəpə kimi çox təbəqəli abidənin həm də böyük bir yaşayış yerinin qəbiristanında bilavasitə planlı qazıntı aparmaq da lazımdır.

Məhz buna görə də həmin yerdə kəşfiyyat, daha doğrusu bir başa nisbətən iri qazıntı sahəsi seçdik. Həmin sahədə sonradan heç bir dəyişiklik etmədən qazıntını axıradək davam etdirdik. Çünki seçilmiş yer tam nöqtəsinə düşmüşdü. Əvvəlcə 10x6 metr ölçüsündə qazıntı sahəsi götürdük. Üst təpcəklərdən sonra 30-40 sm-dan xırda saxsı qalıqları həddən artıq tapılırdı. Həmin saxsı qırıqları buranın vaxtı ilə yaşayış yeri olması, habelə sonralar uzun müddət əkin yerlərinə çevrilib şumlandığından, istər yer üstündə, istərsə də qazıntı zamanı çox tapıntılar vaxtaşırı sürtülüb hamarlanmış və xırdalanmışdır. Tapıntıların qalmış hissələrinə görə (qulp, ağzının kənarı və s) antik dövr üçün səciyyəvidir. Qazıntı sahəsi bir qədər yamac və göyəm kolluğundan ibarət olduğundan mədəni qatda qarışıqlıq hiss olunurdu. 50-60 sm dərinlikdə üst qarışıq qatdan əsasən keramika qırıqları görünürdü. Burada torpağın rəngi tədricən dəyişir, ağımtıl sarı rəngə çalır və maddi-mədəniyyət qalıqları nisbətən azalır. Bundan əlavə dərinə düşdükcə torpağın yumşaldığı hiss olunur və qəbirlərin varlığını bildirirdi. Bir metr dərinlikdə 2 parçadan ibarət iri, qara çopur daşdan düzəldilmiş dən daşı hissələrinə təsadüf edildi. Həmin parçalar eyni bir alt daşının hissələrindəndir. Onların bütövlükdə ölçüsü 45x25x7 sm-dir. Bundan başqa daha başqa bir dən daşı parçası da tapılmışdır. Bu hissə daha miniatür olub, həm də o birisindən xeyli kiçikdir. Bu da alət üstə hərəkət etdirilərkən dən daşıdır. Bu altdakından kiçik və nisbətən daha bərkdir. Bu dən daşı alətlərdən çoxlu tapıldığı və əvvəlki illərdə nümunələr götürüldüyü üçün onların yerindəcə yalnız fotosu götürüldü. Dən daşları tapılan yerə yaxın, eyni dərinlikdən xırda heyvan sümüklərinə də təsadüf edilmişdir. Bu sümüklər çox kiçik heyvanın çənə və dişlərindən ibarət idi. Bu çənə sümükləri (azı dişlərlə birlikdə) təqribən dovşan, hətta daha xırda heyvana yaxın fauna qalığı hesab oluna bilər. Bütün bu göstərilənlər qəbiristan ərazisində qəbirlərdən üstdəki mədəni təbəqə və yaşayış qalıqlarının varlığı haqqında aydın təsəvvür yaradır. Beləliklə qəbiristan sahəsində açdığımız qazıntı sahənin üst qatının cüzi mənzərəsi belədir. Əlbəttə geniş miqyaslı qazıntılar zamanı buradan daha zəngin məlumat əldə etmək olar. Yuxarıda qeyd etdik ki, 50-60, hətta 1 metrə yaxın, qatlardan artıq qəbir əlamətləri hiss olunurdu. Artıq 1 metr dərinlikdə torpağın quruluşunda qazılmış qəbirin izi və istiqaməti məlum olurdu. Belə ki, şərq-qərb istiqaməti üzrə qəbir cizgisi aydınlaşdı. 1-2 metr dərinə düşdükdən sonra qabların üstü bəzi yerlərdə görünməyə başlandı. Bir qədər işlədikdən sonra qabların düzülmə istiqaməti va qəbir cizgisinin görünüşünə görə 2,8x1,8 metr ölçünü ilk müşahidə edə bildik. Hələlik bəzi saxsı qablar və mərasimlə bağlı daşlar aşkar edilmişdir.

Aşkar edilmiş bu torpaq qəbir 1 saylı kimi qeydə alındı. 1 saylı torpaq qəbiri adlandırdığımız bu abidənin ətrafı və içərisi tam açıldıqdan sonra aydın oldu ki, qəbirin istiqaməti şərq-qərb üzrə olmaqla skeletin kəlləsi qərbə doğru, sol böyrü üstə, üzü şimala doğru yönəldilmiş vəziyyətdədir. Kəllə sümüyü tam əzilib xırdalanmışdır. Bu skelet iri adama, kişiyə aiddir. Onun əlləri qarını üstündə, daha doğrusu qıçları üstündə çarpazlaşdırılmışdır. Əllər paçası üstündə qıç sümüyünə söykənmiş şəkildədir. Barmaqlar çürüyüb sol qıçı önünə və paçası arasına tökülmüşdür. Qıçlar dizdən sıx qatlanmışdır. Altda qalmış sol qıç qatlanaraq çanaq sümüyünə dirənmişdir. Sağ qıçın sümüyü isə dizdən bükülərkən sol qıçdan bir qədər qabağa çıxmışdır. Gələcəkdə antropoloqlara kömək məqsədi ilə skeletin bəzi sümüklərinin ölçülərini yerindəcə qeydə aldıq. Kəllə sümüyünün çənədən təpəyə qədər ölçüsü 30 sm, alınla birlikdə arxasına peysərə qədər 23 sm, boğazın uzunluğu 14 sm, kəllənin təpəsindən çanaq sümüyünədək 90 sm, qıç sümüyü dibdən dizinədək 51 sm, dizdən topuğadək 51 sm-dir. Ayağı dabandan baş barmağın ucunadək 25 sm, çanağın eni 15 sm-dir. Əl barmağın bir buğumu, yaxud büküyü 4 smdir.

Skeletin üzü qarşısında 7 ədəd saxsı qab qoyulmuşdur. Onlar ağzı üçgül, arxadan təkqulp olan nisbətən iri dolça, ağzı dairəvi, çiyni ilə ağzına yaxın yerdə qulp olan, boruşəkilli boğaza, şar şəkilli gövdəyə, düz oturacağa malik qırmızı rəngli saxsı qab, kiçik, ağzı üçgül donu ağzı və çiyninin iri çıxıntılı yerinə lent şəkilli qulp yapışdırılmış və qırmızı rəngə boyanmış iki qulplu vaza, ağzı dördgül boz rəngdə dolu, kiçik qonur, dolu, daha bir dayaz vazanın kənarları içəridən qırıq xətti xatırladan cızıqlarla çevrələnən qabın içərisində 600-700 qramlıq ağ daş qoylumuş materiallardan ibarətdir. Sonuncu qabın və daşın üstündə xırda buynuzlu heyvanın kürən və qol sümükləri vardır. Skeletin arxasında yenə xırdabuynuz heyvan sümükləri qalmışdır. Skeletin dizləri və ayaqları qarşısında nisbətən iri saxsı qablar qoyulmuşdur. Bunlar gövdəsində (2 yerdən) dik qulp yapışdırılmış orta həcmi küp, daha bir ədəd ağzının diametri 39 sm olan saxsı çanaq və başqa sınıq qablar var ki, bunlar da 7 ədəd olub ayağı və dizi qarşısına qoyulmuşdur. Ortadakı iki qulplu çanağın içərisində 1 ədəd üçayaq vaza vardır ki, onun da en kəsiyi dairəvi olan bir qulpu vardır.

Ölünün ayaq tərəfindəki qablardan sonra şərqə doğru bir inək kəlləsi və qıçları qoyulmuşdur. Bu qaramal kəlləsində kiçik buynuzların dibləri qalmışdır. Bu heyvan kəlləsi yanına yenə bir saxsı qab və onun da yanında ucu şərqə doğru bir dəmir nizə qoyulmuşdur. Nizə çox paslanıb düzülmüşdür. Onun uzunluğu 20, tiyəsi 13, dəstək yeri tıxacı 7 sm-dir. Nizənin tiyəsinin ucda eni 1,5, arxada 2 sm-dir. İnək və ya öküz kəlləsindən sonra şərqə doğru bir iri küp basdırılmışdır (adətən ayaq tərəfə iri küp basdırılır).

Beləliklə skeletin üzü qarşısında 7 ədəd nisbətən kiçik saxsı qab ayaqları tərəfdə 9 nisbətən iri küp qoyulmuşdur. Ayaq tərəfdəki küplərin üstündən 1 gözmuncuğu tapılmışdır. Skeletin üzü qarşısındakı xırda buynuz heyvan sümükləri

üstündən iti ucu qəbrə doğru olmaqla 1 nizə tiyəsinə oxşar dəmir cıda və ya ox ucu tapılmışdır. Onun sulğuncu ağac dəstəyə sancıldığı bilinir. O tam çürüyüb ovuntu halına düşmüşdür. İri buynuzlu heyvan sümükləri üstündə nizə ucluğu qəbrin şərq tərəfində ucu xaricə doğru, xırda buynuzlu heyvan sümükləri üstündəki ox ucuna oxşar silah qalığının qəbrin qərb tərəfində ucu yenə xaricə doğru yönəldilmiş vəziyyətdə idi. Ucaboylu adama məxsus skeletin ətrafındakı əmlakına görə onun orta həyat səviyyəsinə malik əkinçi və ya maldarlıqla məşğul olduğuna da dəlalət edir. Ümumiyyətlə öyrəndiyimiz zonadakı qəbir abidələri içərisində qadın qəbirləri kişilərinki ilə müqayisədə daha zəngindir.

**2 saylı torpaq qəbri.** Yuxarıda qeyd etmişdik ki, yoxlama qazıntısı və ilk qəbir abidəsi açılarkən kənarlara doğru daha başqa abidənin izi görünməyə başladı. Məhz bu qara zolaq şəklində qazılmamış torpaq qatı altında növbəti qəbir abidəsinin varlığını bildirirdi. Bu əlamət 1 saylı torpaq qəbrindən cənub-qərb istiqamətində idi. Odur ki, bu sahənin qərbdən cənuba və yenidən şərqə doğru, uyğun şəkildə genişləndirdik. Burada həm əvvəldən qazılmış, kəsikdə, həm də yenidən üst qatın götürülməsi nəticəsində qatların dəyişkənliyi daha aydın müşahidə olunur. Vaxtı ilə qarışdırılmış üst torpaq qatından müxtəlif saxsı parçaları, heyvan sümükləri və s. qalıqlar gözə çarpırdı. 30-40, bəzən 50 sm-a qədər qara torpaq qatı davam edirdi. Bundan alta doğru isə ağımtıl sarı torpaq qatının içərisində təbaşir ləkələri olan torpaq müşahidə edilirdi ki, bu da daha yumşaq idi. 70-80 sm dərinlikdə heyvan sümükləri gözə görünməyə başladı. Bunları xırda və iri buynuzlu heyvan sümüklərini qəbrin üstündə qoyulmuş qalıqlardan ibarət idi.

1, 1,2, 1,64 metr dərinlikdə bəzi qəbir avadanlığı görünməyə başladı. Onu da qeyd edək ki, 0,4-0,5 metr dərinlikdə ağımtıl torpaq qatından bir uzun dəstək, dəstəyinin ucu boru şəkilli olan dəmir ox ucu tapıldı. Ox ucu üç pərli olub, həddən artıq korroziyaya uğramışdır. Bu görünür yer şumlanarkən nisbətən üstdə olduğundan qarışdırılıb üzə çıxarılmışdır. Bundan əlavə bir ədəd də ucdan açıq, boruşəkilli saplağı olan dəmir nizə dəstəsi tapıldı. Dəmir ox ucundan dəstəsinin ucu boruşəkilli olub, ona ağac dəstək geydirilərək nizə kimi də istifadə olunduğu bilinir. Əvvəlcədən bu ikinci qəbrin kənar xətti bilindiyindən, artırılan sahədən üst qat götürülərkən tapılmış ox ucu və nizə hissəsi ilə yanaşı daha üç ədəd nizənin iti ucları fəzaya doğru qəbrin üstünə sancıldığı vəziyyəti müşahidə etdik. Bunların görünür, uzun saplağı yerə sancılmış, daha doğrusu ölünün üstündəki şiş ucları havaya dikəldilmişdir. Bu cür vəziyyət qonşu Nüydi abidəsində əksinə müşahidə edilmişdir. Oradakı 40 saylı torpaq qəbirdə ölünün üzü qarşısında nizələrin saplağı səmaya, iti ucları torpağa sancılmış vəziyyətdə tapılmışdır. Artıq 2 metr yer səthindən dərinlikdə (30 sm əkin və ya üstdə bitki yetişən qatdır) olan qəbir avadanlığı tam aydınlığı ilə görünürdü. Qəbir çalasının kənar xətləri çox aydın görünür və onun ölçüsü 3,5x1,42 metrdir. Hələ skeletin üstü açılmamışdan bir qoyun və ya keçi, bir quzu cəmdəyinin qalığı aşkarlandı. Sonradan qəbir

döşəməsində ayaq tərəfə yaxın həmin xırda buynuz heyvan sümükləri, altda daha bir qaramal (inək, yaxud öküz) sümükləri aşkar edildi. Dördkünc şəkildə olan bu qəbir abidəsi demək olar ki, 1 saylı qəbirin tam perpendikulyar istiqaməti üzrədir. Qəbir cənub-şimal üzrə olmaqla skeletin başı cənuba, sağ böyrü üstündə sıx bükülü vəziyyətdə, üzü gündoğana baxar vəziyyətdə dəfn edilmişdir. Skelet həddən artıq çürümüş, kəllə sümüyü parçalanmış vəziyyətdə idi. Ölü qəbrin bir küncünə söykənərkən kiçik yer tutmuş, əsas yerə isə avadanlıq, heyvan cəmdəyi doldurulmuşdur. Heyvan cəmdəkləri ayaq tərəfə yerləşdirilmişdir. Heyvan cəmdəklərinin iki tərəfindən iri daş qoyulub kip qalması təmin edilmişdir. Heyvan sümüklərindən skeletin aşağı tərəfinə qoyulmuşdur. Ölünün ətrafı çoxlu saxsı qab, nizə, bəzək şeyləri ilə əhatələnmişdir. Saxsı qablar kəllədən ayaqları altına qədər önündə qövs şəkilində düzülmüşdür (tablo 72).

Nizələr mərhumun kəlləsi və arxasında 6-7 ədəd qoyulmuşdur. Üst-üstə ağızları cənuba doğru yönəldilmiş bu nizə ucları həddən artıq çürümüşdür. Onlara toxunanda ovulub tökülürdü. Odur ki, onları götürmək mümkün olmadı. İri nizə uclarından ibarət olan bu silah növlərinin yaxşı qalmış eyni nümunələrindən götürülmüşdür. Maraqlıdır, bu qadın qəbri olmasına baxmayaraq bəzək şeyləri ilə yanaşı metal tapıntılar içərisində silahlar üstünlük təşkil edir (kişi qəbirilə müqayisədə). Ümumiyyətlə kişi qəbrində elə başqa material da bir o qədər zəngin deyildir. Azərbaycanda başqa yerlərdə apardığımız arxeoloji qazıntılar zamanı da belə hallara çox təsadüf etmişik. Ona görə də belə bir qənaətə gəlməyə imkanımız vardır. Yoxsa burada açdığımız 2 əsas qəbir əsasında zənginlik, kasıblıq əlamətlərini deməyə haqqımız olmazdı. Çünki ola bilər ki, bu təsadüf halda olardı. Şübhəsiz gələcəkdə geniş tədqiqatlar bu barədə daha ətraflı biliklər əldə etməyə imkan verəcəkdir. Biz hələlik kifayət qədər təcrübəyə əsasən deyə bilərik ki, hələ antik dövrdə Azərbaycan ərazisində qadın yüksək qiymətləndirilmişdir. Əlbəttə bəzi sərkərdə və başqa ictimai şəxlər istisna olmaqla.

Bu qəbir adibəsindən çoxlu avadanlıq aşkar edildiyindən və onların çoxu sınıb, çürüyüb sıradan çıxdığından habelə çoxunun təkrar olduğundan onların hamısının götürülməsindənsə qısa təsvirini verib fotosunu götürüb yerindəcə saxlamağı, habelə yerli məktəblərdə təcrübə kimi istifadəyə verilməsi daha məqsədəuyğun hesab edilmişdir. Ona görə də istər götürülmüş və istərsə də yerində saxlanmış materialların kompleks şəklində qısa izahatla sadalanmasını lazım bilirik. Bu həm də kompleks haqqında aydın təsəvvür yaradır.

2 saylı qəbir abidəsindən yuxarıda qeyd etdiyimiz kimi çoxlu silah və saxsı qab nümunələri ilə yanaşı, 2 ədəd sikkə nümunələri (onlar ölünün üzü qarşısında olmaqla Qırlartəpə və ya Kəndyeri şəhərgahı ərazisində ilk dəfə tapılaraq bu pulların yayıldığı yerlərin coğrafiyasını da genişləndirmişdir). Dairəvi tunc baş bəzəkləri (onlar çox nazik olduğundan ovxalanıb tökülürdü), döş bəzəyi, yaxud sinəbənd (umbonaoxşar tunc bəzək əşyasıdır ki, bu da nazik tunc lövhədən olub ovxalanıb töküldü), bir qolunda tunc bilərzik vardır. O yaxşı qalmışdır. Alnı

tərəfdə bir dəmir xəncər aşkar edilmişdir. Həmin dəmir xəncərin dəstəsinin ucu halqa şəklindədir. Bunlar eramızdan əvvəllər üçün səciyyəvi olub Albaniya ərazisində geniş yayılmışdır. Bütün bunların çox çürüməsi bu qəbir abidəsinin quzeydə olması, daim nəmlik çəkməsilə əlaqədardır. Skelet özü nəm torpaqda qaldığından çox çürümüşdür. Hətta indi qısa təsvini verəcəyimiz saxsı qabların da əksəriyyəti xarab olub sıradan çıxmışdır.

Saxsı qablar skeletin ayaq tərəfindən nisbətən irilərindən başlayaraq başına doğru olan qablar isə bir qədər xırdadır. Ayaq tərəfdə iki ədəd orta həcmli, yumru gövdəsinə iki tərəfdən dik yapışdırılmış qulplu saxsı küplərin qulpları üstündə məhmizləri vardır. Qabın ağzı dairəvi, oturacağı düz, qırmızı rəngdədir. Bu küplərin ağzında qırmızı rəngli dördgül, təkqulplu dopu, bir tərəfindən basıq yerindən qulpu olan nəlbəkiyəoxşar qab və ağzı enli qalqa aşkar edilmişdir. Bunlar cəmi 5 ədəddir.

Skeletin ayaq sümükləri yanında 6-cı, qırmızı rəngdə boyanmış ağzının kənarı çiyninə yapışdırılmış bir lentvari qulpu olan boşqabvari qabın sınıqları tapılmışdır. 7-ci yenə də yanlarından iki en kəsiyi dairəvi qulpu olan nisbətən kiçik saxsı qab, 8-ci içəridən dik qulpu olan boşqab tipli çanaq, enliağız qazan formalı qırmızı rəngli saxsı qabın ağzına qoyulmuşdur (9-cu). Həmin orta həcmli saxsı qabın gövdəsində en kəsiyi lentşəkilli iki qulpu vardır. 10-cu sarı rəngli çox ovxalanmış qabın hissələrindən ibarətdir. 11-ci isə 10-cu qabın içərisinə qoyulmuş küpəcikdən ibarətdir. 12-ci yenə qırmızı rəngli bərniyə oxşar, nisbətən enliboğaz lentvari təkqulplu qabdır. 13-cü qara rəngli kobud qalqadan ibarət olub (onun) lentvari qulpu ağzının kənarı ilə çiyninə yapışdırılmışdır. 14-cü ağzı dördgül dopu, 15-ci qırmızı rəngdə kiçik vaza (qənddana oxşardır). 16-cı qırmızı rəngli, ağzı gen, oturacağı düz, qulpsuz küpədir. 17-ci qırmızı rəngli kiçik qalqa, onun əyməşəkilli qulpu çiynindən fəzaya dikəlmiş şəkildədir. 18-ci qırmızı rəngli, qalın və düz oturacaqlı cam, onun kiçik qulplu ağzının xaric kənarındadır. 19-cu yenə sarımtıl boşqabvari qabdır. Onun lentşəkilli təkqulplu çiyninə, ağzının kənarına yapışdırılmışdır. 20-ci çiynindən dik qaldırılmış qulpu olan silindrik qalqadan ibarətdir. 21-ci qara rəngli üçayaq vaza, içərisində xırdabuynuz heyvanın bel sümükləri qalmışdır. 22-ci kiçik duz qabı, 23-cü ağımtıl-boz qalqa enli boğaz, düz oturacaqlıdır. Duz qabı bunun içərisində idi. 24-cü ağzı dördgül, boz rəngli, düz oturacaqlı, lentşəkilli qulpu ağzının kənarı altı ilə çiyninə yapışdırılan dolçadır. 25-ci qulplu dərin cam (badya), 26-cı qırmızı rəngli camdır. Onun lentşəkilli ağzının kənarı ilə çiyninə birləşdirilib. Qabın çiyni üstü çəp batıq xəttlə haşiyələnib, xətlərin altında arabir üç nöqtə şəklində bəzək vurulmuşdur. 27-ci qab da eyni tipdə olub qırmızı rəngdə boyanmış, lakin naxışsızdır. 28-ci sərnic formalı qabdır, əyməşəkilli qulpu çiyni üstünə yapışdırılaraq ağzından bir qədər yuxarı dayanır. Bu qabın içərisində 29-cu hesabı ilə qeyd etdiyimiz bir duz qabı vardır. 30-cu qara rəngli düz qapaqdan ibarətdir. Qapağın üstündə ortada məhmizvari yastı tutacağı var. 31-32-ci bir qulplu dopulardan, 33-34-cü isə qırmızı rəngli, qulplu və qulpsuz

kasayaoxşar qablardan ibarətdir. 35-ci tayqulp, çəhrayı rəngli həvəng dəstəsi, 37-ci isə içərisindən həmin həvəng dəstəsi qoyulmuş, qırmızı rəngli qalın divarlı nəlbəki (kasa) formalı qab, 38-ci qırmızıya boyanmış, birqulplu, düz oturacaqlı boşqab, 39-cu sarımtıl rəngli boşqab, 40-cı qulplu boşqabdır. Qulp ağzının kənarından dik qaldırılmış şəkildədir. 41-ci gil boşqab bozumtul rəngli olub, qırağından (iki yerdən) deşiklidir. 42-ci qara təkayaq vazanın qulpları da vardır. 43-cü boz rəngli cam, 44-cü boz rəngli vaza, 45-ci içi qara, üzü qırmızı fincan, 46-cı iki qulplu qaramtıl kürə, onun da içərsində duz qabı (47) vardır. 48-ci qırmızı rəngdə boyanmış, ağzının kənarından kiçik lentvari qulpu olan boşqab, 49-cu birqulplu qara, kobud düzəldilmiş küpədən ibarətdir. 50-ci suddanbiçimli ağ rəngdə, keyfiyyətli düzəldilmiş ağzı novlu qab, 51-ci çiynində lentşəkilli qulpu olan badya, 52-ci yanlardan iki qulpu olan enliağız, qara rəngli qab, 53-cü sərnicvari, qırmızı rəngli, ağzının kənarından dik qaldırılmış qulpu olan qab, 54-cü qırmızı və qaraya çalan rəngdə küpəyə oxşar saxsı qabdır. Onun gövdəsinin ağzının kənarına doğru ikitilli, petləvari qulp yapışdırılmışdır. Həmin qabın ucları şiş olan ayağı vardır. Bu qab kəllənin arxasında düzümün axırıncısı idi. O həddən artıq ovxalanmışdır. Eynilə bu cür qab Nüydi qəbiristanlığından da tapılmışdır.

Yuxarıda bəzi tapıntıların adını çəkmədik. Onları ölçüsü ilə vermək məqsədimizi bir daha xatırlatmaq istəyirik. Çünki götürülməsi mümkün olmayan və yerindəcə fotosu aydın çıxmayan bu tapıntılar haqqında bir qədər canlı təsəvvür yaransın. Bunlardan biri skeletin kəlləsi, daha doğrusu üzü qarşısında qoyulmuş xəncərdir. Bu dəmir xəncərin dəstəsinin ucu halqalı olub uzunluğu 14 sm, tiyəsinin uzunluğu 30 sm, eni 5 sm-dən 3 sm-ə qədərdir, ucuna yaxın yerədək.

Lövhəşəkilli dairəli və bir tərəfi qabarıq olan sinəbəndin diametri 13 sm-dir. Mərkəzdə düyməvari çıxıntısı vardır. Alınlıqlar isə çox nazik, dairəvi sikkə ölçüsündə idi. Onlar həddən artıq çürümüş və ovxalanıb tökülmüşdür. Yalnız yerindəcə müşahidə edilə bildi.

Tapılmış metal pullar onların tərkibində mis qatışığı olması göy rəngdə pas atmasından da bilinir. Əsasən gümüşdən hazırlanmış yerli sikkələrin bir üzündə əlində əsa və bir əlində quş və ya heyvan əks olunmuş təsvir, digər üzündə isə sxematik insan başı həkk edilmişdir. Pulların üzərində heç bir yazı izi bilinmir. Bu pulların eradan əvvəl I əsrdə həkk olunduğunu söyləmək olar və beləliklə qəbir abidələrinin məhz bizim eradan əvvəl I əsrin sonları və bizim eranın əvvəlləri çərçivəsində qeyd etməyə əsas verir. Beləliklə qəbirlərdən əldə edilən maddi-mədəniyyət qalıqlarının da göstərilən dövrlərin məhsulu olub, onların yaşayış məskəninin mədəni təbəqələrindən tapılmış (əlbəttə üst qatlarından) materiallarla uyğun gəlməsi qədim şəhərgahın xronologiyasını dəqiqləşdirməyə kömək edəcəkdir. Buradan, yəni Qırlartəpə və ya Kəndyeri şəhərgahından bir neçə pul nümunəsinin tapılması, eləcə də onun mühüm antik dövr şəhərləri arasında, hətta yaxınlıqlarında yerləşməsi şübhəsiz dövrün iqtisadi, mədəni və siyasi həyatında başlıca yer tutduğuna əsaslı şəhadət verir. Təkcə ticarət və başqa sahələr göstərirsə,

tapılmış təkmil silahlar, özü də həddən artıq, habelə əmək alətləri, çoxçeşidli keramika məmulatı ölkənin qüdrəti haqqında sanballı məlumat verir.

Qazıntı zamanı ətraf ərazidə olan abidələr də vaxtaşırı gəzilib yoxlanılırdı. Bu zaman qazıntı apardığımız yerin yaxınlığında, elə Kəndyeri şəhərgahının şimal qurtaracağında, Pəlhadar adlı dağın üstünə yaxın yerdə şum edilərkən qədim maddi-mədəniyyət qalıqları üzə çıxmışdır. Bunlar əsasən iri təsərrüfat küplərindən ibarətdir. Küpün ağzına ilişən kotan gavahını azca sındırmışdır. Küpün ağzının kənarı düz, qalıqları diliklidir. Onun ətrafı qazılıb dərinə salındıqdan sonra 2 m-ə yaxın yerdə dibi görünmüşdür. Küp xaşal gövdəli, enli ağız, oturacağı isə bir qədər şiş formalıdır. Onun ağzının diametri 48 sm, saxsının qalınlığı 2-3 sm, oturacağının diametri 20 sm, hündürlüyü 1,74 m-dir. Küpün gövdəsinin enli hissəsindən çevrəsi 3,25 m-dir. Onun ağzı yastı daşla örtülü olduğundan içərisi boş qalmışdır. Gövdənin içəridən yarıdan yuxarı hissəsi bozumtul, aşağısı isə qara rəngdə idi. Bu küp ehtimal ki, taxıl ehtiyatı saxlamaq üçün yerə basdırılmışdır. Adətən anbar vəzifəsi daşıyan belə küplər ya evlərin zirzəmisində, ya da həyətlərdə açıq yerlərdə ağzı yastı daş və başqa materialdan olan qapaqla kip örtülərək basdırılıb saxlanır. İçərisindəki ehtiyat azuqə həm basqın, təhlükəli vaxtlarda gizli yerdə qabı düşmən əlinə keçmir, həm də yağış və başqa təsirlərdən qorunurdu. Bu küpdə bir tona yaxın azuqə saxlamaq mümkün idi. Küp çox ağır, qalın və möhkəm olmasına baxmayaraq maşınla dik qaldırılıb çıxaranda oturacağı qopub yerdə qaldı. Ona görə onu gətirmək məsləhət bilinmədi. Bundan başqa buradan nisbətən kiçik təsərrüfat küpləri də çıxmış və onlar traktorun zərbəsindən sınmışdır. Bu küplər eyni kompleksdən olan Qırlartəpədən də çoxlu miqdarda tapılmışdır. Küpün saxsının tərkibi xaricdən və içəridən qırmızı, içərisi ağ qum qarışıqlı qara rəngdədir.

Beləliklə, Ağsu ərazisindəki arxeoloji qazıntıları zamanı Azərbaycan tarixinin bir sıra qaranlıq səhifələrinə aydınlıq gətirilmiş, yazılı mənbələrdəki bəzi yanlışlıqlara düzəlişlər verilmiş, Azərbaycanın bu dövr tarixi çoxsaylı dəlil-sübutlarla zənginləşdirilmişdir.

Ağsu bölgəsinin qədim yaşayış yerləri, habelə zəngin maddi-mədəniyyət qalıqları xalqımızın keçmişinə dair qiymətli məlumat verir. Hal-hazırda Qırlartəpə qədim qala-şəhər xarabalığında və onun nekropolunda elmi-tədqiqatlar davam etdirilir. Bu abidə hansısa antik və ilk orta əsrlər dövrü iri iqtisadi və ticarət mərkəzlərindən biri olmuşdur. Çox güman ki, antik və ilk orta əsrlərdə məşhur İpək yolunun bir qolu da buradan keçmişdir. Qırlartəpə Azərbaycanın bu dövr məşhur şəhərləri Qəbələ və Şamaxını birləşdirən, daha doğrusu onların arasında əlaqələndirici əhəmiyyətə malik olmuşdur. Buradan aşkar edilən antik dövrə aid numizmatik materiallar da bunu sübut edir.

Fazil Osmanov

**Ağsu ərazisində arxeoloji tədqiqatlar**

Kompüter tərtibatı: Mehdi İsgəndərov

Çapa imzalanmışdır: 15.05.2006

Kağız formatı: 60x84 1/16

Həcmi: 10,2 ç.v.; Sifariş: 211; Sayı: 500

Kitab “ADİLOĞLU” nəşriyyatında nəşrə hazırlanmış

Ünvan: Bakı şəh., Nizami küç., 96/12

Tel: 498-68-25; Faks: 498-08-14;

Web:www.adiloglu.az; E-mail: info@adiloglu.az

“TS” mətbəəsində çap olunmuşdur

Ünvan: İ.Məmmədov küçəsi, 1059;

Tel: 418-68-25



7. Xaraba şəhərin qalıqları.



9. Şəhərin qərb ətrafında çəkilmiş xəndək .



10. Qala bürcünün qalıqları .



12. Pir Bəxtiyar türbəsi.
Cavanşir kənd qəbiristanlığı.



8. Şəhərin şimal ətrafında çəkilmiş xəndək



11. Xəzinədağ qalası. Padar gülmalı kəndi



13. 500 yaşlı palıd ağacı. Sanqalan kəndi.



4. Tunc dəbilqə tapılarkən.
lüydi, 1965-ci il.



15. Tunc dəbilqə.





19. Şirvan tipli qapaqlı gil qab.
Nüydi, 1972-ci il.



20. Lüləkli gil qab.
Nüydi, 1972-ci il.



21. Ağzı novçalı tək qulplu gil qab.
Nüydi, 1972-ci il.



22. Ağzı novçalı iki qulplu gil qab.
Nüydi, 1972-ci il.



23. Zoomorf gil qab.
Nüydi, 1972-ci il.



24. Üçayaqlı gil vaz.
Nüydi, 1975-ci il.



5. Birləşik gil qablar,
üydi, 1975-ci il.



25. Dəstəkli gil qapaq.
Nüydi, 1972-ci il.



27. Arxeoloqlar İlyas Babayev, Viktor Kvaçidze, Fazil Osmanov. Xınıslı.



28. Uşaq küp qəbri. Nüydi, 1972-ci il.



29. Gil büt.




30. Müxtəlif muncuqlar.



31. Tunc qolbaqlar.



32. Dəmir nizələr.



33. 1975-ci il Nüydi dəmir alət və silahlar.



34. 1972-ci il dəmir məmulatı



35. 1975-ci il Nüydi və Nuran abidələrindən tapılmış metal məmulatı.



36. Nüydi, 11 saylı torpaq qəbirdən gümü[s]
pul dəfinesi.



37. Uzunboylardan şimala ( soldan sağa) Niyal, Fit və Qart dağlarının görünüşü.



38. Uzunboylardan qazıntı sahəsindən bir görünüş.



39. Uzunboylar yaşayış yerində aşkar edilən dən daşları.



40. Uzunboylarda qazıntı yerinə ekskursiya (soldan 4-cü Sovet İttifaqı qəhrəmanı Bahəddin Mirzəyev).



41. 2 saylı torpaq qəbri və ərafındakı qazıntılar. Uzunboylar, 1981-ci il.



Tablo 43.



Tablo 44.



Tablo 45.



Tablo 46.





47. 5 saylı torpaq qəbr. Uzunboylar, 1982-ci il.



48. 6 saylı torpaq qəbr. Uzunboylar, 1982-ci il.



49. 5 saylı torpaq qəbrdən tapılmış gil qablar.



50. 1-3, 5 dəmir nizə qalıqları, 4 dəmir oraq, 6 dəmir dəhna, 7 dəmir ikiqulaq yaba-silah, 8 tunc əşya qalığı, 9 tunc yüyən bəzəyi, 10 dəmir halqa (yüyən hissəsi).



51. 1-13 tunc bəzəklər, 14 pasta şüşə bəzəklər, 15 tunc bilərzik qırığı.



52. 1 dəmir qılınc, 2 dəmir xəncər, 3 dəmir nizə, 4-5 dəmir silah qalığı, 6 gil vaz, 7, 9-11 müxtəlif gil qablar, 8 zoomorf gil qab.



*Qırlartəpə yaşayış yeri. 1983-cü il qazıntılarının planı və kəsiyi.*



53. Qırlartəpənin şimal-qərb hissəsində daş divar hörgüsü. 1983-cü il.



54. Qırlartəpədən aşkar olunmuş metal əşyalar və bülöv daşları. 1983-cü il.



55. Qırlartəpədən tapılmış dəmir əşyalar və gümüş cam. 1983-cü il.



56. Sümük və daş əşyalar, antropomorf gil fiqur. Qırlartəpə. 1983-cü il.



1984-cü il Qırlartəpə qazıntısının planı.



57. Akropolun şimal-şərq hissəsindən görünüş. Qırlartəpə, 1984-cü il.



58. Qırlartəpə akropolunun qərb yarısının daş divarlı tikinti qalıqları. 1984-cü il.



59. 1 gil qab qırığı, 2 qab qulpu, 3 mis bəzək, 4 sümük barmaqcıl, 5 mis pul, 6 daş dairə, 7 gil dibək dəstəsi, 8 gil qab hissəsi, 9 gil qab oturacağı, 10 gil təkər, 11 adi daş, 12-13 dən daşları. Qırlartəpə, 1984-cü il .



60. Ceyran buynuzundan alət və gil qablar. Qırlartəpə, 1984-cü il .



1985-ci il Qırlartəpə qazıntısının planı.



61. Ayna Əlizadə, Sevda Hüseynova, Fazil Osmanov. Qırlartəpə, 1985-ci İl.



62. Qazıntı sahəsi. Qırlartəpə, 1985-ci İl.



63. Fayans qab parçaları. Xaraba şəhər, 1985-ci il.



64. 1 şirsiz duzqabı, 2, 4, 6 şirsiz qab qulpları, 3, 7, 8 şirsiz qab parçaları, 5 çıraq lüləyi, 9-11 işlənmiş sümük nümunələri. Xaraba şəhər, 1985-ci il.



65. 1-13 metal əşyalar, 14-18 şüşə məmulatı hissələri. Xaraba şəhər, 1985-ci il.



66. Müxtəlif əşyalar. Qırlartəpə, 1986-cı il.



67. Qırlartəpə yaşayış yeri. 1986-cı il.



68. Qırlartəpə yaşayış yerində qazıntı proses 1987-ci il.



69. Daş əşyalar. Qırlartəpə, 1987-ci il.



70. Dəmir qırxılıq və alət. Qırlartəpə, 1987-ci il.



71. Dəmir gəm, daş və gil qablar.
Qırlartəpə, 1988-ci il.



72. 2 saylı torpaq qəbir. Qırlartəpə, 1990-cı il



1. Şeyx Dursun türbəsi. Ağsu şəhəri.



2. Şeyx Əmir Əhməd türbəsi.
Mustafalı kəndi.



3. Həzrə pirinin qalıqları.
Ərəbmehdibəy kəndi.



4. Qırmızı Günbəz .
Qaraqoyunlu kəndi.



5. Bilal Əfəndi məscidi .
Külüllü kəndi.



6. Ağ Günbəz .
Qaraqoyunlu kəndi.